
Rasim GƏNZƏLİ
QƏRİB GECƏLƏR

Redaktor:

**Mahmud Allahmanlı,**

*filologiya elmləri doktoru, professor.*

Texniki redaktor:

**Şükufə Əhmədli**

Bilgisayar yığıcısı:

**Vüsal Valehoğlu**

Rasim GƏNZƏLİ. **"Qərib gecələr".**
«Vektor» Nəşrlər evi, Bakı, 2016, 270 səh.

**©«VEKTOR» BEYNƏLXALQ ELM MƏRKƏZİ, 2016**

Rasim Gənzəli

# Qərib gecələr

povest

Kəndin üstünü duman almışdı. Dumandan yuxarıda mələklər var idi. Mələklərdən bir az qəlbidə Allah oturmuşdu və qatı dumanın arasından kəndə baxırdı. Kəndin özündə, yan-yörəsində şeytanlar dolaşırdılar. Və adamlar bu dumanın içində nə şeytanları, nə mələkləri, nə də Allahı görürdülər. Hamı başını itirmişdi elə bil. Hər kəs o yana, bu yana qaçır, itmiş başını axtarırdı.

-La ilahə illəllah...

Atamın səsi idi uzaqdan gəlirdi. Nəyəsə hirslənmişdi yenə. Hər dəfə hirslənəndə uca səslə belə deyirdi. Mən də atamın hirslənməyinə fikir verməyib, öz aləmimdə idim. Bir az üşüyürdüm. Duman sanki dağların qar soyuğunu da götürüb kəndə gətirmişdi. Xırda-xırda yerimdə qurcalanırdım. Bununla canımı isitməyə çalışırdım. Canımı isidə bilməsəm də, öz aləmimdən də geri çəkilmirdim. Öz aləmimdə bir mən var idim: sapsağlam, dipdiri, yeriyib-qaçan... Bir dünya var idi: saf, təmiz, yalansız, şeytansız... Bir də O var idi: heç kəsin görmədiyi, amma qorxduğu bir varlıq. Allah deyirdilər ona. Tanrı da deyənlər var idi. Amma mən ona heç nə demirdim. Üçümüz bir yerdə sakit-sakit, aram-aram yaşayırdıq özümüz üçün. Əslində heç özümüz üçün də yaşamırdıq. Özümüz üçün yaşasaydıq, şeytan da yanımızda olardı.

Ayaqlarımı yana çəkib, qarşımda dayandı.

-Gəl, aparım evə səni.

-Niyə ki?

-Soyuqdu.

-Mən üşümürəm.

-Yalan danışma, rəngin qaçıb.

-Evdə darıxıram.

-Xokkey başlayıb.

-Kim oynayır?

-Seseri Kanada.

-Hə, onda gedək.

Qardaşım idi. Məni kürəyinə götürüb, evə gətirdi.

May ayının ortaları olsa da, elektrik sobasının istisi adama xoş gəlirdi. Atamın səsi isə hələ də qulaqlarıma gəlib çatırdı.

-La ilahə illallah...

Yox, nəsə olmuşdu. Yoxsa, atam bu sözləri dalbadal boş-boşuna işlətməzdi. O, sözünün, kəlamının qədrini, qiymətini bilən adam idi. Bir gözüm xokkeyin yanında olsa da, fikrim atamın yanındaydı. Bir də həyətdə qurduğum o gözəl dünyanı da fikrimdə özüm ilə evə gətirmişdim. Bir sözlə, qatmaqarışıq bir aləmin içindəydim. Və o qatmaqarışıq aləmdən ayrılıb, o gözəl dünyaya dönmək üçün yenə həyətə, tənhalığa çəkilməliydim...

Bu zaman Xarlamov şaybanı kanadalıların qapısından keçirdi. Atam da hirsli-hirsli içəriyə girib, qapını arxasınca çırpdı.

-Şərəfsiz. Sən bunun bir danışığına bax.

Mən vurulan şaybanın sevincini yaşaya-yaşaya atamın üzünə baxdım.

-Nə olub, ata, nə yaman hirslənmisən?

-Sənlik deyil, sən xokkeyinə bax.

Mənə heç belə cavab verməzdi atam. Görünür ciddi bir hadisə baş vermişdi.

O gün öyrənə bilməsəm də, sabahı gün atamın hirslənməyinin səbəbini bildim. Demə, kolxozun otlaq sahəsinə girdiyi üçün bizim erkək quzunun qulağını kəsmişdi kolxozun briqadiri. Adını da qoymuşdu ki, köpdüyünə görə quzunun

qulağını kəsmişəm. Amma atam onunla razılaşmırdı. Deyirdi, mənim quzumun qulağını kəsən hələ anadan olmayıb. Axşam gətirib qulağı kəsilmiş quzunun yerinə qulaqları yerində bir quzu vermişdi briqadir. Ondan sonra sakitləşib, yerində oturmuşdu atam.

Bu hadisəni eşidəndə mən də əsəbiləşdim. Ürəyimdə kolxozu da, onu yaradanı da söyüb, yernən bir elədim.

Kənd yerinin işləridi bunların hamısı. Qoyun, quzu, bağ, bostan, su üstündə davalar... Elə bunları görə-görə gündə bir arpa boyu böyüyə-böyüyə sabahlardan sabahlara gedirdik. Mən də gedirdim. Amma ayaqlarımla yox. Ayaqlarım elə əzəldən sözümə baxmamışdı. Hirsimdən elə olurdu həftələrlə ayaqlarıma tərəf baxmırdım. Deyirdim, tək qalsın, yansın, tökülsün ayaqlarım. Məni ki, həyat yollarına daşıya bilməyəcək, nəyimə lazımdır o ayaqlar?! Hərdən qaçan, qovan uşaqları, tay-tuşlarımı görəndə, daha da acıqlanırdım ayaqlarıma. Deyirdim, qırılasınız sizi, qıralasınız ki, yerində çinarlar əkəm. O çinarlar da böyüyüb, dam boyda ola və adamları havanın istisindən, sazağından qoruya. Əlbəttə, bunları da ürəyimdə deyirdim. Mənim ən yaxın dostum idi axı ürəyim. Orada gizlənən pünhan sirlərimi ondan yaxşı bilən yox idi. Özümü etibar elədiyim yeganə sığınacaq yerim idi ürəyim. Hərdən ona çox basqı elədiyim üçün özüm-özümü qınayırdım. Bəzən də yazığım gəlirdi ürəyimə. Onu köksümdən çıxarıb qarşıma qoymaq, öpmək, oxşamaq istəyirdim. Bu yaşda əl boyda ürəyə bu qədər əzab yükləmək olmazdı axı. Axırda bir gün küsüb məndən sözümə baxmaya bilərdi. Onda tənha, lap tənha qalardım, yaşaya bilməzdim.

O saf dünyamda olanda, tez-tez Allahla da dərdləşirdim. Ucalardan endirib, qarşımda oturdur, üz-üzə, göz-gözə söhbətləşirdim onunla. Hərdən səbrim dolub-daşanda məzəmmət də eləyirdim onu.

-Niyə məni belə elədin?

Allah dinmirdi.

-Mənim nəyim əskik idi o birilərdən?

Allah yenə dinmirdi.

-Ədalətli hökmdarlığın elə budurmu?

Allah xırda-xırda qımışıb, mənə baxır, yenə nəzərlərini yerə dikirdi.

Bilmirdim bu baxışın mənasını. Yerə dikilən nəzərlərini də yozmağa çətinlik çəkirdim. Amma nə isə var idi bu aşağı dikilən nəzərlərdə. Axı bu Allah idi. O heç nəyi səbəbsiz eləməzdi. Görünür bunun da səbəbi var idi. Ancaq mən bunun səbəbini anlaya bilmirdim.

X-X-X

Göydaşlıdan on yeddi dağ aralı bu dünyanın bir kəndi də var idi. Gülzəddin adlanan bu kəndin adamlarının ürəyi də kəndin özü kimiydi: saf, böyük, məğrur və qürurlu. Kəndin aşağı başında kasıb daxmanın altında bir qəşəng qız uşağı böyüyürdü. Atası, anası, qardaşları yanında olan bu qızcığaz öz firavan uşaqlıq ömrünü yaşayırdı. Əmisi də yaxınında olurdu bu qızın, bibisi də.

-Ay qız, al bu südü, apar ver bibingilə. Dünən deyirdi ki, boğazım gəlib. De ki, südə bir az bal qatsın, içsin.

Qızcığaz bir anda anasından südü alıb, bibisigilə yollandı. Bibisi onu görəndə boğazının ağrımasını unudub, qızı bağrına basıb öpdü.

-Sənin başına dönüm, qız, bibin sənə qurban olsun. Görüm səni qızyığan gəlsin aparsın.

Qız nazlanıb, bir az yana çəkildi.

-Yox, bibi, mən ərə getmirəm. Mən oxuyacağam, diplom alacağam, həkim olacağam.

-Həkim?

-Hə, həkim. Qaqaşım davaya gedəndə onun yarasını sarıyacağam.

-Nə dava, ay qız, dəli olmusan?

-Mənim ərə getməyimə hələ çox var.

-Bilirəm, bibin sənə qurban, bu saat demirəm ki, böyüyəndə, vaxtın çatanda gəlsin qızyığan səni aparsın.

-Qızyığanın torbası var, bibi?

-Nəyi var, bilmirəm, amma adamı götürüb uzaqlara aparır.

-Hə, uzaqlara, on yeddi dağın o üzünə.

Qızcığaz xəyala dalıb, uzaqlara baxdı. Elə bil, on yeddi dağın arxasında haraların olduğunu təxmin eləmək istəyirdi.

Bibisinin bu sözləri yadından çıxmırdı qızın. Elə hey düşünür, düşünürdü. Gecələr də yuxuya bu düşüncənin aurasında gedirdi. Anasından soruşmağa isə üzü gəlmirdi. Çəkinirdi ondan. Deyirdi, birdən acığı gələr. Ancaq bir gün özünü saxlaya bilmədi. Həyətdə bol bəhrəli göycə ağacının altında utana-utana anasına sual verdi:

-Ay ana, o dağın arxasında nə var?

-Nə olacaq, bala, o dağın arxasında başqa bir kənd var.

-Bəs on yeddi dağın arxasında nə var?

-Orda da yəqin başqa bir kənd olar. Tanımadığımız, bilmədiyimiz bir kənd.

-O kəndin adamları yaxşı adamlardır, ana?

-Mən nə bilim, ay qız, elə sual verirsən ki, adamı lap çaş-baş qoyursan. Nəyinə lazımdır sənin on yeddi dağın arxası?

İstədi bibisinin sözlərini desin anasına. Amma demədi, dilinin ucundan geri qaytardı. Əvəzində başqa bir şey uydurub, dedi anasına:

-On yeddi dağın arxasında ağ atlı bir oğlan var. O oğlan yeddi başlı əjdahaları öldürər, kəndə su gətirər, kasıbların əlindən tutar.

-Sən bunları hardan bilirsən?

-Gilas nənəm deyib.

-Gilas nənən elə söz deməz. Boş-boş danışma, işini gör, indi müştərilər gəlib, göycələri aparacaqlar.

Qızcığaz utana-utana göycələri zənbilə yığmağa davam elədi. Yanaqları allanmışdı qızın. Deyəsən, yaşından yekə danışmağının təsiri yanaqlarına vurmuşdu. Amma o günnəri axşamüstü bir də dilini dinc qoymadı. Atası işdən gələndə anasından gizlin bu sualı atasına da verdi:

-Ata, bizim dağlardan on yeddi dağ aralı hansı kənd gəlir?

Atası ağzındakı loxmanı udub, maraqla qızının üzünə baxdı.

-Mən nə bilim, ay bala.

-Axı deyirlər, atalar hər şeyi bilirlər.

-Hə onu düz deyirlər.

Qızını qucaqlayıb, üzündən opdü.

-Onda mənə de, on yeddi dağın arxasında...

-On yeddi dağın arxasında sirli-sehrli bir kənd var. Kəndin qəşəng-qəşəng adamları...

-Bir də ağ atlı bir oğlu var.

-Düzdü, mənim göyçək qızım, sən onu hardan bilirsən?

Qızcığaz nazlanıb atasının sinəsinə qısıldı.

Bu nə sirr idi, bilmirdi, ancaq dağların arxasında hansı adamların yaşaması maraqlı idi onun üçün. Hərdən dağların arxasına o biri dünyanın bir parçası kimi baxırdı qızcığaz. Elə bilirdi oralara getmək, o yerlərə yetişmək mümkün deyil. Və o dağların arxasında qalan sirli aləmə vaqif olmaq üçün bir azca böyüməsini, yaşa dolmasını gözləyirdi.

X-X-X

Məhərrəmlik ayının başlanması ilə kəndin üzərinə matəm havası çökmüşdü. Evlərdən musiqi sədası kəsilmiş, televizorların, radioların üstünə qara örtük salınmışdı. Hələ bir həftə, on gündən sonra Kərbəla düzündə imam Hüseyn öz dəstəsi ilə şəhid olacaqdılar. Bir həftə, on gün sonra... Bəs indidən niyə adamlar matəm saxlayırdılar? Hələ döyüşə başlamayan, şəhid olmayan adamlara indidən matəm saxlamaq hansı məntiqə sığırdı? Hər evin pəncərəsindən eşidilən mərsiyə və ağlaşma səslərinə qulaq asa-asa bunları düşünürdüm. Və bir kəsdən bunların mənasını soruşmaq üçün məqam gözləyirdim. Əlimə əlində dəsmal, gözləri alacalanmış halda bizə gələn əmim düşdü. İçimin bütün gücünü bir yerə yığıb, ən betər dindar olan əmimin üstünə “yeridim.”

-Əqil əmi, imam Hüseyn nə vaxt şəhid olacaq?

Əmim ağlamsınıb, gözlərinin yaşını sildi.

-Hələ bir həftə, on gün var, bala.

-Bəs indidən niyə bütün kənd yasa batıb?

Əmim hirslə gözlərini mənə zillədi.

-Necə olmalıdı bəs? Bu imamdır ey, qardaş oğlu, uşaq-muşaq deyil.

-Bilirəm əmi, bilirəm imamdır, bilirəm uşaq-muşaq deyil. Ancaq...

-Nə ancaq?

-Ancaq onlar din uğrunda şəhid olublarsa, gərək bizlər onlara ehtiram bəsləyək, hörmətlərini gətirək. Yoxsa, gecə-gündüz ağlamaqla, yas saxlamaqla onların ruhlarını incitmiş olarıq.

-Deyirsən, bir zurna-balaban gətirək, toy-bayram edək, hoppanıb düşək?

-Yox, elə demirəm. Amma belə də qəbul eləmirəm. Orucluq ayıdı, məhərrəmlikdi, bunlar islamın iradə, zəfər aylarıdı. Yəni ki, bu aylarda ağlamaqla, göz yaşı tökməklə, bədənə xəsarət

yetirməklə Allah yanında savab qazanmaq olmaz. Adam nə elədiyini, niyə elədiyini biləndə adam olur.

-Ba, qardaş oğlu, heç bilmirdim, sən əməlli-başlı islamşünas alimsən ki... Bala, bu məsələlər sənlik deyil. Özündən yekə danışma. Sən köhnə bazara təzə nırx qoyacaqsan?

-Köhnə bazar, təzə nırx-mırx bilmirəm, amma, əmi, adam gərək bir az dərrakəli olsun. Məntiq axtarmadan iş görəndə adamın gözləri kor olur, dünyanı görə bilmir, görəndə də əyri görür.

Əmim daha da hikkəli baxışlarla çəlimsiz bədənimi başdan-ayağa süzdü.

-Qardaş oğlu, bu danışıqlarınla sən axırda dadaşımı işə salacaqsan. O gün də müəlliminə demisən, uruslar niyə bizim başımızın ağasıdırlar. Ağzına gələni danışırsan. Araz çayı iki qardaş arasında ayrılıq salan həsrət çayıdır, nə bilim nə. Bilirsən, belə sözlərin üstündə adamın başına nə oyun açarlar? Otuz yeddinci ildə sənin kimi gic-gic danışanları Sibirə sürgün elədilər, ya da güllələdilər.

Daha əmim bir söz demədi. Hirsli-hirsli ayağa durdu. Qapını çırpdı və çıxıb getdi. Mən də pərt oldum. Pərtliyimdən istilik basdı, yanaqlarım qıpqırmızı qızardı. Həm də, ürəyimdə acıqlandım əmimə. Niyə hamı eyni cür düşünməlidi axı? Hamı eyni cür düşünəndə rəqabət olmur, ağla qara bir-birindən seçilmir.

Əmimi nə qədər hirsləndirsəm də, mən yenə öz düşüncəmdə qalırdım. İstəyir dini məsələlər olsun, istəyir urus söhbəti, Araz məsələsi mən əmim gil düşünən kimi düşünə bilmirdim. Bu barədə mənə evdə dərs deyən İzafə müəlliməyə də demişdim. O, da sona qədər səbrlə qulaq asmışdı mənə. Axırda da pıçıltıya bənzər asta səslə “Bunlar bizlik deyil, hökümət məsələsidir” – demişdi və nəyə görəsə, möhkəm tər basmışdı onu.

Yadıma gəlir, on bir yaşım olanda atam məni müalicə üçün Bakıya aparırdı. Qatar Araz çayının kənarı ilə yeridikcə, atam elə

hey mənə “O tərəfə çox baxma” – deyir, mən yenə baxanda əsəbiləşirdi.

-Sənə dedim ki, o tərəfə baxma. Axırda soldatlar gəlib bizi aparacaqlar.

Niyə soldatlar gələcəklər, niyə bizi aparacaqlar, o tərəfə baxmağın nə suçu var ki: daha burasını atamdan soruşa bilmirdim. Qorxurdum ki, hirslənər. Amma özlüyümdə çox düşünürdüm. Deyirdim, görəsən niyə o taya baxmaq olmaz? Bir az yaşa dolanda öyrəndim bunun səbəbini. Demə, uruslarla farsların savaşından sonra bizim vətənimizi iki yerə bölmüşdülər. Yarısı o tərəfdə qalmışdı, yarısı bu tərəfdə. Daha doğrusu, çoxu o tərəfdə qalmışdı və bizləri o tayla maraqlanmağa, əlaqə saxlamağa izin vermirdilər. Niyəsini hələ bilmirdim. Bir bilən adam da tapammırdım ki, ondan soruşam.

Bakıda dörd aya yaxın qaldım xəstəxanada. Amma yatmağımın bir xeyri olmadı. Olmadı deyəndə ki, ola bilərdi. Bunun üçün uzun illərin müalicə kursları keçilməli idi. Və bu müalicələrin arasında iki-üç dəfə də ağır əməliyyat olmalıydı. O əməliyyatlardan sağ çıxsaydım, ayaqlarım üstə dayana bilərdim. Bu ağır əməliyyatlardan çıxmaq isə heç də asan məsələ deyildi. Buna görə atam dözəmmədi bunlara, bir yay səhəri məni xəstəxanadan götürüb qaçırdı. Sonra həkim evimizə məktub yolladı, dedi, uşağı gətirin, amma atam aparmadı. Üzümə deməsə də, qırımından bilirdim ki, belə ömür yaşamağımı ölməyimdən üstün tuturdu atam.

Bakıda qaldığım aylarda bir şeyi də özüm üçün kəşf elədim. Və bu kəşf mənim kövrək qəlbimi çox incitdi. Bakıda adamlarımızın çoxusu öz dilimizdə danışmırdılar. Yad olan, özgə olan rus dilində danışırdılar. Bunu da başa düşəmmirdim, anlayammırdım. Qalırdım içimdən qovrula-qovrula. Bir istədim Bakıdan qayıdanda atamdan soruşum bunun səbəbini, deyim, ata, əsgərə niyə soldat deyirik? Sonra bu sözü boğazımdan geri qaytardım. Həm də, elə bil, bunun səbəbini özüm-özlüyümdə tapdım. Rusun əsgəri olduğuna görə ona soldat deyirdik. Bəs

Bakıda bizim adamlar niyə urus dilində danışırdılar? Burasını biləmmirdim və atamdan da soruşmağa cürətim çatmırdı.

X-X-X

Qızcığaz həyətdə ağacların arasında parça-marça qırıntılarından düzəltdiyi gəlinciyini dizlərinin üstünə qoyur, sağa-sola yelləyir, “yatızdıra” bilməyəndə, nənninin üstünə qoyub, lay-lay deyə-deyə yırğalayırdı. Bu gün evlərinə çox gəlib gedənlər olmuşdu. Anasının başı gəlib gedənlərə qarışmışdı. Yoxsa, o, qızını bu qədər azad buraxmazdı. Mütləq ona bir iş tapşırar, o iş sona yetməmiş qızından əl çəkməzdi. Qızının işi xoşuna gəlməyəndə isə onu cəzalandırırdı. Ən azı qolunun, qıçının bir ətli yerindən tutub, möhkəm çimdikləyirdi. Belə olanda qız imkan tapıb, bir tənhalığa çəkilir, astaca ağlamsınıb, işinin dalısınca gedirdi. O anlarda qıza elə gəlirdi ki, atası onu anasından çox istəyir. Üzə vurmasa da, ürəyində o da anasından acığını çıxır, atasını anasından çox istədiyini özünə inandırmağa çalışırdı.

Qüdrət nənə iki gün idi xəstə yatırdı. Birdən-birə qızdırması yüksəlmiş, təzyiqi aşağı düşmüşdü. Ayaq üstə dayanmağa taqəti qalmamışdı arvadın. Qohum-əqraba qollu-budaqlı olduğundan, gəlib- gedənlərin də ardı-arası kəsilmirdi.

-Lay, lay, lay, lay. Yatsın balam, anası dursun qab-qacağı yusun. Piş, piş, piş...

“Uşağını” doğruçu yatırmışdı elə bil. Ayaqlarının ucunda ayağa qalxıb, o biri ağacın altına keçir, yalandan qab-qacağı yaxalayır, “evinin” o yan, bu yanını səliqə, səhmana salırdı.

-Ay qız, hardasan, bura gəl. Get bir kuzə sərin su gətir. Nənənin ürəyi sərin su istəyir... Qoy qonaqlar getsinlər, sənin dərsini verəcəyəm. Bu gün heç əl tutmursan mənə.

Qızcığaz tez kuzəni anasından alıb, çayın kənarında olan bulağa tərəf getdi. Ancaq fikri anasının sözlərinin yanında

qalmışdı. Doğru deyirdi anası, bu gün heç ev işlərinə kömək eləməmişdi. Bilirdi ki, anası belə şeyləri yadından çıxaran deyil. Mütləq araya salıb, qızına qulaqburması verəcək. Ona görə bu gün daha “evinə” sarı getmədi. Elə hərdən oğrun-oğrun eyvandan “evinə” tərəf boylandı, vəssalam. Bütün günü anasının kölgəsində dolandı ki, bəlkə bir az cəzası yüngül ola.

-Bacı, ay bacı, qızlar səni çağırırlar.

-Nə deyirlər, bala?

Qızcığazdan qabaq anası dilləndi.

-Deyirlər, gəlsin oynayaq.

-Get onlara de ki, bacım bir həftəliyini oynayıb. Bir həftə bayıra çıxmayacaq.

Bu da anasının verəcəyi cəzanın birinci bəndi. Allah edəydi, bu bəndlərin sayı çox uzanıb, irəli getməyəydi.

Qızcığaz bir küncə çəkilib, pərdənin arasından qızların oynadığı küçəyə baxdı. Gözünün qırağı ilə anasının üzünə baxıb, xəfifcə ah çəkdi. Amma yox, belə şeylər ananın ürəyini yumşaldıb, qızının cəzasını yüngülləşdirə bilməzdi.

Hər axşam, ya uzağı iki gündən bir Gilas nənəsigilə gedirdilər. Gedirdilər nənəsinə, Mirzə babasına, Zərri xalasına, bir də qardaşına baş çəksinlər. Axı bir qardaşı babasının yanında qalırdı. Babasının oğul övladı olmamışdı. Ona görə Namiqi lap uşaq vaxtından götürüb aparmışdılar. Kamilə dünyaya gələndən. Əvvəl o adla aparmışdılar ki, Zenfira iki uşağa baxa bilməz. Sonra isə Namiqi daha geri gətirməmişdilər. Nə Zenfira, nə də Qabil bir kəlmə dillərinə alıb, bu barədə danışmamışdılar. Elə bil, belə də olmalıymış. Zenfira uşaq dünyaya gətirəndən sonra bu oğlanı babası gəlib aparmalıymış. Ən qəribəsi də orasındaydı ki, nə ata, nə ana Namiqi öz övladları kimi görmürdülər. Kamilə isə balaca, bapbalacaydı onda. Heç nə başa düşmürdü və Namiqi qardaşı yox, dayısı kimi qəbul eləyirdi.

Hər axşam görüşləri bir başqa aləm olurdu. Allahın verdiyindən ortalığa qoyub yeyir, içir, qəşəng-qəşəng söhbətlər

eləyir, sonra da qayıdıb evlərinə gəlirdilər. Düz on radələrində. Ona görə ki, Mirzə kişi saat onda yatağına girib yatmalıydı. Bu lap cavanlıqdan vərdiş olunmuş bir adət idi və Mirzə kişi bu adətini poza bilməzdi. Saat ona bir az qalmış kişi xırda-xırda əsnəmyə başlayırdı. Və gələnlər də işlərini bilirdilər. Əl-ayaqlarını yığışdırıb, evlərinə dönürdülər. Bu evin dəyişməz və qəribə adətlərindən biri idi. Həm də, belə qəribə adətlər bununla bitmirdi. Bu evdə hər kəs, hər kəsin hörmət və ehtiramını saxlayırdı. Böyüklə kiçiyin yeri bilinirdi. Bir də orası çox maraqlıydı ki, evdəkilər bir-birinə bəd xəbərləri, xəstəlik və ölüb-itmələri çatdırmırdılar. Kənddə bir hadisə olanda, bunu hamısı bir-birindən gizlədirdilər. Elə olurdu ki, eyni hadisəni evdəkilərin hamısı ayrı-ayrılıqda bilirdilər, amma heç biri bu barədə birisinə danışmır, bir-birilərində narahatlıq yaratmaq istəmirdilər.

Bu ata ocağının yaxşı çağlarıydı hələ. Gül qönçələyəndə necə gözəl görünürsə, bu ailə də hələ indi elə görünürdü. Sabahlarda nələrin olacağını isə bütün insanlar kimi bunlar da bilmirdilər. Və elə buna görə, bu çağların uzanıb getməsini, xırda bir zamana sığmamasını istəyirdilər. Ən çox da qızcığazın anası. Kasıb bir kənd həyatı yaşamalarına üzülmürdü bu qadın. Atasının, anasının, bacılarının, övladlarının yanında olmasını böyük qənimət bilirdi özünə. Bir də həyat yoldaşının. Amma bunu düşüncəsinə gətirməynə belə utanırdı. Elə bilirdi, belə düşündüyünü atası, anası hiss edərlər. Onda gərək utandığından yanaqları allanaydı, gözləri alacalaşıb, bir məchul nöqtəyə zillənəydi ki, bəlkə özünə gələ bilsin. Lap balaca vaxtlarından belə tərbiyə görmüşdü bu qadın. Elə bacıları da. Bu evin çox evlərdən fərqlənən qapalı bir mühiti, havası var idi. Bir kimsə bu mühiti, bu havanı başqa yönə dəyişə bilməzdi. Mirzə kişi kənddə kolxoz sədri, ferma müdiri olanda da belə idi, bu gün də belə davam edirdi...

-Mənim gözəl balam, bu gün niyə bir az qəmginsən?

Babasının bu sözlərindən ürəyi qübar eləsə də, tez özünü ələ aldı.

-Yox, baba, yaxşıyam.

-Malik, igid oğlum, bəlkə sən deyəsən, bacın niyə pərişandır?

Malik də işini bilirdi. Ona görə xəfifcə anasının üzünə baxıb, özündən özü kimi  bir balaca yalan uydurmağa çalışdı:

-Bacının balası xəstələnib, ona görə.

-Balası? Ha, ha,haa, bacının balası var?

-Hə da  bə, görməmisən?

-Görərəm, inşallah, balası... Ala qızım, bu üç manatı uşağının qundağına bağla.

Kamilə utana-utana üç manatı babasından alıb, tez o biri otağa keçdi. Qardaşı da onun arxasınca gəldi. Astaca dizləri üstə oturub, bacısının ovcunda tutduğu pula baxdı.

-Bacı, bir manatını mənə verərsən?

-Üç manatdır axı, bunu necə bölüm?

-Bölmək olmaz?

-Yox, olmaz.

Malik lap xırdaca köks ötürüb, daha pulu bölmək üçün bir yol tapammadı.

-Pulu neynirsən ki, qaqaş?

-Özümə avtomat almaq istəyirdim.

-Avtomat?

-Hə də, avtomat.

-O nəyinə lazımdır ki?

-Düşmənləri öldürmək istəyirəm.

-Düşmənlər kimdi?

-Nemeslər.

-Ayrı düşmənlərimiz yoxdu?

-Var, ancaq balacayam, hələ onları tanımıram. Böyüyəndə tanıyacağam. Onları bir-bir öldürüb, tanklarını kəndimizə gətirəcəyəm.

-Tank nəyimizə lazımdır?

-Bağdan içinə üzüm yığarıq, bir az evimizə gətirərik, bir az İmran əmigilə, bir az Ocu əmigilə...

-Yaxşı, gəl gedək, ana gəlib hirslənəcək.

Malik yenə Kamilənin əlində tutduğu pula baxa-baxa adamların yığışdığı otağa keçdi.

Kamilə bir tərəfdən istəyərdi ki, pulunun bir hissəsini avtomat almaq  üçün qardaşına versin. Axı onun qardaşı idi. Həm də onu çox, lap çox istəyirdi. Bir-birlərinə o qədər isinişmişdilər ki. Kamilə üç-dörd saat qardaşını görməyəndə, özünə yer tapa bilmirdi. Bütün günləri bir yerdə keçirdi. Küçəyə çıxanda, onu bütün təhlükələrdən qorumağa çalışırdı. Bir kəsin hünəri yox idi ki, onun qardaşına barmağının ucu ilə toxuna. Ona görə Malik bacısının yanında çox cəsarətli olurdu. Heç yekə mal-heyvan gələndə də qorxub-eləmirdi. Bilirdi ki, bacısı hardan olsa, onu təhlükədən uzaqlaşdırıb, anasının yanına çatdıracaq. Amma o biri yandan da özünə yepyekə, danışan, oynayan bir gəlincik almaq istəyirdi. Bakıdan gələn qonşunun qızı özünə o gəlncikdən birini alıb gətirmişdi. Bütün qız uşaqlarının o gəlinciyə ağzı açılı qalırdı. İndi durub o pulu xırda-para eləsəydi, daha o gəlinciyi almağa pulu çatmazdı. Ancaq yenə bütün günü fikri-zikri qardaşının, bir də o avtomatın yanında qalırdı. Yaxşı ki, üç-dörd gün ötməmiş anası onu bu fikir-xəyaldan qurtara bildi.

-Bala, baban verən pulu neynəmisən?

-Heç nə, köhnə sandığımızın içində gizlətmişəm.

-Gətir, ver mənə.

-Niyə ki, ana, axı babam onu mənə verib.

-Gedirəm şəhərə. O pula sənə yaxşı bir don alacağam.

Bir istədi anasının bu təklifinə etiraz eləsin. Amma qorxdu anasından. Həm də ürəyinin bir tərəfində bu təklif xoşuna gəldi. Fikirdən, zikirdən, yuxuda Malikin avtomatını görməkdən canı qurtulardı heç olmasa.

-Dayan, gətirim. Ancaq, ana, don alanda, mənə güllü don alarsan. Bakıdan gələn qonşumuzun qızının aldığı dondan.

-Yaxşı, başına dolanım, ondan alaram.

Ana qızının, sonra da oğlunun yanaqlarından opüb, həyətin alaqapısına tərəf yeridi.

X-X-X

Yenə kənd toy havasına köklənmişdi bu gün. Hamının üz-gözündə bir təbəssümün işartısı közərirdi. Hər zaman belə idi: bir xeyir iş olanda, kənd başdan-ayağa toy-mağar havasına bürünərdi. Bu günkü toya, deyirdilər, Bakıdan oxuyanlar gətirmişdilər. Bir kişi, bir də qadın oxuyan. İkisi də tanınmış, dinləyici rəğbəti qazanan, televizorda görsənən. Buna görə bu toya maraq o biri toylardan da üstün idi. Pulu olan özünə təzə paltar almışdı. Olmayan köhnəsini yuyub təmizləmiş, üstünə ütü çəkib, abıra salmışdı. Bakıdan gələn oxuyanlara görə, hələ onu da deyirdilər ki, başqa yaxın kəndlərdən, rayon mərkəzindən də toya baxmağa gələnlər olacaqdı. Onun üçün də kolxozun sədri adamlara göstəriş vermişdi, demişdi, kəndin yolunu-rizini təmizləyin, zirti-zibili yolun kənarından yığışdırın. Camaat bunun səbəbini sədrdən xəbər alanda, sədr ağır-ağır papirosunu dodaqlarından aralayıb, “Xalxın yanında biabır olarıq axı, deyərlər, bir xırda kəndi də adam kimi saxlaya bilmirlər.”-demişdi.

Toyun səsi gələndən bütün fikrim-zikrim o toyun yanında qalmışdı. Qəribə düşüncələrə dalırdım. Xəyalımda özümü sapsağlam, yarlı-yaraşıqlı bir oğlan timsalında görür, toyun şıdırğı yerində özümü mağarın içinə yetirirdim. Adamların nəzərləri mənim üzərimdə cəmləşirdi. Ən çox da kəndin qəşəng, qızlar

bulağından yenicə su içən qızları məndən gözlərini çəkə bilmirdilər. Mən bundan qürrələnirdim. Asta, aram addımlarla yeriyib, özümə hər yandan görsənən bir yer seçirdim. Belə olanda kəndin qəşəng qızları da bir səmtə toplaşır, oğrun-oğrun mənə baxır, sonra da bir-birinə nəsə pıçıldayırdılar. Bu qızların arasında bir-iki qızın olmasını daha çox arzulayırdım. Çünki ürəyimdə sevirdim o qızları. Heç kimə deməsəm də, ürəyimdə pünhan-pünhan saxlasam da, gizlicə qəlbimin bir parçasında yer vermişdim o qızlara. Özlüyümdə rəngli nağıllar uydurur, o qızların da məni sevdiyini özümə inandırmağa çalışırdım. Kaş bu düşündüklərim rəngli yuxu, xəyal yox, bir həqiqət olaydı. Onda... Bəs o qızlardan hansına könül açıb, həyatımın xoşbəxtlik açarını etibar edərdim? Belə olanda, bir ağır sual qarşısında qalırdım. Elə bir ağır sual ki, o sualın ağırlığından əzilib yerimdə qalır, yenə həqiqətdəki mən olurdum. Həqiqətdə olan mən... Bu mən gününün çox hissəsini özünə qapılıb, tənha bir həyat yaşayırdı. Elə bir həyat ki, o həyatı çoxları yaşaya bilməzdi. O həyatı yaşamaq üçün dəmir dözümün, dəmirdən də möhkəm iradən olmalıydı. Bu dözümü, bu iradəni öz daxili aləminə təlqin eləmək üçün gərək ən azı bu dünyanı sevməyi bacaraydın. Bu dünyada pislərdən çox yaxşılıqları görməyə çalışaydın. Özünə zorla inadırmağı bacaraydın ki, insanlar da səni sevirlər, səni görürlər, sənə hörmət edirlər. Bütün bunların bapbalaca xırdalıqlarını hələ sonralar, lap sonralar biləcəkdim. Hələliksə, qəribə, çox qəribə, təkcə özümün görə bildiyim bir dünyamı yaşayırdım.

Dizimin qapağı ağrıyırdı yaman. Dünən dağda yıxılmışdım. Yıxılmışdım deyəndə ki, özüm yıxılmamışdım, qardaşımın kürəyindən yerə düşüb, dizimi əzmişdim. Qardaşım ara-sıra məni kürəyinə götürüb, kəndin dağını, daşını göstərmək üçün gəzməyə aparırdı. Ona da pis gəlirdi, pis gəlirdi ki, mənim tay-tuşlarım dağda, daşda gəzib-dolansınlar, mən isə o yerlərə həsrət qalım. Ona görə çox yorulsa da, əziyyət çəksə də, belə zülmü özünə tez-tez eləyirdi. Dünən də dağa aparmışdı məni. Avadərəni, Qapıdaşını, Kirmitdaşını, Tülküdərəsini və başqa dağ-cığırları mənə göstərib, bir az dincini almaq istəyəndə, mən kürəyindən şivişib astaca yerə düşdüm. Dizim daşa dəyib, ürəyimi göynətsə

də, özümü o yerə qoymadım. Düşündüm ki, belə əziyyətli səfərdən sonra ufuldayıb, ah-vah eləmək qardaşımın könlünü qırar. Axı o, bunu bilə-bilə eləməmişdi. O, hər zaman belə məqamlarda çalışırdı ki, mən əziyyət çəkməyim, əzilməyim. Ancaq rəngimin bir az qaçdığından hiss elədi hər şeyi.

-Nə oldu, ayağın əzildi?

-Yox, bir şey olmayıb.

-Yalan danışma, rəngin qaçdı birdən-birə.

-Elə-belə, bir azca daşa dəydi dizim.

Belə olanda, pərt olurdu qardaşım. İndi də pərt oldu. Elə pərt-pərt məni kürəyinə alıb, evimizə gətirdi.

İndi duyğularımın bir tərəfi toyun yanında olsa da, o biri tərəfi dizimin yanındaydı. Ürək kimi döyünürdü dizim. Amma bu ağrımağın bir tərəfdən də yaxşı cəhəti var idi. Ona görə ki... Bilirdim, axşam toyun şıdırğı yerində qardaşım toyu buraxıb, gəlib yanımda oturacaqdı. Toydan xoşu gəldi, gəlmədi, yalandan deyəcəkdi ki, çox zay toydu, heç oynayannarı-zaddarı da yoxdu. Bilirdim yalandan deyir. Yalandan deyir ki, mənim fikrim-xəyalım o toyun yanında qalmasın. Bir az yanımda oturandan sonra bir şeyi bəhanə eləyib, yenə durub gedirdi. Deyirdi, toya getmirəm. Amma bilirdim ki, toya gedir. Heç onu qınamağım da gəlmirdi. Gənc oğlan idi. Toyda olmaq, ən azı qəşəng qızlara özünü göstərmək istəyirdi. Mənə görə yanımı tutub oturmacaqdı ki. Heç bunu mən də istəməzdim.

Axşamın çox qəribə, nağıllara bənzər bir gözəlliyi var idi. Bir tərəfdən on dörd gecəlik ay səmadan boylanıb adamları xəyallara salır, bir tərəfdən yay gecəsinin qərib səs-küyü adamı duyğuların qoynuna atır, o biri tərəfdən də toyun sədası dağlara dəyərək, əks-səda yaradır,  adamda izahagəlməz hisslər oyadırdı...

Mən açıq eyvanımızda oturmuşdum. Əlimin altında nəsə yaza-yaza aya baxırdım. Ayla danışırdım elə bil. Sanki ay səmanın üzərində deyil, bizim həyətimizdə, ağacların üstündə dayanmışdı. Onun da duyğulandığını hiss edirdim hərdən. Elə bil,

o da canlıydı, onun da ürəyi, gözləri var idi. Və hərdən mənlə səssiz söhbətin təsirindən ayın ağladığını da görürdüm. Belə olanda aya yazığım gəlirdi və onu duyğulandırdığıma görə özümü qınayırdım.

Toy isə öz avazı ilə gedirdi. Birdən küçə qapımızın aramla aralandığını hiss elədim. Əvvəl ətim bir az ürpəşdi. Qorxan kimi oldum. Bir istədim içəri otaqda yatan atamı səsləyəm. Ancaq bunu özümə sığışdırmadım. Düşündüm ki, çağırsam və nə isə uydurub bir söz desəm, nədənsə qorxduğumu hiss edəcək. Ona görə gözümü ay işığı düşən həyətin yoluna zilləyib gözlədim.

-Rasim...

-Kimsən?

-Mənəm.

-Ramazan?..

-Təksən?

-Qalx yuxarıya.

Qonşumuzun oğlu Ramazan idi. Tez-tez yanıma gələrdi. Ordan-burdan söhbətləşib, çıxıb gedərdi. Bu dəfə də gələcəyini gözləyirdim. Amma belə tez yox. Həm də kənddə toy gedən vaxtı.

-Nə əcəb toya getməmisən?

-Getmişdim, ordan gəlirəm. Gəldim görüm kitabı oxumusansa, ver aparım.

-Hə, oxumuşam, qırmızı qələmnən işarələr qoymuşam, onları tapıb oxuyarsan.

Axırıncı sözləri çox astadan dedim. Elə dedim ki, Ramazanın özü də gücnən eşitdi.

Ramazan kitabı götürüb, qəfil gəldiyi kimi qəfil də yox olub getdi.

Onunla həmyaşıd idik. Ancaq oxumaqla heç arası yox idi. Təkcə bədii kitablarda erotik yerləri tapıb oxumağı xoşlayardı. Son zamanlar bu işi də mənim üzərimə qoymuşdu. And vermişdi

ki, oxuduğun kitablarda qəşəng yerlərin altından xətt çək, aparım evdə oxuyum. Oxuyandan sonra gəlib elə ləzzətlə o qəşəng yerlərdən danışırdı ki, ağzının suyu çənəsindən aşağı axırdı. Gəlib indi apardığı kitab isə “Yad qızı” romanıydı. O romanın yeddi-səkkiz səhifəsində “qəşəng” yerlər var idi və o yerləri işarələyib, Ramazan üçün saxlamışdım. O işarə qoyduğum yerləri özüm də bir neçə dəfə gizlincə təkrar-təkrar oxuyurdum. Və oxuduğum “qəşəng” yerlərin təsirindən özüm üçün xəyalımda maraqlı səhnələr də düzəldirdim.

Hərdən gizlincə Ramazanla siqaret də çəkirdik. Pul verirdim, Ramazan təzə çıxan siqaretlərdən alıb gətirirdi, bir gizli yer tapıb yekə kişilər kimi siqaretin tüstüsünü sinəmizə çəkirdik. Bundan olmazın zövq alırdıq. Elə bilirdik, daha kişi olmuşuq, evlənməyimizə, evə arvad gətirməyimizə az qalıb.

Bir dəfə evimizin arxa tərəfində siqaret tüstülədəndə uzaqdan atamın gəldiyini gördük. Tez siqareti söndürüb, siqaret qutusunu mənim oturduğum əlil arabasının alt tərəfində gizlətdik. Amma atam gələnə qədər tüstü dumanı çəkilib getməmişdi. Atam bizə çırpmasa da, axırıncı dəfə xəbərdarlıq eləyib, hirsli-hirsli çıxıb getdi. Mən düz üç gün atamın üzünə çıxmaqdan utandım. O, da daha üzə vurmadı.

Küçə qapısı yenə cırıltı ilə aralandı. Ancaq hənirtidən bildim ki, gələn qardaşımdır. Asta addımlarla gəlib, yandakı kətilin üstündə oturdu.

-Niyə gəldin?

-Eh, zəhləm getdi, heç yaxşı toy deyil.

-Niyə bəs, Bakıdan gələnlər yaxşı oxumurlar?

-Yox, ancaq köhnə mahnılar oxuyurlar, təzələri bilmirlər.

Bilirdim ki, yalandan deyir. Yenə həmişə olduğu kimi toyun zayını çıxarır ki, fikrim oralarda qalmasın.

-Yaxşı toy deyil, ancaq istəyirsən səni aparım.

Bunu da ürəkdən demirdi. Heç aparmaq mənim də ürəyimcə olmazdı. Mən qardaşımın kürəyində camaatın içinə gedə bilməzdim. Elə bundan necə olsa, qardaşım da utanardı.

-Yox, Rahim, sən get, mən yazı yazıram.

-Heç mən də getmirəm. Gedirəm bir az meydanda uşaqlarla oturum, gəlim.

Bilirdim ki, bunu da mənə görə deyir.

Qapıdan eşiyə çıxanda bir də qayıdıb ay işığının altında dayandı.

-Dizin daha ağrımır ki?

-Yox, ağrımır, yaxşı olub.

Amma ağrıyırdı. Hərdən zoqqultusu ürəyimə düşürdü. Axşamüstü analığım yağlı xəmir düzəldib dizimin üstünə qoyub bağlamışdı. Bu bir az ağrısını götürsə də, hərdən ağrıyıb məni incidirdi.

Ay çəkilib lap aşağılara, dağın yanına əyilmişdi. Bir azdan dağların arxasında yox olub, aylı gecənin sirli anlarına qara bir pərdə çəkəcəkdi. Ayın itib getməsini heç istəmirdim. Heç bu gecənin də bitməsi ürəyimcə deyildi. Zamanın donub uzun müddət ərzində beləcə sirli gecədə qalmasını arzulayırdım. Ancaq bu mənim arzumdan başqa bir şey ola bilməzdi. Arzuların da ki, mində biri həyata keçə, ya keçməyə. Ona görə ehtirasla bu gecənin sirli son akkordlarını gözlərimə yığmaq üçün bəbəklərimi geniş açıb səmaya doğru baxırdım.

-Ay bala, öldün axı, nə qədər beləcə oturub, aylı gecələrə baxacaqsan? Gəl aparım uzandırım yerinə.

-Yox, harda olsa, indi Rahim gələcək.

Kəndimizdə toylar çox gec qurtarırdı. Bəzən gecənin yarısına qədər çəkirdi. On yaşından yuxarı uşaqların çoxusu da toyun sonuna qədər oturub gözləyirdi. O vaxta qədər ki, bəy dama çıxıb, gəlinin başına alma vurmalıydı. Ondan sonra uşaqlar səs-küylə dağılışıb evlərinə gedirdilər.

“Vağzalı” havasının qəlbi riqqətə gətirən avazı qaranlıq gecənin bağrını yarıb, kənd boyunca yayılırdı. Bir azdan qardaşlarım qayıdıb gələcəkdilər. Rahim heç nə demədən məni kürəyinə alıb, aparıb yatağıma uzadacaqdı. Və mən bir az da qərib xəyalların nağılında gəzişib, şirin yuxuya gedəcəkdim.

X-X-X

Qüdrət nənəsinin ölümündən qırx gün ötsə də, Kamilə hələ də nənəsini unuda bilmirdi. Arvad sağ olan vaxtı Kamiləyə elə gəlirdi ki, o, Gilas nənəsini Qüdrət nənəsindən çox istəyir. Amma indi onu unuda bilməməsi fikrində düzəliş eləməyə qızı məcbur edirdi. Lap balaca vaxtlarından qollarını geniş açıb, Gilas nənəsinə “Səni bu boyda istəyirəm, nənə, dünya boyda istəyirəm” – deyirdi. Bu sözləri Qüdrət nənəsinə deməyə, nədənsə, ürəyi gəlmirdi. İndi arvad dünyadan gedəndən sonra bunun peşimançılığını çəkirdi qız. Heç kimsəyə deməsə də özlüyündə özünü qınayırdı. Bir də, elə bil, nənəsinin ruhundan utanırdı. Özünü bağışlaya bilmirdi. Bu düşüncənin işığında o, yolu qabağına qatıb, qəbiristanlığa tərəf gəlmişdi. Uzaqdan qəbirlərə baxa-baxa nənəsinin qəbrini axtarırdı. Qəbiristanlığın içərisinə daxil olmağa, nənəsinin qəbri ilə üzbəüz dayanmağa qorxurdu. Əvvəldən ürəkliliyi ilə yaşıdlarından seçilən bu qız burada, bu qəbiristanlığın içərisində də qorxulu bir şeyin olmadığını düşünürdü. Ancaq nədənsə indi tənha dayandığı səssiz ruhların qarşısında ürəyinin pünhan bir guşəsində qorxmaq duyğusu baş qaldırıb, onu içəriyə getməyə qoymurdu. Amma getməliydi. Bura qədər gəlmişdisə, nənəsi ilə görüşmədən çıxıb gedə bilməzdi. Bütün gücünü toplayıb, yan-yörəyə baxmadan təzə, hələ ot-ələf basmamış qəbirə tərəf addımladı. Düz qəbirin baş daşının yanında oturdu. “Nənə, nə olar, bağışla məni. Mən səni də çox istəyirdim. Lap elə Gilas nənəm qədər. Amma deyə bilmirdim, utanırdım səndən. Bax, indi deyirəm, səni bu boyda, dünyalar qədər çox sevirdim.”

Sonra utana-utana başını qaldırıb yana baxdı. Elə bildi kimsə onun dediklərini eşidir. Və ətrafı görüncə əti ürpəşdi. Böyük qəbiristanlığın içində yan-yana düzülmüş qəbirlərin arasında özünü bir başqa cür hiss elədi. Bəlkə heç buna qorxub-ürpənmək də demək olmazdı. Ancaq hər nə idisə, hər halda, qanı damarlarında sürətlə hərəkət eləyib, ürəyinin döyüntüsünü artırmışdı.

Birdən qəbirlərin arası ilə bir adamın ona tərəf gəldiyini görəndə həyəcanı lap yuxarı həddə çatdı. Durub arxasına baxmadan qaçmaq keçdi ürəyindən. Amma qaça bilməzdi. Həyəcandan ayaqları sözünə baxmazdı. Başdaşının arxasında gizlənmək istədi. Bu da alınmayanda, ürəyini ovcunda tutub, gələn adamın ona çatmasını gözlədi.

-Ay qız, sən burda neyniyirsən?

-Nənəmi görməyə gəlmişəm.

-Qabil müəllimin qızı deyilsən?

-Hə, onun qızıyam.

-Öləndən sonra adamı görmürlər. Görsən də, ancaq yuxuda görə bilərsən... Bəs demirsən, qəbiristanlıqda cin-şeytan olar, onlardan qorxarsan?

-Mən onlardan qorxmuram. Bir də babam deyir ki, şeytanlar qəbiristanlığa getmirlər. Onlar adamların arasında olurlar ki, onları bir-birinə vursunlar.

-Əhsən sənə. Namiq qardaşın neyniyir?

-O, mənim qardaşım deyil ki, dayımdır.

-Hə? Onda Mirzə babana salam deyərsən.

Gələn adam gəldiyi kimi də çəkilib getdi. Qız gələn adamın kimliyini heç bilmədi də. Bəs babasına ona salam göndərən adamın kim olduğunu necə deyəcəkdi?..

Zaman bu yerlərin uca dağlarından süzülüb çaylara qovuşan sular kimi axıb gedirdi. Dünən uşaq kimi gördüyünü bu gün başqa

biçimdə, başqa boyda-buxunda görürdün. Uşaqlar, elə bil, gündə bir buğda boyda deyil, iki-üç buğda boyda böyüyürdülər. Kamilə də o uşaqlardan biri kimi zamanın axar sularında üzə-üzə qızlar bulağından su içməyə gedirdi. Daha anasından gizlin həyətdə nənni düzəldib, "uşağını" yatızdırmırdı. Daha birində bir yekə, qəşəng, danışan, oynayan gəlincik görəndə həsədlə ona baxıb, onun da belə gəlinciyinin olmasını arzulamırdı. Daha uşaq kimi nağıla bənzər xəyallarla yaşamırdı. Daha özündən böyükləri bezdirib, on yeddi dağın o üzündə kimlərin yaşadığını, nələrin olduğunu soruşmurdu. Nəyi bilmirdisə, kitablardan tapıb öyrənməyə çalışırdı. Məktəbdə də pis oxumurdu heç. Siniflərində, elə paralel siniflərdə də onun kimi yaxşı oxuyan bir-iki nəfər olardı, ya olmazdı.

Malik isə yaxşı oxumurdu dərslərini. Bunun üstündə atasından, anasından çox Kamilə danlayırdı onu. Deyirdi, qaqaş, yaxşı oxumasan, böyüyəndə onun-bunun çantasını daşıyacaqsan. Bu söz də heç xoşuna gəlmirdi onun. Bacısına acıqlanırdı, deyirdi, o sözü demə mənə, ölsəm də onun-bunun yanıda özümü alçaltmaram. Belə olanda, yenə bacısı sataşırdı ona. "O qədər avtomat-avtomat oynadın ki, oxumaq da yadından çıxdı." Onda da Malik yenə dilini dinc qoymurdu: "Oğlanlar belə işlərlə məşğul olmasalar, yaxşı əsgər ola bilməzlər. Yaxşı əsgər olmayanda, düşmənlər səni əsarətdə saxlayarlar."

Bir dəfə Malikin belə danışdığını Mirzə babası da eşitmişdi. Onun belə kişi-kişi sözlərindən fərəhlənib yanına çağırmışdı, alnından öpüb, "Mənim kişi balam" demişdi və nədənsə qəhərlənib, göz yaşlarını tuta bilməmişdi.

Kənd adamlarının həyatı qarışqanın yaşam təzinə çox bənzəyirdi. Qarışqalar günün gözü açılandan qaranlıq düşənə qədər elə hey ora-bura qaçır, özü boyda, özündən yekə yükü çəkib daşıyır, yuvasını qış ruzisi ilə doldurmayana qədər rahatlıq tapa bilmirdilər. Kənd adamları da beləydilər. Xoruzun ilk banından yataqlarından qalxırdılar. Bütün günü çöldə-çəməndə tərləri canlarından qurtarana qədər çalışır, axşamın alatoranında evlərinə dönürdülər. Zenfira da bütün günü çöllərdəydi. Sovxoz

üzümçülük təsərrüfatı ilə məşğul olduğuna görə, onların işi bütün il boyu başlarından aşırdı. Bir azca qışın oğlan çağında dinclik tapıb, ev-eşiyə yığışırdılar. Onda da mal-heyvanın nazı ilə oynayır, bir az əlavə gəlir əldə eləmək üçün tövlənin yolunu su yoluna döndərirdilər. Mal-heyvan çox qəribə canlı idi. Nə qədər nazını çox tutsaydın, bərəkəti bir o qədər çox yetirirdi. Əlin hər zaman üstündə olmayanda, elə bil, heyvanlar bundan küsür, inciyir, nə qədər mən ölüm, sən öl desən də, bərəkət kisələrinin ağzını açmırdılar.

Bu gün Zenfira çöldən çox yorğun gəlmişdi evə. Həm də başı ağrıyırdı. Anasının qırımını həmişə belə görəndə Kamilə onunla çox ehtiyatla davranırdı. Bir artıq söz soruşmur, eşitdiyi sözləri də aramla çatdırırdı ona. Bilirdi ki, artıq bir söz soruşsa, ya eşitdiklərindən danışsa, anası ona acıqlanacaq. Bacardığı nə var idisə, ona uyğun axşam yeməyi hazırlamışdı. Ürəyində Allaha yalvarırdı ki, bişirdiyi yemək ya duzlu, ya şit olmasın. Belə olsaydı, anası bir qaşıq yeyib, boşqabı yana çəkəcək, acıqlı-acıqlı "Yemirəm, bir stəkan çay gətir" deyəcək, sonra başını atıb yatacaqdı. Daha qız onu oyadıb, "Çayını iç, sonra yat, ana" deyə də bilməyəcəkdi.

Hərdən belə yorğun-əzgin gəlirdi evə. Kamilə bilmirdi anasının üzümçü yoldaşları ilə sözü-sovu olur, ya briqadir onu əsəbiləşdirir, ya ayrı bir səbəbdən əsəbi gəlir evə. Ancaq indiki məqamda anasının əsəbi olmasının səbəbini bilirdi. O günləri Malikin ağzından siqaretin qoxusunu hiss eləmişdi. Və heç nə demədən oğluna yaxşı bir şillə ilişdirmişdi. O gündən hikkəsini yeyib, özünü ələ ala bilmirdi. Malik də utandığından anasının gözlərindən uzaq durmağa çalışırdı. Kamilə də bu işdə arvad-arvad danışıb, dünyalar qədər sevdiyi qardaşını danlamaqdan özünü saxlaya bilmirdi.

-Görürsən, qardaş, nə eləmisən, utandığından ananın da üzünə çıxa bilmirsən.

-Mən siqaret çəkmirəm. O günləri elə-belə uşaqlarla dadına baxırdıq.

-Dadına baxmaq siqaret çəkmək deyil?

-Yox, bacı, bir şeyin yaxşı, ya pis olmağını bilmək üçün gərək onun dadına baxasan.

-Onda bir xuliqanlıq da elə. Gör xuliqanlıq eləmək yaxşıdı, yoxsa pis.

-Onun yaxşı iş olmadığını bilirəm.

-Nəyin, siqaret çəkməyin?

-Yox, xuliqanlığın... Bacı, ata bilmir mənim bu işimi?

-Bilmir. Ata bilsə, sənin işlərin çox pis olar.

Malik çaş-baş qalmışdı. Elə bir cinayət əməlinə əl qoymasa da, bu iş ona çox ağır başa gəlmişdi. Anasının ondan qaşqabaqlı davranması, bacısının tənbehi, bir də atasının bu işi eşitmək qorxusu onun dincliyini əlindən almışdı. Bir yandan hələ bərkiməmiş duyğusu ilə düşünürdü ki, burada nə var axı, uşaqların çoxusu, hələ məndən balacalar da siqaret tüstülədir. Heç onlara gözün üstə qaşın var deyən də yoxdu. Bir yandan da qınayırdı özünü. Düşünürdü ki, atası siqareti tərgidəndən sonra onun nə qədər ziyanlı bir vərdiş olduğunu təkrar-təkrar deyə-deyə o, nə üçün siqaretin dadına baxmışdı?

İndi Malikin yeganə arzusu anası ilə barışmaq idi. İstəyirdi heç nə demədən gedib qarşısında dayansın. Anası ona nə deyir desin, lap söysün, təhqir eləsin, hələ istəsə o günkü şillədən üç-dördünü də vursun, təki barışsın onunla. Anasının qaşlı-qabaqlı gəzib-dolanmasını heç istəmirdi. Bu qaşqabağın ondan ötrü tutulduğunu düşünəndə isə lap dəli kimi olurdu. Anasının kefi yaxşı olanda deyirdi, bala, götür nağaranı bir dınqıldat. Malik də himə bənd imiş kimi nağarasını dizlərinin üstünə qoyub, döyəcləməyə başlayırdı. Eyvandan həyətə yayılan nağara səsinə qonşu uşaqları İlqarla Vəliyulla da qoşulurdular. Onlar da nağaralarını işə salırdılar. Üç həyətdən vurulan nağara səsləri çox qəribə bir səs ahəngi yaradırdı. Adamlar evlərində iş-güclərini saxlayıb, bu üç nağara səsinin sehirli aləminə düşürdülər. Bunun ətrafa xoş getdiyini biləndə, nağaraçılar bir az da cuşa gəlirdilər.

Bir-birilərini o qədər gözəl tamamlayırdılar ki... Uzaqdan gələnlər olsaydı, burada sehirli bir aləmin yaşandığını zənn edərdilər.

Bu uşaqların yəqin ki, gizlicə sevdiyi qızlar da var idi. Və çox güman ki, o qızların eşqi ilə bütün sevgilərini nağaranın üzərinə yağdırırdılar. Bəsirət gözü ilə baxa bilsəydin, o döyülən nağaranın qızarmış üzündə o qızların da adı yazılmış olardı. Belə şövq ilə döyəclənən nağara sevgi seli ilə yuyunmasaydı, bəlkə də, belə ecazkar səslər çıxara bilməzdi. Və bütün bunlardan Zenfira ana dəruni ləzzət və zövq alırdı. Hələ nağaraların qulağa xoşluq gətirən avazından sonra Zenfira ana özünü saxlaya bilməyib astaca bir muğam parçası, ya bir xalq mahnısı da oxuyurdu. Bu oxumadan Malik doyumsuz ləzzət alırdı. Anasından yenə, yenə oxumasını istəyəndə, “Ay bala, əl çək məndən, işim tökülüb qalıb”- deyir, yenə bir ağız ifa edəndən sonra işinin dalısınca gedirdi.

Ailənin çətin günləri, kasıbçılıq çağları artıq arxada qalmışdı. İndi Qabil müəllimin müəllimlikdən gətirdiyi qazanc, sovxozdan verilən əməkhaqqı və mükafatlar bu ailənin büdcəsinə yetərincə bəs edirdi. Həyətdən yığılan mer-meyvənin qazancı da ailə büdcəsinin ehtiyat fonduna gedirdi.

Malik ayaqlarının ucunda içəriyə gəlib, yuxuya getmiş anasının qarşısında dayandı. Səssiz-səmirsiz bir neçə dəqiqə anasına baxdı. Bu anlarda, nədənsə, Malikə elə gəldi ki, bütün dünyada onun anası qədər gözəl qadın ola bilməz. Elə bu hisslərin təsirində əyilib astaca anasının yanağından öpdü.

-Ana...

Ana oyanıb elə yuxulu-yuxulu: “Ay can” - dedi. Və qarşısında Maliki görüb, tez özünü yığışdırdı.

-Ana, o can sözündən ötrü elə darıxmışam ki. Sən Allah, barış mənnən. Bir də elə qələt eləmərəm.

Ana ürəyinə daş bağlamaq istəsə də, bu dəfə alınmadı. Oğlunu qucaqlayıb, bağrına basdı.

-Can, bala... Vallah mən sənin üşün deyirəm. Sənin həyatın hələ qabaqdadır. Sən yaşamalısan, bizi yaşatmalısan. Niyə axı ağappaq ciyərlərini xarab eləyirsən.

-Ana, dedim ki, daha belə şeylər olmayacaq. Oğlunun bir səhv işi kimi dəftərinə yaz bunu. O dəftərə daha belə səhvlər yazmayacaqsan.

Ana neçə günün həsrətini də qollarına yığıb, möhkəmcə oğlunu qucaqladı.

-Mənim ağıllı balam.

Və nədənsə ağlamsındı. Malik onun göz yaşlarını silib, yenə üz-gözündən öpdü.

Gəlib yanda dayanmış Kamilə duyğulanmış halda bu mənzərəni seyr edirdi. Anasının qardaşı ilə barışıq anını gözlərinə yığıb, bir xoş xatirə kimi gələcəyə aparmaq istəyirdi.

X-X-X

Mənim taleyimdə qara səhifələr təkcə ayaqlarımın işləməməsi ilə bitsəydi, bəlkə də, yaşam əzabım bundan bir az yüngül olardı. Doqquz yaşımda ayaqlarımın yanına yetimlik “vəsiqəsi” də əlavə olunanda, məni çətin, çox çətin bir həyatın gözlədiyini təxmin elədim.

Gözəl anam xırda bir xəstəlikdən, həkimlərin yanlış diaqnoz qoymasından dünyasını dəyişdi. Öz ayaqlarıma görə, onsuz da ürəyimdə həkimləri qınayırdım. İndi isə bu qınamaq nifrət etməyə bənzər bir hissə çevrilmişdi. Ağ xalatlı həkim görəndə onları xilaskar kimi qəbul eləmirdim. Elə bilirdim ki, dünyada bütün şikəst uşaqlar, yetim balalar bunların ucbatından bu adları daşıyırlar. Şikəst və yetim... Bu azca yaşımda hər iki qorxulu, qandonduran “titulları” Tanrı göydən mənə göndərmişdi. Ayrı-ayrılıqda biri çəkiləsi dərd olmasa da, mən ikisini birdən çəkirdim. Bu zamanlar çox çətin, heç kəsə izah edə bilməyəcəyim bir duyğular dənizində

boğulurdum. Nəfəsim darıxırdı, elə bil, havam çatmırdı. Bir həmdərd də tapammırdım ki, dərdimi ona deyim. Bir də dedim axı, bu dərdi izah etməyə adam tapmaq asan deyildi. Bunun üçün o adam mənim yaşadığım taleyi yaşamalıydı. Və mən belə bir taleyi heç bir Tanrı övladına arzu eləmirdim.

Hərdən dərdi sinədən bir daş kimi götürüb kənara atmaq istəyəndə və ata bilməyəndə, qeyr-ixtiyari anamı da qınayırdım. Böyüdülüb divardan asılmış şəklinə baxa-baxa heç kəsin eşitməyəcəyi bir səslə “Niyə məni doğurdun axı, əgər mənə analıq eləməyə gücün çatmayacaqdısa, niyə gətirib məni bu yer üzünə atırdın?”- deyirdim. Çox sözlər pıçıldayırdım ona. Və onun axan göz yaşlarını görəndə yığışdırırdım özümü. Sonra da yazığım gəlirdi ona. İstəyirdim ayağa qalxım, onun şəklinə tərəf gəlim, göz yaşlarını öz əllərimlə silim. Ancaq buna da gücüm çatmayanda, özüm də qarışırdım anama, içimdə için-için ağlayırdım.

Elə bu həyatımın ən ağır zamanlarında öz saf, Tanrılı, mələkli dünyamı qurdum. Yaşatsaydı məni o dünya yaşada bilərdi. Bu dünyamı yaratmaqla, həm də, Tanrımı bağışladım, ona qucaq açdım. Və Tanrı da mənə qucaq açdı. Onunla bütövləşib, bir yerdə sabahlara getməyə qərar verdik.

Amma çətin idi, çox çətin. Sağlam bir uşağın erkən çağında yetim qalması özü bir faciə idi. O da ola ayaqları ağır xəstəliyə əsir olan bir uşaq. İşıqlı sabahlar gözümdə bir qaranlıq vadiyə dönürdü. Hər günün öz ağrısı, öz əzabı bir ağır daş kimi kürəyimdən basıb məni əzirdi. Belə bir ağır zamanda atam yeni ailə həyatı qurub, Fəridə adında qadını evimizə gətirdi. Bu da bir dərd. Ögey ananın tənəsi altında ömür sürmək başqa bir faciənin başlanğıcıydı. Mən belə düşünürdüm. Elə ətrafda olanlar da mənim düşündüyüm kimi düşünürdülər. Saf dünyamda olan mələklər və onların başı üstündə dayanan Tanrım isə başqa sözlər deyirdilər mənə. Bu başqa sözlərin necə bir həqiqətə söykəndiyini hələ sonralar biləcəkdim. Hələliksə... O gələn qadın arxamızca sürünür, yandıran günəşin istisindən, soyuğun sazağından qorumaq istəyirdi bizi. Biz isə qaçırdıq ondan. Ona

əzab vermək üçün nə bacarırdıqsa, onu edirdik. O, isə bundan sınmır, usanmır, bizi öz məhəbbətinə ram eləmək üçün hər əzaba dözürdü.

-Bala, bu qadın bütün təhlükələrdən sizi qorumaq üçün gəlib bizim evimizə.

Bunu atam deyirdi mənə. Mən isə inanmırdım ona. Bir əzazil ögey ana simasında görürdüm onu.

Tez-tez ağladığını da görürdüm o, qadının. Onu belə ağlayan görəndə, ürəyimin lap görünməyən yerində sıxılırdım, yumşalırdım və az qala qollarımı geniş açıb onu sinəmə sıxmaq, qəbul eləmək istəyirdim. Və bu istək mənim düşüncəmin dərin qatlarından gəlirdi. Axı nənəmin, xalamın, qonşu arvadlarının deməyi ilə deyildi, bu qadın mələk simalı bir qadın idi və atamın dediyi kimi, doğrudan da, ömrünü bizə həsr eləməyə gəlmişdi. Başqası olsaydı, heç dözməzdi bu tənələrə. Başını götürüb gedərdi buralardan, bir də baxmazdı bu yerlərə tərəf. İki dağın o üzündən gələn qadın isə dözürdü hər şeyə. Və çox keçmədən anamızın yerinə gələn bu qadını həqiqi ana bildik özümüzə. Çünki o, ana adı daşımağa həqiqətən də layiq olan bir qadın idi. Hər doğan, bu dünyaya bala gətirən ana adı daşımağa layiq olmur axı. Əsas bala kimi baxdığın övlada analıq etməyi bacarmaqdır. Bunu da bu qadın çox gözəl bacarırdı. Bu bacarığı o, özünə zornan yaraşdırmırdı. Fitrətən Tanrı ona bu bacarığı, həm də müqəddəs bir işi icra eləməyi qanına yeritmişdi.

Yox, bu qadın bu dünyanın adamı deyildi. Hardansa yad, uzaq, hələ kəşf olunmayan bir planetdən gəlmişdi. Gəlmişdi ki, biz yetimlərin üstündə bir çətir kimi dayansın. Ən çox da mənə görə gəlmişdi bu qadın. Məni yaşatmaq üçün gəlmişdi. Bəlkə elə buna görəydi Tanrım tez-tez üzümə gülümsəyirdi. Mələklər də yan-yörəmdə gəzib-dolaşır, mənə dözümlü olmağın yollarını öyrədirdilər.

Yay aylarında çox qələbəlik olurdu evimiz. Bakıda oxuyan, işləyən qardaşlarım da kəndə gələndə dünyamız təzələnirdi elə bil. Səhər tezdən, hələ günəş dağların arxasından kəndə

boylanmamış atam yatağından qalxıb həyət-bacaya əl gəzdirirdi. Analığım küçənin ağzından beş-on metr o tərəf qədər süpürüb, tərtəmiz eləyirdi. Belə günlərdə, sanki, ağaclar da adamın üzünə gülümsəyirdi. Hələ qatar rayon stansiyasından çox-çox uzaqlarda olanda biz bəzənib-düzənər, yolun kənarında daşların üstündə oturub, qardaşlarımı gözləyərdik.

Fəridə xanımın evimizə yeni gəldiyi vaxtlarda qardaşlarım kəndə könüllü gəlmirdilər. Analarının yerində başqa bir qadının gəzib-dolandığını qəbul eləmək onlar üçün asan başa gəlmirdi. Bunun üçün ürəklərinə yekə bir daş bağlayıb, kəndə gəlirdilər. Bu daşın ağırlığından sıxılıb təngənəfəs olsalar da, kəndə gəlməməyi də könüllərinə sığışdıra bilmirdilər. Kənddə dörd qardaşları, bir bacıları var idi axı. Bu qardaşlardan da birinin şikəst olması onları kəndə gəlməyə məcbur edirdi. Ürəkləri istəməsə belə.

O zamanlar ən çox Fəridə xanımı qəbul eləməyən Valeh qardaşım idi. O, başını qaldırıb bir dəfə də bu qadının üzünə baxmırdı. Bişirdiklərini yemir, yuduğu paltarları geyinmirdi. Gəldiyi kimi də on beş-iyirmi günü yola verib, sonra geriyə qayıdırdı. Bu qadının mehri-məhəbbəti bu daş qəlbli qardaşımı da dəyişib başqa adam elədi. Beş-on ildən sonra üzə vurmasa da, bəlkə də, ürəyində Fəridə xanımı qardaşlarım arasında ən çox istəyən elə Valehin özü idi.

Müzəffər böyük qardaşım olduğundan, onun kəndə gəlişi daha çox toy-bayram olurdu. Atam da onu hamımızdan daha çox istəyirdi. Bunu dilinə gətirməsə də, üzə vurmasa da, diqqətli adam bunu anındaca hiss eləyirdi. Bu oğlunun ali məktəbdə oxumasına, sonra elə həmin ali məktəbdə işləməsinə xüsusi önəm verir, biri Müzəffər haqqında xoş sözlər deyəndə, bu sözlərdən doyumsuz ləzzət alırdı. Belə anlarda üzünün ifadəsi də dəyişirdi atamın. Qardaşlarımın o biriləri də ali təhsil almışdılar. Ancaq Valehin, Cəmilin, Oqtayın hər bir uğuru Müzəffərin uğuru qarşısında, bir az da olsa, kölgədə qalırdı. Bəlkə də bu istəyi yaradan təkcə Müzəffərin ilkin övlad olması deyildi. Onda olan istilik, özünü yaşlı adamlar kimi dərrakəli aparması, düzgün qərar qəbul etmək

bacarığı və hər kəsin yerini bilməsi atamın gözündə onu ucaldıb, göylərdən göylərə qaldırırdı.

Qatar rayon stansiyasında fit verib dayananda, artıq bizim evdə hazırlıq işləri başa çatardı. Əmilərim, dayılarım, xalam evimizin, bağçamızın bir küncündə gəzib-dolanar, tez-tez sağa fırlanan saatın əqrəblərinə baxaraq, neçə aylıq intizarın sona yetməsini gözləyərdilər.

-Rahim, odunları gətir, əmicanın samovarı salsın... Vasif, Fizzə əciyə denə, bir vedrə yaxşı meyvə yığsın... Tamella, uşaqları qoyma həyətə zibil atsınlar...

Atam bircə-bircə hər kəsə tapşırıqlarını verirdi. Və qardaşlarımı gətirən maşın qapının ağzında dayanırdı. O anlar bizim ailəmizin həyatında ən yaddaqalan xatirə kimi yaddaşımızın pozulmayan bir küncünə yazılırdı.

Hamı bircə-bircə salamlayırdı Bakıdan gələnləri. Öpüb sinələrinə basır, gələnlərə xoş sözlər deməyə xəsislik eləmirdilər. Fəridə xanım da öpürdü qardaşlarımı. Sonra da utana-utana geri çəkilir, gəldiyi kimi də birdən yox olub, işinin dalısınca gedirdi.

Belə gəlişli-gedişli yay aylarının qəribə, insanı sehrə salan çağları elə xoş keçirdi ki, isti yay aylarının necə ötüb keçdiyini belə hiss eləmirdik. Və bir də baxıb görürdük ki, artıq dağların başı üstündə seyrək buludlar dolaşır. Bilirdik ki, yay öz sirli ömrünün sonuna doğru gedir. Belə olanda, mən elə qəribə, sıxıcı, darıxdırıcı hisslərin qoynuna düşürdüm ki. Elə bilirdim daha bir də yay olmayacaq, belə xoş duyğulu çağlar təkrar olunmayacaq.

Ağlamaq istəyirdim belə vaxtlarımda. Amma ağlaya bilmirdim. Bir az da utanırdım ağlamaqdan. Elə bilirdim ağladığımı görənlər məni acizlikdə, səbirsizlikdə qınayacaqlar. Kişilərin ağlamasını qəbul eləmirdim lap balaca vaxtlarımdan. Düşünürdüm kişi ağlayanda onun kişi vüqarına bir qalın kölgə düşür. Onu da anlayırdım ki, insan ağlamasa, ürəyi daşa dönər, qəlbindəki mərhəmət hissi əriyib yox olar. Ona görə kişilərin gizlində, ürəklərinin içində ağlamasını daha məqbul sayırdım.

Yenə aylar dolanıb gəlirdi. Yenə yay olurdu. Yenə səs-küydən, xoş gülüş sədalarından insanın ruhu təzələnirdi. Gecələr ay batıb gedənə qədər yatmırdıq. Eyvanımızda, bağçamızda danışıb-gülür, gecənin bitməməsini, səhərin gec açılmasını arzulayırdıq. Belə vaxtlarda qonşumuz Baxşı əmi öz yay çardağında səs-küydən yata bilimir, bizə bir kəlmə söz demədən, yorğan-döşəyini götürüb həyətin o biri başına köçürdü.

Atam ara-sıra yatağından qalxıb bayıra çıxırdı.

-Siz hələ yatmamısız?

-Yox hələ.

-Bilirsiz saat neçədi?

-Neçədi ki?

-Dördün yarısı. Durun girin yerinizə. Qonşuları da bezdirdiniz.

Axır ki, atamızın bir az sərtləşdiyini görəndə, gedib yerimizə girirdik. Bir az da yerimizin içində danışandan sonra yuxuya gedirdik. Çox qəribəydi ki, səhərlər də yatıb günəşin bizə gülməsinə imkan vermirdik. Günəş çıxmamış qalxıb kolxozun bizə dirlik yeri kimi verdiyi bağımıza gedirdik.

Qəmbər əminin ərikliyi adlanan bu bağ, elə bil, cənnətin ayrılmış bir parçası idi. Səhər-səhər bu yerlərdə elə bir gözəllik olurdu ki, adam doyumsuzcasına bu gözəlliyi bəbəklərinə yığmaq istəyirdi. Günəş aram-aram dağların üstündən sürünüb kəndin içərilərinə doğru yeridikcə, bu gözəlliyə başqa bir rəng qatılırdı. Mən quzuların yanında oturub onların yoncaya girməmələrinə nəzarət eləyirdim. O biri qardaşlarım hərəsi bir işin qulpundan tuturdu. Belə bağ-bağat işlərində Rahim daha qoçaq idi. Vasif isə çox ərdəmsiz iş görürdü. Gərək bir işi görməyə onu məcbur eləyəydin. Yoxsa, öz könlü ilə bir iş görmək həvəsində deyildi. Əvvəllər Oqtay da çox qoçaq tərpənərdi belə işlərdə. Bakıya gedəndən sonra daha özünü şəhərli balası kimi aparırdı. Orağa, kətmənə çox da könüllü yaxın durmurdu.

Bakıya gedənə qədər mənim əzabımın çox hissəsini də elə Oqtay çəkmişdi. Lazım olan yerlərə aparıb-gətirir, hələ lazım

olmayan yerlərə də aparmağı atam ondan tələb edirdi. Belə vaxtlarda nə qədər yorulsa da, bunu mənim üzümə vurmurdu. Bir tərəfdən atamdan qorxurdu, qorxurdu ki, mənə əyri-üyrü baxdığını atama deyərəm. O biri yandan da, adamın Allahı var, məni çox istəyirdi.

Bir günnəri...

Ağyurd kəndinin oğlan uşaqlar kəndimizdəki hamama çimməyə gəlmişdilər. Onlar bizim küçədən keçib gedəndə, Oqtayla onların arasında dava düşdü. Oqtay Ağyurdun oğlanlarına daş atanda, daş düz gəlib mənim başıma dəydi. Başım bir anda parçalandı, qan məni götürdü. Özünü itirən Oqtay nə edəcəyini bilmirdi. Tərslikdən bazar günü olduğundan atam da işə getməmişdi, evdəydi. Səs-küyə çıxan atam məni qan içində görəndə və bu “qəhrəmanlığı” Oqtayın elədiyini biləndə, onu qovub düz kənd qəbiristanlığının içində yaxaladı. Baxşı əmi özünü yetirməsəydi, bəlkə də, Oqtayın öz məzarı da elə burada qazılacaqdı.

Atam övladlarını döyməzdi. Döyəndə də yaxşıca döyərdi. Bu cəhətə görə Oqtay birinciliyi öz əlində saxlayırdı. Bir işi yarıtmayanda, ya inəyi ac-susuz saxlayanda, kolxozun bostanından bir şey oğurlayanda, atam döyürdü onu.

Məni isə heç döymürdü. Hərdənbir səsini ucaldıb qışqırırdı, vəssalam. Övladları arasında Müzəffərdən sonra, bəlkə də ən çox məni sevirdi. Müzəfləri niyə sevdiyini başa düşürdüm. Məni isə o biri övladlarından niyə çox istədiyini anlamırdım. O zamanlar anlamırdım. Sonralar isə anladım bunun səbəbini. Demə, ata-analar hansısa bir natamamlığı olan övladlarını daha çox istəyərlərmiş. Bunun hansı səbəbdən qaynaqlandığını isə bilmək çox çətin idi. Ya o övladın dünyaya natamam gəlməyində özlərini günahkar hesab elədiklərinə görə, ya da övladın sınıqlığından sıxıldıqları səbəbindən belə eləyirdilər. Əslində isə Karma düşüncəsi ilə düşünməyəndə, bir övladın natamamlığı üçün ata-ananı günahkar bilmək heç də caiz deyildi. Ağzıgöyçəklər çox şeylər danışa bilərdilər. Deyə bilərdilər ki, atanın, ya ananın hansısa günahıdır ki, Tanrı görk şəklində qarşısına qoyur. Ya da

həmin adamın öz günahları idi ki, bunun əzabını ömrü boyu çəkməliydi. Bu məntiq çox məntiqsiz görünürdü adama. Əgər bir uşaq gözünü bu dünyaya açandan çarpayıya məhkum olunurdusa, bəs o uşaq bu günahları nə vaxt və necə qazanırdı? Bunların hamısı Tanrının mizan-tərəzisi ilə tənzim olunan işlər idi və bu işlərdən insanın apaydın baş çıxarması adamdan çox böyük düşüncə və məntiqə söykənmə gücü tələb edirdi.

Bu işlər barəsində mən özüm də Tanrımla çox söhbətlər eləyirdim. Tanrım mənə həzin-həzin hər şeyin həqiqətini söyləyirdi. Mən çox şeylərdən xəbərdar olurdum. Amma Tanrıdan eşitdiklərimi bir kimsəyə demirdim. Deyə bilmirdim. Desəydim nə faydası olacaqdı ki? Onsuz da adamlar bunları mənim özümün uydurmam sanacaqdılar. Buna görə Tanrım mənə bir dünya dözüm və səbir diləyib, sakitcə yaşamağımı tövsiyyə edirdi. Bir yanımda da mələklər dolanıb, çətin dünyanın ağır işlərindən qoruyurdular məni.

Rahim əsgərliyə gedəndən sonra çətinliyimin çoxusu Vasifin üzərində qaldı. Gücü çatmasa da məni kürəyinə götürür, soyuqdan istiyə, istidən də sərin yerlərə aparırdı. Və bu xidmətdən çox böyük zövq alırdı. Mən bunu onun gözlərinin ifadəsindən duyurdum. Həm də bir böyük qardaş kimi çəkinirdi məndən. Bütün tapşırıqlarımı canla-başla yerinə yetirirdi. Demişdim axı, Vasif Rahim qədər işgüzar və tədbirli deyildi. Tənbəlliyi və astagəlliyi var idi. Amma mən onu əziyyət çəkmədən quzuları otarmağa, kolxozun otlaq sahəsindən ot oğurlamağa göndərə bilirdim.

Dərslərini hazırlamaqda isə heç tənbəllik eləmirdi. Elə Rahim qədər dərslərinin üzərində çalışırdı. Heç bir dərsini axşamın qaranlığına saxlamırdı. Şənbə günlərinin isə onun üçün başqa bir önəmi vardı. Sabah dərs olmadığına görə bu gündən sabahın işlər cədvəlini tuturdu. Bu cədvəldə ən çox oyunlar oynamaq, uşaqlarla dağda-daşda gəzib-dolanmaq yer alırdı. Əlbəttə, mən və atam o cədvəldə yazılanları pozmasaydıq. Amma çox zaman pozulurdu o cədvəl. Üzə vurmasa da, içərisindən pərt olduğunu, narazı qaldığını duyurduq.

Bir də göyün üzünə qara buludlar gələndə narahatlıq hissləri keçirdiyini bilirdim. Düzü, mən də qara buludlardan, ildırım çaxmasından, dolu yağmasından, sel gəlməsindən qorxurdum. Bir tərəfdən çaya, bir tərəfdən də yolumuza qapqara vahiməli sellər gələndə, çox qorxulu bir mənzərə yaranırdı. Hara qaçacağımızı, necə seldən xilas olacağımızı bilmirdik... Vasif isə bizim qorxduğumuzdan da çox qorxurdu belə havalardan. Gecələr gizlincə yatağından qalxır, pəncərəni astaca aralayıb göyün üzünə baxırdı. Əgər göyün üzündə şimşəklərin oynadığını görsəydi, o gecəni səhərə qədər yerinin içində qıvrıla-qıvrıla qalacaqdı. Açıq hava görəndə isə, tez yerinə girib yorğanı başına çəkir, elə o andaca şirin-şirin yuxuya gedirdi.

Mənim daxilimdə olan hava durumumdan isə çoxları baş açа bilmirdilər. Hələ lap balaca vaxtlarımdan dostumla düşmənimi tanıyırdım. Elə bil, fitrətən Tanrı bu görməni mənə qismət eləmişdi. Təkcə öz dostumla düşmənimi deyil, millətimin, xalqımın da düşmənlərinin hansı xalqlar olduğunu deyirdim. Ətrafım isə bu dediklərimi qeyri-ciddi, boşboğazlıq kimi qəbul eləyirdilər.

-Ata, deyirsiniz yəni ermənilər bizim qardaşlarımızdı?

-Hə də, bala, bir dövlətin bayrağı altında yaşayırıq.

-Bəs keçmişdə olanlar?

-Hə, keçmişdə çox şeylər olub. Yaşlı adamlar danışırlar ki, erməni-türk davasında ermənilər çox böyük vəhşiliklər eləyiblər. Hamilə qadınların süngü ilə qarnını cırıb, uşaqlarını öldürürdülər. Adamların belinə qaynar samovar bağlayırdılar. Evləri, məscidləri yandırırdılar. Elə mənim əmimi də ermənilər öldürmüşdülər. Allah osmanlıların köməyi olsun, onlar fəryadımıza gəlməsəydilər, güzarımız çox ağır olacaqdı.

-Onda niyə qardaş deyirik, belə qardaşlıq olar?

Atam daha ayrı söz demirdi. Ya araya bir söz qatır, ya da aralanıb gedirdi. Bu isə məni bir az da qıcıqlandırırdı. Axı sən bilə-bilə ki, erməni sənə düşmənçilik edib və o düşmənçiliyini bu gün də edir, bunu niyə dilinə gətirməkdən qorxursan? Hər önümə

keçəndən bunun niyə belə olduğunu soruşurdum. Heç kim də mənə bir düz-əməlli cavab vermirdi. Bunun səbəbini də sonralar anladım. Deme, bu dövlətdə həqiqəti dilə gətirməkdən ağır iş yox imiş. Həqiqəti deyənləri ya Sibirə sürür, ya güllələyir, ya da ən yaxşı halda dəli adı qoyub, çölü-biyabana ötürürdülər. Ona görə bir kimsə qorxusundan həqiqəti danışmırdı. Cəzanın ağırlığından adamlar türk radiosuna da qulaq asmırdılar. Qulaq asanda da gizlin bir yerə çəkilir, beş-on dəqiqə qulaq asıb, tezcə də söndürürdülər. Ki, birdən keqebeyə, ya polisə işverənlik eləyən birisi eşidib xəbər verər.

-Əlyar müəllim, türklər kimdi?

-Türklər bizik.

-Biz?

-Hə, hamımız türkük.

-Bəs niyə?..

-Öz adımızı deməyə bizə imkan verməyiblər. Bir neçə cəhətə görə, bəlkə də, dünyanın ən zavallı milləti bizik.

-Hansı cəhətlərə görə?

-Torpağımızı iki yerə bölüblər.

-Kim bölüb?

-Ruslarla farslar.

-Aha...

-Əlifbamızı bir neçə dəfə dəyişiblər. Belə ediblər ki, biz keçmişimizi unudaq, öyrənə bilməyək.

Alim qohumumuz Əlyar müəllimdən gizlincə bəzi mətləbləri öyrənməyə çalışırdım. O, da hər şeyi deyirdi mənə. Amma yavaş deyirdi. Elə yavaşdan pıçıldayırdı ki, səsini güc-bəla eşidirdim. Deyəndə ki, niyə belə astadan danışırsan, yenə lap zəif səslə qulağıma pıçıldayırdı, deyirdi, otuz yeddinci ildə bu dövlətin satqın nökərləri atamı şərləyib Sibirə göndərdilər. Elə orada da ömrünü başa vurdu. Sonra da bizə xalq düşməninin uşaqları kimi baxdılar.

Hər yerdə axırıncı cərgələrə sıxışdırdılar. Gündə bir şər atmaqdan, təhqir eləməkdən, aşağılamaqdan çəkinmədilər. Ona görə bərkdən danışa bilmirəm. Bu dövlətdə bərkdən danışanı yaman günə qoyurlar. Dediyin başdan-ayağa haqq olsa belə... Dalınca da elə qəmli bir ah çəkirdi ki, dağların bu ahdan niyə ərimədiyinə təəccüb qalırdım.

Bütün bunları beynimdə saf-çürük edəndə, bu dövlətin başdan-ayağa yalandan yoğrulduğunu, həqiqətin və ədalətin bu yerlərdən çox-çox uzaq olduğunu düşünürdüm. Və öz bacarığım çərçivəsində düşündüklərimi qələmə almağa çalışırdım. Bu dövlət üçün abırlı olanları qəzetdə çap olunmaq üçün redaksiyaya göndərirdim. “Abırsızları” isə yığıb bir yerdə saxlayırdım.

Rayon qəzetində əməkhaqqı cədvəlinə düşməyən işə götürmüşüdülər məni. Yazıb göndərir, yazdıqlarımın müqabilində yazıhaqqı verirdilər. Bir də görürdün ki, ayın sonunda poçtalyon Hüseyn otuz-qırx manat yazıhaqqı gətirib verdi. Bu otuz-qırx manat adama elə şirin gəlirdi ki. Zəhmətin dəyərinə verilən qiymət kimi bu pulun da çox önəmli dəyəri var idi.

Bəzən özümü saxlaya bilməyib, qəliz məsələlərdən yazıb göndərirdim. Bu isə böyük söz-söhbətə səbəb olurdu. Hətta bir dəfə belə bir yazımın üstündə redaktora töhmət də vermişdilər. Mən isə yazırdım. İzn versəydilər hələ çox böyük mətləblərdən yazardım. Çünki ürəyimdə demək istədiklərim çox idi və bunları ürəyimdə saxladıqca, elə bil, yekə bir daş asılırdı ürəyimdən. Həyat qəribədi axı, insan düşündüyünün heç onda birini dilinə gətirə bilmir. Gətirsə, dəli deyərlər ona. Ya da qeyri-ciddi adam kimi qəbul eləyib bir küncə sıxışdırarlar. Mən də ağlımda olanların çoxunu deyə bilmirdim. Təkcə dağlarla bölüşürdüm düşüncələrimi. Bilirdim ki, dağlar sirr saxlayandı. Bir də, dağların dağ dözümü vardı axı. Dediklərimdən əriyib, yerində kölgəsi qalmazdı.

O dağlara sevgi dünyam haqqında da danışırdım. Deyirdim, filan qızı ürəyimdə sevirəm. Və dağlar mənə bu sevgini elə ürəyimdə dəfn eləməyimi məsləhət bilirdilər. Niyəsini soruşanda, elə dağ diliynən də “Sən sevsən də, səni sevən tapılmaz”

pıçıldayırdı dağlar. Yenə nələrsə soruşmaq istəyirdim dağlardan. Amma bu anlarda dağlar məndən uzaqlaşıb, buludlara tərəf çəkilirdilər ki, daha sual verməyim. Onda özüm-özümə suallar yağdırırdım. Və bu sualların leysan yağışında islananda, özümə qayıdıb, bir başqa hisslə təskinlik verirdim özümə.

Rahim sevməyə başlamışdı. Ancaq bunu gizli saxlayırdı məndən. Bir kiçik qardaş kimi utanırdı. Həm də, məndən balaca olduğunu və məndən qabaq birini sevdiyini dilinə gətirə bilmirdi. Axı bu kənddə dədədən-babadan qalma bir adət var idi. Böyük qardaş evlənməmiş, ikinci qardaş evlənə bilməzdi.

Amma onun birini sevdiyini bilirdim. Və ürəyimin lap dərin bir yerində ona acığım da tuturdu. İstəyirdim kəndin adətini pozmasın qardaşım. O biri yandan da dağların dedikləri qulaqlarımda səslənirdi. Onda əlacım kəsiləndə yenə Tanrıma üz tuturdum. Tanrım üzümə gülümsəyib, çıxıb gedirdi. Belə gedişdən hərdən bezirdim, usanırdım, istəyirdim ona bir-iki kəlmə acı söz deyəm. Amma deyə bilmirdim. Dilim dönmürdü. Belə anlarda uzaqda gördüyüm bir əlçim işıq mənim ürəyimə təskinlik gətirirdi. O işığın mənə nə zaman yetişəcəyini isə hələ bilmirdim. Bəlkə də bir arzu kimi göylərdən asılıb qalacaqdı o işıq-orasını da bilmirdim. Təkcə orasını bilirdim ki, Tanrı dözümlü insanların, nə zamansa, mükafatını verir. Mən də o bir əlçim işığı dözümümün mükafatı kimi qəbul eləyirdim və o işığın nə zamansa mənə yetişəcəyinə inanırdım...

X-X-X

Bütün yaşıdları kimi Kamilə də qızların bulağından su içirdi. Onsuz da boylu-buxunlu, yaraşıqlı olan bu qız bulağın suyundan içəndən sonra bir az da gözəlləşmişdi. Anası həsədlə onun boy-buxununa, yar-yaraşığına baxır, baxdıqca bundan zövq alır, ürəyində gülümsəyib, xəyalında qızının sabahkı xoşbəxt həyatının ağappaq nağılını qururdu. Sonra da gözünü qızından çəkib,

dodaqlarının ucunda nəsə pıçıldayırdı. Yəqin qızına gözünün dəyəcəyindən qorxurdu. Axı deyirdilər, ananın da övladına gözü dəyə bilər. Qızı ilə bir ana kimi açıq söhbət eləməyi olmasa da, hərdən məqam tapıb, ona söz atırdı. Əslində, bu söz atmaqla qızının düşüncəsində nələrin gizləndiyini bilmək istəyirdi.

-Ay Allah, qızım nə qəşəngləşib.

-Yaxşı da, ana.

-Vallah düz deyirəm. Elə bil, su sonasısan.

-Eh...

-Bir azdan gəlib qapımızı döyəcəklər. Mən də səni götürüb o qapı döyənə verəcəyəm, deyəcəyəm, apar, indiyə qədər saxladığım yetər, indi də sən saxla onu.

-Mən oxuyacağam, ana.

-Hanı, Şəmil dayın götürüb dörd yazıb sənə, deyir, qız nədi, oxumaq nədi?! Qızın universiteti mətbəx, imtahan işi qab-qacaq yumaq olmalıdır.

-Desin də, Şəmil dayı, onun deməynən deyil ki.

-Düz deyir, səni kəndimizdə gözəl bir oğlana ərə verəcəyəm.

-Ana, birincisi, oğlan gözəl olmur, igid olur, ikincisi də, mən ərə gedəndə, uzaq bir yerə ərə gedəcəyəm.

-Bəlkə on yeddi dağın o üzünə getmək istəyirsən?

-Ola bilər, ana, qisməti bilmək olmaz.

-Onu düz deyirsən, qızım, qisməti bilmək olmaz. Amma mənə qalsa, səni kəndimizdən bir addım da qırağa qoymaram çıxasan.

-Nə görmüsən ey, ana, bu kənddə? Taleyimi yazmaq öz əlimdə olsaydı, çox uzaqlara, başqa bir planetdə yaşayan oğlana ərə gedərdim.

-Yəni belə bezmisən öz kəndimizdən?

-Yox, Allah eləməsin, kəndimizi çox istəyirəm, ancaq...

-Ancağı yoxdu, bu işlər bir az səhmana düşsün, özüm bilirəm səni kimə verəcəyəm.

Bu sözləri deyəndən sonra, nədənsə, ah çəkmişdi ana. Bu ahın hardan gəldiyini başa düşmüşdü Kamilə. Bilirdi ki, erməni məsələsinin baş qaldırması onu çox narahat eləyir. Malikin əsgərliyə getməyinə az qalması da onun narahatlığını ikiqat artırırdı. Bir məğrur ana kimi bilirdi ki, oğul vətəni qorumaq üçün doğulur. Amma necə olsa, ana idi və oğlunun, elə bütün oğulların sabahları üçün nigarançılıq çəkirdi.

Malik isə həsrətlə yaşının o yaş olmasını gözləyirdi. O yaş ki, oğlan uşaqları o yaşa çatanda onları əsgər aparırdılar. Malik də əsgər olmaq istəyirdi. Lap balaca vaxtlarından əsgər paltarı geyinən gənclərə həsədlə baxardı. İstəyərdi o, da böyüsün, bu şərəfli paltarı əyninə geyinsin. Əsgərliyə getməyən, amma yekə-yekə danışan oğlanlardan acığı gəlirdi. Onun əlində bir imkan olsaydı, belə natamam cavanlara qız verməyi də qadağan eləyərdi.

Yadına yaxşı gəlir, balaca oğlan olanda, yolun kənarında dayanıb urus əsgərlərinin keçib getmələrinə baxardı. Hərdən onlardan nişan da istəyərdi. O nişanı döşünə vurardı. Gəlib güzgünün qarşısında dayanar, əsgər kimi ayaqlarını düz tutub, özü-özünə hərbi salam verərdi. Bir dəfə onun bu hərəkətini atası görmüşdü. Yanına çağırıb, qıvrım saçlarına sığal çəkmişdi.

-Mənim ağıllı balam, əsgər olmaq istəyirsən?

-Hə, olmaq istəyirəm. Çox var hələ əsgər olmağıma?

-Yox, bala, günlər dayanmadan ötüb keçir. Bir də baxacaqsan ki, əyninə əsgər paltarı geyinmisən.

-Ata, olar ki, mən əsgərliyi öz yurdumuzda eləyim?

-Yurdumuz deyəndə, sən haranı düşünürsən ki?

-Yəni, rusların torpağında yox, öz elimizdə.

Atası Malikin bu düşüncəsinə mat-məəttəl qalmışdı. Uşaq bunları hardan bilirdi, nə bilirdi axı ucsuz-bucaqsız rus çölləri bizim yurdumuz deyil? Axı ona bu haqda danışan da olmamışdı.

-Oğlum, rus ellərində əsgərlik eləməyə qorxursan ki?

-Yox, ata, qorxmuram, ancaq öz yerlərimizdə əsgər olmaq, öz yurdumuzu qorumaq istəyirəm.

-İnşallah, oğlum, inşallah bu arzuna da yetişərsən.

Ata kövrəlib, yenə oğlunun saçlarına sığal çəkmişdi...

İndi Malikin bu arzusunun cücərtiləri görsənirdi. Başlayan milli azadlıq hərəkatları bu böyük dövlətin dağılacağından, hər bir xalqın istiqlala qovuşacağından xəbər verirdi. Malik hələ bərkiməyən ağlı ilə bu gedişatı saf-çürük eləməyi bacarmasa da, ağlının lap işıqlı bir yerində uşaqlıqdan həsrətində olduğu arzusuna qovuşa biləcəyini də düşünürdü.

Bir də ürəyinin lap pünhan bir yerində bir qız sevirdi. Onu sevdiyini özündən, bir də qızdan başqa heç kimsə bilmirdi. Hər halda, Malik belə düşünürdü. Əslində isə Malikin o qızı sevməyini kənddə çoxları bilirdi. Evlərində də bilirdilər. Amma bu barədə Malikə bir kəlmə də söz demirdilər. Kamilə istəmişdi o qızı istədiyini Malikə desin. Lakin sözünü dilinin ucundan qaytarıb, qardaşını utandırmaq istəməmişdi.

Malik isə bir pünhan yer tapıb, sevdiyi qıza ürək sözlərini demişdi.

-Bilirsən, qız, mən əsgər gedirəm?

Qız heyrətlə Malikin gözlərinə baxmışdı.

-Niyə təəccüb elədin? Mənim yaşımda olan oğlanların hamısı əsgər getmirmi?

-Təəccüb eləmədim. Amma sıxıldım.

-Niyə ki?

-Düşündüm ki, əsgərliyə gedib qayıdandan sonra məni bəyənməyəcəksən, başqasına könül verəcəksən.

-Yəni belə etibarsız tanıyırsan məni?

-Yox, vallah, amma oğlanların çoxusu əsgərlikdən qayıdandan sonra əvvəl sevdikləri qızları bəyənmirlər. Odur ey, qonşumuzun oğlu...

-Mən o oğullardan deyiləm. Vəfasız bilmə məni. Əsgərlikdən qayıdan kimi anam gəlib başına yaylıq salacaq.

Qızın gözləri dolmuşdu. Sonra isti baxışlarla Malikə baxıb, aralanıb getmişdi.

Malikin atasına dediyi arzuları göyərmişdi. Böyük və sarsılmaz dövlət bir sabun köpüyü kimi dağılıb getmişdi. Yerində on beş müstəqil dövlət yaranmışdı. O dövlətlərdən də biri Malikin arzu elədiyi öz müstəqil yurdu idi ki, indi Malik o yurdu qorumaq üçün əsgərliyə gedirdi. Qohumlar, yaxınlar, doğmalar onların evlərinə yığılmışdılar. Hamı Malikə xoş sözlər deyir, ona uğurlar arzulayır, sağ-salamat geri dönməsini Tanrının dərgahından diləyirdilər. Bir də anasına təskinlik verirdilər.

-Narahat olma, ay arvad, gözünü yumub-açınca oğlun qayıdıb gələcək.

-Həm də kişi kimi geri dönəcək.

Zenfira isə heç nə demir, narahat ürəyinə səbirdən düyün vurub, gizlincə uzaqlara, Maliki aparacaq yollara baxırdı.

O qız da yollara boylanırdı. Nə vaxtsa Maliki, onun istəkli igidini gətirəcək yollara...

X-X-X

Hər kəs onların məhəbbətindən danışırdı. Bu sevginin səsi-sorağı rayon mərkəzindən aşıb dağların o üzünə çatmışdı. Rövşən Xəyaləni hələ orta məktəbdə oxuduqları vaxtlardan sevirdi. Əvvəl uşaq sevgisi, məktəb məhəbbəti kimi görünsə də, sonralar bunun həqiqi sevgiyə oxşadığı üzə çıxmışdı. Eyni sinifdə

oxuyurdular. Hər gün bir-birini görürdülər. Təkcə bazar günündən başqa. O bazar günündə də Rövşən Xəyaləsiz darıxırdı. Bir bəhanə tapıb, onların məhəlləsinə gəlirdi. Uzaqdan da olsa, Xəyaləni görüb rahatlıq tapır, yenə çıxıb gedirdi. Bu məhəbbətin böyük dastanlar yaradacağına inanırdılar adamlar. Elə Rövşənin özü də inanırdı. Gizlin bir yer tapıb Xəyalənin gözlərinə baxdıqca baxır, tellərinə sığal çəkməkdən doymurdu.

-Bizi heç kəs ayıra bilməz, Xəyalə.

-Bilirəm.

-Təkcə onu bilmirəm ki, sən də məni mənim səni sevdiyim qədər sevirsənmi?

-Bəlkə səndən də artıq sevirəm, Rövşən.

-Əhdi-peymanımızın müqəddəs olduğuna inanımmı, qız?

-İnan, oğlan. Və bu sevginin qara tufanlara duruş gətirəcəyinə heç zaman şübhə eləmə.

-Sevirəm səni, Xəyalə.

-Mən də səni sevirəm.

Bu dillərə düşən sevginin növbəti mərhələsində elçi getmək gəlirdi. Sonra üzük aparmaq, nişan taxmaq mərasimi... Qanı yenicə coşan oğlanlar, qızlar bu məhəbbətə həsəd hissləri ilə baxır, özlərini bu oğlanla, bu qızın yerində olmağı arzu eləyirdilər.

Amma hadisələrin birdən-birə qarışması, erməni məsələsinin baş qaldırması Rövşənlə Xəyalənin sevgi dolu gözlərinə kölgə salmışdı. Toylarını eləməyə, vüsala qovuşmağa az qalmış işlərin dəyişməsi bu sevən gəncləri xəyal qırıqlığına salmışdı.

-Rövşən, sən də davaya gedirsən?

-Getməliyəm, Xəyalə. Vətən darda qalanda onun dadına yetməmək kişilikdən deyil.

-Birdən...

-Erməni gülləsinə tuş gələrəm deyirsən?

-Allah eləməsin, Rövşən. Mən sənsiz yaşaya bilmərəm.

-Heç mənsiz yaşamağı düşünmə də.

-Düşünmürəm, əzizim. Sənsiz bu dünya mənim üçün bir heç, mənasız, boz, bayağı planetdən başqa bir şey deyil.

-Kövrəlmə, canım mənim... Xəyalə, davadan yaralı, əlil kimi qayıtsam, məni qəbul eləyib, indiki kimi sevərsənmi?

-Hər hansı bir halınla sən mənim üçün sevimli Rövşən olaraq qalacaqsan.

-İnanımmı dediklərinə?

-İnan, Rövşən.

-Onda içimdə olan bir dünya məhəbbətimlə davaya yollana bilərəm. Düşmən bu hisslərim qarşısında məni öldürə bilməz...

Və günəş işığı az olan günlərin birində Rövşən istəklisi ilə vidalaşıb, davaya yola düşmüşdü...

X-X-X

Köhnə "Vef" radiomu qarşıma qoyub müharibə xəbərlərinə qulaq asırdım. Müharibədən çox qorxulu soraqlar gəlirdi. Quduz düşmən bütün sərhəd boyu torpaqlarımızı atəşə tuturdu. Hər sabah ailələrə şəhid tabutları gəlirdi. Elə bil, Qədir də şəhidlərin ruhuna ayna tutmaq üçün "Ay sona bülbüllər" – deyirdi.

Elə yar, yar deyirlər,

Heç məni demirlər,

Ay sona bülbüllər...

Qədir bu yanıqlı şərqini ifa edəndə dəli olurdum mən. Evdə tək olanda qorxurdum. Bu şərqinin təsirindən ölə biləcəyimdən qorxurdum. Amma yenə də qulaq asmaqdan yorulmurdum. Sanki bu şərqisi ilə Qədir dünyanın kədər nəğməsini oxuyurdu

insanlara. Elə bir kədər ki, o kədərin içində hər şey var idi. İnsanın özü, dünəni, keçmişi və gələcəkdə onu gözləyənlər... Qədirin yanğı ilə dediyi keçmişdə nə vardı ki? Mənim üçün öz qəmli taleyim, qüssə ilə yoğrulmuş dünənlərim və ağrı dolu bu günüm... O taleyim ki, hələ dünyaya göz açandan ayaqlarıma zəncir vurub, həmişəlik məni əsir eləmiş, gəzməyə, görməyə, dağların, qayaların, gülüstan bağların qoynuna ayaq basıb yeriməyə həsrət qoymuşdu. Bu azmış kimi cavan, gözəl anamı da almışdı əlimdən. İndi isə atalı günlərimin xatirəsinə dalıb, nə qədər ağır olsa da, yenə də dünənimə, dünənlərimə qayıtmaq istəyirdim...

-La ilahə illəllah...

Atam bu dəfə bu sözləri onu qəfildən yaxalayan xəstəliyinə görə deyirdi.

-Bu nə xəstəlik idi, məni yaxaladı?!

Birdən gəlmişdi gözlənilməyən qonaq. Sapsağlam olan atamın bir ay ərzində rəngi-ruhu dəyişib, bir başqa hal olmuşdu. Kənd həkimi olan Yusif doxtur atama baxandan sonra “ Yaxşı yaşayıb” – demişdi. Çox bilən bu doxturun belə söz deməsi bizim şübhəmizi bir az da artırmışdı. Və qardaşım onu götürüb Bakıya aparmışdı. Bakıda onun ağır xəstəliyi təsdiq olunanda, elə bil, göydən yekə bir daş düşmüşdü başımıza. Onun yaşadığı son üç-dörd ayı kədərin, qəmin dəniz burulğanında keçirmişdik. Elə Bakıda, Oqtayın evində də rəhmətə getmişdi. Meyidini Bakıdan kəndə gətirən gün o biri övladlarını bilmirəm, amma mənim üçün dünya gedib, gedib bir dalana dirənmişdi. O dalandan yol tapıb sabahlara necə gedəcəyimi hələ kəsdirə bilmirdim. Rahim məni yan otağa, atamla vidalaşmağa aparanda, evdə olanların, həyətə yığılanların gözlərində su qalmamışdı. Və mən o gün ikinci dəfə öldüyümü bütün varlığımla hiss elədim... Amma yenə mələklər başımın üstünü aldılar. Tanrım yenə təskinlik verdi mənə. O anda istədim Tanrımı bir yaxşıca söyüşlərə qərq eləyəm. Ancaq öz Tanrı qüdrətiylə o sözlərin dilimə gəlməsinə imkan vermədi. Yenə kirimişcə yerimdə oturdum. Atamın yasını yola verdim. O bir əlçim işıqdan tutub, yenə yaşadım.

Bu kədərli hadisədən bir az qabaq yenə də atam bir dəfə ağızdolusu “La ilahə illəllah” demişdi. Bu dəfə ermənilərin başladığı növbəti azğınlığa görə işlətmişdi o sözü. Rahimin əlinə silah götürüb, dağda-daşda ermənilərlə vuruşması onun xəstə canına bir az da ağrı gətirirdi. Ona görə yox ki, oğlunun vətən torpaqlarını qorumasını istəmirdi, ancaq ona görə ki, bu işin sonundan nigaran qalırdı. Və bir tərəfdən atamın ölümündən ona görə təskinlik tapırdım ki, atam vaxtında bu dünyanı tərk eləyib, erməni vəhşiliyinin növbəti silsiləsini görmədi.

Bu işlərə qədər isə mən də bir dəfə atam kimi boğazım quruya-quruya “La iləha illəllah” – demişdim. O gün ki...

O gecə dostum Ramazanın meyidini Bakıdan gətirirdilər. Heç bir il ailə səadətinin şirinliyini dada bilmədi dostum. Əziyyətlə, zəhmətlə yaşadığı ömrün bu dolayında soyuqdəymədən başına yığılan iltihab onu həyatdan vaxtsız-vədəsiz apardı. O gündən Ramazanlı günlərin xatirəsi də həkk olundu yaddaşıma. Yenə xəyalımda dünənlərə getdim. Oxuduğum və Ramazan üçün işarələdiyim kitabları xatırladım. İndi mənim üçün o kitablar başqa bir önəm və məna daşıyırdı. Bir də orucluq aylarında Ramazanı çox xatırladım. Ona görə xatırladım ki, bu aylarda hərdənbir oruc tutar və günortadan bir az keçəndən sonra çörəyi iyləyə-iyləyə axşamın gəlməsini, oruc açmanın zamanının yetişməsini gözləyərdi.

Bu kədərli hadisələrin qaranlığı gözlərimdən getməmiş başqa bir kədərli hadisənin də acı şərbətini içdim. Dostum Rafiqi itirdim. Hələ çox gənc yaşlarında alim adı almağa layiq olan bu ədəbiyyat müəllimi qəfil avtomobil qəzasının qurbanı oldu. Onda elə bildim ədəb və nur dünyamız bir aydınını itirdi. Bir könül dostumun məni əbədi tərk elədiyini bütün ruhumla hiss elədim və itkidən uzun müddət özümə gələ bilmədim.

Qədir isə bu günlərdə elə hey oxuyurdu. Oxumurdu ki, ağı deyirdi bu zamanın gərdişinə. Oxuyan belə olmaz axı. Qədirin özü də bunu bilirdi. Və zamanın dərdini yaşaya-yaşaya əzab çəkir, bütün canı ilə, varlığı ilə naləsini göylərə bülənd edirdi.

Müharibənin bütün sərhəd boyu genişlənməsi qəlbimdə qəribə bir narahatlıq yaradırdı. Bu işin sonundan qorxurdum yaman. Ermənidən qorxmurdum. Erməni qorxaq və rəzil bir toplum kimi tarixin yaddaşına həkk olunmuşdu onsuz da. Məni incidən, içimdə izaholunmaz hisslər yaradan isə başqa şeylər idi. Ermənilərin arxasında duranlar, onları üstümüzə qısqırdanlar görünmürdülər. Görünsəydilər də onların adını çəkmək olmazdı. Adlarını çəksəydin həngamə bir az da böyüyərdi. Belə görünürdü ki, neçə qərinə öncələrdən başlanmış murdar və əxlaqsız siyasət bu gün də davam edirdi. Və bu davamın sonunda daha nələrin baş verə biləcəyini düşünəndə adamın damarında qanı donurdu.

Yüz illərdi itirə-itirə gəlirdik. Böyük, ucu-bucağı olmayan bir dövlətdən çox xırda ərazi qalmışdı özümüzə. Mən bunları düşünəndə, rusa da, xaç yürüşünü dünya boyunca yayan üzdə bir, ürəkdə başqa olan xaç atalarına da nifrət edirdim. Belə işlərin müqəddəs dinlərdən, göydən gələn kitablardan qaynaqlandığına inanmağım gəlmirdi. Bunlar hər nə idisə, yerdə, Allahdan uzaq məkanlarda şeytanın diktəsi ilə yaradılan işlər idi. Allah isə lap uzaqlardan bu şeytan oyunlarına baxır, hələ ki səbr edirdi. Onun səbrinin nə vaxt tükənəcəyi bizim gördüyümüz ağıllı işlərdən asılıydı. Və heyif ki, hələ çox da ağıllı işlər görə bilmirdik. Müsəlman dünyası boş-boş fərziyyələr girdabına yuvarlanıb, o çirkabdan çıxa bilmirdi. Təriqət, məzhəb ayrılığı müsəlman dünyasının evini yıxırdı. Bu evin tam yıxılacağını düşünəndə isə dünya gözündə qaralır, bir heçliyə, boşluğa düşürdün.

-Sünnilər haqqı danıblar.

Şiələr belə deyirdilər.

-Şiələr cığal və araqatandılar.

Bunu isə sünnilər söyləyirdilər.

-Bəs islam birliyini necə yaratmaq olar?

Məntiqli və tədbirli adamlar isə bu sualı yana-yana bir-birlərinə verirdilər. Amma onların səsi boz və donuq gurultunun içərisində itib-batır, yalan və uydurma nağılların fonunda eşidilməz olurdu.

Bütün bunlar haqqında da məqalələr yazırdım. Lakin hər belə məqaləm dərc olunanda dindar və dünyadan xəbərsiz adamlar mənə əyri-əyri baxırdılar. Hələ Allahdan qorxmasaydılar bir yekə daş götürüb başıma salardılar. Mən isə dediyimdən qalmırdım.

-Qürbət, axı niyə adamlar bu gözəl dinləri pis günə qoyublar?

-Ona görə ki, şəxsi maraq və daha çox qazanmaq ehtirası insanları Allahın yox, şeytanın yanına aparıb.

-Şeytan, yəni, bu qədərmi güclüdür?

-Güclü olmasaydı, dünyanı bu günə qoymazdı.

-Bəs Allahın o güclü dediyin şeytana gücü niyə çatmır?

-Allah insana ağıl verib, deyib, gedin ağlınızla şeytana qalib gəlin.

-Qalib gələ bilməsə necə?

-Onda ya dünya başdan-ayağa şeytanın olacaq, ya da məhv olub, yanıb gedəcək...

Uşaqlıq dostum Qürbətin sözlərində çox böyük məntiqlər gizlənirdi. Heyif ki, gizlənirdi, açıq-aşkar üzə çıxmırdı... Və bu qaranlığın içində adamlar boğulurdular.

X-X-X

Bir həftə idi ki, Malikdən xəbər-ətər yox idi. Mil təpəsində gedən döyüşlərdən sonra onun, elə döyüş yoldaşlarının da sorağını ala bilmirdilər. Pis, qara düşüncələr adamların içini yesə də, bu bəd düşündüklərini dillərinə gətirmək istəmirdilər. Bir də ümidin lap sonda öldüyünü də adamlar bilirdilər axı. Amma Gülzəddində pıçhapıçlar an-an, saatbasaat çoxalırdı. Bu pıçıltıların içində işıq deyilən bir şey görünmürdü. Bəlkə də, təkcə Zenfira ananın qəlbindəki işıq hələ közərirdi. O, da o işığı zorla tutub qəlbində saxlayırdı. O işıq çəkilib gedən kimi Malikin qara xəbəri çatacaqdı ona.

O qızın isə işığı sönmüşdü qəlbində. Hey boylanıb yollara baxsa da, təkcə Tanrı möcüzəsindən başqa heç nəyə inanmırdı. Tanrı da möcüzələrini bu dünyaya çox az-az göndərirdi. Əslində, bəsirət gözü ilə baxand bu dünya başdan-başa möcüzələrdən yoğrulmuşdu. Tanrının əl içi kimi aydın görünən və hamının görə bildiyi möcüzələr isə Tanrı tərəfindən çox xəsisliklə gəlirdi yer üzünə. İndi o möcüzələrdən biri olsaydı, bəlkə,  qızın qəlbində sönən işıq yenidən yanıb, aləmi öz şöləsində yuyundurardı.

Artıq kənddə Zenfira anadan başqa hamı Malikin şəhid olduğunu bilirdi. Bəlkə elə Zenfira ananın özü də duymuşdu hər şeyi. Axı ana qəlbi övladının sevincini də, qəmini də anında duyur. Amma hələ Zenfira ana Maliksizliyi qəlbində yerləşdirməyə ürək eləmirdi. Elə bilirdi qəlbində olan Malikin yeri boş qalan kimi onun da həyatı bitəcək. Və bundan sonra yaşanan ömrü yaşamaq yox, ancaq ömrü başa vurmaq üçün əzab çəkmək olacaq.

On yeddi nəfər igid şəhid olmuşdu bu döyüşdə. Elə bir yerdə düşmən gülləsinə tuş gəlmişdilər ki, onların meyitlərini də götürmək müşkül bir məsələyə dönmüşdü. Meyitlərin olduğu əraziyə yaxınlaşan kimi düşmən atəş açırdı. Düz on gün bu dözülməz müsibət davam elədi. Qonşu və dost ölkənin müdaxiləsindən sonra meyitləri götürməyə izn verdilər.

On gün...

Bir ayın üçdə biri...

Və böyük sınağın sonuncu günü...

Allah, elə bil, bu on gündə insan dözümünü sınağa çəkirdi. İnsan səbrinin harda bitəcəyini yoxlamaq istəyirdi.

Şəhidlər bir-bir ailələrinə təhvil verilirdi. Şakir, Mehman, Fərmayil, Nüsrət... Sona qalan Malik idi. Ən sonda onu götürdüklərinə görə ən sonda da onu vermişdilər əzizlərinə. Əvvəl gətirib şəhər məscidində kəfənləmiş, tabuta qoyaraq şəhidlərin uyuduğu xiyabana aparmışdılar.

Hamı ağlayırdı o gün. Bütün Gülzəddin yasa batmışdı o son bahar günlərində. Hönkürə-hönkürə ağlayanlar da çox idi. Bu

igidin vaxtsız ölümü, sanki, insanların çiyninə ağır bir yük qoymuşdu. Kənd öz qəhrəman igidinin ölümünə yas saxlayırdı. Gilas nənənin, Zəkiyyənin, Fatmanın, Zərrinin, Məsmənin, Qəndabın ağı deməlЕrindən uca dağlar lərzəyə gəlirdi. Təkcə Zenfira ana içində ağlayırdı. Atasının, anasının yanında övladına hönkür-hönkür ağlamaqdan utanırdı. Onların qarşısında hər zaman boynu teldən nazik olmuşdu axı. Heç zaman ata-ana qarşısında bir artıq hərəkətə yol verməmişdi. Övladı əsgər gedəndə də böyüklərdən utanıb onun boynuna sarılmaq, üzündən öpmək  istəməmişdi. İşi belə görəndə arvadlar zorla onu o biri otağa aparmışdılar, Maliki çağırıb anası ilə vidalaşmasını istəmişdilər. Amma bu vidalaşma sonuncu vida olmamışdı. Bir ay əvvəl də Maliki yaxşı xidmətinə görə dörd-beş günlüyə evlərinə buraxmışdılar. Bu dörd-beş günü o, evdə, ata-anasının yanında keçirməli və yenə qayıdıb döyüş bölgəsinə getməliydi. Lakin bu dörd-beş günün ömrü iki gündən artıq olmamışdı. Televizorda eşitdiyi xəbərdən sonra geyimini, yükünü toplayıb, yola hazırlaşmışdı.

-Bəs niyə belə tez qayıdırsan, oğlum?

Anasının həyəcanla verdiyi suala Malik soyuqqanlıqla cavab vermişdi:

-Darıxma, ana, tezliklə dava bitər, qayıdıb yanınıza gələrəm.

O ağır xəbəri televizorda eşitməyən ana o qədər də təlaş keçirmədən oğlunu yola salmağa hazırlaşmışdı.

Xəbəri eşidən bacısı isə həyəcanını içində boğmağa çalışaraq:

-Bəlkə getməyəsən, qardaş, - demişdi.

Malik etinasız görünməyə çalışaraq, bacısının üzündən öpmüşdü.

-Belə bir vaxtda yoldaşlarını güllənin altında qoyub, evdə gizlənmək kişilikdəndirmi, bacı?

-Birdən...

-Bilirəm nəyi fikirləşirsən. Qorxma, heç nə olmaz... Bacı, birdən müharibədən qayıtmasam, ata-anamı dərdin əlində tənha qalmağa qoymazsan.

-Yaxşı, qardaş, sən Allah, elə danışma.

Bu söhbətin sonunda Malik mənalı-mənalı bacısının üzünə baxıb, ona bir qəribə sual da vermişdi:

-Bacı, davadan şikəst qayıtsam, ərə getməyib, həmişəlik mənə baxarsanmı?

Onda bacısı əli ilə qardaşının ağzını qapayıb, onu daha danışmağa qoymamışdı...

Və Malik davadan şikəst yox, şəhid kimi qayıtmışdı...

Amma hər dəfə Kamilə əlil arabasında əyləşən bir insan görəndə, Malikin o sözlərini xatırlayırdı...

Hələliksə, başdan-ayağa yasa bürünmüş kənd öz ilk şəhidinə matəm saxlayırdı. Göydən ötüb-keçən buludlar da bir anlıq dayanıb igidi anırdılar. Ağaclar bahar görkəmindən çıxıb, qış ruhunda yerlərində dayanmışdılar. Müdrik dağlar başlarını aşağı dikib dərin-dərin fikrə dalmışdılar. Yollar da sağ-salamat geriyə qaytara bilmədikləri oğulun ölümündən sarsılıb kiçilmişdilər elə bil. Təkcə həyətlərində olan qızılgüllər boy verib pöhrələmişdilər. Sanki bu qızılgüllər Malikin ölümünə yas saxlamır, şəhidlik zirvəsinin ucalığından baxırdılar bu dünyaya.

Zenfira ana qızılgüllərə baxanda havalanır, Malikin nağara çalğısının səsi qulaqlarında cingildəyir və belə anlarda o, irəli yeriyib ürəkdən yanğılı-yanğılı muğam üstündə ağı demək istəyirdi oğluna. Amma başı dolanır, səsi çıxmır, otağın alaqaranlıq bir küncünə çəkilir, başdan-ayağa yanıb-yanıb kül olurdu.

O qız da ürəyində dəfn edirdi. Qəlbində qalan nakam eşqini, sevgisini, məhəbbətini torpaqlara gömürdü. İndi bu kənddə bu qızdan zavallı birisini tapmaq olmazdı. Həm də ona görə zavallı idi ki, hər kəs açıq-aydın ağlaya bilsə də, bu qız ağlaya bilmirdi.

Sevgisini gizli saxladığı kimi, tökdüyü göz yaşlarını da içinə axıtmalı, hamıdan gizli saxlamalıydı.

Bir müddət pünhan-pünhan baxdığı, həsrətlə boylandığı sonu görünməyən yollara çıxıb irəli getməyə başladı. Bu yolun sonu pis, bəd, lap bəd olacağını düşünmədən irəli yeridi. Artıq onun üçün yolun onu hara aparacağı öz mənasını itirmişdi. Bu yol hara gedib çıxsa da, onun qəlbindəki arzularına aparıb çıxara bilməzdi. O arzular bir qönçə gül kimi solub, öz ömrünü başa vurmuşdu.

X-X-X

Rövşəndən bir müddət idi xəbər-ətər yox idi. Xəyalə ondan nigaran qalsa da, bir adam tapıb onun sorağını ala bilmirdi. Axırda dözümünə tab gələ bilmədi. Telefonu götürüb Rövşən gilin ev nömrələrini yığdı.

-Alo.

Dəstəyin o başından gələn səsin Rövşənin bacısı olduğu bilinirdi.

-Nərmin, mənəm, Xəyalə.

-Hansı Xəyalə?

-Mən də...

-Hə, tanıdım.

-Nərmin, Rövşəndən bir xəbər varmı?

Nərminin hıçqırıb ağladığı Xəyalənin qulaqlarından yayınmadı.

-Bir nigarançılıqmı var, Nərmin?

-Qardaşım yaralanıb, hospitala aparıblar.

Xəyalənin içindən xırda bir gizilti keçdi.

-Vəziyyəti ağırdırmı?

-Hələ bilmirik, atam yanından qayıtmayıb.

Xəyalə dəstəyi asdı. Bir anda xatirələr bir kino lenti kimi gözlərinin önündən keçdi. O xatirələrdə neçə il bundan əvvəl başlanmış bir məhəbbətin yaddaşa xoş gələn görüntüsü var idi. Məktəbdə gizlincə baxışmaları, bir bəhanə tapıb bir-birilərinə yaxınlaşmaları, yerinə düşdü, düşmədi bir söz soruşmaları, əllərini xırdaca bir-birilərinə toxundurmaları, sonra qızın yanaqlarının qızarması, oğlanın əllərinin isinməsi, daha nələr, nələr... Bu illər onun ömür yolunun hələ ən şirin çağları kimi yaddaşında çozələnirdi. Belə xoş çağların uzanıb getməsini diləyirdi. Bir yandan isə ürəyinin lap pünhan yerində bu günlərin bitməsini, bir-birlərinə qovuşmalarını da istəyirdi. Axı bu istək, bu baxışlar, bu xırda təmaslar nə qədər şirin olsa da, bir o qədər də əzablı və dözülməsi çətin olan hallar idi. Bu əzabın bir sonu olmalıydı, onlar bir-birilərinə qovuşub taledən kam almalıydılar.

Aldığı bir-birindən  bəd xəbərlər isə onun bu arzusunun üstünə qapqara bir kölgə çəkirdi. Əvvəl Rövşənin çiynindən güllə yarası almasını çatdırmışdılar ona. Sonra başından yaralandığını demişdilər. İndi isə bəd xəbər gətirən daha betərindən xəbər verirdi. Deyirdilər, Rövşənin bel sütunundan dəymişdi düşmən gülləsi. Xəbərlər tez-tez dəyişir, Xəyaləni pis fikirlər dənizinə qərq eləyirdi. Bir müddət gözləməli, ya da Rövşənin özünü görməli idi. Yoxsa, inanmayacaqdı bu deyilən xəbərlərə. Onu isə sonralar, lap sonralar görə bildi. Onda gördü ki...

Daha qulaqlarını bağlamışdı Xəyalə. Heç kəsi eşitmək istəmirdi. Rövşəndən bir söz salanda çəkilib gedirdi. Bir-birini inkar edən xəbərləri eşitməkdən əsəb sistemi də bir sapa düyünlənmişdi. Bir az da tarıma çəkilsəydi, daha yaşaya bilməz, ya da Rövşəni yaddaşından çıxarmağı bacarmaq gücündə olmalıydı.

Axır ki, gördü onu. Əlil arabasında gördü. Uzaqdan ona baxıb dərindən köks ötürdü. Və çıxıb getdi. Rövşən onun arxasınca baxa-baxa qaldı. Elə o andaca onun şah damarından nəsə qopub içində əzab çəkə-çəkə yetim uşaqlar kimi ağlamağa başladı. O məqamda ilk dəfə duydu insanların vəfasızlığını. O anda bütün

məhəbbətlərin ülvi olmadığına inandı. Bir də ona inandı ki, daha o, bundan sonra bir kimsəyə könül bağlayıb məhəbbət köynəyi geyə bilməz. Gözlərini göylərə zilləyib əlil arabasını tənhalığa, adamların olmadığı yerə sürüb gətirdi. Bir uşaq kimi hönkürüb ağladı. Və elə o gündən ömrünün bitdiyini, öldüyünü, ancaq ruhunun bu dünyada dolandığını zənn elədi.

Xəyalə də getdi. Rövşənin əbədilik əlillik arabasında oturacağını öyrənən kimi birinə könül verib uzaqlara yollandı. Elə uzaqlara ki, daha Rövşən öz əlil arabası ilə gəlib ona yetişə bilməzdi...

X-X-X

Göydaşlının ən gözəl çağlarıydı. İlin bu fəsli kəndin ən dirilən vaxtları olurdu. Ağaclar çiçək açır, çayların suyu çoxalır, yaz yağışları talenin xoş qisməti kimi adamların başına yağırdı. Lap uşaq vaxtlarımdan bu xasiyyətə köklənmişdim. Yaz aylarında, elə bil, mən də yenidən doğulurdum. Heç sevmirdim qış fəslinin gəlməsini. Dörd-beş ay evdə dustaq qalacağımdan ölə biləcəyimi düşünürdüm. Bu qış ayları uzun, çox uzun görünürdü mənə. Sanki bir yekə, yepyekə qara daş asılmışdı bu qış aylarının yaxasından, onu azad olmağa qoymur, uzadır, uzadırdı. Mən də əlacsızlıqdan ilin təqvim vərəqinə boylana-boylana qalırdım. Əsgərlər hər günlərini pozduqları kimi mən də o günlərin üstünə qara bir xətt çəkirdim. Çəkirdim ki, bitib qurtara, tükənə, gözlədiyim, həsrətində olduğum yaz ayları gəlib yetişə.

Və gəlib yetişmişdi o yaz ayları. Ağacların yenidən doğulmasına baxdıqca, çiçəklərin açılıb adamın üzünə güldüyünü gördükcə qəlbim fərəhlənir, ürəyimə yeni ruh, yeni nəfəs gəlirdi. Belə vaxtlarda ilham pərim də oyanırdı elə bil. Bu ilham pərimin əlində girinc qalırdım hərdən. İstəyirdim qovam, uzaqlaşdıram özümdən, amma getmirdi, üzlü qonaqlar kimi ruhumda oturub əl çəkmirdi məndən. Mən də gizlincə, tək-tənha qalanda ilham

pərimin mənə yazmağa məcbur elədiyi mövzuları ağ vərəqin köksünə köçürürdüm. Yazdığımı pozurdum, pozduğumu yenə yazırdım. Bədii əsərlər üzərində işlədiyimi adamlara deməyə utanırdım. Utanırdım ki, gülərlər mənə, deyərlər, o böyük yazanların yanında bir şey yazıb üzə çıxara bilərsənmi? Mən isə özlüyümdə onlar kimi düşünmürdüm. O böyük yazanlar da adam balası idilər, onları da bir ana doğub gətirmişdi bu dünyaya. Başqa bir seçimdə, Tanrının güllü boğçasında gəlməmişdilər axı onlar bu dünyaya. Ya bəlkə elə o güllü boğçada Tanrı onları yer üzünə göndərmişdi? Və bəlkə elə mən də o boğçada gələnlərdən biri idim? Nə bilmək olar? Axı bir tərəfdən də heç zaman məni tərk eləməyən ağ buludların üstündə oturan Tanrım var idi mənim. Bəlkə elə mənim özüm də bilmədən Tanrım mənə bir sehirli əta əxz eləmişdi. Hər nə idisə, yazırdım. Dağdan, daşdan, bulaqdan, çaydan, dərələrin enişindən, buludların axışından, təpələrin, düzlərin nakam duruşundan, Araz çayının göz yaşından, Təbrizin ağlar baxışından, hər şeydən, hər şeydən... Bir də özümü yazırdım. Özümü axtara-axtara taleyimin şifrəsinin izinə düşür, o izlə əlçim boyda işığıma doğru gedirdim.

Və yenə də sevirdim hərdən. Ürəyimdə sevirdim. O ürəyimdə sevdiyim qızlar bir-bir qönçələnib gül olur, birinin evinə köçüb bir ocağın çırağını yandırırdılar. Mən isə çırağımı yandırmağa bir gözəl tapa bilmirdim. Bir gözələ könül açıb onu sevdiyimi dilimə gətirməyə cürətim, cəsarətim çatmırdı. Elə bilirdim hansı qıza onu sevdiyimi desəm, o məni qapqara gülüşlərə qərq edəcək. Sonra da çıxıb gedəcək. Bu gedişi ilə məni də aparacaq. Özü olan yerlərə yox, başqa, bambaşqa yerlərə aparacaq məni və bu aparması ilə məni yenidən bu dünyaya qaytarmaq çətin olacaq. Buna görə heç bir qıza demirdim onu sevdiyimi.

Gəlinlərimiz hərdən söz atırdılar mənə. Yar-yoldaşımın, hələ məndən yaşca kiçik olanların da ailə qurmalarını üzümə vururdular. Bilirdim ürəkdən demirlər bu sözləri. Elə-belə, söz xətrinə, ürəyimi açmaq üçün işlədirlər bu cümləri. Və bu dediklərinin ürəkdən gəlmədiyini bildiyimə görə içimdən qovrulurdum. İstəyirdim hərdən dəli-dəli qışqıram, deyəm, bəsdi

daha, az hisslərimlə oynayın, amma deyə bilmirdim. Onu deməkdən də qorxurdum. Sanki o sözləri dilimə gətirsəydim, birdəfəlik bu mövzunu qapadacaqdım. Amma mən bu mövzunun qapadılmasını istəmirdim. Qəlbimin bir tərəfində bu mövzunun işıqsız, ruhsuz işlədilməsinə etiraz eləsəm də, o biri tərəfdən gündəmdə qalmasını da istəyirdim.

-Sən qızı göstər, mən onu alım gətirim sənin üçün.

Şəfaət deyirdi bu sözləri. Rahimin həyat yoldaşı. Rahim məndən utana-utana o sevdiyi qızı evimizə gətirmişdi axı. O vaxtdan da hiss eləyirdim ki, qəlbinin içində bir qırıqlıq var. Məndən əvvəl evləndiyinə görə içindən qırılmışdı elə bil. Bəlkə də onun qəlbindəki bu qırıqlığı məndən başqa bir kimsə görə bilməzdi. Bir söz tapıb da ona deyə bilmirdim. Deyə bilmirdim ki, axı sənin nə günahın var, sən də oturub mənim kimi xəyallarla öz şirin taleyini qura bilməzsən ki.

Mən isə tez-tez şipşirin nağıllar düzəldib özümü o nağılların qəhrəmanı eləyirdim. O şipşirin nağıllarda ürəyimdə istədiyim qızı götürüb lap uzaqlara, bu dünyanın olmadığı bir yerə aparırdım. Oraların qulaqları kar edən tənha səssizliyində həmən qızla gəzib-dolaşır, ağappaq buludların arasında itib-batır, bir daha fiziki mövcud olduğum dünyaya qayıtmağı ağlıma da gətirmirdim.

Artıq Vasif də yavaş-yavaş gözəllərin pişvazına çıxırdı. Bunu o, da Rahim kimi pünhan eləyirdi. İstəyirdi kimisə sevdiyini mən bilməyim. Onda Bakıda oxuyub kəndə qayıtmışdı. Kənddə işləri əməlli olmadığından yenə qayıdıb Bakıya getmişdi. Rahim də pul qazanmaq üçün ara-sıra urusetə gedirdi. Belə zamanlarda mənim işim çox çətinləşirdi. Onda yalnız analığımın ümidinə qalırdım. Düzdü, Şəfaət də mənə bir doğma bacı kimi qulluq edirdi, amma əsas çətinliklər Fəridə xanımın boynunda qalırdı.

-Sən o qızı göstər...

-Şəfaət, mən o qızı göstərsəm nə xeyri? İndi heç dörd ayağı olan oğlanlara qız vermirlər. O ki, ola...

-Yaxşı, sən Allah, belə bədgüman danışma. Fərasətin olsa, çox işlər görə bilərsən. Dəftər-qələmə olan sevgini qızlara yönəltsəydin, indi çoxdan ailə həyatı qurmuşdun.

Bəlkə də gəlinimizin sözünün içində az-maz həqiqət deyilən şey var idi. Çünki sevgimin böyük hissəsini dəftər-qələmə bağlamışdım. Elə olurdu ki, yuxuma da haram qatıb gecənin yarısına qədər işləyirdim. Birdən görürdüm ki, anamı əvəz eləyən qadın başılovlu özünü yanıma çatdırdı, saata baxıb heyrətlə qələmi əlimdən aldı.

-Allah məni öldürsün, gör saat neçədi? Belin qırıldı axı. Elə bilirsən, bu yazdıqlarına görə sənə ənam verəcəklər? Dünya elə qarışıb ki, heç Səməd Vurğunu da oxuyan yoxdu.

Deyinə-deyinə məni yatağıma uzadırdı. Üst-başımı örtüb, işığı söndürürdü.

Mənim yazmağa olan sevgi işığım isə sönmürdü. Artıq çoxları da bilirdi ədəbiyyata meyilli olmağımı. Nə qədər gizlətməyə çalışsam da, hardansa boy verib üzə çıxırdı bu işim. Və bədii yazılarım yavaş-yavaş qəzet-jurnal səhifələrində dərc olunmağa başladı. Bundan sonra insanlarda mənə qarşı münasibətin dəyişdiyini də apaydın hiss eləyirdim.

Çox qəribə idi, vallah, nədənsə şöhrətin başgicəlləndirən bəyaz yoluna çıxdıqca, daha çox xəyalpərəst olurdum. O xəyallar məni uzaqlara aparanda mən daha da uzaqlara getmək, beş dağın, on dağın, on yeddi dağın arxasında olanlarla ünsiyyət quraraq, həyatımın səmtini ağappaq işıqlarla nurlandırmağa səy göstərirdim.

X-X-X

Onu bu bəyənilməyən addımı atmağa məcbur eləyən bel sümüyündəki güllə yerinin ağrısı deyildi. Bu ağrıya dözə bilirdi. Heç o, qızın üz çevirib ondan uzaq getməsi də onu bu çətin yola

çıxmağa məcbur edə bilməzdi. Çünki güllə belinin şah sümüyünə dəyəndə və həkim ona həqiqəti qırmızı-qırmızı deyəndə o, beyninin qaranlıq bir yerində belə olacağını düşünə bilirdi. Axı hansı sağlam qız əlil arabasına məhkum olmuş birisinə könül verib taleyini belə boz qismətə bağlaya bilərdi? Olsa-olsa milyonda bir qız belə bir taleyə qucaq açardı. O milyonda bir qızın onun sevdiyi qız olmasına da inanmaq çox çətin bir məsələ idi. Elə ona görə də qız arxa çevirib ondan aralı düşəndə o, bunu özünə çox da dərd eləmədi. O, qızın yoxluğu ağrısına da dözməyi bacardı.

Onu bu yola aparan isə başqa səbəblər idi. Elə o onu ağrıdan səbəblər ucbatından yolu qabağına qatıb irəli gedirdi. Yaxşı ki, qollarında arabanın çarxını fırlamağa gücü var idi. Yoxsa, kim idi onu bu sıldırım uçurumun qırağına gətirən? Kimə deyə bilərdi axı məni filan yerə apar, mən həyatda son arzumu yerinə yetirim? Başqa bir bəhanə ilə də heç kəs onu buraya gətirib qoymaz və çıxıb getməzdi ki, o, da bildiyini eləsin.

Araba düpbədüz yolda yeriyirmiş kimi irəli gedir, sanki uçurumun kənarına çatmağa tələsirdi. Nə yaxşı ki, bu gün dünya da boşalmışdı. Gözünə bir kimsə dəymirdi. Sanki düzü-dünyanı götürən bu adamlar bir uçan xalçaya minib başqa bir dünyaya getmişdilər ki, onun bu sonuncu arzusunu həyata keçirməyə mane olmasınlar.

Adamların laqeydliyi, biganəliyi onu bu qərara gəlməyə məcbur eləmişdi. Vətən torpağı uğrunda qazi olan bu adama yazıq və zavallı kimi baxırdılar. Çox vaxt da baxmırdılar. Baxmaq istəmirdilər. Bir bəhanə ilə yollarını dəyişib onunla üzbəüz gəlməməyə çalışırdılar. Üz-üzə gələndə isə... Öz gözləri ilə görmüşdü neçə dəfə, onu görəndə qulaqlarını çəkir, astaca göylərə, Allaha tərəf baxırdılar. Cavan qızlar isə onu daha çox yandırıb tökürdülər. Ona qarşı o qədər etinasız yanaşırdılar ki, bu etinasızlıqdan üşüyürdü, donurdu, bu soyuqluqdan bir buz heykəlinə dönüb qalırdı.

-Mənəm, tanımadınızmı məni? Mənəm, məəəən... Bir vaxtlar məni görəndə ehtiras hissləri ilə alışıb-yanmırdınızmı? İndi niyə

qaçırsınız məndən? Bəlkə sizlərin bir xoş baxışından yenə dirçəlib ayağa qalxa bilərəm? Niyə o baxışları çox görürsünüz mənə?..

Beləcə, çox yalvarmışdı o nazlı-qəmzəli xanımlara. Səsi ilə deyil, içindən gələn səssiz harayı ilə yalvarmışdı o qızlara. Qızlar isə, sanki, onun içindən gələn harayı eşitmir, ya da özlərini eşitməzliyə vururdular.

Belə bir toplumun içərisində yaşayıb ömür sürmək ağır gəlirdi ona. Və bu ağırlıq onun iradəsinə qalib gəldi. O, özlüyündə özünün qətl fərmanına qol çəkib, yola düzəldi.

Çəmənlər yamyaşıl idi. Elə bil, bu yerlər o, gəncin qətl fərmanından xəbərsiz kimi üz-gözünə bir az da yar-yaraşıq vermişdi. Hər yan adamın üzünə gülürdü. Belə bir ilahi gözəllikdən özünü məhrum edərək, verdiyi fərmanın icrasına tələsmək heç də ağıllı qərar olmasa da, o, heç nə düşünmədən uçurumun lap qarşısına gəlib çıxdı. Bu yerlərdən aşağıya baxanda adamın gözləri qaralırdı. Və o, gözlərini yumub bir az da yaşamaq, yaşamaq, sonra isə...

Sonranın gəlməsinə sayılı dəqiqələr qalırdı... Və bu sayılı dəqiqələrdən sonra baş verəcək facəni görməmək üçün uçurumun başı üstündə dolaşan quşlar da uçub uzaqlara gedirdilər...

X-X-X

Kənddə hamı qara paltardan çıxmışdı. Təkcə Zenfira anadan başqa. Bir kimsə ürək eləyib bu qara paltarlı qadına qaradan çıxmağı deyə bilmirdi. Bəlkə elə bu qara paltarla da bu qara paltarlı qadın öz dünyasının sonuna gedəcəkdi. Gözlərindəki işıqsızlıq, ruhundakı yorğunluq belə düşünməyə əsas verirdi.

Qara paltarlı qadın hamıdan gizlin tez-tez şəhidlərin uyuduğu məzarlığa gedirdi. Oğlunun başdaşı ilə üzbəüz dayanıb onunla söhbətləşirdi.

<<-Necəsən, oğlum?

-Yaxşıyam, ana.

-Ağrıyırmı yaran?

-Bu dünyada adamın yaraları ağrımır, ana.

-Bəs niyə başdaşın belə soyuqdu?

-O başdaşım deyil, sənin ürəyindi.

-Mənim ürəyim?

-Mən öləndən sənin ürəyin belə buz bağlayıb. Elə buzlu ürəyinlə də hər zaman yanımda dayanıb keşiyimi çəkirsən.

-Sən ölməmisən ki, oğlum, bir müqəddəs ruh kimi torpağın köksünə sığınmısan.

-Yadındamı, ana, mənə necə laylalar çalardın?

-Amma sən vəfasız çıxdın mənim o laylalarıma.

-Niyə ki, anacan?

-Axı o laylalarda mən sənin toyunu görmək istəyirdim. Sən isə...

-Bizim məqamımız hər şeydən ucadı. Toy eləməkdən, oğul-uşaq sahibi olmaqdan, hətta, uzun ömür sürməkdən də...

-Onu bilirəm, oğlum.

-Di onda sil gözlərinin yaşını, ana. Sənin göz yaşlarını görəndə rahatlıq tapa bilmirəm.>>

Ana ürəyini oğlunun yanında qoyub geriyə qayıdırdı...

Bu dəfə bacısı gizlincə onun yanına gedirdi. Bu dünyanın özü qədər istədiyi qardaşının "əlindən tutub" o vaxtlar deyə bilmədiyi sözləri deyirdi ona. Onunla söhbətləşib, qayıdırdı evə.

<<-Qardaşım, bilirsənmi səni nə qədər sevdiyimi?

-Bilirəm.

-Bəs onda...

-Səni tərk elədiyimi deyəcəksən, eləmi?

-Təkcə onu deyil.

-Özgə nədir ki?

-Səni arxam, dayağım bilirdim. Ürəyimin sevinci, qürurum, bu günüm, sabahım, gələcəyim sanırdım səni. Bəs belə də qardaşlıq olardımı, sən elədin?

-Mən eləmədim ki, bacı, Tanrımız belə yazdı.

-Tanrımızın yazdığına qurban olum.

-Mənə de görüm, ailə həyatı qurmusanmı?

-Bəs sən demədinmi...

-Əlil qayıtsam əgər, ailə həyatı qurma, ölüncə mənə bax demişdim. Axı mən əlil qayıtmadım.

-Mən isə sənin öldüyünə inanmıram. Sanıram ki, bir gün əlil arabasında qayıdıb gələcəksən yanıma və mən də ölənə qədər baxacağam sənə...

-Bəs əlindəki kağızlar nədir?

-Məni şair elədin, qardaş. Gedişindən sonra ülfətimi bu kağızlara bağladım. İstəyirsən, oxuyum sənin üçün?..>>

Kamilə ətrafına göz gəzdirib, pıçıltı ilə yazdığı şeirləri qardaşına oxuyurdu.

Hər zaman mən səni səsləyəcəyəm,
Yoluna göz dikib gözləyəcəyəm.
Heç bir vaxt ölmüsən deməyəcəyəm,
Qardaş, ölümünə inanmıram mən...

Bu bir xəyal oldu yenə,

Gülən rəngin soldu yenə.
Gözüm yaşla doldu yenə,
Aman, qardaş, qayıt geri...

İtirdim qardaşımı,
O ürək sirdaşımı.
Silən yox göz yaşımı,
Ağla, ürəyim, ağla...

Yenə də yanaqları allanırdı Kamilənin. Elə bilirdi ətrafında olan şəhidlərin hamısı onun qardaşına oxuduqlarını eşidirlər. Və başını bir az yuxarı qaldırıb şəhidlərin ruhuna yazdığı şeirlərdən də bir-iki bənd deyir, sonra çıxıb gedirdi.

Belə görüşlərin birində qardaşı da ona bir şeir parçası pıçıldamışdı:

Doldurma qəlbində boş qalan yeri,
Mənim məzarım tək saxla, nə olar.
Aşkarda ağlama, əğyar görməsin,
Ağlasan, gizlincə ağla, nə olar...

Və o şeir parçasını həm də qardaşının o qıza ismarıcı kimi qəbul eləmişdi. Bundan çox sıxılmışdı. Uzun müddət şeirin təsirindən qurtulub özünə gələmməmişdi.

Şəhidlik adının ucalığına yüksəlsə də, Malik öz nakam gedişi ilə bu ailəyə sonsuz bir səssizlik və sükut gətirmişdi. Elə bu sükutun ağır havasından Mirzə baba dünyasını dəyişmişdi. Gilas nənə yorğan-döşək xəstəsi olmuşdu. Qabil müəllimin gizlində axıtdığı göz yaşlarından gözləri nurunu itirməyə başlamışdı. Zenfira ana isə ölmüşdü oğlunun ölüm xəbərini eşidən gündən. Yaşayan ancaq quruca cismi idi. İş dalısınca da gedirdi, üzüm də becərirdi, həyət-baca işlərinə də baxırdı, ancaq bunların hamısını

bu dünyadan getmiş bir adam kimi eləyirdi. Ruhu isə elə o gündən Malikə qoşulub Malik gedən dünyanın sakini olmuşdu.

Kamilə isə bütün bunları görə-görə, duya-duya əzablı bir ömrün nəfəs kəsən dairəsində yaşamağa bənzər, amma çox da yaşamağa oxşamayan bir auranın içərisində sabahlardan sabahlara gedirdi.

Elnarə oxuyurdu... Onun oxumasından çox sıxılırdı Kamilə. Elə bilirdi Elnarə oxumur, onun nakam qardaşına ağı deyir...

İlqarla Vəliyullanı görəndə qəlbindən bir göynərti keçirdi. Onların o gündən susan nağaralarının səsini eşitməsə də, keçmişdə qalan o günlər yadına düşür və onu ağrıdırdı.

O gün isə... O gün bir başqa gün idi. O günün işığı da başqa günlərin işığından seçilirdi. Və Kamilə, elə bil, yenidən doğulurdu...

X-X-X

Baxşı əmi yenə yay çardağından yorğan-döşəyini götürüb həyətin o başına, çaya yaxın bir yerə gəlirdi ki, bəlkə sakitlik tapıb bir-iki saat mürgüləyə. Yayın dəlisov vaxtları yenə dəli-dəli gəlib özünü kəndə çatdırmışdı. Bütün həyətlərdən ətrafa səs-küy yayılırdı. Ən çox da bizim həyətimizdən. Axı bizim Bakıdan gələnlərimiz də başqa həyətlərə gələnlərdən çox olurdu. Qardaşlar, onların arvadları, bir də hərəsinin iki-üç uşağı. Bunları bir yerə yığanda yekə, lap yepyekə bir ailə alınırdı. Və hələ hərdən qardaşlarımdan biri zarafat eləyib “Bu döşək mənimdi, axşam mən yatacağam bu döşəkdə” – deyir, gündüzdən özünə gecə yatmaq üçün tədarük də görürdü. Kənddə ata-anası olan gəlinlərimizdən bəziləri yer darısqallığını bəhanə eləyib aradan sivişir, bir də atası gildən sabah qayıdıb gəlirdilər. Sənubər, Təranə ata evinə getməyə daha çox meylli idilər. Nazilə ilə evimizə yeni gələn Vasifin həyat yoldaşı Lalə isə o qədər də ata evinə getməyə meyl eləmirdilər. Nazilə birinci gəlin kimi özünü

ağır-batman aparırdı. Lalə isə bu evə yenicə gəldiyindən ata evinə tez-tez getməyə utanırdı. Valehin həyat yoldaşı Əhliyə isə Bakıdan olduğuna görə burada getməli elə bir yeri yox idi. Şəfaətə qalanda o, kənddə olan evimizin yerli gəlini kimi bütün möhnəti boynuna götürmüşdü. Buna görə evdə olan çox işləri o, idarə eləyirdi və dədəsinin ocağına getməyə də vaxt tapmırdı. Bir də o, kənddə qonaq deyildi axı, başqa vaxt, Bakıdan gələn gəlinlər gedəndən sonra da anasının yanına gedə bilərdi.

Gəlinlərimiz bir-birindən ağıllı və tədbirli idilər. Hər şeyin yerini bilirdilər. Böyüklə böyük kimi, kiçiklə kiçik kimi danışmağı bacarırdılar. İki-üç gəlin bir yerdə olan ailələr var idi ki, söz-söhbətləri ilə aləmi qatıb-qarışdırırdılar. Bizdə isə belə deyildi. Gəlinlər dost-doğma bacı kimi rəftar edir, bir-birinin sözünü udmağı bacarır, dillərdə dastan olan mənfi qayın arvadı sindromunu sındırırdılar. Bu ya evin mühitindən irəli gəlirdi, ya gəldikləri evlərin tərbiyəsindən qaynaqlanırdı, ya da sadəcə, həmişə bir yerdə yaşamadıqları üçün qonaq obrazında özlərini yaxşı aparmağı mənimsəmişdilər. Bir də baş gəlinimiz Nazilənin çox həlim və hər kəsin yerini bilmək bacarığı o biri gəlinlərin özlərini necə aparmasında əsas rol oynayırdı. Hər nə idisə, mən bu gəlinlərin hamısını çox istəyirdim. Elə bacım Tamella qədər. Ən azı ona görə ki, onlar mənim əzabım qarşısında geri çəkilmir, məndən bezmirdilər. Bakıya qonaq gedəndə Bakıda qulluğumda dayanırdılar. Üzümü qırxır, paltarlarımı dəyişir, yeməyimi, içməyimi vaxtı-vaxtında verirdilər. Ən çətini isə kənddə olanda əvvəl Şəfaətin, sonra isə Lalənin üstünə düşmüşdü. Yazı-pozularıma görə uzaq-uzaq yerlərdən yanıma qonaqlar gəlirdi. Bu qonaqları qarşılamaq, yola salmaq bu iki gəlinin boynunda qalırdı. Bir dəfə...

Günortaya az qalanda rayon qəzetinin redaktoru zəng eləyib, ümumi redaksiya kollektivi ilə bizə qonaq gəlmək istədiklərini deyəndə, mən həyəcandan sarımı uddum. Ona görə yox ki, qonaq gəlməsini sevmirdim. Məni həyəcana gətirən başqa səbəb var idi. Axı on beş-iyirmi nəfəri qarşılayıb, yola salmaq çətin məsələydi. Evdə də o anda qonaq qarşılamaq üçün tədarükün

olmaması həyəcanımı bir az da artırırdı. Bu anda Şəfaət sakit-sakit qarşımda dayanıb, elə bil, mənim həyəcanımın üstünə sərin su səpdi.

-Heç darıxma, bu saat Fikandan ət alacağam, Aqana deyəcəyəm o biri şeyləri alıb gətirsin. Bir-iki saata hər şey hazır olacaq.

Dediyi kimi də oldu. Məni də səliqəyə saldı, iki-üç cür yemək də hazırladı. Qonaqlar gəlib yetişəndə qonaq qarşılamaq üçün hazırlıq işlərinin hamısı artıq başa çatmışdı...

Üzünə deyə bilməsəm də, ürəyimdə bir dünya boyda təşəkkürümü göndərdim gəlinimizə. Bəs üzünə niyə deyə bilmirdim? Üzünə deməyə dilim dönmürdü. Sanki ailəsiz olduğuma, yarsız qaldığıma görə gəlinləri günahkar bilirdim. Elə bilirdim onlar bir gözəli bişirib, mənim ürəyimə həmdəm eləyə bilərlər. Bunu niyə istəmirdilər, daha orasını bilmirdim. Bir də orasını həzm eləməyə gücüm çatmırdı ki, mənim yarsız qalmağımın bir səbəbi gəlinlər idisə, on səbəbi qardaşlarımın özü idi. Qardaşlarım məni bütöv eləməyə təşəbbüs etsəydilər, gəlinllər bu təşəbbüsün iki əlli tərəfdarı olacaqdılar. Və mən bilmirdim niyə, ürəyimdə qardaşlarımdan yox, onların xanımlarından incik düşürdüm. Sonralar qardaşlarımın bu məsələyə soyuq yanaşmalarının səbəbini başa düşdüm. Onlar hər hansı bir qızın məni ürəkdən sevəcəyinə, könül bağlayacağına inanmırdılar. Zəif, çəlimsiz görkəmimə bir qızın vurulacağına inamın olmaması onları bu mövqedə dayanmağa məcbur edirdi.

Onsuz da qəlbi bizə istəklə yoğrulan və atamızın ölümündən sonra mehri-məhəbbətini bütövlüklə bizə bağlayan Fəridə xanımın düşüncəsi isə qardaşlarımdan çox fərqlənirdi.

-Sən heç kəsə qulaq asma, bala.

-Bəs neyləyim?

-Öz gələcək həyatın haqqında düşün.

-Düşünməklə iş düzəlmir, qoca.

-Ona görə ki, fərsizsən. Qızlara söz deməyi bacarmırsan. Ürəkdə qız sevməklə ailə qurmaq olmaz. Ürəyində sevdiyin qızların hamısı indi başqa ocağın çırağını yandırırlar.

-Qoca, bir söz desəm, heç kimə deməzsən ki?

-İndiyə qədər sənin sözünü bir adama dediyimi eşitmisən?

-Onda qulaq as. Uzaq-uzaq dağların arxasında bir qız var, onu sevirəm, o da məni sevir.

-Boy, qurban olum sənə, o qızı hardan tapmısan?

-Hələ heç kimə bu barədə danışma. Gəlinlər anası gilə gedəndə bu barədə sənə danışaram.

-Deyirəm axı, telefonu niyə gözündən iraq qoymursan.

Gənclik yaşımın qüruba doğru əyilməsi Fəridə xanımı çox qorxudurdu. Elə bilirdi bir-iki il də bir gözəli ovlaya bilməsəm, daha ömürlük subay qalacağam. Mənim özümdə də belə bir narahatlıq artıq baş qaldırmışdı. O qızın qəfil zəngi bu narahat hisslərimin üstünə xəfif yağışlar yağdırdı.

-Siz məni tanımırsınız. Mən isə artıq sizi tanıyıram.

-Hardan tanıyırsınız ki?

-Kitablarınızı oxumuşam. Şair Zaur da sizin haqqınızda danışıb mənə. Həm də televiziyada görmüşəm sizi.

-Şair Zaur mənim haqqımda sizə danışıbsa, onda hər şeyi olduğu kimi deyib. Mənim həyatıma oxşar bir həyat yaşayan bu insan yalan danışmağı və bər-bəzək içərisində yalanı gizlətməyi bacarmır.

-Yaxşı insanların hamısı belədir.

-Kitablarım necə, xoşunuza gəlibmi? Bir oxucu kimi yazdıqlarım sizi qane edirmi?

-Özü də çox. Mən özüm də yazı-pozu adamıyam, şeirlər yazıram, ona görə sözə qiymət verməyi bacarıram. Yazdıqlarınızda həyatın özü var. İnsanların taleyi, obrazlar o

qədər canlı, diridirlər ki, adam, hətta, öz obrazını da görür bu qəhrəmanların arasında.

Bu telefon danışıqlarının sayı çoxaldıqca, bir-birimizə olan münasibətimiz də başqalaşırdı. Artıq belə telefon danışıqları yalnız yazı-pozu mövzusu üzərində qurulmurdu. Həyatdan, insanlardan, dünyanın gəlişindən, gedişindən... daha sonra isə məhəbbətdən danışmağa başlamışdıq. Hələ üzünü görmədiyim o qızın çox məntiqli danışığı, mühakimə yürütmək bacarığı məni özümdən alıb uzaqlara, onun yanına aparırdı. Ancaq sonda bunun əsl məhəbbətə çevriləcəyinə, ailə qurulması ilə bitəcəyinə inamım çox az idi.

Bakıdan gələnlərin sayı çoxalandan, yayın səsli-küylü günləri başlayandan bizim telefon danışığımızın da sayı azalmışdı. Elə bil, bu mövzunu qabartmağa hələ cürət eləmirdik. Tək mən yox, elə o qızın özü də bu mövzuda çox ehtiyatla, ürkək-ürkək danışırdı. Bu mövzuda danışmağı çətinləşdirən bir başqa səbəb də var idi. Qızın anası dönə-dönə ona xəbərdarlıq eləmişdi, demişdi, əgər ailə həyatı qursan, ancaq və ancaq öz kəndimizə ərə gedə bilərsən. Ölsəm də səni başqa yerə buraxmaram. Bunu mənə qız bir az sonralar dedi. Və elə o anda bu sevdamın da baş tutacağına inamım başdan-ayağa əriyib yox oldu.

-Onda biz özümüzü niyə aldadırıq ki?

-Səni bilmirəm, ancaq mənim bir kimsəni aldatmaq fikrim yoxdur.

-Axı məni hələ görməmisən.

-Görmüşəm.

-Harda görmüsən?

-Televizorda. Bir dəfə isə toplantıda görmüşəm səni. Əsas məsələ də elə o toplantıdan sonra başlayıb.

-Nə məsələ?

-Elə onda, səni görən andaca düşünmüşəm ki, sənə qəlbimdə olan istək sevdalı bir məhəbbətə çevrilə bilər.

-Bəs onda mənə niyə yanaşmadın?

-Utandım. Düşündüm ki, gözlərimin giləsində gizlənən o sevdanı görə bilərsən.

Qızın bu sözlərindən ruhumda parlaq bir işıq yandı elə bil. Ömrümdə ilk dəfə bir qızın məni sevdiyinə inandım. Amma bu sevginin yolunda hələ çox möhnətlərə dözmək, əzablardan keçmək lazım gələcəkdi.

Elə bu istəyin işığında uzaq bir yol qət eləyib o qızın görüşünə getdim. Müxbir işləyən dostumun iş otağında ilk dəfə görüşdüm o qızla.

Qız sakitcə dayanıb mənə baxırdı. Mən də ona. Danışa bilmirdik hələ. Hələ ki, danışan lal baxışlarımız idi. Nə qədər beləcə dayanıb bir-birimizə baxmışdıq, beş dəqiqəmi, on dəqiqəmi, ya saatların ölçüsünə sığan bir müddətəmi, orasını nə qız bilirdi, nə də mən. Amma bu lal baxışlar dilin danışığından çox sözlər deyirdi. Axı dilin dediyində yalanlar, qeyri-səmimiyyət ola bilərdi. Baxışın dediklərində isə yalandan, qeyri-səmimiyyətdən əsər-əlamət ola bilməzdi. Baxışlar yalan “danışmağı” bacarmırdılar. Mən də baxışların işığından tutub o qıza hər şeyin həqiqətini deməyə çalışdım. Hələ bir az üstünə ağırlıq da gətirdim ki, qız haqq-hesabından bu ağırlığı tarazlaya bilsin.

-Gördünmü məni?

-Gördüm.

-Necə gördün?

-Elə təsəvvür elədiyim kimi.

-Bəlkə o təsəvvüründə və gördüyündə yanlışlıqlar var?

-Başa düşmədim.

-Yəni mən göründüyümdən də ağır fiziki durumda ola bilərəm. Elə əslində belədir də. Bu mənim qızla ilk görüşə gəldiyim anın görünüşüdü. Yəni... hələ özümü yığışdırdığım, topladığım vəziyyətin anıdı... Görürsənmi, siqareti də çox çətinliklə yandırıram... Bütün bunları sənin düşünməyin lazımdı. Sabah

məni yarı yolda qoyub qaçsan, indiyə qədər topladığım bütün hörmətimi, izzətimi itirə bilərəm. Sənin də adının yanına ad qoşular.

-Bütün bunları mən götür-qoy eləmişəm. Özü də uzun müddət. Yuxusuz gecələrimin hesabına.

-Və...

-Səni həmişəlik sevə biləcəyimə inanmışam.

-Axı mən sənin qardaşın deyiləm.

-Bilirəm onu. Səni davadan əlil qayıda biləcək qardaşım qədər və sevgilim kimi sevəcəyəm.

Malik sonuncu dəfə döyüşə yollananda bacısına dediyi "Mən davadan əlil qayıtsam, ərə getmə, ömrü boyu mənə bax" – sözlərindən və Malikin davadan əlil yox, şəhid qayıtmasından sonra Kamilə əlil arabasında oturan insanlara bir başqa gözlə baxdı. Onları qardaşının sağ qalan cismi kimi qəbul elədi. Mərhəmət yox, məhəbbət bəslədi belə insanlara. Və bir gün o adamı, yəni məni tanıyanda, tale yazısının üzünə güldüyünə inandı. Öz qəlbində, ruhunda, iç dünyasında o, adamı sevməyə başladı.

-Bəs anan nə deyir bu işlərə?

-Anam heç nə bilmir ki. Bilsə, razılıq verməyəcək.

-Onda nə edək? Yaşımızın bu vaxtında ürəklərin rəhmə gələcəyini gözləyək?

-Bilmirəm...

-Zəng edib, özüm sənin ananla danışaram.

-Nə deyərsən?

-Deyərəm, biz sevirik bir-birimizi. Sonra da açıb bütün vəziyyəti danışaram ona.

-Yox, zəng eləmə. Anam bir az sərt adamdır, aləmi bir-birinə qatar.

-Öyrənmişəm axı, deyirlər, yaxşı qadındır.

-Orasını demirəm, mənim anam onsuz da bu dünyada ən yaxşı anadır. Ancaq bu məsələdə razılıq verəcəyinə qətiyyən inanmıram. Atam razılıq versə də, anam razılıq verməz.

-Onda belə danışaq, mən sənə on gün düşünməyə vaxt verirəm...

-Mən artıq qərarımı vermişəm...

-Yox, yenə düşün, yenə götür-qoy elə, bu yükü daşımağa gücün çatacaqsa, məni ömürlük sevməyi bacaracaqsansa, onda mən bu işin yolunu taparam.

Kamilə durub getdi. Mən də evimizə qayıtdım. Ancaq bu qıza qarşı telefonda başlanmış sevdam o gündən sonra alovlanıb bir isti məhəbbətə çevrildi. O on günün tez ötüb-keçməsini arzuladım. Amma on gün ötməmiş telefonda onun ötkəm səsi qulaqlarımdan keçib düz ürəyimin şah damarının üstündə dayandı.

-Mən o günləri sənə dedim axı, artıq qəti qərarımı vermişəm. Bütün ömrümü sənə həsr eləməyə hazıram və bu gücü özümdə hiss edirəm.

Bu sözlərdən sonra mənim dəli bir sevdalıq yolçuluğuna çıxmamağım mümkün deyildi.

Gəlinlər də artıq mənim gözlərimdə yaranan dəyişikliyi hiss eləməyə başlamışdılar.

-O, qız kimdi elə?

-Doğrudanmı səni sevir?

-Sabahların işıqlı olacağına inanırmı?

-Bəlkə...

Bu iş qabarıb üzə çıxandan sonra bu bəlkələrin sayı da çoxalmağa başlayırdı. Elə-belə danışanlar, qəlbimi açmaq üçün səmimiyyətdən çox uzaq olan ütülü sözlər deyənlər, hədyan söyləyənlər... Hələ tanımadıqları o, qıza böhtan atanlar da

tapılırdı. Bunlar mənim üzümə deyilənlər, qulağımın eşitdikləri idi. Gör hələ arxada nələr deyirdilər. Bəlkə də o, qızı pis yolun yolçusu, mənimlə bir olaraq öz adını təmizə çıxarmaq cəhdi kimi qiymətləndirənlər də vardı. Bəlkə yox, bəlkəsiz beləlləri mövcud idilər və bu mövcud olanların hansı günaha imza atdıqlarını mən indidən bilirdim. Belələrinin haqq mizanı qarşısında necə cavab verəcəklərini düşünəndə, tüklərim ürpəşirdi. Yandıqları alovun içindən onların naləsi gəlib qulaqlarıma çatırdı. Və çox qəribəydi ki, belələrinə nifrət eləmək əvəzinə yazığım gəlirdi onlara.

Yay günlərinin hələ istisi bərkiməmiş mülayim bir səhər çağında məsələnin ciddiliyi gedib Bakıda böyük qardaşıma da çatdı. O, onu gözləmələrini, elə bu gün özünü kəndə yetirəcəyini deyib, axşamüstü fikirli-fikirli özünü ata evimizə çatdırdı. Məndən başqa bütün ailə üzvlərini böyük otağa yığıb məsələnin əsl mahiyyətini öyrənməyə çalışdı. Məndən başqa niyə? Əsas fiqur bu məsələdə mənim özüm deyildimmi? İş burasındaydı ki, bizim böyük ailənin əzəldən gələn bir utancaqlıq ənənəsi var idi. Ailə qurmaq istəyənlər çox da üzə çıxa bilməzdilər. Baxmayaraq ki, mənim heç də az yaşım yox idi, yenə də o pərdə məsələsi məni görünməz bir yerdə saxlayırdı.

Uzun müzakirədən sonra qərara gəldilər ki, o kəndə elçi getsinlər. Mən bu xəbəri Kamiləyə çatdıranda bir müddət telefonda qızın səsi kəsildi. Hiss elədim ki, bu xəbərdən özünü itirdi. Axı o tərəfdə heç kim onun on yeddi dağın o üzündə arabada oturan əlil bir oğlana ərə getmək istədiyini bilmirdi. Və Kamilə bu xəbərin üzə çıxmasından çox qorxurdu.

-Sən yavaş-yavaş anana anlat məsələni.

-Yox, anlada bilmərəm.

-Necə yəni?

-Həmin gün bizim sevdamızın son günü olar.

-Heç nə olmaz. Onda qoy bizimkilər gəlib hər şeyi sizinkilərə anlatsınlar.

Kamilə day bir söz demədi. Duydum ki, həzin-həzin ağlayır. Nəyə görə ağladığını elçilər onlara gedib-gələndən sonra bildim.

Böyük qardaşım, Vasif, bacım, bir də onun həyat yoldaşı Güloğlan elçi getmişdilər. Qonşular bu gələn adamların elçi olduqlarını biləndə, bir-birinə xəbər göndərmişdilər.

-Xəbəriniz var, necə ütülü adamlar Kamiləyə elçi gəliblər?

-Yox bir... Bəlkə yenə müxbirlərdi, gəliblər Malikdən yazmağa?

-Vallah yox, dedilər, elçi gəliblər.

-Bəxtəvər...

Amma qardaşım məsələni açıb Kamilənin ata-anasına deyəndən sonra bu bəxtəvərlikdən onların üzündə əsər-əlamət belə görünmədi. Zenfira ananın rəngi ağarıb xəstə adamların görkəminə bənzədi.

-Zenfira xanım, üzümə bax, bu məcburiyyətlə olan bir iş deyil, sevda məsələsidir. Dedim ki, Rasim çox qabiliyyətli oğlandır. Əlil arabasında otursa da, gəzib-yeriyənlərdən çox iş görür. Yazır, yaradır, mübarizə aparır, insanlara yaşamağın yollarını öyrədir. Qalan tərəfi isə sizlikdir. Nə qərara gəlsəniz, bizə xəbər eləyin.

Elçilər geriyə dönəndən sonra yaxınlar bir-bir Kamilə gilin evlərinə gəlməyə başladılar. Hamı gözaydınlığı verməyə gəlirdi.

-Gözün aydın, ay Zenfira...

-Allah xoşbəxt eləsin, Qabil müəllim...

Onlar isə dinmir, deyilən sözləri eşitmirmiş kimi səssizcə dayanıb, gələnləri yola verirdilər.

-Nə olub, ay qız, yenə deyəssən uzaqdır, dağın o üzüdür?

-Doğrudan elədir, bacı, vallah, aman-zaman bir qızım var, onu uzaqlara verə bilmərəm.

-İndi nə uzaq, ay bəxtəvərin qızı, dünya bir ovuc boyda olub. Burdan dünyanın o başına əyripilan bir saata aparıb-gətirir.

-Nə bilim axı...

-Nə bilimi-zadı yoxdu, bəxti açılıb, qoy getsin xoşbəxt olsun.

Real vəziyyəti açıb deyə bilmirdi gələnlərə. İçindən qovrula-qovrula qalırdı. Elə bil, canının ən duyğulu yerində dünyanın özü boyda bir boşluq yaranmışdı. O boşluqdan daralırdı nəfəsi, boğulmağı gəlirdi. Lap əzəldən istəmirdi qızının yad yerlərə ərə getməyini, o da ola... Daha bu tərəfini heç düşünmək belə istəmirdi.

Adamların ayağı çəkiləndən sonra Qabil müəllim ona yanaşıb qəribə-qəribə üzünə baxdı.

-Bu nə elçilikdi belə, ay arvad?

Zenfira ana dinmədi. Gözünü bir nöqtəyə zilləyib baxdı.

-Əzəldən bilirdinmi, bu haqq-hesabı?

Zenfira ana yenə danışmadı. Elə bildi ağzını açıb bir kəlmə danışan kimi hönkürüb ağlayacaq.

-Ordan bura gəliblər. Ağır-batman adamlar. İndi biz onlara nə cavab verəcəyik?

Daha dözmədi ana. Bütün hikkəsini bu sözlərə düyünləyib pəncərənin o tayında oturan qızının sifətinə çırpdı:

-Zəng elə, de ki, bizim sizə veriləsi qızımız yoxdur. Məhəbbət bir su kimidirsə, mən o suyun yolunu bağladım.

-Axı...

-Axısı yoxdur, ay kişi, zəng etməyə üzün gəlmirsə, mən özüm zəng edərəm.

Uzaqdan yenə Elnarənin yanıqlı avazı gəlirdi. Bu dəfə məhəbbətdən oxuyurdu. Oxuduğu məhəbbət şərqisinin sonunda hicranın vüsala dönüşü olacaqdımı, burasını Kamilə də bilmirdi.

X-X-X

-Rövşən...

Səsdən diksinib arabanın təkərini bir az da qabağa fırlatdı. Təkər daşa ilişib uçurumun düz qarşısında dayandı.

-Neyləyirsən burada?

Arabanın tutacağından yapışıb bütün gücü ilə arxaya çəkdi.

-Bəs demirsən buradan üzü aşağı...

-Elə mən də ona görə...

-Yaxşı, lazımsız sözləri danışma. Gör nə deyirəm sənə.

Bəhruz təntiyə-təntiyə arabanı təhlükəsiz yerə çəkib Rövşənlə üzbəüz dayandı. Rəngi ağappaq ağarmışdı. Görünür, Rövşənin uçurumdan aşağı uçacağını görüb bərk qorxmuşdu.

-Doxtur Bakıdan zəng eləyib.

-Nə deyir ki?

-İsraildə bir xəstəxana ilə danışıb. Deyiblər, sənin orada müalicən mümkündür.

-Nə olsun, İsrailə getməyin bir ətək xərci var, bu tərəfini düşünmüsünüzmü?

-Maliyyə tərəfini də danışmışıq. Sənin belə işlərlə işin olmasın.

Bəhruz onu çəkib düz yola qədər gətirdi. Bundan sonra yol artıq hamarlaşırdı.

-İndi biz hara gedirik?

-Sənədləri təcili düzəltmək lazımdır. Üç-dörd günə yola çıxmalıyıq.

Yenə Rövşənlə üzbəüz dayanıb siqaretini alışdırdı. Və elə bu anda Rövşənin gözlərindəki gur işığı görüb dərindən nəfəs aldı.

Bəhruz onun uşaqlıq dostu idi. Bir yerdə orta məktəbdə oxumuşdular. Bir yerdə də davaya getmişdilər. O, ağır yaralanıb

geriyə qayıdanda Bəhruz hələ də düşmənlə çarpışırdı. Orta məktəbi yaxşı oxumasa da, öz bacarığı ilə xırda biznes qurmuşdu. Biznesindən qazancının bir hissəsini min bir bəhanə ilə dostuna verirdi. Ki, dostu əziyyət çəkməsin, davaya-dərmana pul çatdırmağa gücü olsun.

-Bəhruz...

-Ay can.

-Əgər mən oradan sap-sağlam geriyə qayıtsam, görəsən Xəyalə məni görəndə hansı duyğuları keçirəcək?

-İndi Xəyalə başqa birisinin ömür-gün yoldaşıdır. Onun adını çəkməyə artıq sənin haqqın yoxdur.

-Bilirəm, ancaq...

-Sən gərək oradan sağlam qayıdandan sonra elə bir qız tapıb ailə həyatı qurasan ki, o qız Xəyalədən on dəfə gözəl, iyirmi dəfə ağıllı, yüz dəfə vəfalı bir qız olsun.

Rövşən düşdükləri hamar, ucu-bucağı görünməyən yollara baxıb sinədolusu köks ötürdü.

-Mənə də bir siqaret ver.

Siqaretin tüstüsü onun duyğularını bir az da dumanlandırdı...

X-X-X

Telefonun dəstəyini özüm qaldırdım. Amma elə o andaca hiss elədim ki, bu zəngin havası başqa havalardan çox fərqlənir.

-Müzəffər müəllimi olarmı?

Qadının səsindəki əzabdan üşüyüb dəstəyi tez qardaşıma uzatdım.

Telefonda danışa-danışa qardaşımın rənginin ayazıdığını aydınca duydum. Elə evdəkilərin hamısı onun dəyişdiyini, səsinin

solduğunu gördülər. Dəstəyi üstünə asıb heç nə demədi. O biri yan otağa keçdi. Nazilə onun yanına gedib qayıdanda isə... Hamı Nazilənin üzünə baxırdı. O, bir qədər tərəddüddən sonra zorla eşidiləcək səslə:

-Deyir, qızı vermədilər - dedi və başını aşağı saldı.

Əslində qardaşlarım oradan gələndə onların qırımından işin yaxşı olmadığını hiss eləmişdim. Bir də Kamilənin telefon zəngimə cavab verməməsi məndə çox böyük əminlik yaratmışdı ki, işlər Kamilənin dediyi kimi oldu. Yəni, işin üzə çıxması bu qəribə sevdanın bitməsi ilə nəticələnə bilərdi.

Mən isə yenə də qərib gecələrin qəribə duyğular selində vurnuxaraq, Tanrımla üz-üzə qalmışdım. Bu xoş olmayan elçilikdən sonra birdən-birə, elə bil, bizim yayda səs-küylü olan həyətimizin də nəfəsində bir daralma, sıxılma oldu. Evimizin səsi azaldı. İndi evimiz, həyət-bacamız qışda soyuqdan üşüyüb tənha qalan günlərinə oxşayırdı. Gəlinlərimizdən anası gilə gedən gedir, qalan isə evin bir küncünə çəkilib öz dərdi-səri ilə baş-başa qalırdı. Mən yenə açıq eyvanımızda gecənin yarısına qədər otururdum. Ay qonaq gəlib səmadan mənə boylananda onunla dərdləşir, sinəmdə yığılıb qalmış ağrılarımı ağ vərəqlərə köçürürdüm. Ay vəfasız adamlar kimi məndən uzaqlaşıb gedəndə isə yenə öz dünyamla qucaqlaşır, o dünyanın dümağ nurunda yuyunaraq özümə gəlməyə çalışırdım. Yenə mələklər yan-yörəmdə dolaşırdılar. Məni ovundurmağa çalışır, gözəlliyi, saflığı, şəffaflığı görməyim üçün mənə güc verməyə cəhd eləyirdilər. O güc məndə var idi onsuz da. Amma necə də olsa, bu olaylardan sonra ruhumda nurun yerini qaranlıqlar doldura bilərdi. Və elə buna görə də Tanrımı yaxalayıb, bir ürək sirdaşı kimi onu suallar atəşinə tuturdum.

<<-Bu nədir belə, Tanrım, belə də Tanrılıq olar?

-Nə gəlib ki, mənim Tanrılığıma?

-Bu qədər kədər yığınını bir insana yükləyərlərmi?

-Nə elədiyimi bilirəm.

-Günahlarım var yəqin?

-Günahsız yalnız mənəm.

-Bəs onda...

-Sınaqdasan. Bütün insanlar bu dünyaya bir sınaq üçün, imtahan verməyə gəlirlər.

-Belə ağır imtahanmı olar?

-Sən həm də başqaları üçün bir imtahansan.

-Səbrin də bir həddi var axı.

-Elə insanlar yaratmışam ki, onların səbrinin hüdudları yoxdu.

-Deyirsən, yəni, onlardan biri də mənəm?

-Bunu dözümün göstərər.

-Dözümüm hərdən ağrıyır, Tanrım.

-Onda səbrin səni yarı yolda qoya bilər.

-Bəs onda muzdum nə olacaq mənim?

-Kamil insanlar muzd üçün yaşamırlar.

-Məndəmi o ucalığa doğru gedirəm?

-Sən o ağ yolun dönməz yolçularındansan...>>

Elə bil, ay yenə doğdu üzümə. Amma bu dəfəki ay hər dəfə gördüyüm aylardan deyildi. Yekə, yepyekə bir nur topuydu ki, göydən sallanıb mənə baxırdı. Buna baxmaq da demək olmazdı. Baxmaq belə olmaz axı. Ay öz ay təbəssümü ilə üzümə gülümsəyirdi. Mən yuxarılara qalxıb o nur topası ayı qucaqlamaq, bağrıma basmaq istəyirdim. Amma nə qədər çalışırdımsa, ona çata bilmirdim, onun bir addımlığında qalıb, vüsalını həsrət kimi sinəmə düyünləyirdim.

O gecədən qəlbimə yeni ruh, yeni nəfəs gəlsə də hələ qarşıda çox böyük aşırımlar var idi. O aşırımları aşıb, taleyin ağappaq yoluna çatmaq üçün hələ çox, lap çox mübarizə aparmalıydım. O

mübarizənin bir qolunda o, qız da var idi. Və o, qızın hansı səbirlə mənim yolumu gözlədiyini hələ bilmirdim.

X-X-X

-Qızım, qulaq as mənə.

Ana bu söhbətdən sonra ilk dəfə qızını qarşısına qoyub, ona öyüd-nəsihət verirdi.

-Gözlərimin içinə bax... Az-çox bizim də bu dünyanın işlərindən xəbərimiz var. Məhəbbətin, sevdanın nə olduğunu da bilirik. Nağıllarda, dastanlarda çox oxumuşuq belə-belə şeyləri. Şah qızının meşədən odun yığıb satan kasıb bir oğlana dəlicəsinə aşiq olması haqqında da rəvayətlər eşitmişik. Amma belə yox də, qızım, özünü düşünmürsən, heç olmasa bizi düşün. Bir yox, iki yox, on yeddi dağın o tərəfi... Mən demirəm ki, oğlan belədi, elədi, bu da onun qismətidi. Allah hər kəsə bir tale yazır, bu da o adamın alnına yazılan yazıdı. Heç bu məsələni dilə-dodağa gətirmək lazım deyil. Bir adam da bilməməlidir ki, səni istəyən əlil arabasında oturan bir adamdır... Ancaq yenə deyirəm, bizə rəhmin gəlsin, atan üç gündü ağzına bir loxma çörək də almır. Səni elə qəmgin görüb, özü də qəm dəryasına batır. Səni bu dünyadan çox istəyir axı, özün bilirsən... Bu sevdanın qapısına bir qıfıl vur, açarını da at Sirab gölünün düz ortasına...

-Ay Zenfira...

Həyət çəpərinin o tayından qonşuları Leylanın səsi Zenfiranı fikrindən yayındırdı.

-Nə olub, ay Leylan, yenə niyə səsini başına atmısan?

-Bir bura bax. Telefonunuz niyə işləmir?

Həm bu söhbətin ağırlığından qopmaq üçün, həm də Leylanın qışqırtısını kəsməsi üçün Zenfira bir anda özünü çəpərin yanına çatdırdı.

-Nə qara-qışqırıq salmısan?

-Sənin boyunu yerə soxum.

-Niyə axı?

-Öləsən, üstündə ağlayam.

-Onsuz da mən o may günündən ölmüşəm, Leylan. Görünən mənim quru cismimdi.

Leylan sarı simə toxunduğunu hiss eləyib pərt oldu. Söhbətin səmtini uzatmadan mətləbin üstünə gətirdi.

-Ay qız, elçiləri niyə ağzıyuxarı göndərmisən? Mən görməmişəm, görənlər deyir, gələnlər çox ütülü-mütülü adamlar olublar. Nə olub, qızı nə qədər yanında saxlayacaqsan?

-Gələnlər, doğrudan da, çox şəstli adamlar idilər. Amma, Leylan, mən Kamiləni uzaq diyara ərə verə bilmərəm.

-Bayaq Xədicəni gördüm, o, da sənin kölgəni qılınclayırdı. Bu tərəfdən də Almaz. İnan, arvadlar səni boğacaqlar.

-Boğsalar da, doğrasalar da bu sevda başa gələn deyil, ay Leylan. Məni dağa-daşa salmayın.

Leylanı birtəhər yola verib yenə qızının yanına döndü. Kamilə bayaqkı kimi donub, gözlərini bir nöqtəyə zilləmişdi.

-Ona görə gərək ananı, atanı incitməyəsən. Belə iş tutsan, Malikin də ruhu rahat olmaz.

-Yox, ana, o tərəfini düz demirsən. Əslində, Malikin ruhunun çiçək açması üçün bu sevdanın böyüklüyünə inanmışdım.

-Axı o, sənə özünün əlil arabasında oturduğunu demişdi...

-Mən isə onu həm qardaşım Malik bilib ürəkdən qulluq edəcək, həm də ömür-gün yoldaşım kimi sevəcəkdim.

-Yox, qızım, ürəyimi yumşaltmağa çalışma. Nə qədər gözəl ana olsam da, bu işdə sənin yanında deyiləm. Malik elə vəfasız çıxıb bizi qoyub getdi, Namiqi baban götürüb apardı, bəs bizim ocağımızın çırağını kim yandıracaq?

-Qızlar onsuz da başqa ocağın çırağını yandırırlar.

-Dediklərimi anlamadınmı, qızım?

-Anladım.

-Anladınsa, bu söhbəti birdəfəlik qurtar getsin. Mən sözümü telefonda onlara dedim.

-Ana, artıq bir söz demədin onlara?

-Yox, qızım, ananı tanımırsan? Onlara güldən ağır bir söz demədim. Yalnız onu söylədim ki, bu iş baş tutası iş deyil.

Bu zaman həyətin o biri başından başqa bir qonşu Zenfiranı səslədi. Ana Kamilənin könlünü alırmış kimi qucaqlayıb sinəsinə sıxdı. Sonra üzündən öpdü. İçindən ağladığı hiss olunsa da, bunu gizlətməyə çalışıb bir daha qızını bağrına basdı.

-Mənim ağıllı qızım. Yəqin bu işimə görə heç zaman məni günahkar bilməyəcəksən?!.. Gedim görüm Şəfiqə nə deyir. Ordan da çölə gedəcəyəm. Neçə gündü çölün işləri tökülüb qalıb. Axşama yeməyə bir şey hazırlayarsan.

Kamilə min bir xəyallar içində boğula-boğula kəllə otağa keçdi. Malikin güllərlə əhatələnmiş şəklinə baxıb için-için ağladı. İstədi qardaşına giley eləsin anasından. Amma nədənsə ürəyi gəlmədi. Bəlkə Malikin ruhunun sıxılacağından ehtiyat elədi? Hər nə isə tez gözlərini qardaşının baxışlarından uzaqlaşdırıb yenə yan otağa qayıtdı. Əlini əsə-əsə telefonun dəstəyinə uzatdı. Telefon yenə işləmirdi. Stansiyada oturan qızdan soruşmuşdu, telefon xəttlərində bir qapanma-zad yox idi. Görünür, telefonu evdən kəsmişdilər. Kamilə bir gözü pəncərədən eşiyə baxa-baxa, o biri gözü ilə telefonun haradan ayrıldığını öyrənmək üçün məftilin keçdiyi yerləri aradı. Dolabın arxasından tapdı o ayrılmış yeri. Anasının alaqapıdan bayıra çıxdığını gözləyib məftili bir-birinə caladı. Telefonda uzun işləmə səsini eşidəndə, elə bil, bir anda ürəyi sinəsindən qopub içinə düşdü. Titrək barmaqları ilə nömrəni yığmağa çalışdı. Amma nə qədər elədisə, nömrəni sona qədər yadına sala bilmədi. Beynində dolaşan duman yaddaşının

yaxşı işləməsinə mane olurdu sanki. Birtəhər nömrəni yadına salıb yığdı.

-Alo... Mənəm...

-Tanımadım...

-Nə tez unutdun məni?

-Ayyyy... Sənsənmi qız?

-Gözləmirdin?

-Düzünə qalsa yox, elə bilirdim bu həngamədən sonra mənə olan sevgini bütünlüklə ürəyindən çıxarıb dəryaların qoynuna atmısan.

-Mən sənə sözümü demişdim axı. Heç bir çətinlik, təzyiq, hətta, ölüm təhdidi belə məni bu yolumdan döndərə bilməz... Bəs indi sənin fikrin nədir?

-Doğrusunu desəm, bütün günü gözlərim telefonun üstündə qalırdı. Bir kəsin telefonu çox məşğul eləməsinə imkan vermirdim. Sənin zəngini gözləyirdim. O zəng gəlməyəndə isə... Səndən əlimi üzməyə başlamışdım. İstəyirdim bu ağır durumdan xilas olmaq üçün Bakıya gedim, gələn yaya qədər buralara gəlməyim. Bəlkə də biryolluq gedim buralardan.

-İndi necə?

-Artıq bu düşüncəmin üzərinə yekə bir daş qoydum.

-Sən Bakıya gedərsənsə, bil ki, mən də gedərəm, ancaq Bakıya yox, başqa yerə.

Öləziyən ümidimin üstünə yenidən qız çıraq tutdu, elə bil. Sanki çiçəkləri solan məhəbbət ruhumun qönçələri dirçəlib təzə-tər oldu. Daha heç bir başqa hiss bu hissin qarşısına qaranlıqdan halə çəkə bilməzdi.

-Onda başqa yolumuz qalmır, Kamilə.

-Anlamadım.

-O gün düşündüyümüz kimi hərəkət etməliyik. Sən buna hazırsanmı?

-Mən səninlə olmağa hər zaman hazıram.

-Onda xeyirə qənşər...

Kamilə küçə qapısının cırıltı ilə açıldığını eşidib xeyirin hara qənşər olduğunu dəqiqləşdirə bilmədi. Dəstəyi asıb tezcə telefon məftilinin bayaq aralanan yerindən yenə araladı. Eyvana çıxanda Ocu əminin qızları Zeynəb, Zəminə, Səbinə və Samirənin odlu-alovlu eyvana yeridiklərini gördü. O andaca bildi ki, anasının əmisi qızları onu yuyub-sərməyə gəlirlər.

-Hardadı bu Zenfira?

-Çölə gedib.

-Onu elə çöldə ölsün. Bu nə oyundu çıxarır?

-Nə olub ki, niyə belə odlu-alovlu gəlmisiniz?

-Əmisi kimi qızını evdə təbərrik saxlayacaq? Kim elçi gəlir, dədəm geri qaytarır. Dədəmizin hirsini Zenfiradan çıxmağa gəlmişik.

-Yaxşı, əyləşin, hirsiniz bir az soyusun.

Qızlar əyləşib Kamiləni ilk dəfə görürmüşlər kimi yeddi duyğu ilə üzünə baxdılar.

-Ay qız, niyə belə saralıb-solmusan? Məhəbbətin qəm atəşi yandırıb qəlbini?

-Ya bəlkə Leyla kimi səhralara düşmək fikrin var?

-Heç nə bilmirəm, qızlar, anam vermədi, mən də çəkilib yerimdə oturdum.

-Yerində oturdun? Nə tez təslim oldun? Onda görünür sənin işin məhəbbətlik deyilmiş. Daha bizim Zenfiranı günahkar çıxarmağa da haqqımız yoxdu. Biz də elə bilirik o, oğlandan ötrü dəli-divanəsən, demə, dəli-divanə olmağı hər kəs bacarmaz.

-Mən də bacarmadım, qızlar, yoruldum, usandım, bezdim və başladığım yoldan geri çəkilib əvvəlki bozumtul həyatımı yaşamağa başladım.

-Onda qızlar, durun ayağa, durun gedək, belə tez vəfasından dönən qızları görəndə özümdən də acığım gəlir.

Qızlar Zenfiraya qarşı hikkəli gəldikləri kimi Kamiləyə qarşı nifrəti də üstünə qoyub çıxıb getdilər. Kamilə isə yenidən təzələnən duyğular dənizində üzərək, özünün gələcək həyatının qəribə, bəlkə də hələ indiyə qədər dünyada görünməyən məhəbbət nağılının cizgilərini cızırdı. Bu nağılda bir yox, bir neçə yeddi başlı əjdaha onun qarşısını kəssə də, o, inadla irəli gedir və sonda göydən başına qıpqırmızı almalar düşürdü.

X-X-X

Bu məhəbbətin uğurla vüsal xəttinə yetişəcəyinə artıq məndə çox böyük bir ümid var idi. O ümidi yaradan əsas səbəb elə Kamilənin davranışından irəli gəlirdi. Çox möhkəm dayanmışdı bu işin arxasında və heç geri çəkilmək fikrinə düşməsini də artıq gözləmirdim. Orda onu sıxırdılar, burda isə məni. Sıxırdılar deyəndə ki, onu bu işdən geri çəkilməyə məcbur etməyə çalışan yalnız anası idi. Atası yuxulu adamlar kimi bu sevdanın təsirindən ayılıb özünə gələ bilmir, qızının ağılsız bir iş tutmayacağını düşünərək hər şeyi Tanrının qismətinə buraxırdı. Elə bu da Zenfiranı hövsələdən çıxarırdı.

-Sən niyə bir söz demirsən, ay kişi, bu qız yalnız mənim qızımdır?

-Nə deyim axı? Tanrının qismətinə inanmışam hər zaman. Bir də mən qızımı səndən yaxşı tanıyıram. O, heç zaman ağılsız bir iş görməz.

-Bu ağıllı işdi deyirsən?

-Hər halda, qızıma inanıram. Bir də sən niyə axı özünü dağa-daşa salırsan, demirsən ki, qızım hər şeyi anladı, bu sevdanın daşını birdəfəlik atdı?

-Orası elədi. Amma qızın gözlərindəki dəruni kölgəni görəndə, elə bilirəm, o sevdanın xəstəliyindən hələ qurtula bilməyib.

-Heç qorxub eləmə, hər necə olsa, onun getdiyi yol bizi biabırçılığın girdabına aparmaz.

-Burdan hamı məni yamanlayır. Deyirlər, ağlın yoxdu, huşun yerində deyil. Bilmirlər axı, mən nələr çəkirəm. Bu yandan da Namiqlə Şəhla da inciyiblər bizdən.

-Onlar niyə inciyir?

-Dünən gəlin Gilas nəvəmizi götürüb gəlmişdi bizə. Elə qaş-qabaqlı idi ki, heç bu işlərdən də bir kəlmə soruşmadı. Mən də heç nə demədim. Elə Namiq də soyuq danışır mənnən. Görünür, bu işi onlardan gizlətdiyimizə görə bizdən narazı qalıblar.

-Deyəydin də onlara.

-Nə deyəydim, ay kişi, yandırıb-tökürsən məni. Xalxın uşağını dilə-dişə salmalıyam? Nə olsun əlildir, arabada oturur, axı o, da bir atanın, bir ananın övladıdır.

-Orasını düz deyirsən. Ancaq heç fikir eləmə, mənim qızım bizim adımızı heç zaman bədnam eləməz.

-Görək də...

Onların nə görmək istədiyini mən tam-dürüst dərk eləyə bilmirdim. Öz fikirlərim isə dumanlar içində çırpınsa da, sonluğu aydınlığa getmək üçün yollar arayırdı.

Bu hadisələrin yaratdığı gərginlik və stressdən sonra daha qardaşlarım və xanımları kənddə qala bilmədilər. Yayın səsli-küylü, bərli-bəzəkli, gülüstan çağında hərəsi bir bəhanə qurub geriyə qayıtdılar. Hələ məni də Bakıya aparmaq üçün ciddi cəhd elədilər. Onların fellərini başa düşürdüm. Məni Bakıya belə tez aparmaqda məqsədləri o idi ki, o, qızı unudum, bir daha onun haqqında düşünməyim. Əslində o ailədən çox xoşları gəlmişdi.

Hətta böyük qardaşım müxtəlif vasitələrlə o ailənin cikinə-bikinə qədər hər şeyini öyrənmişdi. Əmin olmuşdu ki, o ailə ilə qohum olmaq bu ailəyə aşağılıq gətirməz. Elə ondan sonra da adamlarını götürüb o qapıya getmişdi. Bəs bu məsələnin baş tutmamasına çalışmaqda məqsəd nə idi? Kamilənin anasının dediyi sözlərdən sonra daha o ailəyə narahatçılıq gətirmək istəmirdilər. Şəhid anası kimi sinəsi dağlı olan bu qadını yeni bir sınaq qarşısında qoymağa vicdanları razı olmurdu. Mən isə onların məni Bakıya aparmaq təklifini də, o, qızdan əl çəkmək fikrini də qulaqardına vurub öz "yolumla" o, qıza doğru getməkdə davam edirdim.

Təkcə Fəridə xanım mənim arxamda dayanmışdı. O, da gizlincə. Aranı bir az sakit görən kimi məni yanlayır, ürək-dirək verirdi.

-Ay bala, onların danışmaqlarına baxma, hər biri ailə qurub, yar sahibi olub. Sən niyə ömrünün sonuna qədər subay qalmalısan? Qız səni ürəkdən sevirsə, heç kimə qulaq asma, get götür, gətir evimizə.

Kamiləyə bu təklifimi bildirəndə, bir az fikrə getdi, sonra isə inam və cəsarətlə "Necə istəyirsən, elə də elə, mənim həyatım daha sənsiz ola bilməz!" – dedi və onun bu cəsarətindən sonra mən artıq onu evimizə gətirməyin yollarını aramağa başladım.

O inam və cəsarətdən yoğrulmuş sözünü deyəndən sonra hələ pıçıltıyla mənə yazdığı şerini də söyləmişdi telefonda.

Artar bu dünyaya kinim, nifrətim,
Sıxar ürəyimi qəmin, həsrətin.
Bağlanar taleyim, bəxtim qismətim,
Əgər səndən ayrı salsalar məni.

Axar gözlərimin yaşı silinməz,
Qəlbim qan ağlayar, ürəyim gülməz.
Nə təbib, nə loğman dərdimi bilməz,

Əgər səndən ayrı salsalar məni.

Saf, təmiz sevgiyə inamım itər,
Çiçəkli könlümdə qanqallar bitər.
Həyatım puç olar, gəncliyim gedər,
Əgər səndən ayrı salsalar məni...

Keçmişindən fərqlənən səssiz-küysüz bu yay gecələrində mənim tənha qalıb ayla pıçıldaşmağımın, Tanrımla dərdləşməyimin vaxtı-vədəsi artıb, çoxalmışdı yaman. Elə bil, ay da zamanın gərdişini dəyişmişdi bir az. Gündüzün işığı hökmünü gecənin qaranlığına verən kimi ay bir anda daşlı-kəsəkli yollardan keçib düz başımın üstündə dayanırdı. Getməyi də elə-belə olmurdu. Sanki səmadan sallanıb saatlarla mənə baxırdı. Buna baxmaq da demək olmazdı. Dil açıb sevgili yarım kimi mənimlə danışır, ağrılarıma sığal çəkir, gözləri dolub-daşır, şöləsindən ürəyimə nur seli axıdıb handan-hana çıxıb gedirdi. Sonra Tanrım gəlirdi. Mələklərini yanıma göndərib özü ucalardan baxır, sükutun səsi ilə danışır, sükutunun səsindən qopub gələn sədası qulaqlarıma çatırdı: "Mən bəndələrimi  eyni ölçüdə, eyni biçimdə yaradıram. Birini o birisindən ayırmıram. Birini az, birini çox sevmirəm. Kodlaşmış ömür verirəm bəndələrimə. O kodun cizgilərini düz tapıb yol gedənlər işığa, səhv tapıb yol gedənlər isə qaranlığa məhkum olurlar. İnsan kamil ola bilər. Çünki mən insanı kamil olmaq üçün yaratmışam. Bu zirvəyə yetməyənlərin günahı məndə deyil. İnsan hər zaman özü günahkardı. Ruhu yanan insanın əzabını görəndə, bir Tanrı kimi mən də əzab çəkirəm. Kamilliyə yüksələn və mənim dərgahıma təşrif gətirən bəndələrimi görəndə isə bir qüdrət sahibi kimi qürrələnir, fərəhimdən Yerə bol işıq göndərmək istəyirəm. Nə yazıqlar olsun ki, mənim dərgahıma yüksələn kamil insanlar az, ruhu yanan, ölüb gedən nadanlar isə çox, lap çoxdu. Hərdən belə nadan insanların əlində qalıb nalə qoparan Yerin əhvalından bir Tanrı kimi pərişan oluram. Niyə yerbəyer eləmirəm hər şeyi, niyə ədalətimi Yerə göndərib haqqı nahaqqın əlindən almıram? Ona görə ki, mən insana ağıl

vermişəm, demişəm, qoy ağlını işlətsin, göylərin nurundan çəkib qəlbinə işıq paylasın. Və onda görsün ki, insanı qüdrət sahibi yaratmışam. Belə cılız bəndəciklərimi görəndə mənim də Tanrı ruhum halbahal olur. Özüm utanıram Tanrılığımdan. O günün gələcəyini, bəndəmin işıqla, nurla yuyunacağını gözləyə-gözləyə on səkkiz min aləmin bir gur işıqda birləşəcəyinə inanaraq, öz Tanrı səbrimin atəşində yanıram.”

Hələ çox sözlər deyirdi Tanrım mənə. Elə sözlər pıçıldayırdı ki, o sözləri dilimə gətirməkdən belə qorxuram. Qorxuram ki, dilim dinc durmayıb o sözləri adamlara desə, adamlar məni daşa basar, daş-qalaq edər, Prometey kimi odlara atıb yandırar. Ona görə Tanrımın mənə pıçıldadıqlarını bir sirr kimi büküb ürəyimin bir küncünə atırdım. İnsanlar ağıllananda mən sirr kimi büküb ürəyimin bir küncünə atdığım o Tanrı kəlamlarını götürüb adamlara ərmağan edəcəyim arzusu ilə yaşayırdım. O sirr bükümünü açıb adamlara demək qüdrətim olacaqdımı görəsən, orasını bilmirdim. Amma ümid topası ruhumda oturub azadlığa çıxacağı günü gözləyirdi.

Və Tanrımla hər görüşümüzün sonunda üzümə təbəssüm dolu yağış yağdırıb çıxıb gedirdi. Bu Tanrı təbəssümünün işığı idi məni yaşadan. Həm də mənə güc verən. O gücün görünməyən aurasında işlərimi qururdum. Və bu çətin işin də öhdəsindən o gücün sayəsində gələ bildim.

Artıq hər bir işi yoluna qoymuşduq. Kamilə bir bəhanə ilə evlərindən çıxıb şəhərə, yazarların ocağına getməliydi. Mən bir maşın tapıb onun arxasınca yollanmalı və onu götürüb evimizə gətirməliydim. Bunu dillə demək elə asan görünürdü ki, adama. Amma mənim durumumda olan birisinin bu işi uğurla sonuclandırması heç də asan məsələ deyildi. Bütün mənalarda çətin idi. Həm fiziki durumumla bağlı, həm də ailələrin bu işə laqeyd münasibətinə görə. Ancaq mən getməliydim. Necə olur-olsun məni sevən o, qızın arxasınca getməli və onu özümə yar eləməliydim. Lakin işi bir az qəlizləşdirən başqa amillər də var idi. Evdəkilər, Bakıda olanlar elə bilirdilər ki, mənim bu qurğulardan xəbərim yoxdur, amma vaxt keçdikcə hər şey aydın olurdu mənə.

Demə, kənddə maşını olan adamların hamısına bir yolla çatdırılmışdı ki, mən onlara şəhərə getmək istədiyimi desəm, onlar bir bəhanə tapıb məni aparmaqdan imtina eləsinlər. Üç nəfərə dedim, beş nəfərə dedim, hərəsi bir bəhanə quranda, işin nə yerdə olduğunu anladım. Və düşünüb bunun da çarəsini tapdım. Evdən çox bayıra çıxmayan, kənddən xəbəri olmayan uşaqlıq dostum İsmayıla zəng elədim.

-İsi...

-Eşidirəm, qardaş.

-Sabaha nə işin var?

-Nə lazımdır ki, sənə?

-İki yüz kilometrlik yola benzinin çatarmı?

-Sənin yolunda iki min kilometrə də çatar.

-Onda sabah səhər tezdən gəl, məni şəhərə apar.

-Mənim bu gözlərim üstə.

Bu sözləri İsmayıla çox yavaşdan dedim. Elə dedim ki, yandan eşidib şəhərə getməyimin səbəbini ona anladan olmasın.

İndi qalırdı səhər məni maşına qoyacaq adamı tapmaq. Heç düşünmədən Qürbətə zəng elədim.

-Səhər tezdən gəl, məni İsmayılın maşınına qoy.

-Xeyir ola, səhər-səhər?

-On yeddi dağın o üzündəki şəhərdə işim var.

-Yaxşı gələrəm.

Lap səhər tezdən, hələ günəş al şəfəqlərini kəndin üstünə səpələməmiş Qürbət özünü yetirdi. Beş-on dəqiqədən sonra İsmayıl da gəlib çıxdı. Qürbət məni maşının qabaq oturacağına yerləşdirib özü arxaya keçdi. Maşın yorğun bir siqnal verib yola düşdü.

-Mənim İcra hakimiyyətində işim var, yoxsa, özüm də sənnən gedərdim.

-Əşi, sən dövlət adamısan, işində ol. Mən İsmayılla gedib qayıdaram.

-Bilmək olmazmı, nə məsələdir?

-Qayıdanda bilərsən.

İsmayıl da şübhəyə düşmüşdü. Yolboyu elə hey mənim qılığıma girib o uzaq yola getməyimin səbəbini soruşur, bir əməlli cavab almayanda, şübhəsi bir az da çoxalırdı.

-Sən mənim canım, şəhərə niyə gedirsən?

-Bir cinayət eləmək istəyirəm.

-Cinayət?

-Hə. Qorxursan tutulmaqdan?

-Yox, qardaş, sənin üçün ölümə də gedərəm.

-Onda, düzünü eşit, bil: qız qaçırmağa gedirəm.

-Qız qaçırmağa?

İsmayıl heyrətlə üzümə baxıb maşının sürətini aşağı saldı, bir kənara çəkib saxladı.

-Ürəyimə dammışdı, vallah, sənin nə qədər od-alov olduğunu mən bilirəm. Allaha qurban olum, yaxşı ki, sənə əl-ayaq verməyib. Kişi işini bilir axı. Bilir ki, dəvəyə qanad versə, dəvə aləmi bir-birinə qatar.

-Az danış, sür maşını.

-O bir qız var idi ey, onu gətirməyə gedirsən?

-Deyəsən, elədir.

-Evdə bilirlər?

-Bilsəydilər, səni çağırmazdım.

-Onda necə olacaq bəs?

-Qorxursan?

-Kimdən?

-Qızın adamlarından. Ya da bizimkilərdən?

-Mən heç kəsdən qorxmuram. Sənin üçün ən çətin işin öhdəsindən gəlməyə də hər an hazıram.

-Onda yolçu yolda gərək.

İsmayıl maşını işə salıb sürətini ən yuxarı həddə qaldırdı. Yarım saatdan sonra maşın artıq yazarlar ocağının qarşısında dayanmışdı.

-İsmayıl, içəriyə keç, Xalidə xanıma de ki, Kamiləni çağırsın.

Kamilə bir azdan qapının ağzında göründü. Xalidə xanımla sağollaşıb sakitcə maşının arxa oturacağında əyləşdi.

-Bu Gülzəddin camaatı davakar camaatdı, gərək tez aradan çıxaq.

Bu sözləri mən demək istəyirdim. Ancaq İsmayıl məndən qabağa düşdü.

-Düz deyirsən, dava-şavadan ötrü sino gedirlər. Mən çox sürətli maşın idarə olunmasını xoşlamaram, amma indi istisnadır, sürəti yüz əllidən aşağı salma.

Elə bil, o günləri yol-polis əməkdaşları da mənim tərəfimdə idilər. Heç biri sürətə görə maşını saxlayıb cərimə eləmirdi. Sanki əllərində tutduqları o rəngbərəng dəmir parçası ilə mənim yoluma işıq çiləyir, xeyir-dua verərək, yola salırdılar.

-Bir on kilometr qaldı. Şeytan Gülzəddinlilərin qulağına pıçıldamasa, daha gəlib bizə çata bilməzlər.

İsmayılın bu sözlərindən sonra artıq bu çətin işimin öhdəsindən uğurla gəldiyimi hiss elədim. Daxilən bundan qürurlandım. Özümə qarşı inamım ən yuxarı həddə çatdı.

Qonşular maşından qərib bir qızın düşdüyünü görəndə, məsələnin nə yerdə olduğunu duydular. Rəhmətlik Baxşı əminin gəlini Xuraman bir anda özünü mənə yetirib ucadan xeyir-dua verməyə başladı.

-Xoşbəxt olasınız, qonşu.

-Çox sağ ol, Xuraman. Aqan evdədirmi?

-Yox, neynirsən ki?

-Deyirdim, məni maşından düşürsün. Bəs Fikan necə, bilmirsən evdə olar, yoxsa yox?

-Dayan, bu saat Kürsüm bacıdan soruşum.

-Yox, heç kəs lazım deyil, özüm götürəcəyəm... Gəl, başımın bəlası... Allah səni xoşbəxt eləsin.

İsmayıl axırıncı çətinliyin öhdəsindən də gəldi. Məni sinəsi üstünə alıb eyvana gətirdi.

Kamiləni Fəridə xanım öz doğması kimi qarşılayıb içəriyə aparmışdı. Uzaqdan onun sevincdən titrəyən kövrək səsini eşidirdim.

-Səni görüm xoşbəxt olasan, qızım. Rasimin bu gününü lap çoxdan gözləyirdim. İndi rahat ölə bilərəm. Bilirəm ki, bundan sonra balamın nazını çəkəcək sonası yanındadır. Heç deyilənlərə fikir vermə, bala. Rasimdən möhkəm yapış. Bil ki, sən Rasimi xoşbəxt elədiyin kimi o, da səni xoşbəxt edəcək. Tanrı bu qismətin fərmanını öz dərgahından yazıb göndərib. Qurban olum fərman yazana.

Lalə də asta səsi ilə nəsə deyirdi Kamiləyə. Onun dediklərini başa düşmürdüm. Bir az da başım dumanlı olduğundan bapbalaca səsi olan Laləni eşitmək indiki məqamda çox çətin məsələ idi.

Kəndimizin başqa bir səmtində ev qurub ayrılıb gedən Şəfaət isə hələ deyəsən, xəbərdən hali deyildi. Yoxsa, Fəridə xanımdan sonra bu işin ikinci gizli tərəfdarı olan bu gəlinimiz çoxdan özünü yetirib bizə xeyir-dua verərdi.

Vasif isə lap səhər tezdən durub getdiyi işini yola verib, elə biz qayıdandan bir az sonra evə çatdırmışdı özünü. Bəlkə də bu hadisənin baş verəcəyini anlayıb, bir bəhanə ilə evdən uzaq düşmüşdü ki, sonrakı mərhələdə məsuliyyəti boynundan ata bilsin. Amma indiki məqamda çox həyəcanlı idi, rəngi-ruhu da

qaçmışdı elə bil. Bir yerdə qərar tuta bilmir, gah həyətdə gəzişir, gah küçə qapısından eşiyə boylanır, gah da narahat-narahat gəlib mənim yan-yörəmdə otururdu.

-İndi qızın arxasınca gəlsələr, necə olacaq?

-Qorxma, gəlsələr, özüm cavablarını verəcəyəm.

-Cavab verməyə qalsa, mən də cavab verərəm, amma qorxuram səs-küy ola, biabır olaq.

-Burda biabır olmalı bir şey yoxdur. Biz uşaq deyilik, bu qərarı çox düşünəndən sonra vermişik.

Vasifin narahatlığını başa düşürdüm. Kənddə seçilən ailələrdən biri olan evimizin qapısı ağzında səs-küyün qopmasını heç mən də istəmirdim. Amma bir tərəfdən də ürəyimin sakitliyi hər şeyin xeyirli sonucla bitəcəyinə inam yaradırdı məndə. Elə bu inamla Laləyə dedim mənim arabamı sürüb içəriyə apardı. Mənim otağa gəldiyimi görən kimi dünyanın ən ləyaqətli qadını olan Fəridə xanım bizim tək qalmağımız üçün otağı tərk elədi.

-Xoş gəlmisən, qız.

-Çox sağ ol.

-Həyəcanlısanmı?

-Bir az.

-Evdən çıxanda anan bir şey hiss eləmədi ki?

-Yox, özümü çox sakit apardım.

-Siz tərəfdən hələ heç kəs bilmir bu işi?

-İndi telefonda böyük xalama dedim.

-Onda hazırlaş, indi gəlib səni aparacaqlar.

-Demişəm axı sənə, məni Allahdan başqa heç kəs səndən ayıra bilməz.

-Di onda mənim dünyama xoş gəldin.

-İkimizin dünyasına.

Kamilənin gözlərinin dərinliyində qəribə bir hissin közərdiyini apaydınca duysam da, o közərtinin altında ayrı bir nigarançılığın oturduğu da nəzərimdən qaçmadı. Birinci hiss sevdiyi bir insana çox çətinliklərdən keçərək qovuşmağın xoşbəxtlik cizgisi idisə, o birisi duyğu bundan sonra onu gözləyən yolun haralardan keçib, haralarda dayanacaq qorxusunun işartısı kimi yozula bilərdi.

-Bir pərvanə özünü odlara vurursa, o odun ölüm qorxusu da o pərvanəni yolundan döndərə bilmir.

-Bəs pərvanə ölmək yox, birini yaşatmaq istəyirsə, necə?

-Bu hiss o pərvanənin göylərdən gələn bəxtəvərlik əhvalıdır.

-Mənim qorxum odlarda yanıb məhv olmaq qorxusu deyil, Tanrının uca varlığını və müqəddəs yazısını bu nadan insanlara sübut etmək istəyidir.

-Onda bu yolun parlaq nuruna doğru Tanrından dözüm və dəyanət arzulayıram sənə!

Kamiləyə verdiyim bu xeyir-dua ilə, elə bil, öz gərilmiş duyğularımın da üstünə ilahi yağışlardan sular səpirdim. Və o yağışların altında dayanıb islandıqca özümə gəlir, başqalaşır, daha müqəddəs bir dünyanın sakininə çevrilirdim.

Güloğlan da gəlib çıxmışdı. O, da Vasif kimi narahatlığın əzabı içində çırpınır, özünə yer tapa bilmir, hər gələn maşının səsindən diksinib yollara boylanırdı.

Axşamüstü gəldilər onlar. Kamilənin adamları. Səs-küy salmadan, sakitcə keçib şüşəli eyvanda əyləşdilər. Əmilərim də gəldilər. Bir qədər uzun çəkən durğunluqdan sonra Abbas əmim özünü toplayıb üzünü qonaqlara tutdu:

-Əvvəla xoş gəlmisiniz... Allahın yazısı müqəddəs yazıdır. O yazını pozmaq insanın əlində deyil. O zaman insan Allaha asi çıxır ki, onun yazdığını pozmağa çalışır. Biz də gərək bu yazının Uca Yaradan tərəfindən göndərildiyinə əmin olaq. Və xeyir-dua verək bu sevib-sevilənlərə.

Gələnlər tərəddüd ağacının bozumtul yarpaqları altında çırpınsalar da, bu uca sevdanın qarşısında danışmağa başqa söz tapa bilmədilər.

-Onda razılığınız varsa, bu sevənlərə xoşbəxtlik diləyək və adətimizə uyğun olaraq, şəriət qanunu ilə onların kəbinlərini kəsmək üçün mollanın yanına gedək.

-Tanrı onların kəbinini göylərdə kəsib!

Fəridə xanımın astadan dediyi bu sözləri hamı eşitsə də, heç kəs dönüb arvadın üzünə baxmadı. Sanki hamı bu məhəbbətin ucalardan gələn təsirindən tilsimlənmişdi. Və elə Fəridə xanımın o sözləri də o tilsimlənmiş anın möhürünü vurdu.

X-X-X

Rövşənin öz ayaqları üstündə İsraildən qayıdıb gəlməsini adamlar daha bir Tanrı möcüzəsi kimi qəbul edirdilər. Əslində bəsirət gözünün qüdrəti ilə baxanda hər an, hər saniyə bundan da böyük Tanrı möcüzələrinin şahidi olmaq olardı. Ancaq o möcüzələri görmək üçün hər kəsdə bəsirət damarları açıq olmurdu. Rövşənin sapsağlam evinə dönməsinin möcüzəsini isə bəsirət gözləri ilə deyil, lap adi baxışla da görmək mümkün idi.

Rövşənin özü də bunun adi bir iş olmadığına inanırdı. Dönə-dönə əyilib ayaqlarına sarı baxır, gizlincə şirin-şirin onlara sığal çəkirdi. Elə bil, bununla neçə illər ağrıyan ayaqlarının könlünü almağa çalışırdı. Hələ hərdən iri güzgünün önündə dayanıb öz yerişinə, duruşuna da baxırdı. Və hər dəfə də sonda bundan təsirlənib gözləri dolurdu. Bir küncə çəkilib səssizcə ağlayır, özünə gələndən sonra qaldığı yerdən həyatına davam eləyirdi.

Bir az bundan öncə telefonda aldığı xəbər isə onu çox qəribə hisslərin ağuşuna atmışdı. Tanımadığı bir adam ona zəng eləmiş, filan yerdə Xəyalənin onu gözlədiyi xəbərini çatdırmışdı. Rövşən ikili yox, bir neçəli hissin təciri altında çabalayır, gah o deyilən

yerə gedəcəyi qənaətinə gəlir, gah da bu fikrindən dönüb o yerə getməyəcəyinə inandırmaq istəyirdi özünü. Axır ki, birinci hissin təsiri o biri hisslərdən qüvvətli çıxdı. Geyindi, özünü səliqəyə salıb deyilən o yerə getdi. Bunun bir zarafat, ya onun hissləri ilə oynamaq məqsədi daşıdığını da düşünürdü o yerə gedə-gedə. Amma uzaqdan Xəyalənin dayanıb solğun baxışlarla ona baxdığını görəndə qəlbindən təlatümlü burulğanlar kükrəyib keçdi. Bu otuz-qırx addımlıq yolu ötüb onun yanına yetişənə qədər Rövşənə elə gəldi ki, zaman dayanıb, irəli getmir. Bu vaxt aralığına nə qədər zamanın yerləşdiyini də düz-əməlli ayırd edə bilmədi. Ancaq bu yolun ən azı bir əsr vaxta sığdığını düşündü sanki. O bir əsrlik vaxtın sonunda gəlib əvvəllər bu dünyadan da çox sevdiyi o, qızın qarşısında dayandı.

-Salam, Xəyalə.

-Salam.

Xəyalə asta səslə Rövşənin salamını alıb, rəvan addımlarla irəliyə yeridi. O, elə hey qabağa gedir, Rövşən isə dalısınca gəlirdi. Düz bir vaxtlar Rövşənin əlil arabasında gəldiyi o uçurumun kənarına qədər yeridilər. Daha buradan o tərəfə yol qalmırdı. Bu yoldan sonra ölüm başlayırdı. Xəyalə çevrilib Rövşənlə üzbəüz dayandı.

-Elə bilirdim gəlməyəcəksən.

-Amma gəldim.

-Deməli, yenə də o vaxtlardakı kimi ucalardasan.

-İndi ikimiz də ucalardayıq.

-Kinayəni hiss edirəm.

-Bəlkə də bu kinayə yox, günaha verilən cazanın bir maddəsidir.

-Mən cəzamı almışam. Özü də artıqlaması ilə.

-Niyə? Sən ki, xoşbəxtlərin xoşbəxtisən.

-Mən heç zaman xoşbəxt olmadım.

-Mən isə səni xoşbəxt bilirdim.

Xəyalənin gözlərindən bir damcı yaş süzülüb yanaqlarından sinəsinə axdı.

-Sənə elədiyim nankorluğa görə Tanrı cəzalandırdı məni. O adam bir gün də məni sevmədi. Onun sevgilisi narkotik maddələr və başı gicəlləndirən dumanlı həyat idi. Dözə bilmədim, uzaqlaşdım ondan. İndi yenə sənin yanındayam. İstəsən, səni xoşbəxt edə bilərəm.

Bu dəfə bir damcı göz yaşı Rövşənin yanaqlarından axıb, çənəsinin üstündə düyünləndi.

-Mənim ən böyük cəzam sənin məni bağışlamağın olar. Və o cəzanı ömrüm boyu daşımağa da özümdə güc taparam.

-Sənə olan əvvəlki ülvi sevgimə görə o cəzanı sənə verməyə ürəyim gəlməz. Qəlbimdə olan sevgi damarlarım artıq korşalıb. Vəfasız bir insanın laqeyd duyğusundan o hisslərim yetim qalıb. Mənim sevgi duyğularımı sağaltmağa daha heç kimin gücü çatmaz. Ən vəfalı bir insanın da.

Rövşən bir az sərt, bir az ağır, bir az da kövrək addımlarla uçurumun kənarından uzaqlaşıb genişliyə çıxdı. Və bir fəryad dolu səs eşidib geri boylananda, Xəyaləni durduğu yerdə görmədi. Elə o anda qəlbindən izahagəlməz bir sızıltı keçdi. Göz yaşlarını əllərinin üstü ilə silib, böyük qara daşın üstündə oturdu. Ətrafda qəribə, nisgilli bir ölüm rüzgarı dolaşırdı. Ağlayan buludlar onun başının üstünə tərəf yeriyirdilər. Belə buludlar onun başı üstünü çox almışdılar həyatı boyunca. O, isə ölüm gətirən ağlayan buludların əlindən qaçıb yaşamağı bacarmışdı. Bu dəfə də bacaracaqdı. Bayquşların qulaqlarını giring eləyən səsindən baş götürüb işıqlı həyat yolunda yeriməyə güc tapacaqdı özündə. Daxilindəki səs, səda ona belə deyirdi. Sevgi duyğuları yetim qalsa da, o, ayaqları üstündə dayanıb, bu dünyanın vəfasızlığı acığına hələ yaşamalı və öz dünyasını ruhunda yaratmalıydı.

X-X-X

Üz-gözünə qəribə bir kədər, əsəbilik haləsi çökmüşdü. Heç onu belə görməmişdim. Mətbəxdə qab-qacağı bir-birinə çırpır, hirsli-hikkəli otaqdan-otağa keçir, hər dəfə də mənim üzümə baxıb nəsə deməyə çalışır, ancaq deyə bilmirdi. Bu dəfə otaqdan çıxanda əllərində tutduğu yükü görüb daha da təəccübləndim.

-Nə olub sənə, Kamilə? Hara gedirsən?

-Gedirəm. Səni sevdiyimə çox peşiman oldum. Anladım ki, səhv eləmişəm.

O anda, elə bil, ürəyimin içindən nəsə qopub damarlarıma düşdü. Damarlarımın arasında dolanıb düz başımın ortasında dayandı. Sanki ürəyimdən qopub başıma gələn o nə isə bütün yaddaşımı çözələyib olanları yadıma saldı. “Həə, deməli, buna görə deyirdilər ailə həyatı qurma. Bilirdilər ki, gələn adam mənim yanımda uzağı bir ay qalacaq. Sonra məni tərk eləyib gedəcək. Bir daha geri çevrilib arxasınca da baxmayacaq. Deməli, o adamlar məndən çox bilirmişlər, məndən ağıllı və düşüncəli imişlər. Bundan sonra mənim yaşamağımın da bir qəpiklik mənası olmayacaq. Mənimki bura qədərmiş...”

-Bu sənin son qərarındırmı?

-Son və qəti qərarımdır.

-Bəs nə ilə gedirsən?

-Ayaqlarımla gedəcəyəm.

-Ayaqlarınla? On yeddi dağın o üzünəmi?

-İyirmi yeddi dağın o üzünə də gedərəm. Təki səni tərk edim... Əlvida...

Çıxıb getdi... Heç çevrilib arxasınca da baxmadı...

-La ilahə illəllah...

Bu səs hardan gəldi? Atam çoxdan ölüb axı. Yəqin qeybdən etiraz eləyir gedən gəlininin arxasınca...

Məni tərk edib gedən Kamilənin yerində indi qara, qapqara bir kölgə qalmışdı...

Yuxudan ayılanda özümü tərin-selin içində gördüm. Ürəyimin çırpıntısından sinəmin hörük kimi qalxıb-endiyini hiss elədim.

-Kamilə...

-Ay can... Vay, vay, niyə belə tərləmisən? Qorxulu yuxu görmüsən bəlkə?

Tez yatağından qalxıb işığı yandırdı. Alt paltarlarımı dəyişib üzümdən öpə-öpə yenə yerimə uzandırdı. Mən isə hələ də heyrətlə onun üzünə baxırdım. O qorxulu yuxunun təsirindən ayrıla bilmirdim.

-Yuxuda nə görürdün elə?

-Görürdüm sən vəfasız çıxmısan, məni qoyub gedirsən.

-Hara gedirəm?

-Daha orasını görə bilmədim.

-Mən ancaq səndən ayrılıb ölümə gedə bilərəm. Bunu bilirsən axı.

-Elə onu bildiyimə görə gördüyüm yuxu dəhşətli gəldi mənə.

-Uzan yerinə, rahatca yat, mən ölüncə səninləyəm!!!..

Bu günlər ərzində Kamilənin mənə olan münasibətindən özüm də vəcdə gəlirdim. Sevimli həyat yoldaşı kimi sevirdi məni. Usanmadan qayğıma qalırdı. Ayaqlarımı gündə neçə kərə o yan-bu yana çevirsə də, ağrımı, əzabımı çəksə də, baxışlarında, yerişində, duruşunda bir yorğunluq, bir bezginlik duymurdum. Hələ hər ötən gündə o istəyin, o məhəbbətin çoxaldığını hiss edirdim. Və belə vaxtlarda uca bir yerdə dayanıb qışqırmaq, hayqırmaq, adamlara həqiqəti başa salmaq istəyi keçirdi qəlbimdən. “Eyyy, insanlar, qulaq asın mənə. Həqiqət siz bildiyiniz kimi deyil. Həqiqətin görünməyən tərəfi deyir ki, çarpayı dustağı olan, yeriməyən əlil birini də sevmək olar. O sevginin hüdudları görünməz. O sevginin sərhəddi, tikanlı məftilləri sevgini

içində girov saxlaya bilməz. Məhəbbət fiziki sağlamlıq axtarmaz. Ruhani dünyasının içindən gəlib tutar adamı. Əsir eləyər özünə. Mənim sevgimə inanmayanlar, kinayə edənlər, gülənlər yuxudan oyanın, bəsirət gözlərinizi açın, görün mənim, görün bizim sevgimizin saflığını. Məhəbbəti pula, fiziki duruşa dəyişən adamların yanında ucaların dayandığını da görün. Görün, ey insanlar. Görə bilsəniz, onda Tanrının qüdrətinə də şükür qılın. Bilin ki, insan Tanrının yaratdığı ən müqəddəs varlıqdır. Əgər insan belə bir varlıq olduğunu bilirsə, onda uca olur."

Elə bilirdim qəlbimdə hayqırdığım bu nidaları insanlar eşidirlər. Və utandıqlarından başlarını aşağı dikib yazıq görkəmləri ilə buz heykəlinə dönürlər...

Qaynanamın xəstələndiyini eşitmişdim. Qızının bu qəfil ayrılığından təsirlənən arvad xəstələnib yorğan-döşəyə düşmüşdü. Hələ üzünü görməsəm də, fikrim-zikrim bu qadının yanında idi. Onun yaşamasını istəyirdim. Ölüm xəbərini eşitsəydim, hardasa bir qatil qismində görə bilərdim özümü. Bir də bizim uca məhəbbətimizə onun da şahidlik eləməsini arzulayırdım. İstəyirdim görsün hər şeyi, duysun isti məhəbbətimizin saflığını. Bəlkə onda duyğuları dərbəşib ona həqiqətin nağılını pıçıldayardı. Mən də sevgili bir insan kimi onu bağrıma basıb hönkür-hönkür ağlayardım. Belə ağlamağı elə arzulayırdım ki...

Axır ki, gəldilər. Barışıq üçün qapımızı döydülər. Qaynanamın üzündə hələ kədəri getməmiş bir ifadə görsəm də, başqa, gizli bir ifadədə o duyğuların ayrı bir səmtə yönəldiyini də hiss elədim. Bu gizli səmtdə onun qızını bağışladığı hiss olunurdu. Məni qəbul eləmək istəyi sezilirdi. Barışığın sonunda qaynatam titrək səsiylə danışıb bizə xoş həyat diləyəndə, o hissləri oxudum onun gözlərindən...

-Bala, deyirdimmi sənə...

-Nəyi deyirdin, qoca?

-Deyirdimmi, bildiyini heç kəsə vermə?

-Mən də bildiyimi heç kəsə vermədim.

-Ona görə halal olsun sənə.

Fəridə xanım bu sözləri deyəndə dodaqları əsirdi. Sevindiyindən hissləri qabarıb üzdə dayanmışdı. O gündən beləydi bu qadın. Elə hey kövrəlir, göz yaşlarını gizlincə silir, xəfifcə əllərini qaldırıb Allaha dua qılırdı. Hər zaman mənim gələcəyimdən nigaran qalan bu xanımın, elə bil, gələcəyə xoş bir baxışı əmələ gəlmişdi. Daha o gələcəkdən qoxmurdu deyəsən. İnanırdı ki, həyatını mənim həyatıma calayan Kamilə daha məni yalqız, yetim, tənha qalmağa qoymayacaq.

Elə mənim özümdə də bu duyğular cücərib damarlarım boyu dolaşır, uzaqdan gördüyüm bir əlçim boyda işıq boyüyüb dünyamı al-əlvan nura qərq eləyirdi. Öz dünyamın mələkləri də üzümə gülümsəyirdilər. Tanrım isə... Tanrım indi başqa görkəmdə, ağappaq libasında görsənirdi gözlərimə. Hər gələndə də saçıma, gözümə sığal çəkir, öz Tanrı ağzıynan şirin-şirin laylalar deyib sonra çıxıb gedirdi. Birdəfəlik getmirdi ki. Yenə gəlmək üçün gedirdi. Ən çox da sirli-sehrli, qərib yay gecələrində gəlib gözlərimin qarşısında dayanırdı.

<<-Dözümün mübarək, bəndəm!

-Səbrin sonu aydınlıqmı?

-Özün şahid deyilsənmi?

-Şahidəm…

-Səbrin, dözümün sonunda uzaqda görünən işığı verdim sənə. O işığın gur seli səni bu dünyadan, günahlardan, yalanlardan, xəyanət, xəbislik və rəzalətdən götürüb uzaqlara, saf duyğuların hakim və bərqərar olduğu yerlərə aparacaq…>>

Tanrımdan gələn səda məni özümdən alır, ruhuma ayna tutur, könlümə sığal çəkirdi. O sakit yay gecələrinin ruhuna hopan belə qəribə duyğular mənim bu dünyaya baxışımı da dəyişirdi. Sanki bütün aləm bir sehr haləsinə bürünərək, məni sirli nağıllar aləminə aparırdı.

Daha yay ayları da keçmişlərdə olduğu kimi səsli-küylü olmurdu. Uşaqlar bir az böyüyəndən sonra hərənin başı öz kiçik ailəsinə qarışdığından böyük ailənin əzəldən gələn ənənəsinə son qoyulmuşdu. Biri yayda gəlib beş-on gün istirahət edə bilirdi. O birisi gələ bilmirdi. Ailə qayğılarından baş açıb ata yurduna baş çəkməyə belə vaxt tapa bilmirdilər. Bu məni təsirləndirirdi. Ancaq düşünəndən sonra bunun başqa yolunun olmadığı qənaətinə gəlib sakitlik tapırdım. Nə yaxşı ki, belə sakit və düşündürücü qərib yay gecələrində o, sevimli qadın mənim yanımda idi. Yoxsa, tənhalıqdan üşüyə bilərdim.

-Yenə nə yazırsan, Kamilə?

-Sənin nəsrlə yazdığını mən nəzmlə qələmə alıram.

-Qələmin sözünə baxırmı?

-Sənin qələmin kimi.

-Mənim qələmim çox etibarlı qələmdir. Ən çətin vaxtlarımda da mənim həmdəmim olub o qələm. Bütün dərdimi, qəmimi, gizli duyğularımı o qələmə danışmışam.

-Sona qədər səni dinləyə bilibmi o qələmin?

-Hələ danışdığımdan da çoxunu dinləyib.

-Bu necə olur?

-Mənim demək istəmədiyimi yazıb o qələm. Amma o qələmin yazdığını üzə çıxarda bilməmişəm, adamlardan gizlətməyə çalışmışam.

-Qələm səndən küsməyibmi buna görə?

-Bu aləmdə hər şey canlı olduğu kimi qələm də canlıdır. O da başa düşür, anlayır ki, hər həqiqəti yazıb üzə çıxarmaq olmaz. Onda insanlar səni başa düşməz, bir yad planetdən gəlmiş adam kimi səni qəbul edib, özgələr kimi baxarlar sənə.

-Qəribə fəlsəfədi. Görünür belə sirli haləyə bürünmüş yay gecələri səni qəribə düşünməyə vadar edir.

-Ola bilər. Bəs sən necə, belə sirli gecələrin sehrinə düşmürsənmi?

-Səni tanıyan gündən mən onsuz da sehrli aləmin sakininə çevrilmişəm.

-Onda bu qəribə axşamın duyğulu sehrinə sal məni.

Kamilə heç nə demədən səmaya səpələnmiş ulduzlara baxaraq, yenicə yazdığı şerini asta-asta mənə pıçıldadı:

Gəl qoymayaq heç vaxt solsun sevgimiz,
Uzun illər yadda qalsın sevgimiz.
Çoxlarına cavab olsun sevgimiz,
Bu sevginin qarşısında diz çökək,
And içəndə, sevgimizə and içək.

Sevgimizlə hər an sevinək, gülək,
Sevgimizi ən qiymətli var bilək.
Sevgiylə yaşayaq, sevgiylə ölək,
Əcəl gəlsə, dünyadan da bir köçək,
And içəndə, sevgimizə and içək.

Küsəndə də sevgi ilə barışaq,
Meydan quraq, sevənlərlə yarışaq.
Bu dünyada xoşbəxtlərə qarışaq,
Sevgi bağçamızda bitsin gül-çiçək,
And içəndə, sevgimizə and içək.

Sonra da ətrafın qulaq batıran lal sakitliyindən məqam oğurlayıb xırdaca üz-gözümə sığal çəkdi.

-And olsun o göydə sayrışan ulduzların düzümünə səni ölənə qədər sevəcəyəm! Sən mənim həyatımın özüsən. Sənin olan gündən öz dünyamı bir anda olsun sənsiz təsəvvür edə bilmirəm.

Mən artıq Kamilənin bu sözlərinə bir zərrənin ucu qədər də şübhə eləmirdim. Onun məni necə ülvi hisslərlə sevdiyinə inanırdım. Və hərdən özüm-özlüyümdə bu istək və sevginin qarşısında dəhşətə gəlirdim. Axı zəif vücudlu, əlil arabasına əbədi məhkum olmuş birisini bir sağlam qadın necə bu qədər uca və təmənnasız məhəbbətlə sevə bilərdi? Təbii ki, bu sevginin qarşılığında mənim də ona qarşı dərin və ölçüyəgəlməz saf məhəbbətim dayanırdı.

Ulduzlar isə hələ də bizə baxıb həsəd hissi ilə gecənin sehrindən ayrılmaq istəmirdilər.

Bu həsədi təkcə ulduzlar çəkmirdilər ki. Sapsağlam olan, ancaq ömür-gün yoldaşına bir az da olsun məhəbbə bəsləməyən kişilər, ərinin bütün xidmətlərinə rəğmən onu dərunu hisslərlə sevə bilməyən qadınlar da bu sevginin həsədini çəkirdilər. Yenicə məhəbbət cücərtisi ürəyinə düşən cavanlar da bu İlahi sevginin qarşısında əriyib ram olur, gələcək həyatlarında belə məhəbbətlə bir-birilərini sevəcəklərinə and içirdilər.

Daha qaynanam da o qadın deyildi elə bil. Qızı ilə barışıb onun sevgisinin yuxarılardan gəldiyinə inanmışdı. İndi qızını sevdiyi qədər məni də sevirdi. Telefonda səsimi bir az solğun eşidəndə təlaşa düşüb həyəcanla bunun səbəbini soruşurdu. Qaynatam isə... O, məni onsuz da əvvəl gündən qəbul eləmişdi. Və onun qəfil ölümü məni çox sarsıtmışdı. Bir vaxtlar məni görməyə gözü olmayan Namiqin həyat yoldaşı Şəhla da indi başqa bir düşüncənin adamı olmuşdu. Sanki mən mütləq on yeddi dağın arxasından işlək olmayan ayaqlarımla gəlməli və Kamiləni götürüb uzaqlara aparmalıydım. Şəhla üçün indi bu, Tanrının pozulmaz yazısı kimi qəbul olunurdu və bu qismətə dönə-dönə şükranlar qılırdı. Namiq də əvvəldən bu qismətə inandığı üçün bu sevgini övladlarına da təlğin eləməyə çalışırdı. Onun övladları məni ən doğma adamları kimi qəbul edir, qayğıma qalır, bir sözümün qarşısına əks sözün işarəsini qoymurdular...

Fəridə xanım isə qocalığından, canını saran xəstəliklərdən daha qorxmurdu. Bilirdi ki, öz bətnindən qopan doğma balası qədər sevdiyi bir kəsin həmdəmi olan bir insan var. Bizim yeni qurduğumuz xanimanımıza gələndə elə bəxtəvər görsənirdi ki, bu qadın. Elə bil, bütün dünyanı bir qızıl teştə yığıb ona verirdin. Qəribə-qəribə mənim üzümə baxırdı. Sonra da Kamilənin. Nəyisə, nələrisə demək istəyirdi. Amma deyə bilmirdi. Sanki özünün dediyi sözlərdən bizim gözə gələcəyimizdən qorxurdu...

Və bu ləyaqətli xanım dünyasını dəyişəndə, mən, elə bil, ikinci dəfə doğma anamı itirdim. Elə ağlayırdım ki, lap zavallı, yetim qalan uşaqlar kimi. Elə hamımız ağlayırdıq. Övladlar ananın ölümünə necə ağlayarsa, biz də eləcə ağlayırdıq Fəridə xanımın ölümünə.

Neçə dəfə yuxularıma gəldi ölümündən sonra. Hər dəfə də mənim ağaran saçlarıma sığal çəkib, yenə qayıtdı gəldiyi yerlərə. İndi də o dünyadan dualarını göndərirdi bizə. O duaların işığında yaşaya-yaşaya bütün çətinliklərdən keçib, ömrün qürubuna doğru gedirdik. Bəlkə elə o duaların görünməyən cazibəsi ağır xəstəliyə düçar olan Kaniləni yenidən xəstəliyin əlindən alıb mənə qaytardı? Və biz birlikdə yaşamağımıza davam elədik.

Qulu, Rəfiqə, Fəridə... Atamın, anamın, anam qədər sevdiyim doğma qadının adlarını yaşadan bu doğmaları indi mən fərəhlə çağırırdım. Yox, onlar övladlarım deyildilər. Övlad əta etmə məsələsində Tanrım düşüncələrə dalır, mənim yenə də səbirli olmağımı diləyirdi. Mən isə o dilək qarşısında kamil insan tək dayanıb, böyük Yaradanın varlığına inana-inana yaşayırdım. Və qardaşım uşaqları olan bu doğmaları, elə bütün qardaşım və bacım uşaqlarını köksümə sıxıb, övlad şirinliyinin dadını onlardan alırdım. Elə Kamilənin özü də. Bu uşaqları, bir də qardaşı uşaqlarını öz bətnindən çıxan doğma övladları bilib, böyük və ulu sevgilərlə bağrına basırdı...

Qardaşım Cəmilin övladı Elnur öz əkiz balalarına Sənubər və Rasim adlarını verəndə isə mən yenidən doğulduğumu hiss elədim. Və bu hissin qarşısında kimə və necə təşəkkür edəcəyimə bir kəs və söz tapammadım. Söz adamı olsam belə...

Ömrümüz öz axarı ilə ağappaq işığına doğru gedirdi. Həyatım nə qədər məşəqqətli keçsə də, ağrım-acım min insanın taleyinə sığsa da, Tanrımın mənə bəxşiş etdiyi mükafatlar o ağrı-acıları, o məşəqqətli ömrü ömrümün səhifələrindən silib aparır, yeni və parlaq bir cığıra salmaq üçün məni elə hey irəliyə səsləyirdi. O mükafatlar yazdığım kitablar, qazandığım oxucu sevgisi və məhəbbəti, doğmalarımın mənim ətrafımda sıx birləşməsi, bir də... bir də Kamilənin mənə göndərilməsi idi. Bu mükafatlara görə, hər dəfə öz dünyama dalanda, Tanrıma ehtiramla şükranlarımı yollayır, onun böyüklüyü qarşısında baş əyirdim.

Belə vaxtlarda mələklərim başımın üstündə, sağımda, solumda dolaşır, hər zaman olduğu kimi yenə ruhuma sığal çəkirdilər.

# HEKAYƏLƏR

# Durnalar qayıtmadı

Fəridə xanımın əziz xatirəsinə.

Durnalar o il yurda qayıtmadılar...

Ha boylandım, ha baxdım, durnaları görmədim ki, görmədim...

Yeriyə bilməsəm də, dizlərim üstə sürünüb evimizin qənşərindəki dağın ətəyinə qədər gəldim, əlimi gözlərimin üstünə tutub, mavi ənginliklərdə asılıb qaldım, yenə durnaları görə bilmədim...

Anam Bakıda xəstəxanada xəstə yatarkən anamın nə vaxt geri dönəcəyini əmim arvadından soruşanda, o, ah çəkib, “durnalar qayıdanda anan da gələcək” – demişdi. Anam durnalardan tez qayıdıb gəldi. Özü gəlmədi, cənazəsini gətirdilər. Ağlayıb, sızlayıb aparıb dəfn elədik. Amma bir uşaq sadəlövhlüyü ilə hələ də möcüzəyə inanırdım. Düşünürdüm, durnalar qayıdanda bəlkə qayıdıb gələcək anam. Gələcək və mənim saçlarıma sığal çəkib, “ sən yuxu görürdün bala, mən ölməmişəm, görürsən ki, sağam, durnalar qayıdanda mən də gəlmişəm, sənin yanındayam, heç səni bu vəziyyətdə Allahın ümidinə qoyub gedərəmmi?!...”–deyəcək... Amma gəlmədilər. Nə durnalar, nə də anam geri dönmədilər.

Əvəzində durnalar qayıdan vaxtı evimizə başqa bir qadın gəldi. Gəldi deyəndə ki, özü gəlmədi, atam götürüb gətirdi.

Mən xəstə, zəif uşaq olsam da, çoxbilmiş idim. Hələ bu arvadın gəlməyindən öncə duymuşdum olacaqları. Atamın hərəkətlərindən hiss eləmişdim. O, məni tez-tez tənha yerlərə çəkir, olub-keçənlərdən danışır, sonra da Tanrının yazısına pozu olmadığından söz açırdı. Bu söhbətlərdən dalağım sancırdı. Bilirdim ki, nəsə olacaq. Nənəm, xalam, qohum arvadları da məni duyuq salırdılar, deyirdilər, dədən evə arvad gətirmək istəsə, razı olma, de ki, bizə ögey ana lazım deyil, bəlkə dədən səni eşidər.

Xəstə olduğuma görə atam məni o biri uşaqlarından çox istəyirdi. Çox vaxt böyüklər kimi qarşısına qoyub, kişi söhbəti eləyirdi mənimlə. Elə ona görə duyuq düşmüşdüm. Atamın söhbətlərindən tutmuşdum ki...

Amma bu hadisənin belə tez olacağını gözləmirdim.

Həmin axşam atam bizi tez yatmağa göndərdi. Gecəyarısı hənirti, evə gəlib-gedən olduğunu yuxulu-yuxulu hiss etsəm də, tam ayıla bilmədim. Səhər oyananda isə başımızın üstündə atamla birlikdə bir dolu, yumru qadının dayandığını gördük. Atam günah iş tutmuş adamlar kimi başını aşağı dikmişdi. Heç belə görməmişdim atamı. Zabitəsindən dağların çəkindiyi atam indi elə bir vəziyyətdə idi ki, mən də başımı qaldırıb gözümdolusu ona baxa bilmirdim. Bilmirəm bu hal nə qədər çəkdi. On dəqiqəmi, bir saatmı, bir ilmi, bir əsrmi... Axır ki, heykələ dönmüş atam birtəhər toparlanıb, düz mənim gözlərimə baxdı.

-Siz nə qədər onun-bunun ümidinə qalacaqsınız? Nə vaxta qədər bacın başqalarının qapısında qalacaq? İşə gedəndə də ürəyim sizin yanınızda qalır. Deyirəm, sobanın kömürü evə düşər, ev cəhənnəm, özünüz yanarsınız. Üstünüzə qaynar çaydan tökülər. İşimi necə görürəm, bilmirəm...

Hər şey aydın idi. Atam bu qadını özünə arvad, bizə isə analıq gətirmişdi.

Məndən böyük qardaşım sıçrayıb yerindən qalxdı. Heç nə demədən uzaqlaşıb harasa getdi. Məndən kiçik qardaşlarım isə hələ çox şeyi anlamırdılar. O gələn qadının verdiyi rəngbərəng konfetləri açıb, yerlərinin içində xırda-xırda yeyirdilər.

O anlarda mən atama nifrət eləyirdim. Gücüm çatsaydı, onun üstünə atılıb boğazından yapışar, boğduqca boğardım. Hələ başa düşmürdüm ki, atam bu qadını özünə yataq yoldaşı olmaqdan daha çox mənə görə gətirib. Gətirib ki, xəstə ayaqlarım göydən asılı qalmasın.

Axşamüstü məndən böyük qardaşım qayıdıb gəldi. Ancaq evə girmədi. Bizi də götürüb, Rüstəm bağçası deyilən bağa apardı. O

bağda oturub bir-iki saat atamızın hərəkətini müzakirə elədik. Qərara gəldik ki, bir daha evə dönməyək, bağda-bağatda Allahın ümidinə yaşayaq. Amma qaranlıq qovuşanda atam dalımızca adam göndərdi. Gələn adam atamızın çox hirsləndiyini, yarım saata evə dönməsək, bizim üçün pis olacağını dedi. Və biz də gələn gecənin, bir də atamızın xofundan çəkinib, suyumuz süzülə-süzülə evə gəldik.

Demişdik ki, o arvad bişirən yeməkləri yeməyəcəyik. Acından ölsək də, onun bişirdiklərini dilimizə vurmayacayıq. Amma acın ağlı başında deyil, qarnında olar. Biz də qarnımızın ağlına uyub, o qadının bişirdiyi dadlı yeməyi qaşıqlayıb doyunca yedik. Ancaq yeyib doyandan sonra verdiyimiz söz yadımıza düşdü. Daha iş-işdən keçmişdi. Etirazımızı davam etdirmək üçün otaqlarımıza çəkilib, asta səslə bir az dərdləşdik. Sonra da yerimizə girib şirin yuxuya getdik.

Bir neçə gün nə atam bizim, nə də biz onun üzünə dik baxa bilmədik. Elə bil, atam bizdən utanırdı. Biz isə özlüyümüzdə ona nifrət eləməyə çalışırdıq. Baxmayaraq ki, bu işin nə vaxtsa baş verəcəyini mən qorxa-qorxa gözləyirdim. Axı atamın məndən başqa və məndən böyük övladları olsa da, o, ən çox mənimlə dərdləşirdi, öz iç dünyasının qapısını açmağa ancaq mənə icazə verirdi.

Bu qadının gəlməsindən on on-beş gün qabaq köhnə tövləmizin qabağında məni qıyıq otların üstünə oturdub, belə bir hadisənin olacağına işarə vurmuşdu. Çox uzaqlardan dolanıb, mətləbin üstünə gəlmişdi.

-Sizə baxmağa bir qadın gətirəcəyəm. Əgər sizə yaxşı baxa bilməsə, incidib-eləsə, deyərsən, qollarını kəndirlə bağlayıb, dərəyə ataram.

-Yox, ata, istəmirəm...

-Bala, başa düş, sizi qismətin gərdişinə buraxa bilmərəm. Bilirəm, nənən, xalan sənin başını doldururlar, deyirlər, izin verməyin atan arvad gətirsin. Ancaq, oğul bala, and olsun Allahın birliyinə, mən bu işi sizə görə tuturam.

Bu sözləri deyəndə, atam doluxsunmuşdu. Gizlətməyə çalışsa da, gözlərinin dolduğunu görmüşdüm. Həqiqətən atam anamı çox sevirdi. Anamın ölümündən sonra onun dəfələrlə üzü üstə çarpayıya sərilib için-için ağladığını görmüşdüm. Hətta, bir neçə dəfə anamın şəklini qarşısına qoyub, ağladığının da şahidi olmuşdum... O biri yandan atam orasını düz deyirdi. Nənəm, xalam mənə rahatlıq vermirdilər. Elə qonşu arvadları da. Mənim qəlbimdə evimizə gələcək qadının cin-şeytan obrazını yaradırdılar. Hələ bir müddət öncə nənəmlə atamın bu barədə mübahisəsi də olmuşdu. Nənəmin bişirdiyi yeməyin içindən iynə çıxanda atam hirsindən bütöv qazanı həyətə tullamışdı. Atamın çox əsəbiləşdiyini görən nənəm ağlaya-ağlaya “ bilirəm niyə belə edirsən, hamısı onu gətirmək üçün bir bəhanədir. “-demişdi. Atam da onda ilk dəfə nənəmin üzünə ağ olmuşdu: “Bəli, belə getsə, dediyiniz olacaq, uşaqlarımın iynə udmağına dözə bilmərəm.”

Digər yandan nənəmi, xalamı da günahlandıra bilmirdim. Cavan anamın “kürsüsündə” yad bir qadının oturmasını nənəmlə xalam həzm edə bilmirdilər.

O axşam tərəfi atamın ötkəm danışığından sonra kövrək qəlbimdə nəyinsə qırıldığını hiss elədim. Bildim ki, nənəmin, xalamın, qonşu qadınlarının təlaşla, həyəcanla gözlədikləri o qorxulu gün gəlib özünü yetirəcək.

O qadın gələn günün sabahısı atam gedib bacımı gətirdi. Ancaq bacımın evə uyuşması çox çətin oldu. Nə evə öyrəşə bilirdi, nə də o qadına. Elə bütün günü dızıldayır, yerli-yersiz gözünün yaşını tökür, evdə olanların gününü-güzəranını zəhərə döndərirdi. Məsələdən hali olan qohumlarımız dözə bilməyib bacımın arxasınca gəlmişdilər. Qohum qadını görəndə bacım elə həsrətlə onun boynuna sarılmışdı ki, evdə olanların hamısını ağlatmışdı. Elə qohum qadın da hönkür-hönkür ağlayırdı. Sanki onun doğma balasını əlindən alıb, yadların himayəsinə vermişdilər. Ağlayıb ovunandan sonra qohum arvadı atama yan almışdı.

-Kivrə, uşağın bağrı çatlayır, qoy götürüm aparım, bir az böyüyər, qanar-qandırar, qaytarıb gətirərəm.

Atam ürəyinə yekə bir daş bağlayıb, ona etiraz eləmişdi:

-Yox, ay Şərəf bacı, ölsə də heç yerə getməyəcək. Qoy öyrənsin evinə... bu qadına. Yalaq uşağın sonrası yaxşı olmaz.

Şərəf xanım daha bir söz deməmişdi. Atamın tərsliyini o da bilirdi axı. Bilirdi ki, bir sözü dedi, qurtardı, daha fikrini dəyişib, ayrı qərar qəbul etməyəcək.

Qohumlar bacımla sağollaşıb ayrılanda evimizdə dəhşətli, tükürpədici, ürək yandıran bir mənzərə yaranmışdı. Bacım səsi gəldikcə qışqırır, onu tutanların əlindən qurtulub yaxın zamanda ana bildiyi qadının yanına qaçmaq, onunla getmək istəyirdi. Bu mənzərədən evdəkilər, qohum-qonşular o qədər sarsılmışdılar ki, onların özlərinə gəlməyinə bir neçə müddət lazlm olacaqdı. Ən çox sarsılan isə atamın evimizə gətirdiyi qadın idi. O elə hey ağlayır, bacımı zorla qucağına götürüb sinəsinə basır, öpür, oxşayırdı. Bacım isə onun qucağında daha da çılğına dönürdü. Elə bil,  bu qadının onun nakam anasının yerinə gəldiyini hiss eləmişdi.

Bacımın evə öyrənməyi çox uzun çəkdi. Atam utana-utana başqa vilayətdə yaşayan kivrələrimizə xəbər göndərdi ki, bir müddət bizə gəlməsinlər, qız onları unuda bilsin. Onlar da ya atamın sözündən incik düşərək, ya da atamın nəyə görə belə dediyini anlayaraq, uzun müddət bizə ayaq basmadılar.

Bacımın sakitləşməyində o qadınla bərabər qonşu qızlarının da çox zəhməti oldu. Onlar tez-tez bacımı götürüb aparır, əyləndirir, oyuncaqlarla başını qatır, sonra gətirib evə ötürürdülər.

Nə qədər başımıza dolansa da, qayğımıza qalsa da, biz oğlanlar da hələ bu qadına isinişə bilmirdik. İstəyirdik bizə çox yaxın durmasın, öpüb-oxşamasın. Yad, lap bir özgə adam kimi baxırdıq ona. Bir-iki ayı belə yola salandan sonra, atam yenə məni köhnə tövləmizin yanına apardı.

-Oğul bala, düzünü de mənə, Fəridə sizə necə baxır? Mən işdə, çöldə-bayırda oluram, xəbərim olmur, bəlkə sizi ac saxlayır, yeməyinizə, içməyinizə baxmır, sizi incidir?

Mən o, qadın gələndən birinci dəfə çəkinə-çəkinə həqiqəti boynuma aldım.

-Yox, ata, bizə çox qəşəng baxır.

Elə bildim dediyim bu sözləri nənəm, xalam eşitdilər. Tez boylanıb yan-yörəmə baxdım.

Atam bu sözlərimin işığında saçlarıma xəfifcə tumar çəkdi.

-Ay bala, bu qadın bizim evimizə xanım gəlməyib. Bu möhnəti heç bir qadın götürməz. İki qardaşın, bacın, hələ özün...

Mənim tərəfimi xüsusi vurğu ilə dedi. Ancaq ardını gətirmədi. Deyəsən, gətirməyə ürəyi gəlmədi. Ya da mənim qəlbimə toxunmaqdan qorxdu. Amma demişdim axı, mən çoxbilmiş uşaq idim və yarımçıq deyilən sözün də mənasını anlayırdım. Bununla atam demək istəyirdi ki, sənin kimi şikəst uşaqlara baxmaq, qayğısına qalmaq hər adamın işi deyil... Və gecə yatanda atamın yarımçıq sözünü ora-bura çevirib, nə qədər çalışdımsa, onun sözlərindəki həqiqətdən qaça bilmədim...

Qaçmaq dedim, yadıma dizlərim düşdü. Axı mən dizlərim üstə qaçırdım. Və dizlərim üstə qaçmaqdan dizlərimin gözü cadar-cadar olmuşdu. Bir yerdə dayana bilmir, həyət-bacaya, yola-rizə, bağ-bağata qaçır, uşaqlardan, yar-yoldaşımdan geri qalmamağa çalışırdım. Düzdü, iki sağlam ayağı üstə dayanan yoldaşlarımla ayaqlaşmaq mənim üçün asan deyildi. Çox vaxt onlar yoldaşlığı, dostluğu unudub, məndən aralanır, dağa, qayaya dırmanır, ağac-budağa çıxır, mənim yerdə tənha qalmağımın fərqinə varmırdılar. Amma necə olsa, mən yenə də onlardan tamamilə aralı düşmək istəmirdim. Hər dəfə evə gələndə pərt olduğumu evimizə gələn qadın hiss edir, könlümü almaq üçün saçlarıma sığal çəkirdi.

O, qadına bir ad deyə bilmirdik. Nə qardaşlarım, nə də mən. Təkcə bacım ana deyirdi ona. Və o yad qadına bacımın ana deməsi nənəmlə xalamı yaman sıxırdı. Onlar hər dəfə bizdə olanda və bacım o, qadının qucağına qısılıb ona ana, ana deyəndə, nənəmin də, xalamın da gözləri dolurdu. Qadın bir az aralanan kimi nənəm, xalam əllərinin içi dolusu ona boğma

çıxarırdılar. Hələ bir neçə dəfə arxasınca çıxan o boğmaları görmüşdü də. Ancaq özünü görməməzliyə vurur, sanki boğmanın ona işarələndiyini hiss eləmirdi. Nənəm, elə xalam da bizdə olanda qadın onlara o qədər mehribanlıq, nəvaziş, şirinlik göstərirdi ki, adamın bu qadına rəğbəti artırdı.

Aydan-aya, ildən-ilə bu qadına bizim də məhəbbətimiz çoxalırdı. Bakıda işləyən və oxuyan üç qardaşım da kəndə gəlib, onunla tanış olmuşdular. İkinci qardaşım onu qəbul etməsə də, o biri iki qardaşım taleyin gərdişi ilə razılaşmış, onu qəbul eləmişdilər. İkinci qardaşım kəndə gələndə isə... Onda çox ürək sıxan mənzərə yaranırdı. Qardaşım onun bişirdiyini yemir, açdığı yataqda yatmır, soruşduğunu da cavabsız buraxırdı. Zavallı qadın qardaşımın bu sayğısızlığından çox sıxılırdı. Evin bir küncünə çəkilib ağlayırdı. Amma bu barədə atama bir kəlmə də olsun söz demirdi. Düşünürdü ki, birdən atam hirslənər, qardaşıma bir söz deyər, aralarında olan ata-balalıq pərdəsi götürülər. Əslində atam qardaşımın bu qadına qarşı soyuqluğunu bilirdi. Lakin üzə vurmurdu. Bilirdi ki, bu oğlunun yumşaq ürəyi olsa da, anasının yerində başqasının oturmasını bu tezliklə qəbul edə bilmir. Ona görə gözləməyi lazım bilir, zamanın hər dərdə məlhəm olacağına inanırdı.

Kimin nə deməyindən, nə danışmağından asılı olmayaraq, artıq mən evimizi bu qadınsız təsəvvür edə bilmirdim. Elə bil, nənəm, xalam, qonşu qadınları da əvvəlki adamlar deyildilər. O, qadının arxasınca söylədikləri qarğış da alqışa bənzəyirdi artıq. Boğmacalar da kəsərindən düşmüşdü. İşin bu qədər dəyişməyinə bais elə bu qadının özü idi. Öz övladı olmayan, bizi doğma övlad yerinə bağrına basan bu qadın zaman-zaman öz ögeyliyini, yadlığını unutdururdu bizə.

Atam işlərin belə getdiyini görəndə fərəhlənirdi. Bir də əvvəlki kimi narahat deyildi. İşə də rahat gedib, rahat gəlirdi. Bilirdi ki, evdə uşaqlarının həmdəmi var. Ən çox da mənə görə rahat olmuşdu. Mənim bir az çətin uşaq olduğumu, hər adamla yola getməyimin mümkün olmadığını bilirdi atam. Ona görə hərdən hirslənib, qadını yamanlayanda da bunu üzümə vurmurdu. Bilirdi

ki, hirsim soyuyanda yumşalıb muma dönəcəyəm. Hərdən özüm də bu qadına qarşı kobudluğumdan utanırdım. Axı bir kəlmə üzümə qayıdıb, mənə acı söz demirdi. Nə qədər günahım olsa da, məni bağışlayır, qucaqlayıb köksünə basırdı. İndi onun bu hərəkətindən əvvəllər olduğu kimi qeyzlənmirdim. Əksinə, ürəyimin lap dərin guşəsində məni daha çox əzizləməsini istəyirdim. Bunun bir səbəbi, çox güman ki, öz doğma anamdan tez ayrılmağım idi. Ana nəvazişindən doymamışdım. Bu yarımçıqlığı bu qadının isti nəvazişləri ilə doldurmaq keçirdi könlümdən.

Müəllimlər gəlib mənə evdə dərs keçirdilər. Qadın mənim dərsimə elə həsədlə baxırdı ki, mən bundan bir az da ruhlanır, daha çox oxuyurdum. Mənim yazı yazmağımı, kitab oxumağımı görəndə sevindiyindən qanad açıb uçmaq istəyirdi. Gələnə-gedənə "mənim balam alim olacaq"-deyir, sevincindən gözləri yaşarırdı. Mənim hər xırda bir uğuruma şadlanır, atam işdən gələndə haqqımda mütləq ona xoş sözlər deyirdi. Elə atamın özü də mənim hər bir işimi olduğundan daha yüksək qiymərləndirirdi. Uzun balkonumuzda futbol oyunu təşkil edirdik. Mən oturmuş yerdə qapıda dayanırdım. Bir zəif zərbəni geri qaytaranda atam elə atılıb-düşürdü ki, elə bil, mən dünya çempionatının final oyununda Pelenin vurduğu topu geri qaytarmışdım. Həyətimizdə tennis masası da düzəltmişdik. Amma bu oyunu həqiqətən mən yaxşı oynayırdım. Uşaqların çoxunu udurdum. Bu da atama ləzzət eləyirdi. Hərdən dostlarından bizə gətirirdi ki, mənim oyunuma baxsınlar.

Qəribə, çox qəribə insan idi bizə gələn bu qadın. Həm də taleyindən yaramayan birisi idi. Bunları hələ sonralar, lap sonralar biləcəkdik. Biləcəkdik ki...

On doqquz, iyirmi yaşı olanda bu qadını bir kişi götürüb qaçırıbmış. Dul olan bu kişinin evdə üç baxımsız qızı var imiş. Qadın çox ağlayıb, sızlasa da kişi onu geri qaytarmır. Və bu qadın o qızlara analıq etməyə başlayır. Kişi bu qızlardan başqa özünə həm də oğul övladı istəyirmiş. Qadının dünyaya övlad gətirmək bacarığının olmadığını görən kişi onu geriyə, atasının evinə

göndərir. Qadın geri dönəndə qızlar onun yaxasından tutub buraxmaq istəmirlər. Onların bir-birindən ayrılma anlarını görənlərin qəlbi riqqətə gəlir, göz yaşları selə dönür.

Biz bütün bunları uzun illərdən sonra biləcəkdik. O vaxtlar ki, artıq atam da bu dünyaya əlvida deyib, əbədi məkanına dönmüşdü...

Hələliksə...

Bu qadın özünə analıq məhəbbəti qazana- qazana bizim evin əvəzolunmaz simasına çevrilirdi.

Evimizin divarından anamın balaca şəkli asılmışdı. İndi mən o şəkilə gözüdolusu baxa bilmirdim. Utanırdım anamdan. Elə bilirdim şəkil canlanacaq, anam dilə gəlib məni qınayacaq, deyəcək, ay bala, bu qadın sizə beləmi əziz oldu, məni unudub, onun sinəsinə qısıldınız? Day durub anama deyə bilməyəcəkdim ki...

Bir dəfə yuxuda da gördüm anamı. Mənim çəlimsiz, zəif ayaqlarımı sığallaya-sığallaya üzümə baxırdı. Baxışlarında bir kinayə görürdüm. Amma o kinayənin lap içərisində bir xoş duyğusallıq da közərirdi. Elə bil, anam özünü incik göstərməyə çalışır, ancaq bacarmırdı. Yuxumdan gedəndə durub üzümdən də öpdü, dedi, sən mənim ağıllı balamsan.

Bu qadının bizlər üçün çəkdiyi zəhməti, ən çox da mənim yolumda möhnəti o qədər çox idi ki, bunu dəyərləndirməmək, ona qarşı çıxmaq nankorluq olardı. Və bu nankorluğun cəzası Tanrı tərəfindən verilərdi.

Atam dünyada yox idi artıq. Əslində onu bizim evə bağlayan yeganə bağ qırılmışdı. Lakin o, bizdən qırıla bilmirdi. Biz də ondan. Bizi bala deyib bağrına basması, gecə-gündüz bizim üçün etdiyi dualar onu ögey analıq adından çıxarıb, mənəvi analıq zirvəsinə ucaltmışdı. Mən bir azca xəstələnəndə onun işıqlı gündüzü qaranlıq gecəyə dönürdü. Sağalıb özümə gələnə qədər o da özünə gələ bilmirdi. Şirin yemək yediyimi görəndə, bir

qıraqda dayanıb, elə sevinclə baxırdı ki, sanki o dadlı yeməyi mən yox, onun özü yeyirdi.

Bir az yaşlanandan sonra ona ad da tapmışdıq. Qoca deyirdik ona. Bu sözdən qətiyyən incimirdi. Neçə illər adsız çağrıldığına, indi bu müraciət ona xoş gəlirdi. Bu müraciətin qarşılığında sinədolusu can deyə cavab verməsi bizim qəlbimizdə əvəzolunmaz xoş duyğular yaradırdı.

Atam dünyadan köçməzdən bir az əvvəl böyük qardaşımı yanına çağırıb, bir neçə bəndlik vəsiyyət eləmişdi. Vəsiyyətin bəndlərindən biri də bu qadın haqqında idi. Demişdi ki, mən sizə inanıram, ancaq bu dar məqamda bu sözləri deməyi də, özümə borc bilirəm. Heç zaman şeytana uyub, Fəridəyə qarşı nankorluq etməyin. Onun zəhmətini, əzab-əziyyətini yerə vurmayın.

İkinci qardaşımın da qocaya qarşı münasibəti dəyişmişdi. Atamın ölən məqamında yox, ondan çox-çox əvvəl qardaşım ona qarşı kinini, küdurətini bir qırağa qoyub, bizim kimi bağlanmışdı ona. Hələ bizdən də artıq xoş münasibət göstərirdi. Elə bil, bununla əvvəlki günahlarını yuyur, ona tökdürdüyü göz yaşlarının yerində gül-çiçəklərdən laləzarlıq yaratmaq istəyirdi. O qardaşım ailə həyatı quranda qoca sevindiyindən bir neçə gün özünə yer tapa bilməmişdi. Niyə ki, bir az başı oxumağa, elmi işlərə qarışdığından evlənməyi bir azca yubanmışdı.

Bizim bütün xeyir işlərimiz bu qadın üçün bir toya, bir bayrama çevrilirdi. Hər uğurumuza bir doğma ana qədər sevinir, nəzir-niyaz deyir, pirlərdə, ziyarətgahlarda bizlərə dualar eləməkdən yorulmurdu. Elə bil, Tanrı da bu qadının səsini eşidirdi. Bir neçə dəfə həm mən, həm qardaşlarım çıxılmaz vəziyyətlərə düşsək də, həyatda qalmağı bacarmışdıq.

Bir dəfə mənim ağır xəstələnməyim ailəmizə böyük qəm-kədər gətirmişdi. Üzümə deməsələr də, əllərini məndən üzmüşdülər. Bir neçə həkim dəyişdirsələr də xəstəliyimin əlacı tapılmırdı. Bu ağır məqamlarda qoca gecə-gündüz başımın üstündə dayanır, yuxu yatmır, gizlincə göz yaşı axıdırdı. Hərdən əllərini Allahın dərgahına sarı uzadıb, asta səslə dualar etdiyini də

eşitmişdim. Uzun müalicədən sonra sağalıb ayağa qalxdım. Ayağa deyəndə ki... Ayaqlarım üstündə dayanmasam da, oturmağı, doğmalarımla bir yerdə olmağı Allah yenə qismət elədi mənə.

Bundan bir neçə il sonra isə o, qadın bizim evə gələndə bizi götürüb etiraz olaraq evdən aparan məndən böyük qardaşım ağır əməliyyat keçirmişdi. Onun yaşamağına gümanımız çox az idi. Həkimlər də bunu etiraf edirdilər. Ancaq bu qardaşım da əməliyyatdan uğurlu çıxdı, yaşadı, ailəsinin, uşaqlarının yanına qayıtdı.

Bu sevincli olaydan sonra qəribə hisslər yaranmışdı mənim qəlbimdə. Düşünürdüm ki, o vaxt məni də yaşadan, qardaşımı da həyata qaytaran bu nurani qadının dualarıdır. Gecə-gündüz onun Allaha yalvarması, namaz üstündə Tanrı ilə danışması bizi yenidən işıqlı dünyada saxlamışdı.

Bir az yaşa dolandan sonra ögey analar haqqında çoxlu nağıllar oxumuşdum. O nağıllardakı əzazil, qəddar ögey anaların insana yaraşmayan hərəkətləri məni heyrətləndirmiş, belə ögey analara qarşı kinimi, küdurətimi vulkana çevirmişdi. Onda o yetim uşaqlara yaman yazığım gəlirdi. Əgər əlacım olsaydı, gedib o yetim uşaqları tapar, evimizə gətirərdim. Bilirdim ki, onların yeri bizim evdə rahat olacaq. Ac-susuz qalmayacaq, döyülməyəcək, gecələr bağçada soyuq ağacların altında yatmayacaqdılar. Amma təəssüflər ki, nağıllarda olanları tapıb real həyata gətirmək mümkün deyildi... Və o düşüncələrimin işığında onu da gün kimi anlayırdım ki, o nağıllarda olan ögey anaları tapıb real həyata gətirmək mümkün olsaydı, mənim ana deyə bilmədiyim, ancaq mənə analıq edən bu qadın o ögey anaları öz əlləri ilə boğardı.

Həyata sanki ancaq başqalarının uşaqlarına baxmaq üçün gəlmişdi. O üç qızı ərsəyə gətirəndən sonra bizim əhatəmizə düşmüşdü. Sonralar boynuna almasa da, biz gizlincə duyur, hiss edirdik, hiss edirdik ki, bu qadın yenə də o qızlarla əlaqə saxlayır. O qızların taleyi hələ də bu qadını rahat buraxmırdı. O qızlar ərə gedəndə, ailə həyatı quranda xəbər tutub sevinir, heç kimlə bölüşə bilməsə də, qəlbində bu sevincli anın nəşəsini yaşayırdı.

Hər kəsin taleyinə bir qismət yazılır. Kimisinə yaxşı, kimisinə pis. Kimisi ancaq pislik, naqislik etmək üçün gəlir dünyaya. Bir başqası isə... Bu qadın kimi xeyirxah mələklərin qanadında dünyaya gələrək, elə o mələklərin qanadında da dünyadan köçürlər...

-Qoca, necə olacaq bu işlərin axırı?

-Hansı işlərin, bala?

-Elə bu işlərin, olanların, olacaqların...

-Nə bilim axı... Sonu yaxşı olar, inşallah...

Qocanın ölüm xəbərini eşidəndə hamımız sarsıldıq. İkinci dəfə anamızı itirmiş kimi qəribə və kədərli hisslərin ağuşuna düşdük. Atamdan sonra iyirmi bir il bizim yanımızda olan, həmdərdimizə, həmdəmimizə çevrilən bu xanımın dünyanı tərk eləyib getməsi qəlbimizdə silinməz kədərli izlər buraxdı.

Hamımız ağlayırdıq. Böyük qardaşım da, o biri qardaşlarım da. İkinci qardaşımla məndən böyük qardaşımın hönkürtüsü isə lap uzaqdan eşidilirdi. Xalam da ağlayırdı... Nənəm isə... Bu ayrılıq məqamında nənəmin yeri görünürdü. O, sağ olsaydı, bəlkə bizlərdən də artıq göz yaşı axıdacaqdı. Axı onun son çağları, ağır anları bu qadının yanında keçmişdi. O, özü istəmişdi bunu. Ölüm mələyinin tezliklə gələcəyini duymuşdu deyəsən. Və öz dili ilə demişdi ki, məni qızımgilin evinə aparın. Sonuncu dəfə bu qadınla ayrılanda boynuna sarılıb onu öpmüş, “ məni halal elə, qızım” demişdi.

Bacımın ağlayıb, sızlaması isə yad adamları da kövrəldib, gözlərini yaşla doldururdu. Bacım ikinci dəfə anadan yetim qalırdı. Elə biz qardaşlar da...

Ölümündən sonra tez-tez yuxuda görürdüm onu. Nigaran-nigaran boylanıb mənə baxır, halımı xəbər alır, ayaqlarıma baxıb ağlayırdı. Sonra da “ Şükür Allaha, şükür Allaha” deyə-deyə yuxumdan çəkilib gedirdi. Ayılanda nəyə şükür etdiyini bilirdim. Bilirdim ki, mənim ailə həyatı qurmağıma şükür edir. Axı sağlığında da deyİrdi, deyİrdi, bala, səndən daha o qədər

nigarançılığım yoxdur. Bir ondan nigaranam ki... Daha ardını demirdi. Mən də onun nədən nigaran olduğunu düz-əməlli anlaya bilmirdim. Hələ indiyə qədər də anlamamışam. Amma hər nə idisə, öz işıqlı düşüncəsinin bəhrəsi kimi görürdüm o nigarançılığı. Bu şərəfli qadın elə-belə işin nigarançılığını çəkməzdi. Və o nigarançılığın sonu al şəfəqlərlə bəzənib, bəzənməmişdi, onu da bilmirdim...

Ömrüm başa çatanda, o dünyaya gedəndə bunu qocanın özündən soruşacağam...

# Əyri dağın nağılı

Təbiətin gözəlliyindən adamın gözləri qamaşırdı. Dağlardan yavaş-yavaş sürünüb, kəndin üstünə çatan günəşin al şəfəqləri elə qəribə hisslər oyadırdı ki... Yay hələ girməmişdən bizim yay macaralarımız başlanmışdı. Səhər lap tezdən yuxudan oyanırdıq. Qardaşım məni dalına alırdı, quzuları da qabağına qatırdı, gəlirdik Qəmbər əminin bağına. Bura niyə Qəmbər əminin bağı deyirdilər, bilmirdim. Adı kənd adamlarının yaddaşında belə qalmışdı. Bu yeri kolxozdan dirlik yeri kimi dədəmə vermişdilər. Hər il yazın ağzı açılandan qış qapını döyənə qədər dədəm və qardaşlarım burada əlləşir, bağ-bostan becərir, meyvələrini yığıb qurudur, ot-ələfi toplayıb, qışın hazırlığını görürdülər. Elə gözəl, elə qəşəng bağ idi ki, lap bəzənmiş gəlinə bənzəyirdi. Səhər saat on, on birdən sonra düşərgə uşaqları da bağımızın yanındakı Lələ bağına gəlirdilər. Deyib-gülməkdən, xoş, məzəli söhbətlər eləməkdən yorulmurduq. Hərdən düşərgə uşaqları ilə sözlərimiz çəp də gəlirdi. Bu vaxt müəllimlər özlərini yetirib, aranı sakitləşdirirdilər. Axşam evə gedəndə yorğunluqdan gözlərimiz yumulurdu. Birtəhər ağzımıza bir loxma çörək atıb, yerimizə girirdik...

Yenə səhər... Yenə bağ... Yenə günəşin sürünə-sürünə kəndə gəlməsi... Yenə düşərgə uşaqları... Amma bu təkrarçılıqdan yorulmurduq nəyə görəsə. Bəlkə bu günlərin tezliklə bitəcəyini bildiyimizə görə bu təkrarlar bezdirmirdi bizi?

Qəribəydi, vallah, yazın sonundan payızın əvvəlinə qədər göyün üzündə bir pəmbə bulud belə görməzdik. Səmanın maviliyindən gözlərimizi geniş açıb, göyün dərinliklərinə baxa bilməzdik. Ancaq hərdən gözlərimiz ağrısa da, o maviliyin lap dərinliyində nəsə axtarırdıq. Bəlkə Allahı görmək istəyirdik. Uşaqlıqdan belə yaddaşımda qalmışdı mənim; elə bilirdim Allah göydə, böyük bir sarayda taxt-tacında oturub, gecə-gündüz yerə baxır. Baxır ki, adamlar həddini aşmasınlar. Həddini aşan kimi Allah onların cəzasını verirdi. Ona görə hamı Allahdan qorxurdu. Elə mənim özüm də. Bir də daha çox nigaran olanda goyün dərinliyində Allahı axtarırdım. İndi də nigarançılığım var idi. Təbiət nə qədər gözəl olsa da, bağımız on dörd gecəlik aya bənzəsə də, nə qədər deyib-gülsək də, daxilimdəki qorxu, həyəcan məni tərk eləmir, daha çox şadyanalıq eləməyimə imkan vermirdi. Əsgərlikdə olan əmim oğlundan neçə ay idi ki, məktub almırdım. Lap uzağı on beş günə ondan bir məktub alardım. İndi niyə mənə məktub yazmırdı, bilmirdim. Onun şuluq, davakar bir oğlan olduğunu bildiyimdən, nigarançılığım daha da çoxalırdı. Məktəbdə oxuyan vaxtı müəllimləri boğaza yığmışdı bu əmim oğlu. Oxumamağı bir yana, o biri uşaqların oxumasına da mane olurdu. Bu da müəllimlərə xoş gəlmirdi. Ya onu döyür, ya da sinifdən bayıra atırdılar. Məktəbi qurtaranda Musa müəllim onun qolundan yapışıb, çıxışa qədər gətirmiş və “ sənin məktəbdən, məktəbin də səndən canı qurtardı ” deyib, yola salmışdı... Dava eləməkdən üz-gözü həmişə yara-para olardı. Yaşıdları, ondan bir az balacalar, ən çox da bostançılar onun əlindən dad qılırdılar. Mən isə əmim oğlunu çox istəyirdim. İki-üç yaş məndən böyük olsa da, həmyaşıd kimi idik. Uşaqlıqdan dərdimiz, sərimiz bir olmuşdu. Hıqqına-hıqqına kürəyində məni bütün kənd boyu gəzdirir, sağlam adamların belə çıxa bilmədikləri yamaclara, dağlara çıxarır, mənim hər yeri görməyim üçün dəridən, qabıqdan çıxırdı.

Bir maraqlı şey, hadisə gördüsə, mütləq gəlib məni də o yerə aparmalıydı.

Bir günləri bağçada oturub, quşların cikkiltisinə qulaq asır, onların qəribə oyunlarına tamaşa edirdim. Quşların belə oyunlarından çox xoşum gəlirdi. Özlüyümdə onların həyat məsələlərinə daxil olur, dünyalarında olan iş-güclərindən özüm üçün hekayələr quraşdırırdım. Bu vaxt əmim oğlu özünü qaranəfəs həyətimizə saldı.

-Dur, əmioğlu, gedirik.

-Hara gedirik?

-Sonra deyəcəm...

Elə bunu deyib, məni kürəyinə aldı. Üzüaşağı, məktəbə sarı qaçmağa başladı. Ayağı bir daşa, çınqıla ilişsəydi, üzüüstə yerə gələcəkdi, məni də özünü də yaralayıb, xəstəxanalıq edəcəkdi. Onun kürəyində devikə-devikə qalmışdım. Nəfəsimi dərib, bir söz xəbər ala bilmirdim.

Məktəbin yanından ötüb, yenə üzaşağı qaçırdı. Düz kəndin çıxacağına, Dəyirmanbaşı deyilən yerə qədər qaçdı. Birdən sürətini alıb, sol tərəfdəki bağların arasına girdi. Uzun, qıyıq, yabanı otların arası ilə yeriyirdi.

-Əmioğlu, ilan...

-İlan olsa... məni çalacaq... sən niyə qorxursan?

Axır ki, xırda bir yarğanın yanında dayanıb, pıçıltı ilə mənə dedi:

-Görürsən?

-Nəyi?

-Görmürsən?

-Heç nə görmürəm.

Bir az kürəyini sağa çevirdi.

-İndi necə?

-Hə, indi görürəm.

Bağın o tərəfində bir sarı rus qadını çimərlik paltarında uzanıb, özünü günə verirdi.

Heyif ki, rahat görə bilmirdim. Yerim nahamar idi. Bəlkə də ömrümdə birinci dəfə belə açıq formada qadın görürdüm.

-O kimdi elə?

-Komandirin arvadıdı.

-Gəl, onda qaçaq, bizi görsələr, atamızı yandırarlar.

-Qorxma, uruslar elə şeyi qanmırlar.

Bizim bəxtimizdən qadın ayağa qalxdı, üstünə bir örpək atıb, ağacların arasında yox oldu.

Kənddə sovet hərbi hissəsinin bazası var idi. Yüzə yaxın əsgər üçün burada hər cür şərait yaradılmışdı. Komandirlərin, onların köməkçilərinin arvadları da burada yaşayırdılar. Görməmiş kənd cavanları bu rus qadınlarının açıq qoluna, ayağına baxmaq üçün sino gedirdilər. Biz isə bu "tamaşa"nın lap yağlı yerinə düşmüşdük. Bu hadisə uzun müddət yaddaşımızdan silinmədi. Bir az da üstünə qoyub, elə həvəslə, ehtirasla yarıçılpaq rus qadınını görməyimizi yoldaşlarımıza danışırdıq ki, onların da ağızları sulanırdı.

Sovet hərbi hissəsinin bu ucqar kənddə nə ölümü var idi, bimirdim. Hətta bir müddətdən sonra kəndin lap yuxarısında, dağların başında bir "minarə" də ucaltdılar. Dağların arasında par-par yanan o "minarə"ni görəndə, hər kəs kimi məni də maraq götürdü. Çətinə düşəndə, hər vaxt dədəmi köməyə çağırardım. Yenə onu yanlayıb, maraqla xəbər aldım:

-Dədə, o ev nədir elə?

-Hansı ev?

-O dağın başındaki evi deyirəm.

-Ev deyil, yuvadır. Sergey Mironoviç özünə yuva tikir.

-Sergey Mironoviç kimdir?

-Ruslar orda özlərinə yuva düzəldiblər.

-Bəs dağın başında niyə? Dağın başında heyvanlar yuva düzəldərlər.

-Onlar da... Düzəldiblər ki, oradan bütün dünyanı görə bilsinlər.

Sonra dodaqlarının arasında astadan bir söyüş söydü. Daha sonra xəfifcə ah çəkərək, “bütün barımız, bərəkətimiz gedəcək” deyib, nigaran-nigaran dağlara baxdı.

Onda dədəmin deməyindən heç nə anlamamışdım. Bir az sonra başa düşdüm dədəmin nigarançılığının səbəbini. Dağların başında ucaldılan o tikili doğrudan da nigarançılıq çəkməli bir şey imiş. Rus hərbçiləri bu stansiyanı havaya nəzarət etmək, gələn təhlükəni önləmək üçün quraşdırmışdılar. Ətraf ərazilərə zərərli şüalanma yayan bu qurğunun fəsadları bir müddətdən sonra özünü göstərməyə başladı. O qurğudan qabaq bu ərazilərdə meri-meyvəni, bostan məhsullarını yığıb-yığışdırmaqla qurtarmaq olmurdu. Bir bağdan tonlarla ərik, armud, şaftalı, alma, qoz və başqa meyvələr yığıb qurudar, pay-püş edər, satıb-sovar, qışa yaxşıca hazırlıq görərdilər. İndi meyvə bağları elə bil, o meyvə bağları deyildi. Qısırlaşmış bağ-bağatdan doyunca yeməyə də mer-meyvə tapmırdın. Şiş xəstəlikləri, sinir sistemənin pozğunluğu, qadınlarda sonsuzluq kimi xəstəliklər baş alıb gedirdi. Fauna və floraya çox böyük ziyan dəymişdi. Amma bir adam səsini çıxarıb, bu haqda danışa bilmirdi. Danışanı gecəynən aparıb, yox edərdilər.

Əmioğluma o bağda uzanıb, özünü günə verən rus qadını hadisəsindən çox-çox qabaq qadınlar haqqında bir sual vermişdim, demişdim, məndən böyükdü, bəlkə bilər. Onu bir qırağa çəkib, astaca və sonsuz maraqla soruşmuşdum:

-Əmioğlu, arvadlar uşaqları hardan gətirirlər?

Fikrə getdiyini görəndə, bir də xəbər almışdım:

-Balnisədən alırlar?

-Yox, bizim başımızı aldadırlar.

-Bəs hardan gətirirlər?

-Hardan gətirirlər, bilmirəm, ancaq Allah baba verir.

-Necə verir?

-Day orasını bilmirəm. Hüseyndən soruşub, sənə deyərəm.

Sonralar bu söhbət yadından çıxdı. Hüseyndən-zaddan da soruşmadı. Mən lap böyüyəndə, bığ yerim tərləyəndə anladım ki, analar bizi aldadırmış. Biz hamımız anaların sirli-sehrli dünyasından yaranıb, işıqlı dünyaya gəlmişik.

Həmişə fikirli olanda, nəyinsə intizarını çəkəndə, nigaran qalanda mən evimizdən görünən Əyri dağa baxar, onunla dərdləşərdim. Əyri dağı bir canlı varlıq kimi təsəvvür eləyirdim. Elə bilirdim qoca, lap qoca bir kişidir orada dayanıb. Dayanıb ki, adamlar fikirli olanda onunla dərdləşsinlər. Kədərlərini, qəm-qüssələrini ona danışsınlar. O da bir dağ müdrikliyi ilə adamlara yol göstərsin. Desin, bu yolla gedin, bu cığırla gəlin, onda qədəmləriniz işıqlı, sabahlarınız xoş olar.

Əyri dağı qoca kişi qismində təsəvvür eləməyimin bir başqa səbəbi də var idi...

...Yenə üzümü Əyri dağa tutmuşdum. Yenə fikirli və dalğın idim. Elə bu zaman hardansa gəlib, yanımda dayandı dədəm.

-Nə olub, bala, yenə nə fikrə dalmısan?

Məqamıydı, indi məni çoxdan düşündürən və narahat edən bir məsələni dədəmdən soruşa bilərdim.

-Heç, elə-belə, dağa baxıram.

-Hansı dağa?

-Əyri dağa.

Hə, indi lap yeri idi.

-Dədə, bu dağ niyə əyridir?

Dədəm birbaşa cavab verdi:

-Qocalıb ona görə. Bütün dünyada nə var hamısı qocalırlar və qocalanda əyri-üyrü olurlar.

-Dağlar da qocalır yəni?

-Niyə qocalmır, bala. Dağlar da qocalır. Amma bir fərqi var ki, dağlar adamlar kimi tez qocalmırlar. Bu gördüyün dağların bəlkə də neçə milyon yaşları var.

Bu söhbət məni yaman tutdu. Fikrimin üstünə beş-on qatı da əlavə olundu.

-Onda belə çıxır ki, mənim babalarımın babaları da bu dağlarda gəzib, dolaşıblar?!

-Əlbəttə. Hələ Allahın peyğəmbərləri də bu dağlarda gəziblər, bu dağların zirvəsində Allahın ayələrini eşidiblər.

-Bəs, dədə, Allahın özü necə, o qocalmır?

-Yox, oğul, qocalmayan bircə Allahdır. O qocalsa, dünyanın işləri rəvan getməz...

Dədəmin o vaxt dediyi sözlərdən sonra bu dağa yazığım gəlmişdi. Düşünmüşdüm ki, lap əldən düşüb bu dağ, bir neçə ilə ölüb gedər yəqin... Dağların necə ölməyini isə dədəmdən soruşa bilməmişdim, utanmışdım...

Amma nədənsə, hərdən Allahın qocaldığını düşünürdüm. Bu qədər dərdin, sərin, müşküllərin arasında, göylərə güllə atan nadan insanların əhatəsində necə qocalmamaq olardı?!...

Mövsümün yaşıllıq çağı olduğundan Əyri dağ yaxşı görünmürdü. Ancaq bir tərəfi görünürdü ki, mən də o tərəfinə baxlb, ondan əmim oğlunu xəbər alırdım. Əyri dağ isə mənə cavab vermirdi. Dağ kimi möhkəm dayanıb, susur, susurdu...

Son bir həftədə əmim oğlunu iki dəfə yuxumda da görmüşdüm. Üz-gözü qanlı, başı sarıqlı... Və ikinci dəfə yuxu görən gecəmin səhərisi götürüb əmim oğlugilin evlərinə zəng eləmişdim. Telefonun o ucunda onun dayısının ötkəm və gur səsini eşitmişdim.

-Əhəd dayı, Əkrəm əmioğluma nə olub?

-Heç... Nə olub ki?

-Onu yuxuda görmüşəm. Həm də nə vaxtdır ondan mənə məktub gəlmir.

-Can bala, nigaran qalma, yanına getmişdim, elə dünən axşam qayıtmışam.

-Kim döyüb onu?

-Əşi, boş şeydi, əsgər yoldaşları ilə davaları düşüb. Bir az yaralanmışdı, indi yaxşıdı.

Daha bir söz demədim, dəstəyi üstünə qoydum. Ürəyimin döyüntüsü gəlib qulaqlarıma çatırdı. Ürəyimə damdığının və yuxuda gördüyümün düz çıxması bütün canımım həyəcanını qabardıb, üzə çıxarmışdı. Özümə yer tapa bilmirdim. Həyəcanımı artıran bir başqa səbəb isə... Görəsən əmioğlumu haylarmı vurmuşdular?

Elə birinci məktubumda ona yazmışdım ki, sən davakarsan, bilirəm ki, əsgər yoldaşlarınla vuruşacaqsan. Başqalarına döyülsən cəhənnəm, amma haylara döyülsən, səni öldürərəm... O, da məktubunda soruşmuşdu, yazmışdı, əmioğlu, haylar kimdi? Mən növbəti məktubumda ona izah eləmişdim, başa salmışdım hayların kim olduğunu. Yazmışdım, əmioğlu, erməni dediyimiz millət, əslində, iki zümrədən ibarətdir. Birinci zümrə ərmən tayfalarıdır ki, onların kökü gedib qədim türklərə çıxır. Ad və soyadlarında türk mənşəli söz olanların hamısı bu ərmən tayfalarından törənənlərdi. İkinci zümrə isə haylardı ki, onlar bu ərazilərə başqa yerlərdən köçürülüblər. Və ən qəddar da elə bu haylardır ki, tarix boyu bizə qənim kəsiliblər.

Əmioğlumun yanında özümü alim kimi göstərib, ona izahat verməyim özümə də ləzzət eləmişdi. Bu məktubu üç-dörd dəfə təkrar-təkrar oxuyandan sonra zərfə qoyub bağlamışdım. Əslində bu məlumatı keçən il kəndə universtitet tələbələrini ekskursiyaya gətirən bir tarix müəllimindən eşitmişdeim.

Əmioğlum məktublarında dönə-dönə yazırdı ki, qorxma, mən haylara can verən oğullardan deyiləm. Amma indi çox nigaran qalmışdım. Dözə bilməyib, axşam tərəfi Əhəd dayıgilin evinə bir də zəng elədim.

-Əhəd dayı, səhər özümü itirdim, düz-əməlli soruşa bilmədim, əmioğlumu kim döyüb?

-Beş-altı rusla bizimkilər dalaşıblar. Ruslar görüblər ki, bizimkilərlə bacara bilmirlər, armatur tapıb, onunla uşaqlara xəsarət yetiriblər. İndi lap yaxşıdı, üç-dörd günə qospitaldan buraxacaqlar.

Ürəyim bir az yerinə gəldi. Bir də ürəyimin lap dərin güşəsində əmioğlumun dayısına təşəkkür elədim. Təkcə ona görə yox ki, əmioğlumu hayların vurduğunu demədi, bir də ona görə ki, dünyanın o başında olan Baykala gedib, ona baş çəkmiş, xəbər gətirmişdi.

Əkrəmin anası Cəvahir aba da oğlundan çox nigaran imiş. Nəyə görəsə biz hamımız əmimin arvadına aba deyirdik. Heç bu sözün mənasını da bilmirdik. Əmimin arvadı da bilmirdi. Amma bu müraciət ona çox xoş gəlirdi. Xoş gəlməsini orasından bilirdik ki, hər dəfə onu belə çağıranda bizə sinədolusu can deyə cavab verirdi... Hələ nigarançılığından yorğan-döşəyə düşüb, xəstə də yatmışdı abam. Oğlunun məktub yollamamasından şübhəyə düşmüş, bu şübhələr böyüyərək, bir ana həyəcanına dönmüşdü. Gecələr yata bilmir, səhərə qədər Allaha yalvarıb, oğlundan bir yaxşı xəbər eşitməsini diləyirdi. Beş-on dəqiqə yuxuya gedəndə də qara-qura, qorxulu yuxular görür, bu yuxuların həyəcanı ilə qalxıb yerinin içində oturur, ağlayırdı. Bunu mən sonralar bildim. Əkrəmin dayısı Baykala gedib, qayıdandan sonra. Özü telefonda danışdı mənə. Sonra da qayıdıb qəribə bir sual verdi, dedi, bala, Əyri dağla yenə dərdləşirsənmi? Mənim dinmədiyimi görüb, sözünün ardını da gətirdi; “Əyri dağla danışanda oğlumu da xəbər al, soruş gör, oğlum sağ-salamat qayıdıb evimizə gələcəkmi?”

Həyəcan almışdı məni. Bu arvad hardan bilirdi ki, mən Əyri dağla dərdləşirəm?... Amma, hər halda, yaxşı yadıma saldı, Əyri

dağı görən kimi ondan əmioğlumu soruşacağam. Bir də bir nağıl deməsini diləyəcəyəm. Axı Əyri dağ qəmli anlarımda, ən çox da aylı yay gecələrində mənə şirin-şəkər nağıllar danışardı. Elə nağıllar ki, necə qaranlıq başlasa da, sonu gur işıqla bitərdi...

Yenə bağımızdaydım. Abamın dediyi sözlər yadıma düşmüşdü. Əyri dağı yaxından və bütöv görmək keçdi könlümdən. Gözlərim qardaşımı aradı. Qardaşım görünmürdü. Deyəsən, evə yemək gətirməyə getmişdi. Mən ərik ağacına söykənib, mərsdə tənbəl-tənbəl gövşəyən quzulara baxırdım. Bir azdan qardaşım əlində yemək gəldi. Yeməyi yeyib, bitirən kimi ondan soruşdum:

-Rahim, nə işin var?

-Heç, orağı evdən gətirib, otları biçəcəyəm.

-Hələ biçmə.

-Niyə ki?

-Məni İmam bağına apar.

-Ora niyə?

-Əyri dağı görmək istəyirəm.

Day bir söz demədi qardaşım. Məni kürəyinə alıb, İmam bağının yanındakı yamaca gətirdi. Buradan Əyri dağ ovuc içi kimi aydın görünürdü. Həm də çox yaxın idi. Nəfəsi nəfəsimə dəyirdi.

Əyri dağla salamlaşandan sonra əmioğlumu soruşdum. Daha ayrı söz demədim. Qalan tərəfini dağ özü bilirdi.

Bu dəfəki nağılını çox geniş götürmüşdü Əyri dağ. Bütün torpağın, yurdun ağrı-acısı, qəmi, kədəri bu qəribə nağılın içərisinə sığışmışdı. Sanki bir daha məni görməyəcəkdi. Elə həsrətlə, nəğməli səsi ilə danışırdı ki... Və sonda göydən üç alma düşəndən bir az qabaq dünya boyda bir işıq Əyri dağın üzərinə düşdü. Əyri dağ dağ təbəssümü ilə gülümsəyib, mənimlə sağollaşdı. Bu işıq hər şeyin cavabı idi. Demək, işlərin sonu işıqlığa doğru gedəcəkdi. Həm də əmioğlum gavurların əlindən

sağ-salamat qayıdıb gələcək, yenə məni kürəyinə alıb, dünyanı gəzdirəcəkdi.

Bunları abama deyəndə, çox sevindi. Kövrəlib, ağlamsındı. Kəlağayısını ağzına çəkib, minnətdarlıq dolu nəzərlərlə Əyri dağa baxdı.

Əyri dağ yenə gülümsəyirdi...

Yel qanadlı illər ömürdən gedir. İnsan dayanmadan öz sonuna doğru addımlayır. Və sabah nələrin olacağından xəbərsiz bu gününün havasına oynayır.

...Mən də hələ bilmirdim. Bilmirdim ki, əmim oğlu əsgərlikdən sağ-salamat qayıdıb gələcək. Kişi kimi qarşımda dayanıb, "Heç narahat olma, əmioğlu, hayların yaxşıca dərsini verdim"- deyəcək. Sonra min zəhmətlə uşaqlarını ərsəyə gətirən Nuru əmim Əkrəmi evləndirəcək, ev-eşik, arvad-uşaq yiyəsi edəcək. Bilmirdim ki, əmim oğlu Allahından sonra ikinci müqəddəsi saydığı anasını vaxtsız-vədəsiz itirəcək. Bu itki onun köksündə əbədi və sağalmaz bir iz salacaq. Bilmirdim ki, Tanrının nuruna sığınan əmioğlum duaların şərqisində sona qədər həm qoca atasına, həm xəstə qaynatasına qulluq edərək, o dünyasının xoş məqamını qazanacaq. Bir də onu, onu bilmirdim ki... Çox şeyləri bilmirdim hələ... Bircə onu bilirdim ki, Əyri dağın üzərinə düşən dünya boyda işıq ömrünün sonunadək əmim oğlunun tale yoluna nur çiləyəcək.

Mənə danışdığı nağıllarından hiss eləmişdim bunu.

# Aylı gecənin işığı

Al şəfəqli günəş hələ Xəzərin qoynundan doğmamışdı. Küçələrdə gediş-gəliş az idi. Adamlar kimi maşınlar da yarıyuxulu ötüb keçir, maşınlarda oturan sərnişinlər səhərin ilk xəbərlərini ünvanlarına çatdırmağa tələsirdilər.

Rəmiş müəllim məktəbə yaxınlaşanda qapının ağzında dayanan gözətçidən başqa bir kimsə gözünə dəymədi.

-Rəmiş müəllim, xeyir ola səhər-səhər?

Elə bil, hələ indi çox erkən olduğunun fərqinə vardı.

-Nə bilim, direktorla işim var idi. Dedim o işə gələn kimi görüşüm, sözümü deyim.

Rəmiş müəllimin fikirli olduğu gözətçinin gözlərindən yayınmadı. Bir ağzını doldurub, bunun səbəbini xəbər almaq istədi, amma nə düşündüsə onun əvəzinə başqa bir sual verdi.

-Rəmiş müəllim, hər dəfə sizi görəndə bir söz soruşmaq istəyirəm, ancaq məqam olmur. Sizin əsl adınız nədir?

-Adımı bilmirsən hələ? Neçə ilin gözətçisi...

Elə bu zaman direktor özünü yetirdi.

-Salamlar. Rəmiş müəllim xeyir ola?

-Sizinlə bir işim var. Beş dəqiqəliyinə.

-Gəl kabinetə, söhbət eləyək.

Rəmiş müəllim direktorla qapıdan içəri keçdi. Gözətçi yenə də onun arxasınca baxa-baxa qaldı.

-Eşidirəm, Rəmiş müəllim.

-Bilirsiz... Bu gün mənim dərslərimi başqa müəllimlərə verin.

-Niyə, nə olub ki?

-Mən təcili rayona getməliyəm.

-Bir nigarançılıq var?

-Arvadımın anası... yox ey, nənəsi rəhmətə gedib.

-İşin-gücün bu vaxtında... Özü də arvadımın nənəsi...

-Xahiş edirəm, Kamran müəllim.

-Yaxşı, get, deyərəm, əvəz eləyərlər. Ancaq arvadına de, ölənlərini saxlasın yay tətilinə. Bir də sabah səhər tezdən işdə ol.

-Baş üstə.

Rəmiş müəllim bir anda kabinetdən çıxdı. Gözətçinin yanına çatanda bayaq onun verdiyi sual yadına düşdü.

-Əli dayı, mən tələsirəm, Qurban müəllimdən soruşarsan, mənim əsl adımı sənə deyər.

İti addımlarla aralanıb, avtobus dayanacağına tərəf yeridi.

-Əşi, səninlə məzələnirəm, adını çoxdan öyrənmişəm. Ramzes... Ada bax ey. Ha, ha, ha. Dədən bir fərli ad tapıb sənə qoya bilmirdi?

Elə o anda avtobus özünü yetirdi. Bir istədi bu avtobusu ötürsün, qayıdıb Əli kişinin cavabını versin, sonrakı avtobusa minb getsin. Amma düşündü ki, qayıdanda onun cavabını verər. Yadından çıxmışdı ki...

Basabas olmasa da, avtobusda adam az da deyildi. Qabağına çıxan birinci boş oturacaqda oturdu. Ancaq cəmi bir dayanacaq boyu otura bildi. Uşaqlı qadını görən kimi qalxıb yerini ona verdi. Beş-on dəqiqədən sonra avtobusda birdən-birə böyük sıxlıq yarandı. Adamlar az qala bir-birinin böyür-başına sıxlaşaraq yol gedirdilər. Rəmiş müəllimin bu sıxlıqdan ürəyi qısıldı. O, ümumuyyətlə, sıxlıq olan yerləri sevmirdi. Belə yerlərdə ürəyi darıxır, nəfəsi daralırdı. Bir zülmlə bir-iki addım qabağa yeriyib, çıxışa yaxınlaşmaq istədi.

-Ay kişi, neynirsən, vəhşisən, ayağımı yerindən qopardın.

-Mən yazıq neyləyim?..

-Çor elə, zəhrimar elə. Biri sənin arvadını, bacını belə ayaqlasa, nə deyərsən ona?

-Bağışlayın, xanım.

-Mənim sənə bağışlanacaq bir şeyim yoxdur. İtil gözümdən.

Rəmiş müəllim güc-bəla ilə qapının ağzına gəlib, özünü bayıra atdı. Üst-başını səliqəyə salıb, avtovağzala tərəf yeridi. Qadının sözlərindən bütün bədəni tərləmişdi. Onu tərlədən həm

də, o qadının söyüşlərinə dəm tutan sərnişinlər idi. Elə bil, Rəmiş müəllim bir böyük cinayət eləmişdi. Ya da beynəlxalq axtarışa verilən cani idi. Ki, bu adamların əlinə düşmüşdü və onlar da onun qabırğasına döşəyirdilər. Hələ yaxşı ki, mənzil başına yetişmişdi. Onlarla bir az da yol gedəsi olsaydı, ya ürəyi xarab olmalı idi, ya da əlindən bir xəta çıxıb işə düşməli idi.

Gözünə sataşan ilk təlabat malları mağazasına daxil oldu.

-Qızım, o qalın ipdən bir az kəs ver mənə.

-Nə qədər kəsim, əmi?

-Belə də... Bir metr altmış, bir metr yetmiş santım... Yox, qızım, iki metr elə... Kəndir dedim sənə, ip demədim.

-Nə fərqi var, eyni şey deyil?

-Eyni şey deyil. İp ipdi, kəndir də kəndir.

-Sən ip demişdin.

-Yaxşı, uzatma.

Satıcı qız yanındakı qıza baxıb astaca barmağını gicgahına apardı. Bu Rəmiş müəllimin nəzərindən yayınmadı.

-Qızım, mən dəli deyiləm. O boyda məktəbin müəllimiyəm. Uşaqlara riyaziyyat elminin sirlərini öyrədirəm. Bu saat da məktəbdən gəlirəm. Direktorumuz Kam... Mən sizə niyə hesabat verməliyəm axı? Kəndirimi ver, çıxım gedim.

Satıcı qız istehzalı baxışlarla Rəmiş müəllimi süzdü. Kəndiri salafan torbaya qoyub, ona uzatdı.

Avtovağzalın kassasının qarşısına xeyli adam toplaşmışdı. Bu qədər adamın içərisindən indiki reysə bilet tapmaq, görünür, çətin olacaqdı. Ümidi az olsa da, adamların arasından sivişib, bilet satan qızın qarşısında dayandı.

-Qızım, bir bilet ver mənə.

-Haraya?

-Əşi, haraya olur-olsun, şimal tərəfə. Şabrana, Xaçmaza, Qubaya... lap Qusara da olar.

Qız təəccüblə onun üzünə baxdı.

-İndiki reysə bir biletimiz qalıb, o da Qubayadır.

-Ver gəlsin.

Biletin pulunu qıza uzadıb, tələsik addımlarla Quba avtobusuna tərəf yeridi.

Deyəsən, avtobusa normadan artıq sərnişin götürmüşdülər. Adamların bir qismi ayaq üstə dayanmışdı. Buradan Qubaya necə ayaq üstə dayanacaqdılar, orası çox qəribəydi. Elə bu anda Rəmiş müəllimin ağlına başqa fikir gəldi. “Görünür bu adamlar da hara getdiklərini bilmirlər. Yəqin bir azdan bir-bir avtobusdan düşəcəklər.” Adamların əllərinə də baxmağı unutmadı. Amma heç birinin əlində salafan torba yox idi. “Bəlkə bunlar kəndirlərini bellərinə bağlayıblar ki, heç kəs duyuq düşməsin? Gör ha, gör adamlar necə də tədbirli iş görürlər. Mən isə...” Yenə oğrunca torbanın içindəki kəndirə baxdı. “Doğrudan, kəndirlə ipin nə fərqi var, görəsən? Mən də qızı yamanladım, heç özüm də bilmirəm.”

Bu vaxt yanında dayanan dolu qadın uca səslə qışqırdı:

-Sürücü, sürücü, saxla maşını, avtobusda terrorçu var.

Sərnişinlər heyrətlə dolu qadının üzünə baxıb, qeyri-ixtiyari ləngər vura-vura ayağa qalxdılar. Avtobus sürətini alıb, dayandı. Adamlar bir an çaşıb qaldılar. Sərnişinlərin bir neçəsi özünü avtobusdan bayıra saldı.

-Terrorçu kimdi?

Sürücünün bu sualına dolu qadın Rəmiş müəllimi göstərdi.

-Bax, bu kişi. Əlində tutduğu torbada nədirsə, tez-tez oğrun-oğrun ona baxır. Tezcə tədbir görün, yoxsa...

Sürücü Rəmiş müəllimin başının üstündə dayandı. Ötkəm səslə əlindəki torbanı ona verməsini tələb elədi.

-Ver bura görüm, nə aparırsan?

-Heç, elə-belə...

Dartıb torbanı Rəmiş müəllimdən aldı.

-Sənin kimilərdi bizi Avropada biabir edən... Bu nədi belə?

-İp... Yox ey, kəndir.

-Özünü asmağa aparırsan?

-Hə.

-Onda al, işin avadan.

Sürücünün son sözlərindən sürücünün həm özü, həm də sərnişinlər gülüşməyə başladılar.

-Camaat, yerinizi tutun, gedək, bu terror eləyən avara deyil, yazığın biridir.

Avtobus yenə yoluna davam elədi. Amma indi Rəmiş müəllim bayaqkı Rəmiş müəllimə bənzəmirdi. Özünü çox tənha, yalqız, sürücünün dediyi kimi yazıq hiss edirdi. Elə bil, dünyanın bir tərəfi uçmuşdu, Rəmiş müəllim də dünyanın uçan tərəfinin altında qalmışdı. Bir tərəfdən də avtobusa yayılan həzin nəğmə onun könül duyğularını bir az da kövrəkləşdirirdi.

Dünya sənin,

dünya mənim,

dünya heç kimin...

“Bu gün nə pis gündü, İlahi. Səhərin gözü açılandan işlərim düz gətirmir. Əli kişinin səhər-səhər məni sancması, avtobusdakı qadının təhqir eləməyi, satıcı qızın məni dəli sanması, indi də bu “terror” hadisəsi... Görünür, bütün insanların son günü belə ağrılı keçir. Allah belə edir ki, adamın dünyadan zəhləsi getsin, gözü bu dünyada qalmasın... Onsuz da çoxdan zəhləm gedir bu dünyadan. Nəyə lazımdır axı bu dünya? Zillət çəkməkdən başqa bir xoş işi yoxdur. Xoş işi olanda da çox ötəri olur. Lap bir an qədər. Əzabı isə dünyanın özü boydadı... Dünya sənin, dünya mənim, dünya heç kimin... Rəhmətlik yaxşı deyib. Nə olsun, Miqdar kimi adamlar bu sözlərin mənasını qanırlar ki. Elə adamlar

üçün dünyanın mənası yalnız pulda, var-dövlətdədir. Belə adamların duyğuları elə dünyaya gəldikləri gün ölür. Ömrü boyu duyğusuz yaşayırlar onlar... Başına qar yağsın Miqdarın. Daş da yağsa pis olmaz. Dəyyus köpək oğlu özü ağılda arvadını götürüb gəlir bizə, arvadımı haldan çıxarandan sonra çıxıb rədd olurlar. Hər dəfə onlar bizə gələndə evdə dava-qalmaqal olur.”

İyrəndiyi bacanağı Miqdarı xatırlaması indi heç yerinə düşmədi. Onsuz da halı pərişan idi. Bir yandan da Miqdarın nakişi hərəkətlərini yadına salanda ağrıları bir az da çoxalırdı.

Dünən axşam da onlara gəlmişdilər. Miqdarın hırıltısı yenə evi başına götürmüşdü. Ağzını-burnunu əyə-əyə elə ucadan danışırdı ki, adamın sinirləri titrəyirdi.

-O gün sifariş elədim Güldərənə xaricdən xəz şuba gətirsinlər. Qiyməti on iki min manata. Dubaydan qızıl da gətirəcəklər. Demişəm, bir-iki aya arvada əlli min manatlıq xərc qoyacağam. Hər şey halaldır Güldərənə. Dünyanı da ona bağışlasam, yenə azdır.

Güldərən də elə əzilib-büzülür, elə yaltaq-yaltaq Miqdarın üzünə gülümsəyirdi ki, adam vardan yox olurdu.

-Necə qurban olmayasan belə kişiyə? Qa deyirsən, ətin gəlir, qu deyirsən suyun. Kişi belə olar də. Yoxsa bəziləri kimi...

Bəziləri deyəndə ikisi də birdən Rəmiş müəllimə baxıb gülümsəyəndə, Gülsərənin rəngi bozarıb payız buluduna dönmüşdü. Onda Rəmiş müəllim bilmişdi ki, qonaqlar gedəndən sonra yenə evdə mərəkə qopacaq. Yenə Gülsərən gözünü yumub, ağzını açacaq, axırıncı sözlərlə onu təhqir etməmiş yaxasından əl çəkməyəcək...

-Elə adınız da uyğun gəlir; Cəbiş müəllim, Rəmiş müəllim. Allah ikinizi də öldürsün. Cəbiş Şəfiqənin ömrünü qurtardı, sən də mənim.

-Şəfiqə yox...

-Hə, arvadların adını yaxşı bilərsən. Pul qazanmaq deyil ki, əlindən gəlməsin. Qız deyir, atam məktəbdə axşama qədər Fatma müəllimənin arxasınca sürünür.

-Qələt eləyir. Camaat özünü küçəyə tökməyib ki. Fatma müəllimə əxlaqlı qadındı.

-Səni cəhənnəmə yeddi ayaqlı gedəsən...

“Bu dünyada, görəsən, Miqdardan alçaq adam var? Ada bax. Gərək dədəsi onun adını Miqdar yox, Misqal qoyaydı. Çünki bir misqal ağlı yoxdu... Doğrudan mənim adım niyə Ramzesdi? Hə, yadıma düşdü. Atamın əsgərlikdə orta asiyadan olan bir dostu olub Ramzes adında. Onun şərəfinə mənim adımı Ramzes qoyub. Bədbəxt Əli kişi bunu hardan bilsin. Bir tərəfdən Əli kişidə də günah yoxdu. Uşağa ad qoyanda ata-ana gərək bir düşünə. Axı bu uşağın bir böyüməyi də var. Xalamın qohumu uşağının adını Yırtıq qoymuşdu. Nə var, nə var uşaq dünyaya gələn günü uşağın atasının kör bağarsağını kəsmişdilər.”

Rəmiş müəllim ayağa qalxıb, yırğalana-yırğalana sürücüyə tərəf getdi.

-Saxla, qardaş, mən düşürəm.

-Bura Beşbarmaq pirinin yanıdır.

-Bilirəm, elə mənə bura lazımdır.

Sürücü kinayəli nəzərlərlə güzgüdə Rəmiş müəllimə baxıb, əyləci basdı. O anda ona elə gəldi ki, bütün avtobusda olanlar ona baxıb gülürlər. Canını bu əzabdan qurtarmaq üçün tələsik avtobusdan düşüb, pirə doğru addımladı. Sanki yalnız indi buraya nə üçün gəldiyi yadına düşdü. Oğrunca salafan torbadakı kəndirə baxdı. Öz əzrayılını görürmüş kimi tezcə də nəzərlərinin istiqamətini dəyişdi. “Hə, kəndirlə ipin fərqi var imiş. İp zirə bağlamaq üçündür. Kəndir isə... Kamran müəllim bilsə ki, arvadımın nənəsi otuz il bundan qabaq rəhmətə gedib, mənə ən azı töhmət verəcək. Bundan sonra?... İstəyir ölüm cəzası versin, daha fərqi yoxdur...”

Rəmiş müəllim bu pirə bir neçə dəfə gəlmişdi. Dindar olmasa da, belə pirlərin kəramətinə inanırdı. Hər dəfə pirlərə gedəndə əsəbləri sakitləşir, ruhuna həlimlik çilənirdi. Bu dəfə isə buraya ziyarət etməyə yox, başqa məqsəd üçün gəlmişdi. Elə məqsəd üçün ki, bu gəlişin qayıdışı olmayacaqdı. Hər insanın ruhunda, düşüncəsində mütləq bir xəstəhallıq olur. Rəmiş müəllim də hər zaman arzu eləmişdi ki, öləndə uzaq yerdə ölsün. Onu ölü maşınına qoyub, evinə gətirsinlər. Bütün adamlar yola-rizə çıxıb, Rəmiş müəllimin meyidini gətirən maşına baxsınlar, ürəyindən keçənlər hələ onun meyit maşınına gül-çiçək də atsınlar... Yoxsa elə evinin yan-yörəsində bir münasib yer tapıb, istədiyini həyata keçirə bilərdi.

Xəstə adamlar kimi gah göyə, gah yerə, gah salafan torbaya qoyduğu kəndirə, gah da Beşbarmaq pirinin uca zirvəsinə baxa-baxa gəlib əvvəlcədən düşündüyü yerə çatdı. Bu yeri yuxularında da bir neçə dəfə görmüşdü. Hər dəfə də işıqlı, nurlu... Ancaq bu gün o işıqdan, o nurdan əsər-əlamət belə yox idi. Hava dolmuşdu. Göyün üzü dərdli adamların üzü kimi bomboz bozarmışdı. Bunu da bir əlamət hesab elədi Rəmiş müəllim. Düşündü, yəqin onun bu dünyadan gedişinə yer-göy də yas saxlayır. Öz düşüncəsinə özünün də gülməyi tutdu. Axı o, kim idi ki, bu dünyadan getməyinə yer-göy yas saxlasın? Olsa-olsa kasıb bir müəllim babaydı. Ki, indiki zəmanədə belə adamlar gülüş obyektine çevrilməkdən başqa bir işə yaramırdılar. Gör iş nə yerə çatmışdı ki, evdə arvadı da onu adam yerinə qoymurdu. Neçə dəfə onun üzünə ölümünü arzuladığını demişdi arvadı. Belə məqamlarda Rəmiş müəllim özü də gizlincə öz ölümünü diləyirdi Allahdan. Amma o ölüm gəlmirdi. Görünür Allah ona bu dünyanın cəhənnəmini yaşadandan sonra həyatına son qoyacağını düşünürdü. Lakin daha Allahın o gününü gözləməyə Rəmiş müəllimin taqəti qalmamışdı.

Bir az da yuxarıya dırmanıb, ətrafa göz yetirdi. Birdən-birə üzünə təbəssüm qondu. Heç buralarda gözünə ağac-mağac dəymirdi. Buralarda ağac neyləyir ki? Olsa-olsa xırım-xırda cır ağaclar olardı ki, o ağaclar da Rəmiş müəllimi saxlamazdı. Bir də

gözucu kəndirə baxdı. Onu daşın üstünə qoydu. On, on beş metr də hündürə dırmandı. Hə, bura yaxşı idi. Heç kəndirə də ehtiyac qalmayacaqdı. O günləri televizorda göstərirdilər, bir nəfər belə hündür bir yerə çıxıb, özünü aşağı atmışdı.

Yorulmuşdu. Ayaqlarında yeriməyə taqət qalmamışdı. Nəfəsi də ağzından çıxırdı. Elə bil, ürəyi böyüyüb, bütöv bədəni boyda olmuşdu. Yanını yosun basmış daşın üstünə qoyub oturdu. Dərindən nəfəs aldı. Elə bu zaman ondan bir az aralıda gözünə qara salafan torba sataşdı. Yenə gülümsədi. Düşündü ki, görünür onun kimi adamlar az deyil. Yəqin bu torbanın sahibi də... Onu maraq götürdü. Ayağa qalxıb, aşağılara nəzər yetirdi. Gözünə bir ins-cins dəymədi. Qara torbaya tərəf yeriyib, onun ağzını araladı. Lakin... Torbada kəndir gözünə dəymədi. Torbanın içi ağzınacan pul ilə dolu idi. Özü də hamısı yüzlük, əllilik. Pulları yerə töküb, o üzə, bu üzə çevirdi. Burada azından İki yüz min manat pul var idi. Özünü itirdi Rəmiş müəllim. Nə edəcəyini bilmədi. Bir istədi pulları yerinə qoyub, öz istəyini həyata keçirsin. Sonra nə düşündüsə, pulları torbaya yığıb, qoltuğuna vurdu. Aşağı düşmək istədi. Yenə ayaq saxladı. Axı Rəmiş müəllim ömrü boyu haram çörək yeməmişdi. İndi niyə başqasının pullarını götürüb aradan çıxsın? Yerə oturdu. Necə oldusa, yenə yadına Miqdar düşdü. “Ay Allah, sən bu alçağı niyə yaratmısan axı?” Elə bu anda yaddaşında bir deyim çözələndi. Bir insan Allahın yanına gedib, ona şikayət edir, deyir, ey böyük Yaradan, sən ki, bu qədər qüdrət sahibisən, bu pıspısanı nə üçün yaratmısan? Ayağımızın altında qalır, bizi incidir, təbiətə zərər verir. Bu an Allah gülümsəyir, qayıdıb insana deyir ki, elə səndən bir az qabaq pıspısa gəlmişdi yanıma, deyirdi, bu insanı niyə yaratmısan, zərərdən başqa bu dünyaya bir faydası yoxdur onların...

“Yəqin mənim ona nifrət elədiyim kimi o, da mənə nifrət edir... Amma... Mən onun kimi parazit ola bilərəmmi?.. Bəlkə o, olmasaydı, heç evimizdə də bu qədər söz-söhbət olmazdı. Onda yəqin Gülsərən məni sevərdi də. Nə olsun ki, evə çox pul gətirmirəm, kasıbam. Bəyəm kişilərin hamısı evinə çox pul gətirir? Nə çoxdu dünyanı başına götürən kasıb, pulsuz adamlar. Bu

kasıb, puısuz adamları arvadları sevmir?.. Lənətə gəlsin bu Miqdarı. Evimizi cəhənnəmə döndərən odur... ”

Bu darməcalda Miqdar niyə yadına düşmüşdü, orasını bilmirdi. Yəqin çoxlu pulu bir yerdə görəndə mütləq Miqdar yada düşməliydi. Yenə onun iblis simasını gözləri önünə gətirdi. Ağzını tüpürcəklə doldurub, üzü bozarmış daşın üstünə tüpürdü. Beləcə Miqdarın üzünə tüpürürmüş kimi hirsini-hikkəsini boz daşın üstünə tökdü.

Daha heç nə düşünmədi. Düşünmək istəmədi. Pul kisəsi qoltuğunda iti addımlarla dağdan aşağı düşdü. Arxasına da baxmadan yolun kənarına gəldi. Qarşısına gələn elə ilk maşını saxlayıb, özünü qabaq oturacağa saldı.

-Ay kişi, neyniyirsən?

-Məni Bakıya apararsan?

-Bunu maşına oturmamış soruşarlar. Bəlkə qiymətdə razılığa gəlmədik?

-Nə desən verəcəm, təki məni evimə çatdır.

-Bu başqa məsələ. Onda getdik.

Sürücü gülümsəyib, maqnitafonu işə saldı. Qazı basıb, üzü Bakıya sarı yol aldı.

Hələ axşamın düşməyinə çox qalsa da, hava buludlu olduğundan hər yan qaranlıq görünürdü. Rəmiş müəllimin içərisində isə boz bir hava hökmranlıq edirdi. Hərdən o boz hava qırmızıya, hərdən qaraya, hərdən də yamyaşıla dönürdü. Özündən baş açmırdı bu gün Rəmiş müəllim. Elə bil, iki daşın arasında qalmışdı. Bu daşın bir tərəfində ölüm, bir tərəfində həyat var idi. O, hansını seçəcəyini ayırd eləyə bilmirdi. Tez-tez də səy adamlar kimi gizlincə salafan torbanın içinə baxırdı. Bu salafan torba onun həyatını bütünlüklə dəyişə bilərdi. Bəlkə elə Allahın özü göndərmişdi bu salafan torbanı? Göndərmişdi ki, Gülsərənin gözü puldan doysun. Özünə qırdan-qızıldan alsın. Boynunu, boğazını Güldərənin qızıllarından da yekə qızıllarla doldursun. Sonra da məhəbbətlə Rəmiş müəllimə baxsın. O, işdən

qayıdanda ehtiramla onu qarşılayıb, boynunu qucaqlasın, üzündən-gözündən öpsün. Miqdar arvadını götürüb onlara gələndə daha Rəmiş ölmək üçün özünə yer axtarmasın. Qızı da məhəbbətlə onun dizləri üstündə oturub, “ata, mən səni çox sevirəm”-desin.

Belə boz fikirlərin burulğanında özünü qapının ağzına çatdırdı. İstədi qapının zəngini vursun. Hər ehtimala qarşı astaca qapını itələdi. Qapı açıq idi. Yəqin yenə qızı müəllim yanına getmişdi, Gülsərən də başı nəyəsə qarışdığından qapının arxasını vurmamışdı. Hər dəfə bunu arvadına irad tutanda, arvadı onun üzünə çımxırırdı. “Nəyimiz var, gəlib bizi öldürsünlər, ay bədbəxt, bir həsirik, bir Məmmədnəsir.”

İçəri keçən kimi pul torbasını ayaqqabı qoyulan yerdə gizlətdi. Barmaqlarının ucunda böyük otağa tərəf yeridi. Bir azdan şad xəbəri Gülsərənə yetirəcəkdi. Onda Gülsərənin hansı hallara düşəcəyini Rəmiş müəllim indidən xəyalında canlandırırdı.

Böyük otaqdan Gülsərənin səsi gəlirdi. Deyəsən, telefonda danışırdı. Rəmiş müəllim marağını saxlaya bilməyib, qulağını səsin istiqamətinə köklədi.

-Hə, nə bilim, ay bacı, Allah bir möcüzə yarada, birdən-birə varlanam. Onda gedib bu köpəkoğlunun dədəsinin qəbrinə it bağlayaram. Sonra da “Sahil”ə gedib, başdan-ayağa bəzənib-düzənərəm. Erkəklər halımdan dəli-divanə olarlar onda. Mini yupkama baxıb, cənnətin ləzzətini çəkərlər. Qızımı da ən müasir dəblə geyindirərəm. Həftə səkkiz, mən doqquz qızımı qoltuğuma vurub, gedərəm Dubaya... Hə də, şeyxlərə ləzzət vermək üçün... Bilirsən o günləri Miqdar mənə nə deyir? Deyir, həmişə meşədə armudun qəşəngini ayı yeyər. Bir az əlimə pul keçə, oramı-buramı düzəldəm, onda bu eşşək balasına göstərərəm ki, meşədəki armudun qəşəngini kim yeyər...

Daha bundan o tərəfə Rəmiş müəllim eşitmədi. Qulaqları tutuldu, elə bil, kar oldu. Gözləri də qaranlıq gətirdi, hər yeri zülmət gördü. Elə bu zülmət qaranlığın içində xəstə adamlar kimi

yeriyib, salafan torbanı qoyduğu yerdən götürdü. Bayıra çıxdı. Yolun kənarında dayanıb, maşın gözlədi.

-Məni Beşbarmağa aparарsan?

-Puluna minnət. Pul versən on barmağa da apararam...

Pulla dolu salafan torbanı götürdüyü yerə qoydu.

Nəfəsi ağır çıxırdı. Bir tərəfdən gün ərzində keçirdiyi həyəcan, eşitdiyi bəd sözlər, kəndir qorxusu, bir anda bir dünya pula sahib olması, arvadının telefon danışığı onun əsəb tellərindən süzülərək qəlbinin tənhalığına çökmüşdü. Belə halda geri qayıda bilməzdi. Heç arvadının üzünə də çıxmaq istəmirdi. Nə qədər tədbirli, sakit təbiətli adam olsa da, isti-isti əlindən bir xəta çıxa bilərdi.

Qayaların arasında yerini rastlayıb uzandı. Başının altına da qıyıq otlardan "balınc" düzəltdi. Və çox keçmədən dərin yuxuya getdi.

Ay işığında gecə elə gözəl görünürdü ki... Gündüzün işığında belə gözəllik ola bilməzdi. Günəşin zərrələri altında hər şey aydın, apaydın gözə çarpırdı. Bütün gözəlliklə birlikdə pislər də görünürdü. O pislərin fonunda yaxşılardan ləzzət ala bilmirdin. Elə bilirdin bütün dünya çirkabın içərisindədi. Ay işığının şöləsində isə ancaq yaxşılar görünürdü. Pisləri göstərməyə ayın gücü çatmırdı. Və bu gücsüzlükdən Rəmiş müəllim ləzzət alır, bayılmaq dərəcəsinə gəlirdi. Gecənin sehri onun bütün qəlbini riqqətə gətirmişdi. Hərdən bu sirli gecənin bir səmtində qızının da siluetini görürdü. O siluetdə qızı ona baxıb gülümsəməyə də macal tapırdı...

Ayağına toxunan soyuq təmasdan diksinib yuxudan ayıldı. Ayağının üstündən iri bir ilan sivişib o tərəfə keçdi. Qaranlıq olsa da, ilanın böyüklüyünü, hətta rəngini də hiss elədi.

Ürəyi qəfəsdəki quş kimi çırpınırdı. Gecənin bu qərib çağında bu qəribə yuxunu görməsi və iri ilanın ona toxunmadan ayağının üstündən keçməsi onun gün ərzində olan həyəcanını ən yuxarı həddə çatdırmışdı. Amma bütün bunlara rəğmən, həm ağappaq yuxu görməsi, həm də ilanın onu "öpməsi"ni bir başqa əlamət kimi

yozmağa çalışdı Rəmiş müəllim. “Yox, mən hələ yaşamalıyam. Qızımı böyütməliyəm. Onu taleyin ümidinə buraxıb, quzğunların qucağına ataraq dünyadan getməyə haqqım yoxdur!”

“Yatağından” qalxıb qaranlıqda əlləri ilə kəndir olan salafan torbanı axtardı. Tapdı. Bir az qabağa gəlib, qolu gəldikcə kəndiri dağdan aşağıya tolazladı.

Gecənin hansı çağı olduğunu bilmirdi. Ancaq onu bilirdi ki, gecədən sonra gələcək sabah onun üçün bir başqa sabah olacaqdı. O sabahdan gördüyü yuxunun nurunu qəlbinə yığmaq üçün bütün gücünü toplamalıydı. Bəlkə də onun ikinci həyatı elə sabahdan başlanırdı...

# Əlil arabasında görüş

Telefonun zəngi ona tanış gəlmədi. Bu zamanlar ona zəng edən olmurdu. Ərdəmsiz halda dəstəyi qaldırıb qulağına tutdu.

-Alo, kimsən?

-Kimsən yox, kimsiniz?.. Kobud oğlanlardan xoşum gəlmir.

-Yaxşı, kimsiniz?

-Mənim adım İlknurdu. Bir xarici firma var, orada işləyirəm. Bu günlərdə altı ayım tamam olacaq.

-Gözəl qız, bu dediklərinizin mənə bir dəxli var?

-Biz firmanın mallarını reklam edirik. Çox gözəl elektrik avadanlıqları təklif edirik. Elə avadanlıqlar ki, nəinki Qafqazda, heç Avropada da bu malların analoqu yoxdur.

-Çox gözəl. Onda xahiş edirəm, sabah bu zaman mənə bir də zəng edin.

-Oldu. Mütləq zəng edəcəyəm.

Qızın çox qəribə səsi var idi. Elə bil, həzin musiqi çalınırdı. Heç olmasa, bu gözəl səsə görə gərək onunla kobud danışmayaydı.

Sabah elə o vaxt o səsi bir də eşitmək üçün telefonu dizlərinin üstünə qoydu. Heç gümanı yox idi ki, o qız yenə zəng edər. Ancaq zəng elədi. Yenə telefonun o başından qəşəng səsi gəldi.

-Yenə mənəm, İlknur.

-Tanıdım.

-Bəs sizin adınız nədir?

-Ərsən.

-Nə yaxşı adınız var. Türk adına oxşayır.

-Elə sizin də... Bəs necə olmalıdır? Adımızı Volodya, Mişa qoya bilmərik ki.

- Yox, elə demək istəmirəm. Sadəcə, bizim babalarımız daha çox ərəb, fars mənşəli adlara meylli olublar. İndi biz babalarımızın səhvlərini düzəldirik... Yaxşı, deməli belə, bizim mallar dünyanın ən brend malları arasında yer alır ki...

-Bu mallar da dünya bazarında çox sürətlə yayılır.

-Nə demək istəyirsiniz?

-Demək istəyirəm ki, gözəl qız, gəlin bir az özünüzdən danışın, sonra brend mallarınızdan söhbət açarsınız.

-Hardan bilirsinz ki, mən gözəl qızam?

-Səsiniz çox gözəldi. Bu səsin sahibi çirkin ola bilməz.

-Sağ olun, komplimentə görə.

-Bu kompliment deyil. Səsinizin onda biri cizgilərinizdə əks olunsa, demək sizi gözəllik şahzadəsi saymaq olar.

-Yaxşı, sağ olun, sizdən bazarlıq edən olmaz.

Qızın telefonu üstünə asmağını indi heç istəmirdi. Kaş onunla, heç olmasa, onca dəqiqə danışaydı. Telefonun dəstəyi əlində

quruyub qalmışdı. Üstünə qoymağa əli gəlmirdi. Elə bilirdi dəstəyi üstünə qoysa o bal kimi şirin səsli qızı birdəfəlik itirəcək, bir daha tapa bilməyəcək, o səsi eşitməyəcək. Ürəyi əsə-əsə özünü qınayırdı. Bir qədər ehtiyatlı davransaydı, qız da dəstəyi asmayacaqdı. Əziz bir adamını itirmiş kimi kədərli ah çəkib, bacısını səslədi:

-Ağnur, ay Ağnur...

Bacısı bir anda özünü onun yanına çatdırdı.

-Nə olub, qaqa, eşidirəm.

-Nə edirsən?

-Heç, pəncərələri silirəm. Bir işin var?

-Ağnur, bayırda hava yaxşıdı?

-Çox yaxşıdı, qaqa. Səndən nisgil eləyirəm. Ərol evdə yoxmu, səni gəzməyə aparsın?

-Yox, Ərol işdədi.

-Onda qoy özüm səni bayıra çıxarım.

-Yox, istəmirəm. Həm də kürəklərim üşüyür, bayıra çıxsam, soyuq olacaq... Bir çay ver mənə.

-Baş üstə, canım.

Ağnur gizlicə köks ötürüb, çay gətirmək üçün mətbəxə keçdi.

Ərolun işə düzəlməyi ona heç sərf eləmirdi. Heç olmasa, həftədə, onda bir dəfə gəlib onu həyət-bacaya çıxarırdı, gəzməyə aparırdı. İndi isə ancaq şənbə, bazar günləri evdə olur. İmkan tapan kimi onun yanına gəlir, ürəyi hara istəsə götürüb aparır.

Ərol onun anasının xalası nəvəsi idi. Qohum olmağa uzaq qohum sayılırdı. Amma uşaqlıqdan onunla dost idilər. Lap doğma qardaş kimi. Bütün sirləri, gizlinləri bir-birinə bəlli idi. Heç kəsə deyə bilmədiyini Ərola deyə bilirdi. Hətta bir gün...

Ərol onun bir gənc oğlan kimi ehtiraslı olduğunu bilirdi. Onun yanına gəlib, gördüyündən, eşitdiyindən gizlin-gizlin ona danışırdı.

Bu dəfəki gəlişi bir başqa cür oldu. Bir gözü qapıda, pəncərədə ola-ola, ona astadan pıçıldadı:

-Ərsən, bir xanım var, onun yanına getmək istəyirsən?

Ərsən diksinib, düz Ərolun gözlərinin içinə baxdı.

-Zarafat edirsən?

-Yox, vallah, doğru sözümdü. Uşaqlar tapıblar. Çox qəşəng, totux-motux bir xanımdı.

-O məni qəbul eləməz axı.

-Narahat olma, sənin barəndə ona danışıblar, qız da razılıq verib.

-Qız?

-Qoy xanım olsun. Yaxşı, gedirsən?

-Əlbəttə gedirəm. Xeyir iş nə vaxtdır?

-Elə bu gün. Axşam saat səkkizdən sonra. Qorxma, özü nə lazımdı sənə kömək edəcək...

Səkkizdən sonra gəlib onu götürdülər.

Ömründə ilk dəfəydi ki, belə bir yerə gedirdi. Ürəyi gup-gup döyünürdü. Həyəcanını hiss edən uşaqlar ona ürək-dirək verdilər, dedilər, özünü ələ al, yoxsa xanımın yanında bizi biabır edərsən.

Hər şey yaxşı oldu. O xanımdan, xanım da ondan razı qaldı. İndi hərdən məqam düşəndə Ərsəni götürüb o xanımın yanına aparırdılar...

Ərolun işə düzəlməyi, bir də o xanımın xaricə ərə getməyi Ərsənin işlərinə xətər gətirmişdi. Neçə müddət idi gözəl xanımlara ancaq televizorda baxırdı.

Ağnur da son günlər çox fikirli olurdu. Nə olmuşdu ona, Ərsən bilmirdi. Çox qapalı qız olduğundan onsuz da dərdini heç kəsə demirdi. Heç doğma qardaşına da. Amma bəzi xəbərlər o yandan, bu yandan sızıb, Ərsənin qulaqlarına çatmışdı.

Ataları çox cavan dünyasını dəyişmişdi. Bir kiçik mübahisənin qurbanı olmuşdu. Qonşusu ilə dənizdə çimərkən bir nəfər cavan oğlan onların çimməyini lağa qoymuş, aralarında dava düşmüşdü. Və bu davanın sonu onun ölümü ilə nəticələnmişdi. Onda hələ Ərsənin altı yaşı var idi. Ağnur isə dünyaya gəlməmişdi. Anası Ağnura dörd aylıq hamiləydi... Uşaq olsa da, bu hadisə Ərsənin yadından çıxmırdı. Atasının meyidini dənizdən gətirərərkən anasının qopardığı ah-nalə, qohumların fəryadı qulaqlarına əbədilik ağı şərqisi kimi yazılmışdı. O gündən onların evinin pərgarı pozulmuşdu. Anası hamilə qaldığı uşağı saxlamaq istəməmişdi. Ancaq buna həm həkimlər, həm də qohum-qardaşlar qəti etirazlarını bildirmişdilər. Çox inaddan sonra qonşunun gəlini onu bir pünhan guşəyə aparmış, başa salmağa çalışmışdı.

-Ay qız, ürəyin ağrımasın, bir uşağın var, o da ki, belə... Bəs gələcəkdə sənə kim həmdəm olacaq? Sənin bu fikrə düşməyin həm Allah, həm də bəndə qarşısında günahdı. Gəl daşı ətəyindən tök.

-Bəs mən nə edim, bu iki uşağı necə saxlayacağam? Heç atalı-analılar iki övladı böyüdüb, ərsəyə çatdıra bilmirlər.

-Ruzi verən Allahdır. O sənə güc verəcək, onları böyüdəcəksən. İnan mənə, bu işi görsən, gələcəkdə peşimançılıqdan yaşamağın əzabını çəkəcəksən.

Bu söhbətdən sonra anası inadından dönmüşdü. Çox çətinliklə də olsa, onları böyüdürdü. Amma... O hadisə olmasaydı, bəlkə də anaları onları ərsəyə gətirib, bir yerə çıxaracaqdı. Açıq havada ildırım çaxdı, göy gurladı, tufan qopdu elə bil. Ailənin pozulan növrağı bundan sonra daha bərbad hala düşdü. Yüksək qan təzyiqindən ana insult keçirdi. Bədəninin böyük hissəsi iflic oldu. Bunun səbəbindən danışıq qabiliyyətini, yerimək bacarığını itirdi. Sonradan danışığının bir hissəsi bərpa olsa da, yeriməyinin səksən faizi öz köhnə halına qayıtmadı. Əvvəllər anaya bacısı, qardaşı arvadı baxsalar da, sonradan onlar bezib, geri çəkildilər. Belə də bütün yük zavallı qızcığazın, bacısının üstünə düşdü. Onda hələ Ağnurun on altı yaşı tamam olmamışdı. Yeni-yeni qızlar bulağından su içməyə başlamışdı. Təkcə anası olsaydı,

bəlkə də, öhdəsindən gələ bilərdi. Axı Ərsən də var idi. Ona da baxmalı, idarə etməliydi. Zərif çiyinləri bu qədər yükün ağırlığından sızlayırdı bəzən. Hərdən həyatdan bezməyi gəlir, özünü öldürmək fikrinə də düşürdü. Ancaq öz canına yox, anasına, qardaşına yazığı gəlirdi. Ona görə bu addımı ata bilmirdi. Bilirdi ki, o, dünyadan gedən kimi anası, qardaşı da yaşaya bilməyəcəklər. Belə ağır məqamlarda dini kitablara, böyük yazarların əsərlərinə sığınırdı. Onlardan güc alıb yaşayır, anasını, qardaşını da yaşadırdı.

Bu müddət ərzində onu çox istəyənlər olmuşdu. Amma onların hamısını geri qaytarmışdı. Düşünmüşdü ki, onun ərə getməyi də anası ilə qardaşının ölümünü tezləşdirə bilərdi. Axı hansı ər razı olardı buna, deyərdi ki, gündə get anangilə, xəstə anana, xəstə qardaşına qulluq elə, sonra qayıt gəl evə?.. Onun dərdindən ailə həyatı qurmağı xəyalından keçirmirdi. Ancaq iki ildən çox idi ki, Kamran adlı bir oğlan ondan əl çəkmirdi. O zamandan ki, anası da hələ sağ idi. Və gizlincə qızının telefonunda o oğlanın mesajlarını oxumuş, şəklini görmüşdü. Gücünü toplayıb bir səhər qızına da demişdi bu haqda.

-Qızım, başına dolanım, bilirəm, bir nəfər səni sevir. Özü də elə-belə yox, dəlilər kimi istəyir səni. Gəl mənə qulaq as. O oğlana razılıq ver... Axı nə qədər oturub qalacaqsan?.. Bəs sənin sabahın, bəs sənin gələcəyin?.. Bilirəm, ömrünü bizə qurban vermisən. Amma bir özünü də düşün. Mən səni belə qoyub, bu dünyadan rahat köçə bilmərəm...

Ağnur heç nə deməmişdi anasına. Sakitcə ağlayıb, o biri otağa keçmişdi. Və bu söhbətdən bir müddət sonra anası gözləri açıq əlvida demişdi bu dünyaya. Bu ölüm yandırıb-yaxmışdı Ağnuru. İşıqlı gündüzləri qaranlıq eləmişdi gözündə. Onun ruhunu bərbad eləyən bir də o idi ki, anasını nigaran yola salmışdı o biri dünyasına. Bilsəydi belə qəfildən ölüm gələcək, anasına bir söz deyərdi, heç olmasa, müqəddəs yalanla onu aldadardı. Bir gözünü bu dünyada qoyub yola salmazdı. Buna görə özünü bağışlaya bilmirdi. Elə hey ağlayır, ağlayırdı. Çox vaxt da pünhanda, gizlin bir yer tapıb gözünün yaşına hay verirdi.

İstəyirdi, heç olmasa, biçarə qardaşı narahat olmasın, onun göz yaşlarından sıxılmasın. Ona olan olmuşdu onsuz da. Yeganə ümidgahı onu Allahın ümidinə qoyub getmişdi. Daha bir yaranı da o, qardaşına vurmaq istəmirdi. Onu da bilirdi ki, qardaşı da ondan gizlin ağlayır. Gecələr qardaşının hıçqırığı gəlib qulaqlarına çatırdı. Bilirdi ki, gecənin yarısına qədər qardaşı yuxuya gedə bilmir, yatağının içində dərdlə əlləşir, yorulub əldən düşəndən sonra yuxu mələyi birtəhər onu götürüb aparırdı.

Qardaşı yuxuya gedəndən çox sonra yatırdı Ağnur. Fikir qoşunu yırtıcı məxluq kimi canına daraşır, onu dağdan-dağa, arandan-arana aparırdı. İndi o, xəstə qardaşı ilə necə yaşayacaqdı? Maddi güzaranları necə olacaqdı? Onu evdə təkcə qoyub, bir yerdə işləyə bilməzdi axı. Ərsənin azacıq xəstəlik təqaüdü isə onlara yetməyə bilərdi.

Ağnur qardaşını dünyalar qədər sevirdi. Nə qədər onun əziyyətini çəksə də, bundan yorulmurdu. Bir dəfə də olsun qardaşının üzünə gəlib, yorulduğunu dilinə gətirmirdi.

Ərsən də onu çox sevirdi. Bəlkəsiz bu dünyada onun qədər sevdiyi ikinci varlıq yox idi. Bəzən bacısının yorulduğunu hiss edəndə qəlbi kövrəlir, ruhuna həzinlik gəlir, bir dəli ağlamaq keçirdi könlündən. Belə anlarda bacısını yanına çağırır, başını sinəsinə qoyub, saçlarına sığal çəkirdi. Hərdən bacısının gizlin bir yerə çəkilib, telefonda danışdığını da hiss edirdi. Bilirdi ki, zəng edən odur. Ağnuru çoxdan, lap çoxdan sevən Kamran. Əslində onun məhəbbətindəki sadiqliyə qəlbində əhsən deyirdi Ərsən. Bəlkə də onun könlündə bacısına qarşı bu qədər sevgi olmasaydı, ondan əl çəkər, uzaqlaşar, çıxıb gedərdi. O, isə getmirdi. Bu gedişin olmasını əslində istəmirdi Ərsən. Elə bilirdi nə qədər yox desə də, o sevginin, məhəbbətin işığı bacısının qəlbində gur ocaqlar yandırır, onu sönməyə, bitib-tükənməyə qoymur.

Son günlər belə dalğın, fikirli olmasını da Ərsən Kamranın tükənməz məhəbbəti ilə bağlayırdı. Və buna görə özünü günahkar bilirdi. Bilirdi ki, bütün həyatını ona və anasına qurban verən Ağnur indi də ona görə Kamrana hə deyə bilmirdi. Hə

deseydi, gərək Kamranın ağ yelkəninə qoşulub uzaqlara, lap uzaqlara gedəydi. Elə uzaqlara ki, o uzaqlıqdan əli qardaşına çatmayacaqdı. Onun ağrısını, acısını duymayacaqdı. Bir sözlə, qardaşını qara burulğanların qoynuna atıb, özü yar qoynunda xumarlanmalıydı. Bunu bacarmazdı Ağnur. Bütün həyatı məhv olsa belə, bunu nankorluq bilib, öz vicdanına sığışdıra bilməzdi.

Bir dərindən nəfəs alıb, bacısını yenə yanına çağırdı. Ağnur yenə bir anda qarşısında dayandı.

-Can, qaqa, eşidirəm... Hə, yadımdadı, bilirəm, sənin çimmək günündü...

-Yox, bacı, onu demirəm.

-Qaqa...

Uşaqlıqdan ona qaqa deyə müraciət edərdi. Bu müraciətdən Ərsənin çox xoşu gəlirdi. Hərdən evdə qonaq olanda və Ağnur məcbur olub onu öz adı ilə çağıranda, bu müraciət ona çox soyuq görünərdi. Elə bilərdi bacısının yerində başqa adam dayanıb. Onu çağıran da bir başqasıdı.

Həftədə bir dəfə onu hamama salıb, çimizdirərdi. Elə ürəkdən yuyundurardı ki, elə bil, bu axırıncı yuyundurmağıdı. Təpədən dırnağa şampunlayar, kisə çəkər, sonda başına gur su töküb, çıxarardı. Təkcə iki qıçının arasını yumağa bacısına icazə verməzdi. O yerlərini öz zəif əlləri ilə yuyub təmizləyər, bacısının o punhan yerlərinə əlinin dəyməsini istəməzdi.

-Ağnur, olar sənnən bir az açıq danışım?

-Nə olub ki, qaqa?

-Mən sənin həyatında olanları bilirəm.

Qız bir anda qızarıb, başını yana çevirdi.

-Sənin də şəxsi həyatın var. Sabahın, gələcəyin...

-O barədə danışma, qardaş.

-Yox, artıq dözə bilmirəm. Sən xoşbəxt olmasan, mən dünyanın ən bədbəxt adamı olacağam... Sən ona hə deməlisən.

-Yox...

-Hə deməlisən, bacı. Əgər məni çox istəyirsənsə, ona razılıq ver. Qoy gəlib, el adətincə barmağına üzük taxsınlar, toy eləyib, aparsınlar.

-Yox...

-Onda mən çox bəxtəvər olaram. Nigaran olma məndən. Ya əlillər evinə gedərəm, ya da... Siz mənim yanımda yaşayarsınız.

-Yox...

-Bax onda mən indikindən çox rahat olaram. Bilərəm ki, bacım xoşbəxtliyə qovuşub. Ailəsi, həyat yoldaşı, evi-eşiyi, uşaqları var...

Ağnur hönkürüb əlləri ilə üzünü qapadı və o biri otağa keçdi.

Amma indi bir az rahatlanmışdı Ərsən. Elə bil, sinəsindən asılmış ağır daşı götürüb yerə qoymuşdular. Bu sözləri bacısına demək üçün çoxdan məqam axtarırdı. Lakin deməyə cəsarəti çatmırdı. Bacısı ondan utandığı kimi, o, da bacısından utanırdı. İndi özündə o cəsarəti toplayıb, ürəyində olanları dilinə gətirdiyi üçün daxilən toxtaxlıq tapmışdı.

O, qızın növbəti zəngində daha bir səddi keçib, ona da ürəyini açdı.

-Sənin səsini dünyada olan bütün səslərdən seçirəm. O səsdə elə bir cazibə var ki...

-Bu sözləri sən bütün qızlar üçün deyirsən?

-Yox, vallah, heç bir qıza deməmişəm bu sözləri. Məni o qədər sehirlədin ki, özümdən asılı olmadan qəlbimdə olan dilimə gəldi.

-Dilinin ürəyində qalan başqa gizlinləri deməyə cəsarəti çatacaqmı?

-Çatar. Amma...

-Amma cəsarətinin olmamağından xəbər verir.

-Onda ammasız ürəyimin istədiyini nöqtəsinə, vergülünə toxunmadan dilimə sənə söyləməyə icazə verirəm... Səni görmək indi mənim ən böyük arzumdur.

-Əhsən cəsarətinə. Bilirdim onu deyəcəksən. Harada görüşək? Haraya gəlmək istəyirsən?

-Mən...

-Milli parkda görüşə bilərikmi?

-O qədər adamın içində?

-Yox, qıraqda, dənizə yaxın, lap sakit bir yerdə.

O gecə Ərsən səhərə qədər yata bilmədi. Yerinin içində qıvrıla-qıvrıla sabahı açdı. Gah özünü günahlandırır, gah gələn zəngə görə o, qızı qınayırdı. Axı nəyə lazım idi bu söhbətlər, boş, mənasız danışıqlar? Necə gedəcəkdi o, qızın görüşünə? Onu əlil arabasında görən qız nə deyəcəkdi? Səsini başına atıb, onu rüsvay etməyəcəkdimi? Bu lazım idimi ona? Olmazdımı elə hərdən o gözəl səsi eşidib, özündən qırmızı, yaşıl xəyallar quraydı? Xəyalında onunla bir qəşəng həyat tamaşası qurub, o tamaşanın istisində qızınaydı. Artıq geriyə də çəkilməyə yer qalmamışdı. Getməsəydi qız ona zəng edib, cəsarətini lağa qoymazdımı? Deməzdimi, sənin kimi quş ürəkli insanları biz qızlar çox görmüşük? Sonra telefonu onun üzünə qapadıb, o şirin səsi eşitmək səadətindən birdəfəlik onu məhrum etməzdimi? Onu istəmirdi. Heç onunla görüşə getməyi də.

Görüş təyin elədikləri vaxta beş-altı saat qalmışdı. O, bütün gücünü toplayıb, bir qərara gəlməliydi. Ürəyinin çox sürətlə döyünməyindən həyəcanlı olduğunu hiss edirdi. Bir az da belə getsə, ürəyi narahat ola bilərdi. Onda bacısına nə deyəcəkdi? Deyəcəkdi ki, bir tanımadığı qızın yalançı sevdasından bu hala düşüb?.. Yox, o, son sözünü deməliydi. O son söz onu bir dar dalana aparıb dirəsə belə...

Telefonu zor-güclə əlinə götürüb, qulağına apardı. Əlləri əsə-əsə ona tanış olan nömrəni yığdı.

-Ərol, salam...

-Salam, qardaş. Ürəyimiz necə yaxındı, istəyirdim sənə zəng edim. Səninlə vacib söhbətim var.

-Nə olub ki? Qorxulu bir şey yoxdur?

-Yox, narahat olma. Sənə iki xəbərim var, ikisi də xeyir xəbərdi.

-Onda de gəlsin.

-Birincisi, kreditə maşın götürdüm. İndi səni doyunca gəzdirə bilrəm.

-Nə yaxşı, sağlığına qismət olsun.

-İkincisi, o xanım avropadan geri qayıtdı. Bundan sonra kefindi.

-Niyə qayıtdı ki?

-Nə bilim, ayrılıblar. Deyir, bu avropalıların elə hap-gopudu. Kişilərində bir kişilik qalmayıb. Deyir, heyif deyil öz kişilərimiz? Bir də onu dedi ki, Ərsən kimi bir kişi avropanın min kişisinə dəyər.

-Zarafat eləmə...

-Vallah elə dedi. Apararam yanına, özünə də deyər.

-Yox, istəmirəm.

-Nə oldu, ne tez belin qurudu?

-Bel söhbəti deyil. Sənnən başqa söhbətim var. Bir-iki saata gələrsən bizə...

Bir-iki saatdan da tez özünü Ərsənin yanına çatdırdı. Onun bir qədər nigaran danışığından narahat olub o vaxtı gözləyə bilməmişdi.

-Sizdə bir hadisə baş verib?

-Bizdə yox, mənim dünyamda fırtına qopub.

-O nə fırtınadır elə?

Ərsən qapıya tərəf baxıb, astaca pıçıldadı:

-Mən vurulmuşam, Ərol.

-Kimə?

-Bir gözəl qıza... Daha doğrusu, gozəl səsli qıza.

-Özü gözəl deyil?

-Bilmirəm hələ. Görməmişəm ki. Bu gün görüşəcəyik.

-Nə yaxşı. Danışığından vurulan adama oxşadığını hiss eləmişdim...

Milli parkda yenə də qələbəlik idi. Hər kəs dəniz havasını ciyərlərinə çəkmək üçün bu gözəl məkana üz tutmuşdu. Sevişmək üçün buraya gələnlər lap uzaqdan adamı cəzb edirdi. Onların öz dünyaları vardı axı. Sevgi boyda dünyaları. Və bu dünya işıqlı planet kimi lap uzaqdan göstərirdi özünü. Ərsən bir-bir onlara baxır, qəlbində həsəd hissi baş qaldırırdı. Sanki özünün də indi o sevgi dünyasının bir sakini olduğunu unutmuşdu. Bir də hələ özünü o dünyanın adamı hesab eləmirdi. O ülvi dünyanın sakini olmaq üçün gərək iki qəlbin döyüntüsü bir vuraydı. Bunun üçün azad bir ruhu öz ruhuna tabe elətdirməliydi. Bunu eləmək üçün isə böyük qəlbini ovuc içi kimi açıq qoyub, o azad ruhun qəlb qapısını açaraq içəri daxil olmasını bacarmalıydı. Bunu bacaracaqdımı? Ərol onun əlil arabasını içərilərə doğru apardıqca, bu haqda düşünürdü. Deyəsən, elə Ərolun özünün də qəlbini bu mövzu əsir eləmişdi. Çünki bir kəlmə danışmadan onu müəmmalı sevgisinə doğru aparırdı.

-Bax, Ərol, o yanda saxlayarsan. Özün də çıxıb gedərsən. Zəng edəcəyəm sənə.

Ərol Ərsən deyən yerdə arabanı saxlayıb, onun üst-başına nəzər yetirdi və ona xeyir diləyib, oradan uzaqlaşdı.

Bir qız ürkək baxışlarla ətrafı seyr edə-edə gəzişirdi. Hiss olunurdu ki, kimisə gözləyir. Bəlkə bu qız elə İlknurun özüdür? Oğrunca onu başdan-ayağa nəzərdən keçirdi. Çox qəşəng qız idi. Bir kəlmə səsini eşitsəydi, onda yəqinlik yaranardı. Necə eşitsin səsini? Bəlkə yanına çağırıb, saatın vaxtını soruşsun? Qolundakı saata baxıb, gülməyini birtəhər saxladı. Bir də bu yol artıq

köhnəlib, ot basmış yol idi. Bu yoldan indi ancaq yenicə kənddən gələn cavanlar istifadə eləyirdilər.

Qız hərdən oğrun-oğrun ona baxıb, tezcə də nəzərlərini başqa istiqamətlərə yönəldirdi. Hiss olunurdu ki, qız da ondan nəsə soruşmaq istəyir. Ancaq buna ya ürək eləmir, ya da əlil bir oğlanla kəlmə kəsməyi özünə sığışdırmırdı. Yandan baxanlar nə deyərdilər ona? Deməzdilərmi, ay gözəl qız, sənə yaraşırmı bu qəddi-qamətdə əlil arabasında oturan bir cavan oğlanla kəlmə kəsirsən? Hər halda, Ərsən belə düşünürdü. Və elə bu düşüncənin qəribə, anlaşılmaz aurasında arabasını əlləri ilə fırlayıb, qıza tərəf yaxınlaşdı.

-Gözəl qız, deyəsən, siz də kimisə gözləyirsiniz?

Elə bu anda sanki ürəyi ağzının həndəvərinə gəldi. Döyüntünü, səsinin titrəməsini özü də hiss elədi. Qız ona cavab verən kimi o qızın İlknur olub, olmadığını biləcəkdi.

-Bəli, gözlədiyim adam var.

Səs o səsə bənzəyirdi. Amma tam o səs olduğu aydın deyildi hələ.

-Sevdiyin oğlandı yəqin?

-Hələ bilmirəm. Sevib-sevmədiyimə bu gün qərar verəcəyəm.

Bəli, bu səs o səs idi. İlknurun məlahətli və qəşəng səsi.

Ərsən bütün ruhunun yerindən dərbəndiyini və o ruhun alaqaranlıq aləmə düşdüyünü hiss elədi.

-Bəs siz neyləyirsiniz burda? Yəqin sizin də gözlədiyiniz var?

-Yox, mənim kimi adamlar yalnız ölümlərini gözləyirlər. Hansı qız gəlib mənimlə görüşər?

-Niyə elə deyirsiniz? Nəyə görə özünüzü alçaldırsınız? Sizin o biri... sevib-sevilən cavan oğlanlardan nə fərqiniz var?

-Fərqimiz çoxdu, gözəl qız. Bizim cəmiyyət, bizim adamlar mənim kimi əlil arabasında oturan fiziki qüsurlu insanları qəbul eləmir. Onları özündən aralı saxlayır. Yan-yana getməyi özünə

sığışdırmır. Sanki biz ayrı, yad bir planetdən gəlmiş adamlarıq. Onların gözü çox zaman bizi görmür. Görəndə də əyri görür, düz görməyi bacarmır.

-Elə danışmayın...

-Bəzən adama elə gəlir ki, bizlərin nə yaşamaq, mübarizə aparmaq, nə də sevmək hüququmuz yoxdur.

-Bu hüququ sizin əlinizdən kim alıb axı?

-Sizin kimi sağlam insanlar.

-Sağlam?.. Elə bilirsiniz hər ayaqda duran sağlam insandır? Sağlamlıq fiziki qüsurla ölçülmür. Düşüncəsi sağlam olan insanlar ən sağlam insanlardılar.

-Yaxşı, gözəl qız, mənə təskinlik verməyiniz yetər. Bir az məndən aralı dayanın. Sevdiyiniz oğlan gəlib, bizi bir yerdə görər, sizə də, mənə də nifrət edər.

-Elə danışmayın, Allah xatirinə. Əgər o sizin düşündüyünüz kimi bəsit bir adamdırsa, onunla mənimki heç zaman tutmaz... Siz məni tanımırsınız. Tanısaydınız belə danışmazdınız. İnsan bu dünyaya yalnız yaşamaq üçün gəlmir. Bu dünyada hər bir insanın bir özəl missiyası var. O missiyanı anlamayan və yerinə yetirmədən dünyadan gedən insanlar yarımçıq insanlardılar. Bu insanların o biri şüursuz canlılardan heç bir fərqi yoxdur. Bu haqda böyük filosoflar çox qiymətli fikirlər söyləyiblər. Yadıma düşsə, onlardan sizə sitatlar gətirərəm. Onda bilərsiniz ki, çox səhv düşünürsünüz.

-Siz nə ağıllı qızsınız...

-Bir də cəmiyyətə inteqrasiya oluna bilməməyinizin bir günahı da elə sizin özünüzdədir.

-Biz nə etməliyik ki?

-Özünüzü sübüt etmək üçün insanlar arasına çıxmalı, qaranlıqda gizlənməməlisiniz. Elə fiziki məhdudiyyətli insanlar var ki, onlar cəmiyyətə, vətənə, elə, obaya sağlam insanların verə biləcəyindən daha artıq fayda gətirə bilərlər. Ancaq...

-Orasını düz deyirsiniz. Amma belə insanların cəmiyyət arasına çıxmasına ailələrdə də böyük maneələr törədirlər. Onların əlil uşaqlarını adamların görməsindən utanırlar. Ona görə də belə adamlar özlərinə qapılıb evdə oturur, ağır ruh düşkünlünə məruz qalırlar. Tək-tük eşiyə, bayıra çıxan əlil insanlara da adamlar dəvə nalbəndə baxan kimi baxırlar. Ya da onları yalnız dilənçi, yolçu hesab edirlər. Bizim cəmiyyət bizləri qəbul eləməyə hələ hazır deyil. Mənim bir əlil dostum var. İqtisadiyyat üzrə evdə fərdi ali təhsil alıb. Çox savadlı bir adamdır. Əlil arabasında onu Amerikaya, konfransa aparmışdılar. Amerikadan qayıdanda öz evlərinin girişində dayanıb, zülüm-zülüm ağlamışdı. Bunun səbəbini ondan soruşanda, o, heç nə deməmişdi. Sonra mənə dedi, dedi ki, getdiyi ölkədə fiziki məhdudiyyətli insanlar üçün yaradılan şərait və bizdə girişin ağzında pilləkənə baxa-baxa qalmağım məni kövrəltdi.

Söhbət hələ, deyəsən, uzanacaqdı. Sanki qız da buraya yalnız bu mövzuda danışmaq üçün gəlmişdi. Elə məntiqli, yerli-yataqlı danışır və anbaan özünü Ərsənə bağlayırdı ki, indidən Ərsən onunla ayrılmağın ürəyində xiffətini çəkirdi. Kaş ki, bu anlar heç bitməyəydi. Zamansızlığa dönəydi. Ya da mövzu səmtini elə yönə çəkib aparaydı ki, onda Ərsən bu qıza nifrət eləməyə başlayaydı. Yoxsa, ondan ayrılmağın əzabı onun üçün çətin olacaqdı.

-İstəsəniz, sizinlə bir çay da içə bilərəm.

-Axı...

-Eybi yox, o da istəsə, bizə qoşula bilər. Bir də ki, vəfalı oğlanlar çox azdı bu həyatda. Görürsünüzmü, dediyi vaxtdan gör nə qədər keçir, hələ izi-sorağı yoxdur.

-Oğlanların vəfasız olduğunu hardan bilirsiniz? Həyatınızda belələri olubmu heç?

-Yox, heç zaman olmayıb. Deyəsən, bu birincidir. Amma adamlardan eşitdiklərimdən, bir də oxuduğum kitablardan bilirəm ki, onlara çox etibar yoxdur.

-Siz indidən elə düşünməyin, gözəl qız. Bəlkə elə sizin qarşınıza çıxan ilk oğlan dünyanın ən vəfalı insanı olacaq.

-Nə bilim. Həyatdan hər cür sürprizlər gözləməyinə dəyər.

-Heç tanış olmadıq. Sizin adınız nədir?

-Mənim adım İlknurdur.

Ərsənin içində, elə bil, şimşəklər çaxdı. Ürəyinin döyüntüsü bir az da şiddətləndi. Bu qızın telefonda səsi gələn qız olduğuna inamı bayaqdan yaranmışdı. Ancaq inamın tam təsdiqini tapması elə bu anda oldu və o, özünü itirməmək üçün bütün hissiyyat orqanlarını səfərbərliyə aldı.

-Bəs sizin adınız nədir?

-Mənim?.. Mənə hələ ad qoymayıblar.

-Anlamadım.

-Mən hələ bir qəhrəmanlıq eləməmişəm. Qəhrəmanlıq edəndən sonra Dədə Qorqud gəlib mənə ad verəcək.

İlknur gülümsədi. Yanaqlarında qəribə batıq əmələ gəldi. Bu batıq ona elə yaraşırdı ki. Gözəl siması bir az da gözəlləşirdi.

-O qəhrəmanlığı etmək üçün neyləmək lazımdır?

-Elə birincisi... adımı sizə deməliyəm... Mənim adım... Ərsəndir.

İndi daxilində nələrin baş verdiyini heç özü də anlamırdı. Sanki hissiz, duyğusuz bir robota çevrilmişdi. Özünün-özünə nəzarəti itmək üzrə idi.

-Nə? Ərsən?

-Ərsən... Sizin görüşünə gəldiyiniz adam...

Dünya başına dolanırdı. Dəniz ondan uzaqlaşıb, qərib yerlərə gedirdi. Adamlar düz, əyri yeriyirdilər. Binalar rəqs edən adamlar kimi parkın başına fırlanırdılar. Qulaqlarına da qəribə səslər gəlirdi. O səslərin içində həm ölənlərin, həm qalanların sədasını eşidirdi. Ən çox da anasının. Anası ona sevgi laylası oxuyurdu...

Özünə gələndə qız ondan uzaqlaşıb getmişdi. İndi yanında bir dəniz var idi, bir qəmli sahil, bir də qulaqlarında səslənən anasının ağıya bənzəyən laylası...

Üç gün dəlilər kimi telefonu qucaqlayıb oturdu. Hər gələn zəng onu diksindirdi. Telefonun o ucundan o, qızın səsini eşitmək indi həyatının ən böyük istəyi idi.

Yenə zəng...

Yenə həyəcan...

Və o, qızın səsi...

-Dədə Qorqud sənin adını düz verib. O adı qoru və mənim sevgimə bir ömür boyu inan!..

Bu dəfə dünya gözünə bir başqa çalarda göründü. Elə bil, aləm başdan-başa al-əlvan gül-çiçəyə bürünmüşdü. O gül-çiçəyin içində özünü dimdik, ayaq üstə dayanmış görürdü. Bu gün onun həyatında bir başqa, yeni dövr başlanırdı...

Dərin xəyala daldığından bu dəfə gələn telefon zənginə də diksindi. Telefon ondan aralı idi.

-İlknur, ay İlknur... Gəl telefonu götür.

Saçlarını qurulaya-qurulaya tələsik telefonun dəstəyini qaldıran İlknurun nə danışdığını anlamadı. Və o, dəstəyi üstünə asıb, qollarını geniş açaraq, Ərsənə doğru gəldi. Onu qucaqlayıb, üz-gözünü isti öpüşlərə qərq elədi.

-Gözün aydın, Ərsən, dayı olmusan. Kamran zəng eləmişdi... Gün o gün olsun sən də ata olasan.

Bunu deyib İlknur nazlana-nazlana dikələn qarnına tərəf baxdı. Ərsən onun qarnına xırdaca sığal çəkib, üzündən öpdü.

-Hazırlaş, bu münasibətlə səni gəzməyə aparıram. Bayırda elə gözəl hava var ki.

İlknur düz deyirdi. Bayırda çox gözəl hava var idi. Günəş pəncərədən Ərsənə baxıb, gülümsəyirdi. Ömründə günəşin belə parlaq, gülümsər olduğunu görməmişdi. Yəqin indi o günəşin şəfəqləri

Ərsənin anasının da qəbrinə nur çiləyirdi. İndi o qəbrin qarşısında dayanmaq, şirin-şirin ağlamaq, anasının ruhuna gözaydınlığı vermək, bir də onun ana laylasını eşitmək keçirdi Ərsənin könlündən.

## Rəqs meydançasında öpüş

Yaddaşlarda ilişib qalmış xatirələrin əlvan rəngi olmur. Ağ-qaraya bürünmüş o xatirələr keçmişlərdə qaldığı üçün rəngi solur, elə solğunluğu, ağ-qaralığı ilə şirin görünür adama. Danet Maqsudun da yaddaşında çox xatirələr qalmışdı. Uşaqlığından, yeniyetmə çağlarından, ilk gənclik və gənclik illərindən... Hamısı da solğun, rəngi itmiş, ağ-qara... Amma nə sirdi, nə sehrdi bilmirdi, yalnız o xatirələr rəngli görünürdü ona. O xatirələr ki, orada əyninə əsgərlik paltarı geyinmişdi və yanında o qız var idi. Nataşa. Kişilik gözünün birinci ovu.

Əsgərlikdən qayıdanda o, qızın obyektdə olduğu xeyli sayda şəkil gətirmişdi özü ilə. Məqam tapdıqca o şəkillərə baxır, bununla təskinlik tapırdı. Ürəyi elə uçunurdu ki, o anlarda. İmkanı olsaydı, bir an dayanmaz, tez bilet alıb onun yanına uçardı. Heç olmasa, bir həftə, on gün onun yanında qalıb, özünə gələr, yenə geri qayıdardı.

Ailə qurandan sonra o şəkilləri bircə-bircə cırıb atdı. Təkcə birindən başqa. Bu şəkildə Nataşa elə canlı, cazibəli, ehtiraslı görünürdü ki, onu cırıb atmağa əli gəlmirdi. Elə bilirdi, onu cırıb atsa Nataşa ilə bağlı bütün xatirələrinin üstündən xətt çəkəcək. Ömürlük, birdəfəlik onu həyatından siləcək.

Çox gizlin saxlayırdı o şəkli. Bilirdi ki, onsuz da qısqanc olan həyat yoldaşı o şəkli görsə, evdə vay-şivən qoparacaq. Yediyi-içdiyi burnundan gələcək.

Bu gün evdə tək qaldığından tez şəkli tapıb, dizlərinin üstünə qoydu. Yenə solğun xatirələr onu özündən alıb, rəngli xatirələrə qədər apardı...

...Onların hamısını Biləcəriyə yığmışdılar. Bu gün-sabaha bölmə-bölmə hərbi hissələrə yola salacaqdılar. Atası da onunla gəlmişdi. Əslində onun gəlməyinə ehtiyac yox idi. Ancaq anası məcbur elədi atası da gəlsin. O da yarıkönüllü işindən icazə alıb, oğlu ilə gəldi. Bir də düşündü ki, bəlkə Biləcəridə bir adam tapıb, oğlunu yaxşı yerə saldıra bilsin.

-Maqsud Qurbanov.

-Mən.

-Komandirin yanına.

-Oldu.

Atası da onunla içəri keçmək istədi, lakin icazə vermədilər.

Hərbi geyimli, cüssəli kişi onu sorğu-suala tutdu.

-Məktəbdə rus dili keçmisinizmi?

-Bəli.

-Rus dilində danışa bilirsənmi?

-Xeyr. Da, netdən başqa heç nə qanmıram.

Komandir gülməyini birtəhər saxlayıb, üzünə zəhmli ifadə verdi.

-Elə qanmırsınız ki, gedib oralarda ən pis batalyonlara düşürsünüz də.

-Rus dili dərslərindən həmişə qaçardım. Yamin müəllim dədəmə gileylənməkdən yorulardı. Dədəm də üzdən keçirdi, deyirdi, bu uruslara etibar yoxdu. Bir də gördün...

-Yaxşı, zilə çıxma, Danet Maqsud, bu mövzuda danışmaq sənə düşməz. Adamın qabaq dişlərini çıxararlar, ağzı qotur qalar.

-Bildim.

-Birdən o yerlərdə bir rus qızına vuruldun, onunla necə danışacaqsan?

-Sevginin dili olmur, yoldaş komandir. Lallar da sevgi olanda, bir-birini anlayırlar.

-Sağ ol, Danet, qurd-quş yeməsə, səndən adam olacaq...

Qatarda dörd-beş gün yol gələndən sonra onları Rusiyanın bir ucqar vilayətinə gətirdilər. Ucqar olsa da, çox qəşəng yerlər idi. Maraqlı təbiəti vardı. Günəş, elə bil, başqa yerlərdən daha alçaqda dayanırdı buralarda. Bəs niyə buralar belə soyuq olurdu, orası qəribəydi. Yağışın yağması da bir başqa cür olurdu. Birdən göyün üzü qaralır, ildırım çaxır, sel-su aləmi başına götürürdü. Sonra gəldiyi kimi birdən də qara buludlar çəkilib gedir, göyün üzü par-par alışıb yanırdı.

İlk günlər çox əziyyət çəkirdi Maqsud. Ən çox da rus dilini bilməməyi onun işini düyünə salırdı. Biləcəridə komandirin dedikləri düz çıxırdı. Bizim adamların çoxunu tikinti batalyonlarına, ora-bura qarovul çəkməyə, donuzlara baxmağa göndərirdilər. Təkcə Şəkidən olan bir oğlanı xətti yaxşı olduğuna görə batalyona yazar götürmüşdülər. Hamı o şəkili oğlana həsədlə baxırdı. Deyəsən, rus dilini də pis bilmirdi. Maqsud o şəkili oğlanla söhbət edəndə, içində özünü qınayır, hərdən dədəsini də bu qınağın gözünə qatırdı.

Heç cürə buranın yeməklərinə öyrəşə bilmirdi. Anasının dadlı yeməklərinin həsrətini çəkirdi. Yalandan məktubda anasına hər şeyin yaxşı olduğunu, yeməkləri yeyə bildiyini yazsa da, əslində, çox vaxtlar ac qalırdı. Pulu olanda gizlincə qıraqdan bir şey alıb, içəri ötürürdü.

Dostlarından gələn məktublardan kəndlərindən xəbər tuturdu. Hansı qız ərə getdi, kim evləndi, kim-kimi döydü, kimin qapısından toyuq, quzusu oğurlandı, kim öldü, kim qaldı... O məktublardan onu da öyrənmişdi ki, özü gedib kəndə çatmamış, ləqəbi kəndə çatmışdı. Dostları da zarafatla ona Danet Maqsud adı ilə məktub yazırdılar.

Əvvəldən kənddə olan ləqəblərdən zəhləsi gedərdi. Zırpı İqbar, Qoyun Şəmi, Qurd Həsən, Şamı Eldar... İndi onun adı da o ləqəbi olanların siyahısına qoşulmuşdu. Yaxşı ki, çox biabırçı ləqəb düşməmişdi boynuna. Danet. Nə olsun ki? Heç çoxları bunun mənasını bilməyəcəkdilər. Hələ bəlkə elə başa düşəcəkdilər ki, yaxşı bir şeydən boynuna düşüb bu ləqəb. Amma yox, bununla Maqsud özünə təskinlik verirdi. Axı yaxşı bilirdi ki, kənddə olan ləqəblərin hamısının mənasını adamlar bilirdilər. Uşaqdan böyüyə kənddə hamı biləcəkdi ki, rus dilində da, netdən başqa bir şey qanmadığına görə

bu ləqəbi yapışdırmışdılar ona. Hələ onu da bilirdi ki, kəndə qayıdanda uşaqlar ona baxıb qımışacaq, dalınca danışacaq, onu lağa qoyacaqdılar.

Bu üç-dörd ay Maqsuda üç-dörd il qədər uzun göründü. Birdəb-birə qərib yerə düşməyin, başqa qanunlar əsasında yaşamağın belə ağır olduğunu o, heç ağlına gətirməzdi. Əsgərliyin öz yazılan və yazılmayan qanunları var idi. Bu qanunlardan baş çıxara bilməsəydi, başı çox bəlalar çəkə bilərdi. Bir az çox xidmət edənlərə ded deyirdilər. Və o dedlər yenicə gələnləri molodoy adlandırıb, başları üzərində hakimlik edirdilər. Kim ki, o dedlərin bir sözünü iki edirdi, işləri zülüm olurdu. Bir də gərək ağır bir sınaqdan çıxıb, onların hər dediyini də etməyəydin. Səni ayaqyolu təmizləməyə də göndərə bilərdilər. Bir dəfə buna kəskin etiraz edib, əməlli-başlı kötək yeməsəydin, səndən əl çəkməyəcək və daha şərəfsiz işlər arxasınca göndərəcəkdilər. Maqsud bunları hələ kənddən, bura gəlməmişdən bilirdi. Ona görə bir yağlı kötəyi gözü altına alıb, dedlərin qarşısında gözükölgəli qalmamışdı.

Azad vətənin bərabər hüquqlu vətəndaşları desələr də, əslində, hərbi hissələrdə ruslar hegemonluq edirdilər. Onlar başqa xalqların nümayəndələrini alçaldır, onlara yuxarıdan aşağı baxırdılar. Hələ yaxşı ki, bu çeçenlər var idi. Hansı hərbi hissədə ki, bir-iki çeçen olurdu, orada ruslar at oynada bilmirdilər. Onlardan itdən qorxan kimi qorxurdular. Onların batalyonunda da Ruslan Udarbayev adında bir çeçen var idi. Bu çeçen bir dəstə rusa qan uddururdu. Hətta bir dəfə altı rusu əzib, yan-yana yığmışdı. Və o döyülən ruslar Ruslanın qorxusundan onun adını dillərinə gətirməmişdilər. Bilmişdilər ki, onun adını çəksələr, sonra Ruslan onların başında qoz sındıracaq.

Belə dava-şava işlərindən Maqsud uzaq durmağa çalışırdı. Axı anası da onu Qurana and verdirmişdi, demişdi, oralarda özünü adam kimi apar, davadan, mərəkədən uzaq qaç. O, da hər dəfə bir şeyə hirslənəndə, əlləri gicişəndə anasının sözlərini xatırlayır, lənət şeytana deyib, bir qırağı çəkilirdi.

Bura kənd olsa da, heç kəndə bənzəmirdi. Kəndin başı, ayağı bilinər. Bu kəndin isə nə başı bilinirdi, nə ayağı. Kartof sahələri, başqa əkin yerləri göz işlədikcə uzanıb gedirdi. Bu kəndin adamları da,

deyəsən, heç bir-birlərini əməlli-başlı tanımırdılar. Bu müşahidələri Maqsud əsgərliyindən bir il keçəndən sonra aparmağa başlamışdı. Axı indi hərdən samavolka deyilən əsgər hiylələrinə də baş vururdu. Yəni, imkan olan kimi hissədən gizlincə çıxıb qaçır, kənd-bərədə gəzib-dolanır, maraqlı nə görürdüsə, baş vurandan sonra qayıdıb gəlirdi. Maraq dairəsinin pik nöqtəsində isə qəşəng rus qızları dayanırdı. Onlara hərisliklə baxmaqdan doyumsuz zövq alırdı. Ürəyində çox qəribə hisslər, duyğular yaranır, bu duyğuları gerçəkləşdirməyin xəyalında kamına çatırdı. Ancaq bir qıza da yaxınlaşıb, bir kəlmə kəsə bilmirdi. Ona görə yox ki, dadan, netdən başqa heç nə qanmırdı. Bu bir ildə rus dilini əməlli-başlı öyrənmişdi. Hər kəslə istənilən mövzuda söhbət edə bilərdi. Amma cəsarəti çatmırdı. Ki, bir qəşəng qıza yaxınlaşıb ürəyini açsın. Ona xoş sözlər desin, gözlərinə baxsın, tellərinə sığal çəksin. Ondan daha çox xidmət edən yoldaşları samavolkadan qayıdandan sonra elə xoş söhbətlər edirdilər ki, Maqsudun ağzı sulanırdı. Düzü, bunların bəzilərinə inanmırdı. Üzlərinə deməsə də, ürəyində onların gopa basdığını zənn edirdi. Bir az abırlı danışanlara isə inanırdı. Və nədənsə, özünü bu inandığı adamların yerində olmağı ürəyindən keçirirdi.

Əsgərlik müddətinin bitməsinə üç-dörd ay qalırdı. Daha əvvəlki kimi kəndləri üçün burnunun ucu göynəmirdi. Anasının yeməklərini də ara-sıra xatırlayırdı. Bu yerlərə öyrənmişdi. Ağaclarına, torpağına, yeməyinə, suyuna, adamlarına qədər... İndidən beş barmağı kimi bilirdi, bilirdi ki, kəndə qayıdandan sonra bu yerlər üçün darıxacaq. Ən çox da son günlərdə tanıdığı Nataşa adlı qız üçün. Hər dəfə onunla tanış olduğu məqamı yadına salanda canından xoş bir gizilti keçirdi. O anı həyatının ən xoş, ən yaddaqalan xatirəsi sanaraq, yaddaş telinə bir daha möhkəm-möhkəm yazırdı.

O gün yenə rota komandirindən izin alıb, hərbi hissəni tərk eləmişdi. Axşam vaxtı hissədən qaçmaqda məqsədi var idi. Bu axşam istəyirdi kəndin rəqs meydançasına getsin. Bu rəqs meydançası haqqında çox eşitmişdi. Amma hələ özü buraya gəlməmişdi. Buraya gəlməyə də cəsarəti çatmırdı. Ancaq bu gün bütün gücünü toplayıb, bu yerə gəlməyi qərara aldı.

Kəndin kənarında yerləşən bu böyük rəqs meydançası uzaqdan adama gəl-gəl deyirdi. Qulağa xoş gələn musiqi, gənc oğlan və qızların ətrafa yayılan gülüşü, işıq effekti... Nə desən, burada adama xoş gəlirdi.

Maqsud bir qıraqda dayanıb baxırdı. Ürəyindən pünhan duyğular keçsə də, bu duyğuları həyata keçirməyin yollarını tapa bilmirdi. Bu yollar onun üçün çox dolanbac, əyri-üyrü döngələrdən keçirdi ki, o cığırları açıb, arzularına çatmaq hələ xəyalının fövqundə idi. Hansı qız əsgər paltarı geyinmiş bir oğlana yaxınlaşıb, onunla qarşı-qarşıya dayanar, nəfəs-nəfəsə rəqs edər? Elə bu ağrılı düşüncələrlə baş-başa qaldığı vaxt bir qəşəng, sarışın qız onun qarşısında dayandı.

-Rəqs edə bilirsiniz?

-Bilirəm.

-Bəs niyə boynunuz çiyninizdə dayanmısınız?

-Yaxşı qız tapa bilmirəm.

-Doğrudan?

-...

-Məndən yaxşı qız?

Qız bunu deyib, sol əlini Maqsudun çiyninə qoydu. Üz-üzə dayanıb, meydançanın mərkəzinə tərəf çəkdi.

Maqsud özünü itirmişdi. Nə edəcəyini bilmirdi. Röyadan gələn sarışın qızın birdən onu qucaqlaması, rəqsə dəvət eləməsi xəyalında uydurduğu nağıllara bənzəsə də, hələ toparlanıb, özünü ələ ala bilmirdi.

-Siz qafqazlısınız?

-Bəli. Hardan bildiniz?

-Görünüşünüzdən. Qafqazlıların çox tipik görkəmləri var.

-Hamısının?

-Ermənilərdən başqa. Onlar çox eybəcər və duyğusuzdular... Siz erməni deyilsiniz?

-Mən eybəcərəm ki?

-Xeyr.

-Demək, erməni deyiləm.

Artıq rəqs eləməyə başlamışdılar. Ayaqlarını eyni istiqamətdə dolandırır, qollarını yuxar-aşağı endirir, hərdən xəfifcə bir-birinin sinəsinə toxunub, meydan boyu süzürdülər. Yaxşı ki, Maqsud kinolarda necə rəqs eləməyi görmüşdü. Yoxsa, qızın yanında biabır olacaqdı. Axı necə qıza deyəydi ki, bizim tərəflərdə belə şey yoxdur? Nəinki yad qızlarla, öz qohumun olan qız uşağı ilə nəfəs-nəfəsə dayanıb rəqs eləsən, buna pis baxarlar. Yox, bunu qıza deyə bilməzdi. Desəydi, qız ona gülərdi, lağa qoyardı. Sonra da astaca ondan aralanıb, özünə müasir düşüncəli bir oğlan arayardı.

-Sənin adın nədir?

-Maqsud.

Dilinə yatmasa da, kəkələyə-kəkələyə Maqsudun adını təkrarladı.

-Mənim adımı bilmək istəyirsən?

-İstəyirəm.

-Adım Natalyadı. Ancaq şirin çıxmaq üçün Nataşa deyirlər. Mən şirin qızam axı. Elə deyil?

Nataşa elə məhramanə güldü ki, gülüşü Maqsudun bütün canına yayıldı. Bu gülüşdən sonra, bir də, Nataşanın gözlərini yandıran atəşin alovundan Maqsud tamamilə öz dünyasından aralanıb, bir başqa aləmə düşdü. İndi həriscəsinə qızın üz-gözünə, dodaqlarına, yarımaçıq sinəsinə baxır, bu anların ötəri yox, bitib tükənməz olmasını istəyirdi.

Nataşa doğrudan da gözəl qız idi. Münasib boy-buxunu, yaraşıqlı əndamı, ağappaq dərisi ona xüsusi gözəllik verirdi. Yarımaçıq sinəsindən görünən döşlərinin birinin üstündə balaca qara xal var idi. Bu qara xal Maqsudun ağlını başından alırdı. Utanmasaydı, elə burada əlini aparıb o xalı oradan qoparar, bir kəpənək kimi göyə uçurardı. Sonra da kəpənəyin arxasınca düşər, onu tapıb gətirər, Nataşanın döşünün üstünə qoyardı.

Onu öpməkdən özünü güclə saxlayırdı. Deyəsən, elə Nataşa da bunu arzulayırdı. Gözlərindən duyulurdu. Başını astaca qaldırıb yana baxdı. Rəqs edənlərin hamısı elə onun günündəydilər. Ancaq bəziləri gur işıq yandığını unudub, bir-birinə sarılmışdılar.

Bəlkə də Maqsud indi Tanrıdan nə diləsəydi, Tanrı onu eşidərdi. Belə olmasaydı, rəqs meydançasının işıqları qəfildən sönməzdi.

İşıqlar sönən kimi daha heç nəyə baxmayıb, qızın dodaqlarını ehtirasla öpməyə başladı. Həyatında heç vaxt görmədiyi şirin və möcüzəli anlar yaşayırdı. Ömründə birinci dəfəydi ki, bir qızın dodaqlarını öpürdü.

Orta məktəbdə oxuyanda bir dəfə siniflərində oxuyan Züleyxanı öpmək istəmişdi. Onda da qız əlindən çıxıb qaçmışdı.

Rus dili dərsindən yenə qaçmışdı Maqsud. Məktəbin arxasındakı bağda gəzişirdi ki, dərsin müddəti bitsin. Elə bu anda ağacların arasında Züleyxanı görmüşdü.

-Ay qız, burda neynirsən?

-Sən necə, mən də elə. Dərsdən qaçmışam.

-Ayıb deyil, adam da dərsdən qaçar?

-Bəs sən adam deyilsən?

-Yox əşi, mənim adam olmağıma hələ çox var.

Beləcə, xırda-xırda qıza tərəf yaxınlaşmışdı.

-Heç sənə belə fikir verməmişdim, Züleyxa, sən necə də gözəlsən.

-Yaxşı da.

-İmam haqqı, düz deyirəm. Elə bil, bir mələksən.

-Yaxın gəlmə, Maqsud, yoxsa, qışqıracağam.

-Qışqırma, nə olar, qoy bir dəfə öpüm səni.

-Nə?..

-Yalnız bir dəfə.

-Qardaşıma deyəcəyəm.

-Bir dəfə, Züleyxa...

Qolları ilə onu ağacın arasında saxlayıb, dodaqlarını qıza yaxınlaşdıranda, qız əlindən sivişib qaçmışdı.

Məktəbi qurtarana qədər o, qızla küsülü qalmışdılar. Əslində, sonradan Maqsud da öz hərəkətindən utanmışdı. Həm də qorxmuşdu. Ki, birdən Züleyxa onun hərəkətini gedib qardaşına danışar. Onda kənddə davakar kimi ad çıxarmış Zakirin əlindən qurtara bilməzdi. Sonra da ailələr arasında düşmənçilik yaranardı. Yaxşı ki, Züleyxa belə bir hərəkət eləmədi və Maqsudu kəndin töhmətindən xilas elədi...

İşıqların nə vaxt yandığını hiss eləməmişdi Maqsud. Hələ əlinə düşən bu məqamda əlini aparıb Nataşanın döşünün üstündən qara xalı götürmüş, bir kəpənək kimi göyə uçurmuş, sonra da tutub əlləri əsə-əsə ağca məmənin üstünə qoymuşdu.

Heç Nataşa da işığın yandığını hələ duymurdu. Deyəsən, Maqsudun dəli öpüşləri onun da ağlını başından almışdı.

-Qorka... Qorka... Qorka...

Yalnız indi meydanda rəqs edənlərin onlara baxıb, ucadan qorka qışqırmalarından sonra özlərinə gəlib, dodaqlarını bir-birindən ayırmışdılar...

Bu ehtirasla dolu rəqs gecəsindən sonra Maqsud hərbi hissədə qərar tuta bilmir, imkan düşən kimi rəqs meydançasına gəlib, Nataşanı tapırdı. Belə görüşlərin birində Nataşa onu evlərinə də dəvət elədi.

-Sabah axşam bizə gələrsən?

-Sizə?

-Hə, bizə, anam evdə olmayacaq.

-Harda olacaq?

-Pribaltikaya gedir. Orada bir sevgilisi var. İldə iki-üç dəfə onu görməyə gedir... Elə atamla da ona görə ayrılıblar. Gəlib gecəni yanımda qalarsan?

Yenə Maqsud şirin xəyallara düşdü. Hərbi hissədə olan hadisələri bir anda nəzərindən keçirdi. Ruslan Udarbayev yenə rusları əzişdirmişdi. Bunun üstündə bölmədə ciddi nəzarət yaratmışdılar. Əgər rota komandiri ilə dil tapa bilsəydi, mütləq Nataşanın təklifini qəbul edərdi.

-Qaça bilsəm, mütləq gələcəyəm...

Rota komandirinin soluna-sağına keçib, onu bir konyakla razı sala bilmişdi. Ancaq komandir tapşırmışdı ki, səhərin gözü açılmamış kazarmada olsun.

O gecə həyatında ilk dəfə qadın gözəlliyinin bütün hərarətini duyacaq və ilk kişilik ovunun şikarına çıxacaqdı.

Elə qəribə gecəydi ki... Bədirlənmiş ay pəncərədən boylanıb, onların hərarətli anlarına şahidlik edirdi. Gecə quşlarının qəribə səsi bu gecənin sirrini-sehrini bir az da nağıla döndərirdi.

-Sən nə qədər gözəlsən, Nataşa.

-Məni alıb, Azərbaycana aparарsan?

-Niyə aparmıram ki?

-Yalan danışma. Sizin analar rus qızlarını özlərinə gəlin etmək istəməzlər.

Ürəyində onu təsdiq eləsə də, ehtirasdan ona başqa söz dedi.

-İndi sənin sultanlığına son qoyacağam.

-Sultanlığıma? Mənim sultanlığıma çoxdan son qoyublar. Bizdə çox sultan qalan qızlara pis baxırlar.

Elə bu sözü gözləyirmiş kimi bütün həyəcanını dəf edib, özünü Nataşaya sübut elədi... Və o sehrlənmiş aylı gecə onun ömür yaddaşına əbədilik yazıldı...

Hərbi hissəyə gecikdiyi üçün üç günlük cəza da aldı. Ancaq o gecənin şirinliyi bu cəzanın yanında ona bayram hədiyyəsi kimi göründü...

Artıq əsgərlik həyatının son günlərini yaşayırdı. Bir neçə gündən sonra hərbi biletini alacaq və evlərinə yola düşəcəkdi. Nataşa isə burada qalacaqdı. Bunu düşünəndə, çox sıxılırdı Maqsud. O, qızdan ayrılıb getmək ona çətin gəlirdi. Elə Nataşanın özünə də Maqsuddan ayrılmaq çox ağır görünürdü.

Son ayrılıq anlarında Nataşa göz yaşlarını tuta bilmirdi. Elə hey Maqsud onun yanaqlarında giləlәnmiş göz yaşlarını silir, bir azdan yenə göz yaşı giləlәnib, hicran qönçəsi kimi yanaqlarda göyərirdi.

-Səni görməyə yenə gələcəyəm, Nataşa, darıxma.

-İnanmıram.

-İnan, gələcəyəm...

Əsgərlikdən sonra ondan bir neçə dəfə məktublar aldı. Maqsud da cavab məktubları yolladı. Və üç ildən sonra onu görmək üçün uzaq bir yolçuluğa çıxdı. Nataşagilin evində başqa adamın yaşadığını görəndə, bütün ümidləri bir anda çilik-çilik oldu.

-Bu evdə Nataşa yaşayırdı.

-Bəli, yaşayırdı. Amma indi yaşamır. O, Pribaltikaya köçüb.

Nataşanı birdəfəlik itirmək ağrısı ilə geri qayıtdı. O gündən Nataşa adlı dəftərini qatlayıb, bir xatirə kimi ürəyinin bir küncündə saxladı.

Nataşadan Maqsuda qalan yalnız və yalnız bu şəkil oldu. O şəkil ki, onu dizləri üstünə qoyub, əsgərlik həyatından qalan şirin günlərin xatirəsini yaşayır, o günlərə qayıtdıqca gah cavanlaşır, xoşbəxt olur, cah da qocalıb, bu gününə dönürdü...

Eşik qapısının açıldığını və kiminsə gəldiyini hiss edən kimi şəkli dizinin üstündən götürüb yerinə qoydu. Eyvana çıxıb, hənirti gələn tərəfə baxdı.

-Ay Danet Maqsud əmi...

-Nə olub, ay uşaq?

-Heç nə olmayıb. Dədəm deyir, kəndə yaxşı kino gəlib, baxmaq istəyirsə gəlsin.

-Heç kinonun yeridi? Nə kinodu elə?

-Bilmirəm, deyəsən, rus kinosudu.

-Yaxşı, de ki, gəlirəm.

Dolanbac kənd yolları ilə kəndin klubuna tərəf gedən Maqsud xəyalında hələ də öz kinosunu düşünürdü. Düşünürdü, görəsən, Nataşa ailə həyatı qura bildimi? Xoşbəxt oldumu? Övlad sahibi olmağı bacardımı? Görəsən ondan da Nataşaya bir yadigar qaldımı? Bəlkə də... Bəlkə də o, qayıdıb gələndən sonra Nataşanın bir az ağa, bir az qaraya çalan qəşəng bir oğul övladı dünyaya gəlib. Və Nataşa Maqsudun gəldiyi səmtə baxaraq, ona elə Maqsudun adına bənzər bir ad qoyub. Nə bilmək olar. Dünya sirlərlə doludu. Hər insanın özü də bir sirdi. Danet Maqsud kimi...

# Əzabın sevinc payı

Anasını yenə yuxuda görmüşdü. Yenə qəmli, kədərli, üzündə bir dünya hüzn... Onu həmişə belə görürdü yuxularında. Elə vaxtlar olurdu aylarla yuxusuna gəlmirdi. Gələndə də getmək bilmirdi. Həftədə iki dəfə, uç dəfə şirin yuxusuna girib, sabahkı gününü qara edirdi. Qara edirdi deyəndə ki, onu görmək bir oğul kimi ona xoş və gərəkli idi. Amma qəmli baxışları onu elə hala salırdı ki, bir neçə gün özünə gəlməyə güc tapammırdı.

Narazıydı arvad. Ondan narazıydı. Onun kimi vardı ki? İki qızı ərə gedib, başqa ocağın çırağını yandırırdılar. Bir ona qalan oğlu idi. Ki, o, da belə nanəcib çıxmışdı. Qeyrətsiz sözünü özünə yaxın buraxmaq istəmirdi. Heç nanəcib sözü də yaxşı söz deyildi. Ancaq qeyrərsiz sözünə baxanda, nanəcib sözü çox abırlı səslənirdi.

Niyə nanəcib övlad idi? O, ki müharibəni araya salmamışdı. Aləmi qatan, yüz illik məhrəm adamları bir-birinə düşmən edən də

o, deyildi. Bəs onda niyə nanəcib olmalıydı axı? O gördüyü qatmaqarışıq, əzab verən yuxulardan sonra bu sualları dönə-dönə özünə verirdi. Suallar isə cavablanmaq əvəzinə ox olub, gözünə, ürəyinə batırdı.

Daha dözə bilmirdi. Bunun bir sonu olmalıydı. Özünün sonu olsaydı da olardı, təki o əcaib suallardan canı qurtaraydı.

Ən çox da dini bayramlar yaxınlaşanda onun əzabı bir az da çoxalırdı. Arvadı geyinib-kecinib kinayəli baxışlarla ona baxa-baxa evdən çıxırdı. Ata-anasının qəbri üstünə gedirdi. Elə bil, arvad o kinayəli baxışları ilə ona " Bəs sən niyə qırılmışlarının qəbri üstünə getmirsən?"- deyirdi. Bilirdi ki, əri anasının qəbri üstünə gedə bilməz, yenə "deyirdi." Bilirdi ki, ərinin ayaqları onu atasının qəbri üstünə çox əzab çəkə-çəkə aparır, yenə "deyirdi." Səslə deyilməyən, gözlə ifadə olunan o xəncər kimi kəsən "sözlərin" qarşılığında gücü heç nəyə çatmırdı. Ürəyində arvadının var-yoxunu söyürdü, dədəsini söyürdü və elə bu söyüşlərin sədası altında bir dəstə solmuş gül alıb, atasını yad etməyə gedirdi.

Ancaq arvadının acığına gedirdi. Özünə qalsaydı, heç illərlə bu qəbiristanlığa səmt tutmazdı. Nə olsun ki, atası o məzarlıqda yatırdı? Atası məgər ona bir əməlli-başlı atalıq eləmişdi ki? Ömrü eyş-işrətdə keçən bu əyyaşın ata adı daşımağa haqqı çatırdımı?..

Solmuş çiçəkləri atasının qəbri üstünə qoyub, bir xırda daşın üstündə oturmuşdu. Qərib xəyallar yenə onu götürüb uzaqlara, ağrıyla dolu uşaqlıq çağlarına aparmışdı...

...Kənd kolxozunun anbardarı olan atası bu gecə də evə gəlməmişdi. Anası evin bir küncünə qısılıb, xısın-xısın ağlayırdı. Anası ağlayanda dözə bilmirdi İsmayıl. Onun göz yaşları qara selə dönüb, uşağı zülmət qaranlıqlara aparırdı. Bu qaranlıqların sabahı, işığı olacaqdımı, hələ orasını bilmirdi. O qaranlıq hələ get-gedə qatılaşırdı. İsmayıl öz uşaq ağlıyla düşünüb, bir çarə axtarırdı. Çarə isə tapılmırdı.

Həsən lap əzəldən yaxşı işlərdə işləmişdi. Ferma müdiri, kolxoz sədri, buxalter, indi də anbar müdiri... Hər zaman gəliri-çıxarı çox olmuşdu. Camaat bir qarın çörəyi tapmayanda, o, iki

qarın çörəyi həyətdəki itə-pişiyə atırdı. Qohum-qardaşa yanğısı yox idi, ona görə evinin artıq-urtuğunu itə-pişiyə yedirirdi. Arvadı dözməyib giley edəndə, deyirdi, sən belə şeyləri qanmazsan, həyətin iti-pişiyi bizim qohum-əqrabadan yaxşıdı.

Züleyxa gizlində qohum-qonşuya azdan-çoxdan əl tuturdu. Amma bilirdi ki, Həsən bundan xəbər tutsa, onun qol-qabırğasını sındıracaq, bəlkə də, atası evinə göndərəcək. Ancaq yenə ürəyi dözmürdü. Ac adamların qarnını doyurmaqdan gizlicə zövq alırdı.

Gəlirinin çox olması Həsənin qanına qudurğanlıq virusu salmıışdı. Həftədə iki-üç dəfə arvadının yanına girsə də, gözü yenə orda-burda qalırdı. Kəndin üç-dörd yerində özünə dayanacaq nöqtəsi tapmışdı. Harda ki, bir az ayağı sürüşkən qadın tapırdı, onu qarmağına keçirirdi. İndi də göp-gözəl, cavan Şəkərnaza tamah salmışdı. Ərindən boşanıb, tək yaşayan bu qadını ovlamaq çətin iş olmasa da, Həsən onu ələ keçirənə qədər bir xeyli arxasınca sürünməli olmuşdu. Və axır ki, tələsində Şəkərnazı görəndə yanar gözləri ilə süzüb, kobud əlləri ilə onu qamarlamışdı. Ovxayıb, əzişdirəndən sonra bir az özünə gəlmiş və gəlini qabağına qoyub, tələblərini irəli sürmüşdü.

-Şəkərnaz, bu gündən mənim şəkərim olursan. İndiyə qədər nə qələt eləmisən, sənə keçirəm. Bundan sonra bir adamın barmağı sənə dəysə, səni də öldürərəm, o oğraşı da...

Şəkərnaz astaca onun burnuna toxunub, “ Bəs bu oğraşı niyə öldürmürsən? ” – deyəndə, Həsən qeyzə gəlib, onu bir də yorğanın altına almışdı.

Kənddə hamı xəbər tutmuşdu bu sevdadan. Lap axırda da Züleyxa xəbər tutdu. Heç nə demədi, qışqırıb səs-küy salmadı. Adəti üzrə evin bir küncünə qısılıb, xısın-xısın ağladı. İsmayıl onun bir sağına keşdi, bir solunda dolandı, xırda-xırda dən düşən saçlarına sığal çəkdi, yanaqlarından öpdü, yenə təskinlik verəmmədi. Hələ bir az da gözlərinin yaşı selə dönüb, üzündən sinəsinin üstünə süzüldü.

-Ay ana, atamı indi tanıyırsan? Xasiyyətini bilmirsən? Heç elə bil ki, belə şeylər görməmisən? Bəsdi, Xurma, Xəzangül... Hələ neçəsi yadımdan çıxıb. Bu da belə kişidi də.

-Mürdəşir onun kişi sifətini yusun.

-Yəqin babam da bunun kimi olub?

-İsmayıl, - hıçqırıb kinli-kinli düz İsmayılın gözlərinə baxdı, - sənə deyirəm, südümü sənə halal eləmərəm, böyüyəndə bu oğraş dədən kimi olsan... Beli qurusun, ciyəri yara töksün belə binamus kişinin. Bir qeyrətli çıxıb bunun başına daş salmır ki, bizim də, kəndin də canı bundan qurtulsun... Hələ o günləri evə gələn özü kimi qurumsaqların yanında kişilənirdi, deyirdi, kişinin hər tində bir arvadı olmasa, ona kişi deməzlər. Deyirdi, peyğənbərin də bir sürü arvadı olub. Nanəcib köpəkoğlu...

-Ana, onsuz da o gündən el xətrinə dədəmin üzünə baxıram. Düzünə qalsa, heç ata kimi sevmirəm onu. Doğma ata da övladını tövlədə, qoyun-quzunun yanında saxlayar?

On beş-iyirmi gün bundan əvvəl heyvanların suyunu gec verdiyinə görə, Həsən oğlunu tövləyə qatmışdı, demişdi “ it oğlu, heyvanlar səni bağışlayana qədər burda qalacaqsan.”

Heyvanlar onu dörd gündən sonra “bağışlamışdılar.” Dörd gecə zavallı uşaq qoyun-quzunun yanında qalmışdı. Axşamdan gecə yarıya qədər qıyıq otların ustunə sərilib ağlayır, gözlərinin yaşı qurtarandan sonra yuxuya gedirdi.

Həsən arvadına da tapşırmışdı, demişdi, and olsun qırmızı gözlü Əbülfəzlabbasa, məndən gizlin İsmayılı açıb eşiyə buraxsan, səni inəyin tiyəsinə bağlayacağam. Yazıq arvad ağlayıb sızlasa da, gözləri tövlənin qapısında qalsa da, qorxusundan açıb İsmayılı eşiyə buraxa bilməmişdi.

Həsənin özü itə pay atan kimi aparıb oğlunun qabağına bir az pendir-çörək atmışdı, sudan-zaddan verib, yenə tənbeh eləmiş, işinin-gücünün dalısınca getmişdi.

Onsuz da İsmayıl bu vaxta qədər atasını coşğun məhəbbətlə sevmirdi. Yaxşı ataları olan uşaqlara qibtə hissi ilə baxırdı. O

gündən isə... O gündən özünü lap yetim uşaqlar kimi hiss elədi. Hələ yetimlərdən də daha yetim. Yetimlərin ya atası, ya da anası olmurdu. Onun isə həm anası var idi, həm də atası. Amma ata tərəfdən çox köməksiz və yetim kimi görünürdü.

Bu dəfə anasının göz yaşlarına heç dözə bilmirdi. Bir istəyirdi içindəki kişilik hissini bir az dərbətsin, irəli yeriyib, atasının qənşərində dayansın, ötkəm səslə ona "daha bəsdi, dədə, bəsdi anamı öldürdün, yazıq deyilmi, bu qadına nə qədər zülm edəcəksən?" – desin. Ancaq özündə bu cəsarəti tapa bilmirdi. Qorxurdu ki, onun bu tənbehindən sonra atası onun qol-qabırğasını sındırar, sonra da götürüb tövləyə, qoyun-quzunun yanına atar, aylarla oradan çıxmağa ona izn verməz.

Bu yandan da anasının gözlərində toplanan bir dünya kədəri görəndə, dözə bilmirdi. Ürəyi qübar edirdi uşağın.

Züleyxa hamamda Şəkərnazı görən günün axşamı yorğan-döşəyə düşmüşdü. O əxlaqı yanlarından sallanan qadının kinayəli baxışlarını görəndə, şaqqanaq çəkib, döş-başını tir-tir titrədəndə, Züleyxanın ürəyindən bir qara ox keçmişdi. Özünü nə qədər toplasa da, axşama qədər canı bu əzaba tab gətirmişdi...

Anasının tabutu kişilərin çiyni üstündə qəbiristanlığa tərəf aparılanda İsmayıl elə zavallı-zavallı ağlamışdı ki... Uşağın naləsindən daşürəkli adamların da gözlərində su qalmamışdı.

Yasın sabahısı günü İsmayıl çaya gedib bir yekə çay daşı gətirmişdi, tövlədə axurun bucağında gizlətmişdi. Məqam gözləyirdi, imkan tapan kimi o daşı atasının başına çırpacaqdı. Bir dəfə çırpsaydı, bəs eləyərdi. Onda elə rahatlıq tapardı ki... Elə bilərdi anasının da, özünün də intiqamını ondan aldı. Ancaq... Hər zaman olduğu kimi indi də son məqama çata bilmirdi. Sanki son dayanacaqda bir qırmızı işarə var idi. O işarəni keçib arzusuna yetmək gücü onda çatmırdı...

Kəndin düşmənlər tərəfindən işğalından sonra onlar da qaçıb Bakıya gəldilər. Hərə bir səmtə pərən-pərən düşdü. Həsən çoxlarını, qohum-qonşularını, sığal çəkib, həvəsi ilə yaşadığı qadınları, elə Şəkərnazı da itirdi. Əslində yaşı da o yaş deyildi.

Amma yenə də əməlindən qalmırdı. Qılçalarını sürüyə-sürüyə o tində, bu küçədə sülənir, o arvadın yan-yörəsinə, bu arvadın döş-başına baxa-baxa ağzı sulanırdı. Hələ bir-iki dəfə məqam tapıb üç manatlıq yanı sallanan küçə qadınlarının yanına da vermişdi özünü. Və onun bu işlərindən xəbər tutan İsmayıl yanıb-tökülmüşdü. Bir neçə dəfə əlini atıb kənddən gətirdiyi çay daşını götürmüşdü. İstəmişdi, heç olmasa, indi bu daşı hədəfinə çatdırsın. Lakin hər dəfə də əlləri boşalmış, daş yerə düşüb yazıq-yazıq ona baxmışdı...

"Sən məni vururdun, ata, qəddarcasına vururdun. Elə bil, heç sənin belindən gəlməmişdim. O qədər varın, dövlətin qabağında günlərlə məni ac-yalavac saxlayırdın. Yadındadı, bir dəfə ədəbiyyat dərsindən iki aldığıma görə məni zalımcasına döydün? Onda düz üç gün evdən eşiyə çıxa bilmədim. Üz-gözümün qara-qurasından uşaqların üzünə çıxmağa utanırdım. Əslində o dərsdən iki almağımın da səbəbkarı sən idin. İki gün dalbadal məni dağa, süd gətirməyə göndərmişdin, dərslərimə baxa bilməmişdim. Elə bil, bəhanə axtarırdın məni döyməyə. Niyə? Nəyə görə? O vaxtlar səbəbini deyə bilmirdim. İndi isə deyirəm. Aç meyid qulaqlarını eşit: anamı hər zaman səndən çox istəmişəm. Onun ölüsünü sənin dirindən çox istəyirdim. Çünki o, əsl ana idi. Doğma idi mənə. Sənin kimi yad deyildi. Bəli, sən yad idin mənə. Yad olmasaydın da, yadlar kimi davranırdın mənimlə. İndi elin minnəti, bir də arvadımın kinayəli baxışlarına görə gəlirəm sənin yanına. Yoxsa, nəyimə lazımsan? Bir ata ki, övladının qəlbində sevgi çırağı yandıra bilmədi, o elə yadlar, uzaqlar kimi bir şeydi. Sənin qəbrin üstündə ağlayanda da, elə bilmə sənə olan sevgimdən ağlayıram. O vaxtın xatirələri yadıma düşür. Anama, mənə elədiyin zülümlər yaddaşımda çözələnir. O günlərin ağrısı ağladır məni. Sən niyə belə ataydın? Qəlbin, ruhun yox idimi? Hər şeyə görə, bəlkə də, bağışlayardım səni. Bir övlad kimi. Ancaq cavan anamı bu dünyadan erkən apardığına görə bağışlamaram səni. Qoy mənə nankor övlad desinlər, biqeyrət çağırsınlar adımı, yenə əfv eləmərəm səni."

İsmayıl dodaqları əsə-əsə danışırdı. Elə əlləri də əsirdi. Əlləri əsə-əsə torbada gətirdiyi çay daşını əlləri arasına götürdü. Başına qaldırdı. Bütün gücü ilə qəbir daşının üstünə çırpdı. Daşdan qopan səs ona bu dünyanın vida nəğməsi kimi göründü. Sanki bu vida nəğməsi ilə atasından birdəfəlik ayrılıb gedirdi. Bu ayrılıq ona çətin, çox çətin gəlirdi. Amma həm də ruhuna bir rahatlıq yağışları yağdırırdı.

Gedirdi. Arxaya baxa-baxa gedirdi. Ayaqlarının titrəməsi ürəyini yerindən qoparmaq halına gəlsə də, yenə çevrilib qəbrə tərəf, atasına sarı baxırdı... Və gedirdi... Bu yol onu atasından alıb, uzaqlara, lap uzaqlara, anasının yanına aparacaqdı. Onda anasının üzünə elə şax baxacaqdı ki. Bəlkə o gözlərdə yuva salan nisgili də bu gedişi ilə silib aparacaqdı. Bəlkə ilk dəfə anasının gözlərində təbəssümün işığını görəcəkdi.

Çətin yol idi bu yol. Həm uzaq, həm çətin, məşəqqətli, həm də ölüm qədər qorxulu. Bu yolçuluğa çıxanlar doğmaları, yaxınları ilə vidalaşıb, halallaşıb çıxırdılar. Kamikadzelər kimi bu yolun da geriyə qayıdışı yox idi. Olsa da, möcüzəyə bərabər bir şey olardı bu qayıdış. Heç bu illər ərzində belə səfərə çıxıb, sağ-salamat geri qayıdanları görməmişdi. Eşitməmişdi də. Ancaq bundan sonra eşidəcəkdilər. Deyəcəkdilər biri-birinə, deyəcəkdilər, Həsənin oğlu anasının qəbrini ziyarət eləməyə gedib. Adamlar inanmayacaqdılar, key-key biri-birinin üzünə baxacaqdılar. Sonra dərindən ah çəkib, uzaq yolların qaranlıq işığını gözlərinə yığacaqdılar.

Və həm də daha anası onun yuxularına gəlib qəmli-qəmli üzünə baxmayacaqdı, baxışları ilə ona nanəcib deməyəcəkdi. Təkcə bu onun bəs idi. Bu sözü üstündən götürmək üçün o çətin yola getməyə dəyərdi.

Evdə bir söz deməmişdi. Bir onu demişdi ki, rayonda ölən adamım var, onun qəbri üstünə gedəcəyəm. Arvadı ölən adamın kim olduğunu soruşmamışdı. O, da bu boşluqdan yararlanıb, tez aradan çıxmışdı.

Payızın qəribə vaxtları idi. Bozaran buludlara, saralan ağaclara baxmaq bu fəslin düşüncələr çağı olduğunu bir daha adamın yadına salırdı. Hər dəfə payız gələndə İsmayıl dəlisov hisslərin qolubağlı quluna çevrilirdi. Ona elə gəlirdi ki, fəsillər də insanlar kimidi. Onun da doğulmağı, yaşamağı və ölməyi var. Payızı nurani qocaya bənzədirdi İsmayıl. Qış gələndə isə... Qışda hər şey bitəcəkdi. Bir daha fəsillər qayıtmayacaqdı... Baharın yenidən gəldiyini görəndə isə məkan kimi İsmayılın özü də elə bil, yenidən doğulurdu.

Yenə düşüncələr dənizində üzürdü. Üzmürdü, boğulurdu. Payızın düşüncələr dənizindən sağ çıxmaq üçün özünün bütün iç dünyasını köməyə çağırırdı. Bu iç dünyasında onun əlindən tutub, boğulmağa qoymayan çox şeylər var idi. Onlardan biri də anasının ruhu və yatdığı qəbir idi. Ki, indi o, nahamar yollarla ona tərəf yaxınlaşırdı.

Çoxdan bu tərəflərə ayağı düşməmişdi. Yurdunu itirib, didərgin düşəndən bəri bəlkə bir-iki dəfə bu tərəflərə gəlmişdi. Hər gələndə də uzaqdan həsrətlə yurd yerlərinə baxa-baxa ağlamış, evinə qayıdandan sonra bir həftə xəstə yatmışdı. Asan məsələ deyildi axı: evini, ocağını, yurdunu, yuvanı, doğmalarının qəbrini gavurların əlində qoyub, uzaqdan həsrətlə bu yerlərə tərəf baxasan. Elələri olurdu ki, belə həsrətlə boylanmaqdan sonra quruyub, yerlərində qalırdılar. Ya da evlərinə qayıdandan bir neçə gün sonra ağır yaddaş ağrısının əzabı ilə bu dünyadan köçürdülər.

İndi bu yerlərdə İsmayılı az adamlar tanıyardı. Tanıyanların bir qismi dünyalarını dəyişmişdilər. Yaşayanların da bir hissəsi onun sirini-sifətini yadlarından çıxarmışdılar. Elə torpaq da onu unutmuşdu deyəsən. Axı bu torpaq onu qoyub gedənləri bağışlamırdı. Cəzası da o olurdu ki, o adamı unudub, yaddaşından silirdi. Bundan ağır cəza vermək olmazdı insana. Və bu qəddarlığına görə İsmayıl torpağı günahlandırmağa da bir söz tapmırdı. Əlacı təkcə ona qalırdı ki, əyilib torpağın üzündən öpsün, dizin-dizin sürünüb, ona yalvarsın, əfv olunmağını diləsin.

Elə belə də elədi İsmayıl. Nankor çıxmış övlad kimi zavallı baxışlarla torpağın üzünə baxdı. Utancaq hərəkətlə əyilib dizlərini yerə qoydu. Sürünə-sürünə bir xeyli yeridi. Sonra aşağı əyildi. Üzünü torpağın üstünə qoyub, sığal çəkdi ona. Göz yaşlarını selə döndərib, isti, titrək dodaqları ilə torpağı opdü, yaladı, üzünə-gözünə tumar çəkə-çəkə ondan bağışlanmasını dilədi. “Mənim günahım var, boynuma alıram. Ancaq zalım düşmənin nə qədər qəddar olduğunu da gərək unutmayasan axı. O gavurlar qocaya, uşağa, xəstəyə rəhm etmədən öldürürdülər. Yalın əllə yaxşı silahlanmış düşmən qarşısında duruş gətirmək asan deyildi. Zavallıca dayanıb, qəvi yağının üzünə baxa-baxa ölmək gələrdi əlimizdən. Qızları, qadınları, gəlinləri düşmənin əlinə verməmək üçün biz yollar, cığırlar axtarırdıq. Ondan qabaq Xocalı müsibətini görmüşdük axı. Buna görə yalnız onları və öz canımızı qurtarmaq üçün çalışırdıq. Bu nankorluqdusa, bu nankorluğa görə bizləri bağışla. Günahımız varsa, bir ana kimi keç günahımızdan.”

Bu sözləri deyirdi və deyə-deyə ağlayırdı. Anasından ayrı düşən zavallı uşaq kimi nalə çəkirdi. Uzun ayrılıqdan sonra doğmasına qovuşmaq həsrəti ilə alışıb-yanan pərvanələr kimi özünü oda atır, yanır, yanır, yenə yanırdı...

Bu hələ görüşün başlanğıcı idi. Daha ağırı, daha çətini isə qarşıda onu gözləyirdi. O görüşə gedib çatmaq da çox çətin başa gələcəkdi. Başa gələcəkdimi, hələ orasını da bilmirdi. Amma içində olan bir dünya yanğı onu titrək addımlarla o görüşə yaxınlaşdırırdı.

Buradan arzusunda olduğu hədəfə üç-dörd kilometr məsafə ancaq olardı. Yol düzünə, hamar olsaydı, on beş, iyirmi dəqiqəyə o hədəfə çatar, üzünü qara, soyuq daşın üstünə qoyub, doyunca ağlayardı. Lakin yol hamar deyildi. Bu yerlərin hər qarışı düşmənin nəzarətində idi. Və bu qısa məsafəni dəf edib, hədəfə çatmaq hər kişinin işi deyildi.

Axşam düşürdü artıq. Bir azdan günəş çəkilib yatağına gedəcək, Tanrı öz qaranlıq çadırını bu yerlərin üstünə çəkəcək, torpaq öz doğmalarına qovuşmaq üçün sabahın gəlməsini arzulayacaqdı.

İsmayıl meşəyə bənzər ağaclığın içərisiylə yeriyirdi. Bu yerləri yaxşı tanısa da, indi buralar ona çox qərib görsənirdi. Elə bil, dağlar, daşlar, ağaclar o vaxt qoyub getdiyi dağlar, daşlar, ağaclar deyildi. Nəyə görəsə, onlar İsmayıla o vaxtlarda olduğu kimi məhrəm görünmürdülər. Bu ögeylikdən ürəyi qısıldı. Nisbətən açıqlığa, işıqlığa gəldi ki, bəlkə bu yerlər onu tanıya, doğması, özününkü bilə. Bu zaman bir nəfər görünməz yerdən çıxıb, uzun dəstəkli silahı onun sinəsinə tuşladı.

-Əllər yuxarı!

İsmayıl həmin adamın erməni olduğunu düşünüb, tələsik iri gövdəli palıd ağacının arxasına keçdi.

-Çıx oradan, yoxsa gəbərdərəm.

İsmayıl ağacın arxasından çıxmadan özünə güc verib, titrəyən səsi ilə silahlı adama tərəf qışqırdı:

-Sən kimsən, ermənisən?

-Erməni sənin atandı.

-Bəs kimsən, əlində silah?

-Sənə izahat vermək vəzifəm deyil. De görüm, sən kimsən və burda nə gəzirsən? Bir dəqiqə sənə vaxt verirəm, çıxıb təslim olmasan, beynini dağıdacağam. Ondan sonra burada meydan sulayan siçovullar yaxşıca sənə yas saxlayarlar.

Silahlı adamın erməni olmadığına inanan İsmayıl aram addımlarla ağacın arxasından çıxıb, adama tərəf yeridi.

-Sən doğrudan bizimkisən?

-Ancaq sənin bizimki olmağına mənim şübhəm var. De, görüm kimsən?

-Mən Həsənin oğluyam. Qızıldişli Həsənin.

-Mən Həsən-məsən tanımıram.

-Bu tərəflərdən deyilsən?

-Xeyr, gəlməyəm. Bu yerlərdə könüllü əsgərlərə kömək edirəm.

-Bəs bu yerlər ermənilərdə deyildi?

-Ermənilərdə idi, bizimkilər geri aldılar. Deyəsən, sən fil qulağında yatmısan.

-Haraya qədər almısınız?

-Bax, o işıq gələn yerə qədər... Sən kimsən axı, sənə geniş, sicilləmə izahat verirəm? Bəlkə, o nankorlara işləyirsən?

-Allah eləməsin. O tüfənginlə sinəmi param-parça elə, ancaq o sözü mənə demə... Anamın qəbrini ziyarət eləməyə gəlmişəm.

Silahlı adamın əlləri boşaldı. Silahını ağaca dayayıb, İsmayıla tərəf gəldi.

-Ay kişi, sən nə danışırsan, qurd ürəyimi yemisən?

İsmayıl yanını iri kötüyün üstünə qoyub, kədərli-kədərli adamın üzünə baxdı və sızıltılı səslə bir bayatı söylədi:

Əzizim ana sızlar,

Balasız ana sızlar.

Analılar nə bilər,

Nə çəkir anasızlar.

Adam kötüyün üstündə yer eləyib, İsmayılla çiyin-çiyinə oturdu.

-Nə yanıqlı dedin, qardaş. Mənim də anam yoxdu. Ermənilər öldürüblər anamı. İrəvan yaxınlığında. Qaçaqaç düşən vaxtlarda. O zamandan intiqam hissi ilə alovlanıb yanıram. Elə ona görə gəlmişəm buralara. Əsgərlərə kömək eləmək üçün keşik çəkirım. İmkan düşən kimi anamın qisasını alacağam bu qibləsizlərdən. İnan, gecələr yuxumda da anamı öldürənlərin intiqamını alıram. O gün mənə qismət olmasa, bu dünyadan gözüaçıq köçəcəyəm.

Adamın sinəsindən qopan ah ağacların yarpaqlarını da titrətdi. İsmayıl əli ilə onun çiyninə toxunub, özünə tərəf sıxdı.

-Bağışla, məni qardaş, yaranın qaysağını qopardım, deyəsən?

-O yara qaysaq bağlayan yara deyil. Həmişə üstü açıqdı, hər zaman o yaradan qan axıb, ürəyimi qabar-qabar eləyir.

Bir az dərdləşəndən sonra İsmayıl ayağa qalxdı.

-Yaxşı, qardaş, mən gedim, gecə düşməmiş özümə bir sığınacaq tapım.

-Getdiyin yol qorxulu yoldu. Bu yoldan sağ-salamat qayıtmağın şansı çox azdı.

-Bilirəm...

-Onda niyə gedirsən?

-Dözə bilmirəm.

-Nəyə dözə bilmirsən?

-Anasızlığa. Bir də onun kinayəli baxışları öldürür məni.

-Yox, heç o da istəməz belə ağır səfərə çıxmağını.

-İstəyir.

-Nə bilirsən?

-Yuxularımda görmüşəm. Elə hey məni qəbri üstünə çağırır.

-Onda xeyrə qənşər.

Adam İsmayılı qucaqlayıb, sinəsinə sıxdı. Bu vidalaşma əbədi ayrılığın görüntüsünə də çox oxşayırdı.

-Bax, o tərəfdən ermənilərin xətti başlayır.

Adamın səsindəki hüznlü titrəyiş İsmayılın nəzərindən qaçmadı. Bir də qucaqlaşıb, ayrıldılar.

Qoca bir ağacın gövdəsinə çıxıb, yarpaqların arasından ermənilərin səsi gələn səmtə baxırdı. Deyəsən, onlar yeyib-içirdilər. Arada səs-səsə verib, mahnı da oxuyurdular. Bu İsmayılın tarıma çəkilmiş əsəb tellərinə bir az da gərginlik gətirdi. “İt uşaqları, torpağı zəbt eləməkləri az imiş, hələ bir mahnı da

oxuyurlar. Eybi yox, sizin də sonunuz çatar. Arxanızı ayıya dayayıb, yekə-yekə küçüklük edirsiniz. O ayı bir an əlini üstünüzdən götürsə, heç yerdə külünüz də qalmaz... Oxuduqları da bizim nəğmələrdi. Bəs sizin nəyiniz var, ay bədbəxtlər? Niyə bu qədər bədbəxt millət olduğunuzu dərk eləmirsiniz? Tarixdən niyə ibrət götürmürsünüz? Nə vaxta qədər onun-bunun arxasınca sülənib, ayağının tozu olmağa belə layiq olmadığınız millətlərə çamur atacaqsınız?”

Bir istədi ağacdan aşağı düşsün, düz ermənilərə tərəf getsin, bu sözləri onların sifətlərinə desin. Amma buraya nə üçün gəldiyini yadına salıb, sakitcə yerində oturdu.

Ancaq o ağacda çox otura bilmədi. Aşağı enib, yerə əyilə-əyilə bir az da ermənilərə tərəf gəldi. Bir rahat, gur yarpaqlı ağac tapıb, ona dırmaşdı. Buradan ermənilər aydınca görünürdülər. Aralarında ruslar da var idi. Hərdən rusca danışıb, bir-biri ilə məzələnirdilər.

-Ara, Seryoja, bəs sən buralarda nə ... yeyirsən?

-Nə yeyirik, sizə görə yeyirik. Biz olmasaq, türklər sizlərə nəyi yeməli olduğunuzu başa salarlar.

-Yəni bu türklər belə güclüdürlər?

-Hələ indiyə qədər bunu başa düşməmisinizsə, sizin adam olduğunuza məndə böyük şübhə yaranır.

-Sən də, ay Seryoja, çox özündən demə, elə sizlərə də çox mətləbləri türklər qandırıblar.

-Məsələn, nəyi?

-Türklər sizin tərəflərə gələnə qədər, siz hələ hamamda çimməyin nə olduğunu bilmirdiniz. Elə mətbəx mədəniyyətini də sizə osmanlılar öyrədiblər.

-Sən çox baş aparırsan ha, Qarik, indi sənə bir yumruq vuracağam, Tiqran baban yadına düşəcək.

-Yaxşı, əsəbiləşmə, götür arağını, bu badəni bizim qardaşlığımızın şərəfinə içək.

-Qardaş deyəndə ki, əslində sizdən bizə qardaş olmaz, indi bir zibildi də düşmüşük, görək nə zaman bu zibildən qurtulacağıq... Mənim nəyimə lazımdı axı, gül kimi Nataşamı qoyub, gəlib burda sənə qarovul çəkirəm.

-Nataşa?

-Hə, Nataşa.

-Çox qəşəngdir?

-Of... Bir gözəlliyi var ki, görsən, ağlın başından çıxar. Çiyələk kimi dodaqları, ağappaq döşləri, gözləri də ki, can alan.

-Oy, elə demə, belə yerdə elə qəşəng qızdan danışanda, adamın beli sancır.

-Belin niyə sancır? Odur ey, dünən Suriyadan, İrəvandan bir sürü erməni qızı gətiriblər. İstəyirsən, Albertə deyim, onlardan bir-ikisini sənin üçün göndərsin.

-Yaxşı olar, ancaq bu qızları özləri üçün gətiriblər, bizə verməzlər.

Bu zaman o birilər söhbətə qarışıb, nəsə danışdılar, şaqqanaq çəkib, ürəkdən güldülər. Rus nə danışıldığını başa düşməsə də, o da ermənilərə qoşulub gülürdü.

Bir xeyli İsmayıl onlara göz yetirdi. Heyif ki, danışıqlarını başa düşmürdü. Yalnız rusca danışanda qulağını irəli tutub, nədən danışdıqlarını anlayırdı.

Ağacda beləcə oturub, gecə yarıya qədər onları izləməyin heç bir mənası yox idi. Aşağı düşüb irəli getməliydi. Hədəf yaxınlaşdıqca, təhlükə də çoxalırdı. Və İsmayılın həyəcanı da anbaan artırdı. Onu həyəcanlandıran bir başqa səbəb də vardı. Qorxurdu ki, birdən... Yox, yuxuda anasının qəbrini yerində görmüşdü. Amma necə olsa, bu qorxu ürəyini aram-aram yeyirdi. Və əgər İsmayıl hədəfə çatıb, anasının qəbrini yerində görməsəydi, elə o an ürəyi dayanacaqdı. Bu ağrıya, bu iztiraba ürəyinin tab gətirəcəyinə heç bir damcı da inamı qalmamışdı.

Bu gecə başqa gecələrdən, elə bil, bir az da qaranlıq idi. Bəlkə ay bu yerlərə gəlib çatmırdı? Əgər ay buralarda olsaydı, gecə belə zülmətə qərq olmazdı. Ay da yəqin bu yerlərin yad əllərdə olduğundan küsüb uzaqlara getmişdi. Bir də onda qayıdacaqdı ki, bu yerlərin doğma adamları buralarda olacaqdılar. Ancaq indi ürəyinin qərib bir yerində aydan inciməyi gəlirdi. Axı o da bu yerlərin doğma adamıydı. Heç olmasa, bir doğma adama görə gərək ay bu gecə şöləsini bir az da olsa, bu yerlərə çiləyəydi. Sonra yenə qərib hisslərin məngənəsində aya bəraət qazandırmağa çalışdı. Axı ətraf başdan-ayağa düşmənlərin əhatəsində idi. Və əgər ay şöləsini bu gecənin qaranlığına çiləsəydi, düşmənlər onu görər, əl-qolunu bağlayıb aparardılar.

Qabaqdan yenə işıq gəlirdi. Bir istədi o işıqdan gen dayansın. Amma marağı üstün gəldi ona. Yaxına gəlib, şüşəsi qırılmış pəncərədən içəri boylandı. Elə bu anda bir yekə əl onun boynundan tutub, geri çəkdi. Erməni dilində nəsə dedi. İsmayılı darta-darta otağın içərisinə apardı.

-Ara, musurmansan?

İsmayıl dinmədi.

-Sən burda neynirsən, ay yazıq? İndi başını toyuq başı kimi üzərəm, onda ağlın başına gələr.

İsmayıl yenə dillənmədi.

-Bay, ara, sən şorgöz Həsənin oğlu deyilsən?

İsmayıl ilk dəfə başını qaldırıb, dik erməninin üzünə baxdı.

-Məni hardan tanıyırsan?

-Sən məni tanımadın? Mxitarın oğluyam da. Yadına gəlmir, tez-tez sizə gələrdik. Anan bizə dadlı-dadlı yeməklər bişirərdi.

-Hə, yadıma düşdü, sən Samvelsən?

Samvel İsmayılı qucaqlayıb, sinəsinə sıxdı.

-Ara, başına dolanım sənin, sən hara, bura hara?

Bu qəribə görüşün qərib hisslər burulğanında onlar işığın altına çəkilib, dərdləşməyə başladılıar.

O zamanlar Samvel atası ilə onlara çox qonaq gələrdi. Hər dəfə də atası əvvəldən Həsənə xəbər göndərərdi, deyərdi ki, Züleyxa bacı yaxşı bir yemək hazırlasın, axşama sizdəyəm. Gələndə çox zaman Samveli də özü ilə gətirərdi. Bir də öz əlləri ilə hazırladığı zoğal arağından vurardı qoltuğuna. Yeyib-içər, deyib-gülər, axşamdan bir xeyli keçmiş çıxıb gedərdilər.

-Yadındadı, İsmayıl... Qoy bir şüşə zoğal arağı gətirim, onu vura-vura keçmişləri yada salaq.

-Mən içmirəm, tərgitmişəm içməyi.

-Yaxşı, musurmanlıq eləmə... İçməsən, özüm içərəm... Yadındadı, ilk dəfə qadın ləzzətinin tamını mən sənə daddırmışdım? Səni aparmışdım Liliyanın qızı gözəl Anuşun yanına... O gecənin ləzzəti neçə illər sənin yadından çıxmadı... Heyif o illərdən...

-İndi sən burda neynirsən?

-Neyniyəcəm, məni it kimi bağlayıblar bura, deyirlər, musurman gələndə hürərsən.

-Sənin də xoşun gəlmir hürmə.

-Necə hürməyim? Adamın çırağını söndürərlər. Bir çətən külfətim var, onları daşnakların süngüsü qabağına verə bilmərəm.

-Deyirlər axı, siz onlarla yola getmirsiniz?

-Hə, düz deyirlər, İrəvandan gələnlər bizləri bəyənmirlər. Deyirlər, sizin qanınız türklərlə qarışıb. Deyirlər, sizə etibar yoxdu, bir də gördün silahı bizə tərəf çevirdiniz... Allah evini yıxsın aranı qatanın. Gül kimi yaşayırdıq. Altmış-yetmiş ildən bir aranı qatıb, bizi bir-birimizə qırdırırlar. Arada kim qazanır? Bu oyunu çıxarıb ortaya atanlar... Ehhhh, bir də çətin o günləri yarada bilərik.

-Niyə yarada bilmirik? Sizlər səhvinizi anlasanız, yenə işlər yoluna düşər.

-Qoymurlar axı. Qoysalar, nə var ki?! Yuxarıda oturanların marağına biz aşağı təbəqənin adamları bədbəxt olmuşuq... Siz musurmanların da ağlı sonradan işləyir. Bizi Qarabağa niyə buraxırdınız ki, sonra da əlimizdə giriftar qalasınız?.. Bunu da içirəm sənin şərəfinə... Yaxşı, başımız qarışdı, heç səndən soruşmadım, buralara nə əcəb gəlmisən, bilmirsən buralar qan çanağıdı?

-Anamın qəbrini ziyarət eləmək istəyirəm.

-Bu qorxulu işdi.

-Bilirəm. Ancaq ölsəm də, gedəcəyəm. Anam yuxularımda dəli eləyir məni.

-Onda, ay İsmayıl, elə mən də səninlə gedəcəyəm. Bu çətin yola səni tək buraxa bilmərəm. Bir də bir dünya çörəyini yemişəm axı o, arvadın. Gedim, ruhundan halallıq alım.

Buraların viranə qaldığından da danışdı Samvel. Dedi, elə bil, bayquş yuvasdı. Gül kimi yurdu eləyiblər narkotik sahəsi. Nəzarətsiz zona olduğuna görə, kim nə bilir onu da eləyir. Gələcək üçün çox pis toxum əkirlər. Bizimkilər elə bilirlər ki, dünyanın axırına qədər urus-murus onların arxasında duracaq. Xaç yürüşünün də bir sonu olmalıdı axı... Eh, nə bilim, Allah sonumuzu xeyirli eləsin.

İsmayıl nə qədər desə də, Samvel onu eşitmədi. Pal-paltarını geyinib, silahını çiyninə asdı, ona qoşulub, gecənin qaranlığında məzarlığa tərəf yola düşdü.

Yollar İsmayılın ayaqlarına yığılmışdı. Samvel yanında olmasaydı da, o, belə zülmət qaranlığın içərisindən keçib, məzarlığı tapa bilərdi. Bütün uşaqlıq, yeniyetməlik, ilk gənclik çağları bu yerlərdə keçmişdi. Buraların hər daşına, budağına, bulağına bələd idi. İndi ayaq basıb keçdikləri yer Baba bulağı adlanırdı. Bu bulaqdan o qədər su içmişdi ki... Bulağın ətrafına toplanan bir-birindən qəşəng qızlara baxmaqdan gözlərinin giləsi ağarırdı. Xəyalında bu qızların ən gözəlini götürüb özünə yar eləyir, anasına gəlin aparırdı. Bu bulağın başında çox xatirələri

mürgüləyirdi İsmayılın. Elə bu xəyalla əlini qaranlıqda qorxa-qorxa bulağın gözünə tərəf uzatdı. Yox, bulaq qurumamışdı. Yenə qəmli-qəmli axır, uzaqlara baxa-baxa doğmalarının yolunu gözləyirdi. Əyilib təşnə adamlar kimi bulağın suyunu ciyərlərinə çəkdi. Yüz ilin həsrətliləri tək bulağın başına, gözünə, telinə sığal çəkdi. Elə bu anda... Erməni nəzarətçi onları görmüşdü deyəsən. İşıqlı kölgə düz gəlib onların qarşısında dayandı. Fənərin işığını onların üzünə tutub, erməni dilində Samveldən nəsə soruşdu. Səslərinin ucaldığını görəndə İsmayıl ayağı ilə yerdən bir daş axtardı. İş qəlizləşsəydi, o daş İsmayıla lazım olacaqdı. İsmayıl xəyalında bu məqamın gedişatını düşündüyü anda birdən güllə açıldı. Gələn erməni inildəyib, yerə sərildi.

-Samvel, niyə onu vurdun?

-İrəvandan gələn daşnak köpəkoğlu mənim yaxamdan əl çəkmirdi. Qarabaqara izləyirdi məni. Qoy gəbərsin, it oğlu.

Samvel addımlarını yeyinlədib, irəliyə yeridi. Görünür, güllə səsini eşidib, gələnlərdən ehtiyat eləyirdi.

Bura isə Dədə ocağıydı. Buradan onların kəndləri başlayırdı. Şamlığın o biri tərəfi isə kəndin qəbristanlığı idi. Anası ilə onun arasında indi çox az məsafə qalırdı. Ancaq yenə iki fənərli adamın onlara tərəf gəlməsini görəndə, arzusunun üstünə qara bir sual işarəsi düşdü.

Gələn ermənilər fənərin işığını Samvelin üzünə tutub, ondan nəsə xəbər aldılar. Samvel onlara kobud cavab qaytarıb, başından eləmək istədi. Ancaq deyəsən, onların başdan olub getmək fikirləri yox idi. Onlar Samveli uzun-uzadı sorğu-suala tutmaqla güllə səsinin hardan gəldiyini öyrənmək istəyirdilər. Bu anda yenə İsmayıl ayağının ucu ilə torpağın üstünü qurdalayır, əlinə bir yekə daş keçirmək istəyirdi. Nədənsə, bu darmacalda kənddən şəhərə gətirdiyi daş yadına düşdü. İndi o daş yanında olsaydı...

Ermənilər fənərin işığını ağacların boyunca dolandırıb, İsmayılın üzündə saxladılar. Elə o anda onun qəlbindən xoş

olmayan bir gizilti keçdi. Ona elə gəldi ki, çoxdan bəri qəlbində dolandırdığı arzusu bir anda məhv olacaq.

İsmayılın üzünə baxa-baxa yeyin-yeyin danışırdılar. Samvel də dil boğaza qoymadan onların cavabını verirdi. Çox danışandan sonra gəldikləri kimi birdən də aralanıb getdilər. İsmayıl dərindən nəfəs alıb, kürəyini enli ağacın gövdəsinə dayadı.

-Nə deyirdilər?

-Heç, boş-boş danışırdılar.

-Niyə əl çəkib getdilər?

-Dedim, bu yoldaşımın dili laldı, inanıb çıxıb getdilər.

-Bəs demədilər lal burda neynəyir?

-Əşi, qaraltı olsun deyə, koru da bura gətirirlər.

-Bunlar da İrəvandan gələnlər idi?

-Hə. Bayaq vurduğumla bir yerdə gəlmişdilər. Bir az uzun danışsaydılar, onları da vuracaqdım.

Bu da məzarlıq. Məzarlığın dəmir qapısını çıxarıb aparmışdılar. İsmayıl astaca ayağını irəli uzadıb, məzar daşlarının yerində olub-olmadığını dəqiqləşdirmək istədi. Ot basmış məzarlıqda yerimək çətin olduğundan ilk məzar daşına yetişmək ona çox ağır başa gəldi. Əlləri ilə otları aralayıb yeriyir, özünə yol açıb, yenə qabağa gedirdi. Samvel onun arxasınca gəlirdi. Və əlində tutduğu fənərlə İsmayılın yoluna işıq salırdı. Bu anlarda İsmayıl həyəcandan əsdiyini, bütün canının ürək kimi çırpındığını hiss edir, anasının məzarına yetişməyin həsrəti ilə alışıb-yanırdı. Bu bir azca yol ona bir dünya boyda uzun göründü. Əli ilk məzar daşına dəyəndə, sevindiyindən qışqırıb, anasının məzarına tərəf sürünməyə başladı.

Qıyıq, zəhərli otlar onun əl-qolunu dalayır, qançil eləyir, xırda, yekə daşlar dizlərini əzir, əzirdi... O, isə heç nəyə məhəl qoymadan irəliyə gedirdi... Bu yolu neçə illər idi ki, gəlirdi İsmayıl. Bu yolun başlanğıcı onların didərgin düşdüyü gündən başlanmışdı. Yolun sonu burada bitəcəkdi. Bitəcəkdimi?

Dünyanın ən uzun yolu da bu qədər olmazdı. Oğul anaya qovuşmağa tələsirdi. Yol isə bitmir, tükənmir, uzandıqca-uzanıb gedirdi. Gecənin qaranlığı da İsmayılın ayaqlarına dolanmışdı elə bil. Zülmət qaranlıq indi onun ayaqlarından tutur, irəli getməyə qoymur, öz zülmət qoynuna aparırdı.

Nəhayət uzun əzab-əziyyətdən sonra ayaqlarına dolanmış zülmət qaranlığı əzib, arzusuna doğru yetişirdi...

Samvel lal-dinməz İsmayılın arxasınca gəlirdi...

Bu da çoxdan gözlədiyi o an. Züleyxa ananın qəbir daşı. Otları kənara çəkib, anasının məzar daşını tapanda, elə həsrətlə o daşı bağrına basdı ki... Samvel bu görüşdən sarsılıb, başını aşağı dikdi.

İsmayıl hissiz, duyğusuz qəbir daşına sığal çəkir, tumarlayır, anlaşılmayan sözlər pıçıldayaraq əzizləyirdi anasını. Çoxdan, lap çoxdan itirdiyi anasını tapmışdı elə bil. Hərdən, deyəsən, dodaqları əsə-əsə ağı da deyirdi anasına. Bağışlanmasını diləyirdi ondan.

Bir tərəfdən də dırnaqları ilə torpağı didişdirir, sanki anasının yanında yer düzəldirdi özünə.

Samvel donub qalmışdı. Bəlkə də ömründə belə duyğusal mənzərənin şahidi olmamışdı. O, da ağlayırdı deyəsən. İtirdiklərinə, dünəninə, keçmişdə qalan günlərinə ağlayırdı. O günlərinə ki, o günlərində hər şeyi var idi. Bu günkü kimi mənasız, bayağı, sabaha ümidsiz ömür yaşamırdı. Ayağı ilə torpağı eşir, Züleyxa ananın ayaqları yanında ömrünün keçmiş firavan günlərini axtarırdı...

Günəş də bu yerlərə yarımkönül gəlirdi sanki. Şöləsini tam gücü ilə buralara saçmağa ürəyi gəlmirdi. Səhərdən aralanıb, günorta yerinə sürünsə də hələ bu tərəflər düz-əməlli işıqlanmamışdı. Bu yarımqaranlıq məzarlığın bir qəbri üstündə iki meyit uzanıb qalmışdı. Biri düz Züleyxa ananın başdaşının yanında, o biri isə ondan bir az aralı, ayaqları tərəfdə.

Günəş də çaşıb qalmışdı, elə bil. Sanki bu ölənlərin hansı qəzadan getdikləri günəşin günəş düşüncəsini məşğul etdiyindən, başqa yerlərə getməyi də yadından, yaddaşından çıxarmışdı.

Ancaq nə günəş, nə də qəbrin yanında ölənləri görənlər bu adamların birinin ana həsrətindən, o birisinin isə yaddaş ağrısının əzabından öldüyünü bilməyəcəkdilər. Bilənlər isə artıq bu qaranlıq yerlərdən ayrılıb, öz işıqlı dünyalarına qovuşmuşdular.

Günəş isə hələ də yerində dayanıb, bu üzücü mənzərəni seyr edir, hələ bir müddət də buralardan aralanıb getmək istəmirdi...

# Boynubükük bənövşə

Adamlar oynayırdılar...

Səs-küy aləmi başına götürmüşdü...

Çilçıraqların şöləsi adamın gözlərini yandırırdı...

Sevda hissiz və duyğusuz səs-küyə qarışmış adamlara baxırdı...

İsmayıl içində hönkür-hönkür ağlayırdı...

Adamlar bir-bir masabəyinin yanına yaxınlaşır, təbriklər deyirdilər. Hamısı da danışa-danışa Sevdaya tərəf baxırdılar. Sanki bununla öz içlərində qırılmış duyğularını dirçəldir, bərpa etməyə çalışırdılar. Buna nail olurdularmı görəsən? Yox, duyğularını bir az da qırır, əzir, incidir, taqətdən salırdılar.

Bu nə yaman gecəydi, İlahi. Belə toymu olardı? Toyda hamının qəm-qüssənin ağuşunda əriyib, içlərində ağlamaqdan bihal olmalarını adamlar birinci dəfəydi görürdülər.

Bu nə toy idi belə? Bəlkə də Sevdadan savayı hər kəs bu haqda düşünür, düşündükcə də kədərin okean sularına qərq olurdular.

İsmayıl Sevdanın narahat hisslər keçirdiyini yenə uzaqdan gözlərindən duydu. Tələsik onun yanına gəldi. Əyilib bacısı Zoyanın qulağına nəsə dedi. Sevdanın önündə dayanıb, qolları ilə onu qucaqladı. Yuxarı qaldırdı. Zoya Sevdanın oturduğu döşəyi o yan, bu yan eləyib, yenə yerinə qoydu. İsmayıl qaytarıb Sevdanı yerində əyləşdirdi. Xəfifcə tellərinə sığal çəkdi. Dərindən köks ötürüb, yenə masabəyinin yanına qayıtdı.

Deyəsən, Sevda rahatlanmışdı. Daha üz-gözünü əyib, ağlamaq istəmirdi.

Bayaqdan bəri bütün toy əhlinin gözləri onlarda idi. İndi isə adamlar nəzərlərini Sevdadan çəkib, İsmayılın üzündə cəmləmişdilər.

Hər kəs dərin düşüncənin əli-qolu bağlı əsirliyində qalmışdı. Hamı xəyalında öz düşüncəsinə uyğun mülahizələr yürüdür, bu qadının dünənini gözləri önünə gətirərək, sabahının harda bitəcəyini beyinlərindən çıxara bilmirdilər.

Masabəyi danışırdı:

-Ailənin özəyi ata və anadan başlayır. Ata evin sütunudur. Ana o evi qoruyan gücdür. Ya atanın, ya da ananın işığı hansı evə az düşürsə, o ev bərbad olur... Bayaq bəyin atası haqqında çox xoş sözlər dedilər... Məni eşidirsə, bəyin anası haqqında bir-iki kəlmə danışmaq istəyirəm...

Toy əhli yenə nəzərlərini hər yandan yığıb, Sevdanın üzündə cəmlədi.

Hissiz-duyğusuz baxışlarını bir nöqtəyə zilləyib baxırdı Sevda. Sanki bütün bu deyilənlərin ona heç bir dəxli yox idi.

Müğənni yanıqlı-yanıqlı ana haqqında segah oxuyurdu:

Nigaran qalanda ana baladan,
Ona qurban deyər dövlətdən-vardan.

Mən qurban demirəm dünya malından,

Kaş özüm qurbanın olaydım, ana.

Sevda yenə bir nöqtəyə baxırdı... Zoya hərdən onun ağzına yemək qoyurdu... İsmayıl tez-tez gəlib, onun tellərinə sığal çəkirdi...

Arada bəylə gəlin taxt-taclarından ayrılıb, Sevda ananın yanına gəldilər. Yan-yana dayanıb, onunla xatirə şəkli çəkdirdilər. Bu an bəyin gözlərindəki kədər bir kimsənin nəzərindən yayınmadı. Bu nəzərlərdən yayınmaq üçün o, əyilib titrək dodaqları ilə anasını öpdü. Sakit bir yer tapsaydı, bu anlarda bəy elə ürəkdən ağlayardı ki...

Hamı ağlayırdı...

İsmayıl fürsətdən istifadə eləyib bayıra çıxmışdı. Çöldə, ağacların arasında oturub, bayaqdan gözlərini yandıran göz yaşlarını sinəsinin üstünə axıdırdı... Və o göz yaşları ağ sellərə dönüb bir anda uzaqlara, çox uzaqlara apardı onu...

...Kəndin ən qəşəng qızlarından biri idi Sevda. Çox oğlanların gözü onun üstündəydi. Bir çoxlarının gecələr yuxusunu da qaçırırdı bu qız. İsmayıl o, qızdan ötrü iki gündən, üç gündən bir onların məhəlləsinə gəlirdi. Və hər dəfə bu məhəlləyə gələndə o gecə yuxusu qaçan oğlanlar ona qısqanclıqla yanaşırdılar. Hələ dözməyib, bunun səbəbini ondan soruşanlar da olmuşdu.

-Nə tez-tez gəlirsən buralara? İşin-gücün yoxdur?

-Sizə nə dəxli var?

-Yekə-yekə danışma. Bir də buralara gəlsən, bizdən incimə...

Amma İsmayıl yenə gəlirdi.

Bulaqdan su götürən qızlardan bir az o yanda dayanırdı. Gözünün ucu ilə Sevdanı süzürdü. Və istəyirdi ondan başqa bir kimsə Sevdaya tərəf baxmasın. Məhəllənin oğlanları ona necə qısqanırdılarsa, o da eynən o oğlanlara qısqanırdı. Hələ bir dəfə məktəb direktorunun oğlunu bunun üstündə döymüşdü də. Sabahısı gün onu müəllimlər otağına çağıranda əvvəl bir söz

tapıb danışa bilməsə də, sonra özünü toplayıb, bülbül kimi cəh-cəh vurmuşdu.

-Direktorun övladı gərək kənddə hamıya nümunə olsun. O isə çox artıq-urtuq hərəkətlər eləyir. Bütün günü bulağın yanında dayanır. Onun əlindən qızlar hərəkətlərini, yerişlərini də itirirlər. O qızlardan biri mənim bacımdır, biri o birisinin bacısıdır. Biz kəndin qeyrətini çəkməsək, kim bizim qeyrətimizi çəkəcək?

İsmayılın bu sözlərinə müəllimlərin hamısı gülüşmüşdülər. Direktor səssiz-küysüz otaqdan çıxıb, oğlunu tənbeh eləmək üçün onu harasa aparmışdı.

Bu məsələdən sonra İsmayıl kənddə yaxşı oğlanlardan biri kimi ad çıxarmışdı. Amma bir tərəfdən də ziyan vurmuşdu özünə. Direktorun oğlunu deyirdi, bəs özü necə iki gündən, üç gündən bir gedib bulağın yan-yörəsində dayansın? İndi o tərəflərə getməyi nisbətən azaltsa da, hərdən bir bəhanə tapıb, oralara dəyirdi. Oralara gəlməyinin adı da olurdu ki, ayağı sürüşkən oğlanların hərəkətlərinə göz qoyur.

Beləcə, fikirlər bir-birini azdıra-azdıra, aldada-aldada günlər həftələri, həftələr ayları qovurdu. Və bu günlər bir-birini qovduqca, İsmayılın Sevdaya olan məhəbbəti də artır, çoxalırdı. Belə gizli sevdalı günlərin birində İsmayıl ürəyini bacısı Zoyaya açdı.

-Bacı, bilirsən nə var?

-Yox, bilmirəm.

-Doğrudan bilmirsən?

-Elə bil, bir az bilirəm.

-Nəyi?

-Sevdanı sevdiyini.

İsmayıl başını aşağı dikdi, üzünə xəfif qızartı çökdü.

-Niyə qızarırsan, başını dik tut.

-Bilirsən...

-Heç nə bilmirəm, nə desən onu biləcəyəm.

İsmayıl bütün gücünü toplayıb, bacısı ilə qabaq-qənşər dayandı.

-Bacı, burda nə var ki? Mənim yaşıdlarımın hamısı...

-Burda heç nə yoxdu. İstəyirdim bu sözləri öz dilinlə deyəsən. Mən Sevdanın xətrini o qədər istəyirəm ki. Lap dünyalar qədər. Ailələri də yaxşı ailədir. Kənddə beş-üç nümunə göstərməli ailə olsa, biri onların ailəsidir.

Bu sözlərdən İsmayıl elə fərəhləndi ki, ürəyi köksünə sığmadı. Və köksünə sığmayan ürəyinin xoş arzuları onu ağ yelkəninə alıb, xəyal qurduğu günlərinə apardı. O günlərinə ki... Sevda ağ gəlinlik donuna bürünüb, onunla yan-yana xoşbəxt-xoşbəxt yeriyirdi. Bəxtəvər çağlara çatmaq üçün irəli gedirdilər. O çağlarda onun Sevda ilə gözəl ailəsi, evi-eşiyi, uşaqları var idi...

-İsmayıl, qoy anaya deyim, ata ilə danışsın.

-Birdən atam...

-Yox, o da çox istəyir Sevdagilin ailəsini...

Daha o bulaqlı məhəlləyə gedib gizlin-gizlin eşq atəşində yanmağa ehtiyac qalmadı. Sevdanın sözünü İsmayıla aldılar. Yaxşı bir toy çaldırıb, o gözəllər gözəlini ona gəlin gətirdilər.

Oğlanları oldu, qızları oldu. Elə bildilər bununla xoşbəxtliyin geniş qapısından içəri giriblər. Daha bir kimsə onları bu xoşbəxtlik bağçasından aralı sala bilməz. Nə biləydilər axı...

Ermənilərin yenə quduzlaşması hər addımda duyulurdu. Sanki onların taleyinə yazımışdı: iki qərinədən, üç qərinədən bir dost dediklərinə asi çıxıb arxa çevirməli, çörək yedikləri süfrəyə tüpürməliydilər. Yenə o vaxtlar idi. Gözünü dünyaya açandan İsmayıl da, atası da, babası da, hələ bəlkə babasının babası da ermənilərlə bir yurdda yaşamağa məhkum edilmişdilər. Bu məhkumluq ən ağır cəza kimi kəsilmişdi bu yerlərin adamlarına. Ovuclarının içi kimi bilirdilər, bilirdilər ki, yenə vaxt, zaman gələcək, indi onlara can deyən erməni qonşuları üzüdönük bulağının suyundan içərək, onlara arxa çevirəcəklər. O zamanın havası çalınırdı bu yerlərdə. Beş-on metr aralıda evi olan erməni

qonşusu indi onlardan yan gəzir, gizlənir, üz-üzə, göz-gözə gəlməməkdən ötəri qaranlığın tez düşməsini istəyirdi.

İsmayılın atası Mikayıl bu soyuqluqdan üşüyüb, əllərini ovuşdura-ovuşdura qonşusu Armenin evinə tərəf yaxınlaşdı.

-Ay Armen, ay qonşu... Armen heyyyyy...

Üç-dörd dəfə inadla Armeni səsləyəndən sonra axır ki, Armen köhnə dəmir qapını cırhacırla açıb, utancaq və soyuq nəzərlərlə qonşusuna baxdı.

-Ay Armen, ay Allah sənin evini yıxmasın, niyə hasarın bu tayına boylanmırsan, niyə gizlənpaç oynayırsan?

-Nə gizlənpaç?

-Qaçırsan da, yəni məndən. Bizim bir kinomuz var, yəqin görmüş olarsan.

-Hansını deyirsən, sizin bütün kinolara baxmışam.

-Əhmədin kinosunu deyirəm. Məmmədin qızı Leyla Şirinin oğlu Əhmədin üzüyünü qaytarır. Buna görə Məmmədlə Şirin bir-birinin üzünə çıxa bilmirlər. Bizdə belə bir haqq-hesab olmayıb, niyə gizlənirsən məndən? Nə olub, bəlkə bir pisliyim keçib sənə? Bəlkə uşaqlar toyuğuna daş atıblar?.. Ay kişi, bu işlərin bizə dəxli yoxdur. Sən həmişə deyirdin axı, biz gor qonşusuyuq. İndi nə oldu, daşnaklar gələn kimi qonşuluq, duz-çörək yadından çıxdı? Deyirdin axı, siz türklər bizim arxalandığımız ən yaxın qonşularımızsınız. İndi nə oldu, qara pişik asqırdı?

-Bilirsən, qonşu...

-Deyərsən, bilərəm.

-İrəvandan gələnlər bizə sizinlə münasibət saxlamağa qadağa qoyublar. İndi sizinlə yaxınlıq eləmək bizim həyatımız üçün böyük təhlükədir.

-Yəni onlar bu qədər qudurublar?

-Oğlum Sergeyi də götürüb aparıblar. Heç bilmirəm başına nə gətirəcəklər. Bəlkə də əlinə yekə bir silah verib, sizin üstünüzə göndərəcəklər.

-Armen, ona görə də bu daşnakların nazıynan çox oynamayın. Yoxsa yenə aramıza düşmənçilik toxumu səpəcəklər.

-Ehhh, ay qonşu, mənim dərdim lap böyükdü. Bilirsən ki, bir qızımı türkə ərə vermişəm. İndi gəl ortalıqda çabala görüm, nə vaxt canın çıxacaq.

Mikayıl day bir söz demədi. Armenin dərdi onsuz da başından aşırdı. Bir söz də deyib, yarasının üstünə duz səpmək adamlıqdan olmazdı.

O günləri Mikayılın arvadı Şərəfin də huşu-başı özündə deyildi. Elə bil, qulağına nəsə dəymişdi. Yəqin bu işlərin qarışması kənddə qadınların da qazanında qaynamağa başlamışdı. İmkan tapıb Şərəfi toyuqlara dən verən yerdə yaxaladı.

-Ay arvad, nə olub, yaman fikirlisən? Bəlkə gəlinlə qırmısınız bir-birinizi?

-Yox, Allah eləməsin, mənim gəlinimin bu dünyada tayı-bərabəri yoxdu.

-Bəlkə də ömrümdə birinci dəfədi eşidirəm qayınana gəlindən razılıq eləyir.

Heç bu zarafat da, deyəsən, Şərəfin qulağına yetişmədi.

-Yaxşı, de görüm, nə olub, niyə mısmırığını sallamısan?

Şərəf toyuqların dən qabını divarın üstünə qoyub, narahat nəzərlərlə Mikayılın üzünə baxdı.

-Ay Mikayıl, bu işlərdən mənim heç gözüm su içmir.

Şərəfin nədən gözünün su içmədiyini bilsə də, sual dolu baxışlarla arvadını süzdü.

-Qorxuram bu işlərin axırı yaxşı olmaya.

-Hansı işlərin?

-Ürəyim elə səksəkədədir ki.

-Kim nə deyib axı?

-Görmürsən, kənd elə bil, əvvəlki kənd deyil. Hamı fikirli, hamı narahat.

-Hə, Şərəf, bu narahatçılıq məndə də var. Qorxuram erməni xəstəliyi yenə baş qaldıra.

-Qaldırsa nə olacaq ki? İt qudursa, öz pəncəsini yeyər.

-Bu dəfə növbə yəqin bizlərə çatıb. Yəqin bu dəfə də bizləri dədə-baba yurdumuzdan didərgin salacaqlar.

-Allah eləməsin. Elimizdən aralı düşsək, mən yaşaya bilmərəm. Buğkar pirinə nəzir deyirəm, bir narahatçılıq olmasın, gedib orada iki heyvan kəsərik.

-Allah qəbul eləsin...

Amma, deyəsən, o anlarda səs gedib Allahın dərgahına yetişmədi. Kənddə vəziyyət günbəgün, saatbasaat gərginləşdi. İrəvandan gələn saqqallı daşnaklar kəndin hər küçəsində, hər döngəsində meydan sulamağa başladılar. İndi burada baş saxlamaq hər adamın işi deyildi. İşi belə görən kənd camaatı qadınları, qızları, gəlinləri təhlükəsiz yerlərə göndərib, özləri kəndin müdafiəsi üçün kənddə qaldılar. Sakit, rəvan həyatları cəhənnəmə dönən bu adamlar daxilən çox az inamlı olsalar da, hər halda, son ana qədər öz evlərinin, eşiklərinin, yurd yerinin keşiyini çəkməyi özlərinə təskinlik bildilər.

Kənd boşalmışdı artıq. Min illərin oğuz yurdu olan bu yerlərdə indi ancaq erməni dilində danışıqlar eşidilirdi. Yurd yeri də bu yad danışıqdan vahiməyə düşmüşdü elə bil. Dağların üzündə, gözündə, baxışında, ağacların yarpaqlarında, dərələrin enişində, düzlərin yoxuşunda bir yetimlik, yalqızlıq duruşu sezilirdi. Dili olsaydı, bu yerlər nalə qoparıb, düşmənin üstünə hayqırar, “gedin, mən sizləri tanımıram, özümünkülər gəlsin” deyərdi.

Mikayıl İsmayılın əllərindən möhkəm-möhkəm tutub sonuncu dəfə ata ocağına boylananda, ona elə gəldi ki, ürəyinin üstünə bir

dağ boyda yük qoyublar. Bir istədi geri dönsün, həyətlərindəki ağlayan qoca çinar ağacının köksünə yapışıb, elə orada qalsın. Ermənilərin vəhşi bağırtısını eşidib, ayaqlarını saxladı, oğlunu qucaqlayıb, yurd yerinə baxa-baxa hönkür-hönkür ağladı...

Nə qədər özlərinə təskinlik və ümid versələr də, gəldikləri yerlərə hələ öyrənə bilmirdilər. Gündə birinin xəbəri gəlirdi: Hüseyn getdi, Eyvazın ürəyi partladı, Sünbül arvad ata ocağı deyə-deyə gözlərini yumdu, Məmməd baş götürüb qurd ulayan biyabanlara çəkildi... Mikayıl da dözə bilmirdi bu həsrətə. Şərəf hər gün ağlayıb, yurd yerinin havasına bayatılar, ağılar deyirdi.

İsmayıl hələ öyrənmədiyi evin bir küncünə çəkilib, evdə olanların alovuna su çiləməyə boş-boşuna cəhdlər göstərirdi.

-Vallah belə olmaz. Dünya bu ədalətsizliyə dözməz. Sən oturduğun yerdə gəlib deyələr ki, min illik dədə-baba ocağını tərk elə?! Bu dünya nə qədər nankor ola, yenə bu işi belə qoymaz. Baxarsınız, gün gələr, yerimizə, yurdumuza qaytararlar bizi.

Ürəyində ümidsiz deyirdi bu sözləri. Ancaq evdəkilərə çox ümidli görünürdü bu deyilənlər. Atası belini dikəldib, papiros çəkmək üçün pəncərənin qabağına çəkilirdi. Anası gözlərinin yaşını silib, intizarla uzaqlara boylanırdı. Özü də uzaqlara baxırdı. Elə bil, o uzaqlarda bir nicat, bir pənah yeri axtarırdı... Və o uzaqlar İsmayılı çəkib öz qoynuna apardı...

Həştərxan Rusiyanın ucqar bir vilayəti idi. Burada çoxsaylı xalqların nümayəndələri yaşayırdılar. Əvvəllər buralara öyrənmək də İsmayıl üçün asan olmadı. Yad adamlar, yad ağaclar, yad küçələr, hətta, yad buludlar, yad yağışlar ona çox uzaq göründülər. Hər yerdə doğma yurdun həsrətini qəlbində daşıdı. Çox adamların arasında tənha gördü özünü. Hələ nə yaxşı ki, dünyalar qədər sevdiyi Sevdası yanında idi. Onu kədərli, qəmli görəndə Sevda üzünə çox xoş təbəssüm verir, onunla yanbayan oturub, gələcəyin nurlu sabahlarından söhbət açırdı.

-İsmayıl, bir o uzaqlara bax.

İsmayıl boylanıb Sevdanın göstərdiyi səmtə baxırdı.

-Nə var ki oralarda?

-O gur işığı görmürsən?

-Yox.

-Doğrudan görmürsən?

-Nəsə görürəm. Ancaq nə olduğunu başa düşmürəm.

-O işıq bizim sabahlarımıza düşən işıqdır, İsmayıl. Elə xoş günlərimiz olacaq ki...

Sonra Sevda sinədolusu nəfəs alıb, bir də İsmayılın gözlərinə baxmışdı. İsmayıl bu istiliyə qızınıb ehtirasla Sevdanın üz-gözündən öpmüşdü...

Hər səhər bir yeni xəbərin müjdəçisi olurdu. Bu xəbərlər hərdən onları üzsə də, çox zaman Sevdanın göstərdiyi işıq xoş xəbər karvanının sarvanı kimi ümid yağışı yağdırırdı onların başına. Dünyaya gələn oğluna da elə Sarvan adı vermişdi. Sarvandan qabaq isə qız övladları dünyaya gəlmişdi. Və bu gəliş onların həyatını büsbütün dəyişmiş, rənginə rəng, dadına dad qatmışdı.

İsmayılın ticarət işləri də qaydasına düşürdü. Hərdən xəyallanıb Sevda İsmayıla sabahlarının nağılını da danışırdı.

-Hə, İsmayıl, de görüm, çox sevirsən məni?

-Çox sevirəm, Sevda.

-Bəs deyirlər, kişilər sevdikləri qadına onu sevdiyini deyə bilmirlər?

-Mən isə deyə bilirəm. Mən güclü kişiyəm axı.

-Onda, məni çox sevirsənsə...

-Göydən ulduz qoparım sənə?

-Yooxxxx, ulduz istəmirəm. Başqa şey istəyirəm səndən.

-Nə istəyirsən, de, yeddibaşlı divlə vuruşmalı olsam da, gedim tapım gətirim.

Sevda nazlanıb, işvəli baxışlarla İsmayılın ürəyinə od saldı.

-Mən istəyirəm imkanımız düzələn kimi Bakiya qayıdaq. Bu yerlərin adamları buz kimi soyuq gəlirlər mənə. Elə bil, heç ürəkləri yoxdu.

-Axı Bakıda ev almalıyıq.

-Pul qazanarsan, alarıq.

-Yaxşı, Sevda, ev alsaq, işlərimi qaydaya sala bilsəm, gələcəkdə sənin bu arzunu da həyata keçirərəm. Düzü, Bakını mən də çox istəyirəm. Amma ondan da çox öz kəndimizi arzulayıram. Səni bilmirəm, mən hər gecə yuxularımda kəndimizi görürəm. Həmişə də yazıq, zavallı, nisgilli görkəmdə. Bir də kəndimizə qayıtsam, dünyanın ən bəxtəvər adamı olaram, Sevda.

İkisi də birdən ah çəkdilər...

İnsan ömrü dayanmadan irəli gedən, idarə olunmayan gəmiyə bənzər. Nə qədər ağılın, dərrakənin işığı ona yol göstərsə də, çox zaman talenin çarxı insanın əlində olmaz, qismət onu ya bulanıq suların içində boğub öldürər, ya da yamyaşıl bir sahilə gətirib çıxarar. Ən cəsur, məğrur, kamillik zirvəsinə gedən insan kodlaşdırılmış ömür yüyənini əlində tutmağı bacarar. Belə insanların da sayı çoxluqda zərrə kimidir. Və bu zərrənin işığı ən xoşbəxt insanların bəxt yoluna düşər.

İsmayıl tez-tez Sevdanı götürüb Bakıya gəlirdi. Ata-analarına, bacı-qardaşlarına, qohum-əqrabalarına baş çəkib, yenə geri qayıdırdılar. Hər dəfə Bakıdan qayıdanda İsmayıl çox xəyallı olurdu. Yurd yerinin həsrəti ilə qovrulan adamlarının gözlərindəki dəruni kədər onu öz aləmindən alıb, başqa dünyaya aparırdı. Ən çox da atasının gözləri heç yadından çıxmırdı. Elə bil, bütün dünyanın qəmini, istirabını, həsrət yükünü bu gözlərin içinə yığmışdılar. Nə qədər atası ilə danışmaq istəsə də, zarafat edərək, könlünü açmağa çalışsa da, o kədəri, o qəmi gözlərdən silib apara bilmirdi.

Bir gün o qorxduğu gün gəlib yetişdi. Atasının xəstələnmək xəbərini eşitdi. Tez işlərini səhmana salıb, yenə Bakıya gəldi.

Yurd həsrəti öz işini görmüşdü. Gözlərindəki kədər bütün canına yayılıb, əzablarına əzab qatmışdı.

Ölüm anında da atasının yanında idi. Başını dizləri üstünə qoyub, soyumaqda olan alnına, üz-gözünə sığal çəkirdi. Şərəf ana isə bir küncdə dayanıb baxır, hərdən dodaqlarının arasında asta səslə nəsə pıçıldayırdı. Bu pıçıltının nə olduğunu çoxları anlamasa da, İsmayıl başa düşürdü. Ana ömür-gün yoldaşına həsrət ağıları oxuyurdu...

Atasının ölümündən bir müddət sonra anası da dünyasını dəyişdi. Əbədilik sevgilisi olan torpağa qovuşmaq onun əzablarına sərin su səpsə də, övladlar anasızlıq həsrətinə çox çətin öyrəndilər...

Həştərxanda qazandığı mövqeyə görə çoxları İsmayıla qibtə eləyirdilər. Bu yad şəhərdə bu ailəni tanıyanlar isə ailənin məhəbbət təməli üzərində qurulduğuna heyranlıqla yanaşırdılar. Sevda başdan-ayağa İsmayılın ömür-gün yoldaşı idi. Çiynini onun çiyninə söykəmişdi. Onun çətinliklərinin bir qismini öz çiyinlərində daşıyırdı. Hələ uzaq bir yola çıxanda maşını idarə etməkdə də ərinə yardımçı olurdu. Bunun üçün o, üç ay avtomobil sürmə kursuna getmişdi. Ucu-bucağı görünməyən rus çöllərində avtomobil sürən İsmayılın yorulduğunu anındaca hiss edirdi Sevda. Maşını saxlatdırıb, özü sükan arxasına keçirdi... Beləcə, ömür karvanı öz axarı ilə irəli gedirdi. Sevdanın İsmayıla göstərdiyi bir əlçim işıq da öz işini görürdü deyəsən... Amma o işığın sürətlə onlara yan aldığı bir vaxtda, sanki, qismətin dönük üzü yenə onların başının üstünü aldı...

Öz otağında oturmuşdu İsmayıl. İşləri ilə məşğul olur, tez-tez telefonda danışır, lazım olan adamlara göstərişlər, tapşırıqlar verirdi. Bu vaxt otağın qapısı astaca aralandı. Bir nəfər izn istəyib içəriyə daxil oldu. İsmayıl bu adamı tanımırdı. O isə, deyəsən, tanıyırdı İsmayılı. Maraqlı nəzərlərlə İsmayıla baxa-baxa ona tərəf gəlirdi.

-Bağışlayın, siz kimsiniz?

-Tanımadınız məni?

-Yox.

-Yaxşı baxsanız, tanıyarsınız.

İsmayıl onu tanıya bilməsə də, dalağı sancdı. Gələn adamın o millətdən olduğu hiss olunurdu. Həm görkəmindən, həm də danışığından.

-Nə yaman unutqan olursunuz siz.

-Hə, orasını düz deyirsiniz. Unutqan olmasaydıq, başımıza gələn müsibətləri tez yadımızdan çıxarmazdıq.

Gələn adam işin qəlizləşdiyini görüb, tez İsmayıla yanaşdı. Onu qucaqlayıb, bağrına basdı.

-Gor qonşunu tanımadınmı? Armenin oğlu Sergeyi nə tez yaddaşından sildin?

-Hə, indi tanıdım. Hardan tapdın məni? Sən ki, daşnaklara qoşulub, onların əmrini icra edirdin.

-Yox, İsmayıl, məssəb haqqı düz demirsən. Onlar məni yoldan çıxarmaq istədilər, amma mən səhvimi tez anladım, qayıtdım haqq yoluna.

-O haqq dediyin yol nə idi ki?

-Başa düşdüm ki, bizi aldadıb, beynimizi yeyiblər. Vallah, kirvə, adam balası kimi yaşayırdıq. Mehriban, səmimi, bir-birimizə yana-yana. Allah baiskarların evini yıxsın. İndi nə xeyir qalıb biz tərəflərdə, nə də bərəkət. Elə bil, hər şey sizin gedişinizdən sonra göyə çəkilib.

-Eybi yox, Sergey, qayıdıb gələrik yurd-yuvamıza, yenə hər şey öz yerini tutar.

-İnşallah. Allah ağzından eşitsin.

-Sən Allah bunları ürəkdən deyirsən, yoxsa yenə ermənilik edirsən?

-Məssəb haqqı, ürəkdən deyirəm. Heç bir ermənilik-zad eləmirəm.

Bir istədi Sergeyi otaqdan qovsun, amma birtəhər səbrini cilovlayıb, onu axıra qədər dinləmək qərarına gəldi.

-Atan, anan sağdırlarmı?

-Yox, İsmayıl, ikisi də rəhmətə getdilər. Bu hadisələr onlara çox pis təsir elədi.

-Bizimkilərdən heç kənddə qalan oldumu?

-Bir Qoca kişi qalmışdı. Axı onun kürəkəni erməni idi. O da dünyasını dəyişdi.

Söhbətin sahilə yan aldığı vaxtda İsmayılın telefonuna zəng gəldi. Qızı Sima idi, çox həyəcanlı danışırdı.

-Ata, evə nə qədər zəng edirəm, ana telefonu qaldırmır. Çox nigaran qalmışam.

-Heç nə olmaz. Yəqin nəsə almaq üçün mağazaya düşüb. İndi öyrənib, sənə deyərəm.

Qızına belə desə də, əslində, özü də nigaran qaldı. Axı ona zəng edən kimi telefonun dəstəyini qaldırırdı. Ən çox da Bakıdan zəng edən qızına görə dəstəyi tez götürürdü ki, qızı nigaran qalmasın.

İsmayıl keçmiş erməni qonşusu ilə danışa-danışa evə bir neçə dəfə zəng elədi. Telefona cavab verən olmadı. Götürüb cib telefonu ilə oğlunu yığdı.

-Oğlum, zəng edirəm, anan cavab vermir. Evə get, ondan nigaran qalmışam.

Yarım saatdan sonra ona zəng edən oğlunun həyəcanlı səsini eşidəndə, ilk ağlına gələn bu oldu ki, həyat yoldaşının başına nə isə bir hadisə gəlib. İşləri başqasına tapşırıb tez evə yollandı.

Evə çatanda həyətdə bir neçə təcili yardım maşını gördü. Yuxarıya necə qalxdığını bilmədi. Sevda yatağında huşsuz vəziyyətdə uzanmışdı. Həkimlər ona süni nəfəs verir, bir neçə iynəni bir-birinə qataraq, damarına yeridirdilər.

İsmayıl key-key gah Sevdanın ağarmış sifətinə, gah həkimlərə, gah da oğluna baxır, nələrin baş verdiyini öyrənmək üçün onların danışmasını gözləyirdi. Sakitliyin uzun çəkdiyini görəndə dözə bilmədi, Sarvanı qucaqlayıb, bağrına basdı.

-Nə oldu, anana, oğlum?

Sarvan hönkürüb ağladı.

Həkimlər onları otaqdan çıxarıb, sakitlik yaratmalarını tələb elədilər.

Bu qəfil gələn gözlənilməz hadisə İsmayıla olduqca pis təsir elədi. Bir də onda, öz ata-baba yurdlarını tərk edəndə belə ağır sarsıntı keçirmişdi. Qəribəydi axı, birdən-birə nə oldu bu qıza? Bu ki, ömründə bir ciddi xəstəlik keçirməmişdi. Hələ hərdən İsmayıl onunla zarafat edəndə, deyirdi, vallah, sənin sağlamlığına mən heyran qalıram. Belə getsə, sən qurdunan qiyamətə qalacaqsan. Onda Sevda İsmayılın zarafatına zarafatla cavab verib: “ Yaxşı, İsmayıl, çox demə, gözün dəyər mənə, boğaram səni” deyirdi.

Sima ailə həyatı quran gün açılmış bənovşəyə bənzəyirdi Sevda. Bir də göydə bəxtəvər-bəxtəvər süzən göyərçinə oxşayırdı o gecə. Hər kəsin gözü Sevdada idi. Hamı ananın xoş halından riqqətə gəlir, onun yerişindən, duruşundan xoşbəxtlik yağdığını görürdülər.

Həkimlər Sevdanın xəstəxanaya götürülməsinin vacib olduğunu bildirdilər. Düz bir ay xəstəxanada yatsa da, heç bir irəliləyiş nəzərə çarpmırdı. Beyinlə daxili orqanların əlaqəsinin kəsilməsi onun eşitmə, hissetmə, duyma hisslərini iflic eləmişdi. İndi Sevda ancaq adamın üzünə baxır və heç nəyə heç bir reaksiya göstərmirdi. Əlacı hər şeydən üzülən İsmayıl kim nə deyirdi onu da eləyirdi: baxıcı yanına gedib baxdırırdı, pirlərə nəzir-niyaz deyirdi, türkəçarə həkimlərinin qapılarını döyməkdən yorulmurdu. Ancaq Sevda əvvəlki Sevdalığına qayıtmırdı ki, qayıtmırdı.

Bircə əlacı möcüzəyə qalmışdı. Bir böyük sevincdən silkələnib, özünə qayıdacağını, yenə əvvəlki Sevda olacağını istəyir və bunun üçün İsmayıl Sarvanın toy gününü gözləyirdi...

Həyatı qədər sevdiyi Sevdanın bu halı onu çox üzürdü. Onu Bakıya, yenicə aldığı geniş otaqlı mənzilinə gətirmişdi. Bir müddət özü baxdı ona, heç kimə etibar eləmədi. Sonra işinə görə məcbur olub Həştərxana qayıtdı. Sevdanı isə bacısı Zoyaya tapşırdı. Zoya bütün gücünü toplasa da, çox çətinliklə baxırdı ona. Bir tərəfdən canının ağırlığı, o biri tərəfdən nə istədiyini ifadə edə bilməməsi Zoyanı üzür, əldən salırdı. Fiziki çətinlikdən çox mənəvi sıxıntı əzab verirdi Zoyaya.

Bir müddətdən sonra İsmayıl yenə qayıdıb gəldi. Bütün günü evdə, Sevdanın yanında oturur, lal-dinməz onun sınıq gözlərinə baxır, imkan olanda ağlayıb, ürəyini boşaldırdı.

Sima hərdən məcal tapıb, anasını yoluxmağa gəlirdi. Qızının nigaran baxışlarını görəndə İsmayıl daha da kövrəlir, dünya gözlərində bir qaranlıq zindana dönürdü. Bu anlarda qızına təskinlik verirdi, “ Darıxma, qızım, bir azdan anan əvvəlki kimi sapsağlam olacaq.” deyir, sanki, bu deyişlə qızından çox özünə ümid verirdi. Elə istəyirdi ki, Sevdanın əvvəlki halına qayıtmasını. Varı, dövlətləri olmayaydı, quru pendirə, çörəyə möhtac qalaydılar, sınıq-salxaq bir daxmada yaşayaydılar, təki Sevda deyib-gülən, danışan, övladlarının gələcək taleləri haqqında şipşirin nağıllar uydurub, bu nağıllardan zövq alan, qohuma, qonşuya, dost-tanışa xoş sifət göstərən əvvəlki Sevda olaydı. O günlərin həsrəti ilə yaşayırdı İsmayıl və həmin günlərin yenidən qayıdacağına ümid bəsləyə-bəsləyə sabahlarını açırdı.

Ürəyi bir şey istəyəndə, acanda, ya susayanda üzünə-gözünə qəribə ifadə verib, xırda-xırda ağlamsınırdı. İsmayıl o anda anlayırdı Sevdanın nə istədiyini. Tezcə onun istəyini yerinə yetirir, sonra əzizləyə-əzizləyə yenə yatağına uzadırdı.

Göz yaşının hər damlası şehdimi?

Xəzərimin gilavarı mehdimi?

Çəkdiklərin ağrıdımı, ehdimi?

Ağlama, Sevdam,

ağlama, Sevdam,

ağlama...

Şöhrətli müğənninin bu şərqisini İsmayıl bütün günü ürəyində oxuyurdu. Oxumurdu, ağı deyirdi, sızıldayırdı, elə bil. Bu şərqinin üzərində gəzişdikcə yarasının üstünə düz səpirdi sanki və həm də bu şərqinin avazından təskinlik tapırdı özünə. Sanki, bunu Sevda da hiss edirdi. Düz İsmayılın gözlərinin içinə baxır, nə isə danışmaq, demək, İsmayıla çatdırmaq istəyirdi.

-Nə demək istəyirsən, Sevda?

Sevda gözlərini qırpmadan baxırdı.

-Bəlkə danışasan, bəlkə dinəsən?

Sevda dinmirdi.

-Səsin üçün o qədər qəribsəmişəm ki, Sevda...

Üzünün ifadəsi dəyişmirdi Sevdanın.

-O səsin üçün ki, mənə bir dünya sevinc bəxş edirdi...

Yenə əvvəlki tək baxırdı.

-O səsin üçün ki, mən harda olsam, evə çağırırdı məni...

Dərbənmirdi Sevda.

-O səsin ki, mənim üçün bir xoş bayatı, uşaqlarımız üçün layla idi...

Duyğusuz-duyğusuz ona tərəf baxırdı.

-O səsinə ömrümün bir payını verərəm, Sevda.

Özü də hiss eləmədən gözlərinin yaşı yanaqlarını yandırır, yanaqlarından axıb, sinəsinə tökülürdü.

-Mənim bu göz yaşlarıma yazığın gəlsin. Bir söz de mənə, elə bir söz de ki, onun əlindən tutum, ayağa qalxım, irəli gedim, uşaqlarımızı işığı bol olan sabahlara aparım.

Yaxına gəldi. Sevdanın şümal saçlarına sığal çəkdi. Üzündən-gözündən öpdü...

Zoyanın çox əziyyət çəkdiyini görürdü. Ona görə Sevdanı Zoyanın ümidinə qoyub gedə bilmirdi. Bir tərəfdən də çağırırdılar onu. Ara vermədən zənglər edir, onsuz işlərin getmədiyini deyirdilər. Soraqlaşıb bir qadın tapdı. Belə xəstələrlə rəftar eləmək bacarığını görüb, Sevdanı ona tapşırdı, ürəyinin bir yanı evdə qalsa da, çıxıb yenə Həştərxana getdi...

-İsmayıl, burda neynirsən, qardaş, bayaqdan səni axtarırıq.

Qardaşı Mayılın səsindən İsmayıl diksinib, ayağa qalxdı.

-Nə olub, qardaş, şad xəbər var?

-Bundan da şad xəbər?.. Bu gün sənin həyatında ən xoş günlərdən biridir...

İsmayıl üz-gözünü ovuşdurub, özünə gəlməyə çalışdı. İti addımlarla irəli yeridi. Pilləkənləri necə çıxdığını bilmədi. Toy zalına daxil olanda gözləri qeyri-ixtiyari Sevdaya tərəf baxdı... Sevdanın da gözləri onu axtarırdı...

Ümidi puça çıxan İsmayıl, nədənsə, Sevdanın bu görkəmini öz yurdlarını tərk edən vaxtı gözünə sataşan bənövşəyə bənzətdi. O bənövşəyə ki, qırılıb, boynu çiynindən asılı qalmışdı. Onda elə yazığı gəlmişdi ki, o qırılmış bənövşəyə. İndi də nəyə görəsə, Sevdaya yazığı gəldi. Həm də özünə... Güc-bəla ilə göz yaşlarını saxladı. Sevdaya tərəf gəldi. Toy əhlinə məhəl qoymadan, qırılmış boynubükük bənövşəsini qucaqlayıb bağrına basdı, üzünü, gözünü, yanaqlarını isti öpüşlərə qərq elədi.

Toya gələnlər bu mənzərədən sarsılıb qalmışdılar... Hələ uzun illər, bəlkə də, ömürləri boyu bu mənzərə onların gözləri önündən getməyəcəkdi... Musiqinin sədası da kəsilmişdi... Hər şey, hər yan donmuşdu, elə bil...

Və bayırda həzin-həzin yağış yağırdı...

# Yollarda qovrulan həsrət

Gəlin oyandı. Yerinin içində xırda-xırda gərnəşdi. Elə yatağından pərdəni aralayıb eşiyə baxdı. Günəş dikəlib dağların üstünə qədər gəlmişdi. Oradan kəndə baxıb, günəş təbəssümü ilə gülümsəyirdi. “Vay-vay, yuxuya qalmışam, toyuqlar acından qırıldı.” Qalxıb nimdaş paltarını üstünə atdı. Bayıra çıxdı. Ayaqyoluna tərəf yeridi. Nə düşündüsə, ora getməkdən vaz keçib, toyuqların hininə tərəf gəldi. Ürəyinin döyüntüsü az qala qulaqlarına çatırdı. Tez-tələsik qapını açdı, içəriyə boylandı. Şükür, toyuqlar yerindəydilər. Qapıdan toyuqları eşiyə ötürüb, qablarına dən tökdü.

O gündən səksəkə qalmışdı canında. Səhər-səhər hinin qapısını açanda toyuqlarının murdar olduğunu görmüşdü. On iki toyuqdan üçü özlərini yırtıcının caynağından qoruya bilmişdilər. Gəlinin huşu bir anda başından dağılmışdı elə bil. Bayıra çıxıb, həyət boyunca oraya, buraya boylanmış, divarların dibinə, ağacların altına baxmış, elə bil, bununla toyuqlarının qatilini axtararaq, ondan qisas alıb, ürəyini soyutmağa çalışmışdı. Xəbəri bir anda küləklər aparıb, kənd meydanında oturan kişilərə çatdırmışdı. Çolaq Qəni xəbəri eşidəndə bir ayağını sürüyə-sürüyə Gəlinin yanına gəlmişdi.

-Gəlin bacı.

-Ay can.

-Nə olub belə, toyuqlarını safsar yeyib?

-Onu lənətə gəlsin, yesəydi, bundan yaxşı idi, hamısını murdar eləyib gedib.

-Əşi, fikir eləmə, dəyən mala, heyvana dəysin... Bilirsən niyə gəlmişəm?

-Yox, Qəni, deyərsən bilərəm.

-Deyirəm, o murdar olmuş toyuqları atma, ver mənə.

-Neynirsən onları?

-Aparacam stansiyaya, verəcəm orda qalan piyaniskalar yesinlər.

Gəlin nə düşünmüşdüsə, keçib Çolaq Qəninin qarşısında dimdik dayanmışdı.

-Yox, ay Qəni, buna görə gəlmisənsə, çox nahaq gəlmisən. Mən bu toyuqlarımı torpağın altında basdıraram, ancaq piyaniskalara vermərəm. Mənim toyuqlarım piyaniska malı deyil.

Çolaq Qəni üzr istəyib, suyu süzülə-süzülə geri dönmüşdü. Beş-on metr həyətdən aralanmışdı ki, Gəlinin səsini eşidib, ayaq saxlamışdı.

-Nə dedin, Gəlin bacı, eşitmədim?

-Deyirəm, Sürəyya xalaqızına xəbər elə, mənə beş-altı toyuq göndərsin. Pulunu göndərərəm gələr.

-Yaxşı, deyərəm.

-Getmə, dayan, bir də dükançı Akifə denə, mənə iki kisə sement yollasın. Hini bərkitməsəm, safsar amanımı kəsəcək.

Gəlin bilirdi Çolaq Qəni murdar olmuş toyuqları niyə istəyir. Aparıb stansiyada avaralıq eləyən sərxoş kişilərə verəcək və onlardan üç-dörd manat pul alacaqdı. Buna görə ürəyi nə qədər yuxa olsa da, ölmüş toyuqlarını Qəniyə verə bilməzdi...

Qızdırmalı adamlar kimi arvad nə edəcəyini bilmirdi. Həyət boyu dolanır, hər burta-bucağa zəif gözləri ilə nəzər yetirir, sonra da yolun qənşərinə gəlib, uzanıb gedən yollara baxırdı...

Ayaqyolundan qayıdanda bir anlıq gözü bayaq kəndə baxıb gülümsəyən günəşi gördü. Yenə bayaqkı kimi gülümsəyirdi. Tez nəzərlərini göylərdən çəkib, ağacların arasında gizlətdi. Ona elə gəldi ki, yuxuya qaldığına görə günəş ona baxıb gülümsəyir. Axı heç zaman səhərlər yuxudan gec oyanmamışdı. Səhərin alatoranında namazını qılıb, daha yatağına girməzdi. Bir müddət

namaz üstə dua edər, həyət-bacanı gəzib-dolanar, toyuq-cücəsinə baxar, sonra da tənha nar ağacının altına çəkilib, həsrətdən qovrulan yollara baxardı.

Həsrətdən qovrulan yollara...

O yollarda qalan həsrətindən cinar boyda bir nisgil cücərmişdi. Bu çinar boyda nisgili onun özündən başqa bir kimsə görə bilmirdi. O nisgil çinarı onun gözlərinin giləsindəydi. Və bir başqası o pünhan gilələrə baş vurub, o nisgili görəmməzdi.

Yetmiş ildi boy verirdi o çinar. Nə vaxt çiçək açıb, Gəlinin gözlərinə sevinc təbəssümü ələyəcəkdi, orasını bilmirdi.

Bilmirdi Gəlin arvad... Yaşı doxsanı haqlasa da hələ Gəlin deyirdilər ona. Əslində Gülbacı idi adı. İyirmi yaşına qədər hamı bu adla tanıyırdı onu. Sonra dönüb Gəlin oldu. İndi uşaq da, böyük də, arvad da, qız da ona Gəlin bacı deyirdilər. Bu ad bir tərəfdən onu incidirdi. Qəlbinə çalın-çarpaz yaralar vururdu. O bir yandan da... Bu adın işığı yaşadırdı onu. Bu ad ümid verirdi ona. Keçmişini yaddaşında bəsləyib, sabahın nura qərq olacağını gözləyirdi.

Gözləyirdi Gəlin bacı...

Ümidi isə göyərmirdi ki, göyərmirdi.

Ümidinin göyərmək arzusu ilə qovrula-qovrula yorulan yollara baxırdı. Baxmırdı, hərdən qəlbində fəryad qoparıb, dəli-dəli yalvarırdı yollara. Ya yollar onu eşitmir, ya da həsrətində olduğu adama gedib çatmırdı naləsi...

Bəybura ona vurulub qəlbinə od salanda hələ Gülbacının iyirmi yaşı olmamışdı. Bulaq başından səhəngini su ilə doldurub, evlərinə doğru gələndə, arxasınca sürünən adamın istisi onu basır, rahatlığını, nizamını əlindən alırdı. Bilirdi, Bəyburanın onu sevdiyini. Amma heç kəsə demirdi bunu... Bir də baxıb gördü ki, kənddə hamı bu sevdadan danışır. Və bu sevdanın sədası gəlib Gülbacının anasına da çatmışdı.

-Qızım, Məhəmmədin oğlu istəyir səni?

Gülbacı qızarıb başını aşağı salmışdı.

-Nə olar, bir qız bir oğlanındır. Tayfaları da pis tayfa deyil. Göydaşlıda üç rəğbətli tayfa olsa, biri Məhəmmədgilin tayfasıdır.

Gülbacı ürəklənib, başını yuxarı qaldırmışdı.

Üç gündən sonra nişan gətirdilər Gülbacıya. Bir ay ötməmiş tarla, qavalla toy çalıb, gəlin apardılar onu... Toydan iki ay ötməmiş müharibə başlandı. Bəyburanı hərbi komissarlığa çağıranda, arvadının bətnində uşağının olduğunu da hələ bilmirdi.

-Gəlin, gedirəm.

-Gələn günlərin olsun.

-Gələcəm, bir axşam qayıdıb yanında olacağam.

-Gözləyəcəyəm səni, mənim igidim. Səni gətirən yollara həsrətlə boylanacağam...

Qatar Bəyburanı qoynuna alıb, uzaq və ağır səfərə aparanda Gülbacı sonuncu dəfə boylanıb igidinin arxasınca baxdı. Bəybura da adamların arasında öz yarını aradı. Və yarının həsrət dolu baxışlarını görəndə, gizlincə köks ötürüb, ağır addımlarla bardura tərəf yeridi...

Qız övladı dünyaya gələndə çox sevinirdi Gülbacı. Elə istəyirdi ki, bu anlarda Bəyburanın yanında olmasını. Bəyburanın əvəzinə də qoxlayırdı qızını. Ərinə məktub yazanda bu xəbəri sevinc göz yaşları ilə ona da çatdırmışdı. Bir də qızına hansı adın verilməsini xəbər almışdı ondan. Amma xəbər əvəzinə başqa bir məktub gətirmişdilər qapılarına. Bəyburanın müharibədə itkin düşdüyünü yazırdılar məktubda. Bu xəbərdən, elə bil, dünyası qaraldı Gülbacının. Üç gün, beş gün, bir həftə evin bir küncünə qapılıb, kədəri ilə baş-başa qaldı. Axırda qaynanası dözmədi, onun yanına gəlib, qəmli göz yaşlarını sildi.

-Belə olmaz, gəlin, Allaha xoş getməz, sənin ərindisə, mənim bətnimdən gələn oğlumdur. Sənin kədərindən də ağırdı mənim kədərim. Ancaq Tanrıdan üzmə ümidini. Bədgüman olma. Mən

gözləyirəm oğlumu. Bir səhər, ya bir axşam qayıdıb gələr balam. Övladını bağrına basar, böyüdər, ərsəyə çatdırar...

Belə deyirdi qaynana, belə ümid verirdi gəlininə. Amma öz ümidi içəridən qırılırdı deyəsən. Bir-iki ay çəkməmiş o ümidin teli tam üzüldü qadının qəlbindən və əlvida dedi bu dünyaya.

Sonra bir gözündə dünya işığı olmayan qaynı yanaşdı ona.

-Gəlin, səni belə qəmli görəndə, o biri gözümə də qaranlıq çökür. Gəl izin ver, qızımıza ad qoyaq, sonra yollara boylanıb, atasını gözləyək.

-Yox, qardaş, qızımın adını Bəybura gəlib qoyacaq.

Daha bir kimsə dillənmədi. Adsız böyüməyə başladı qızcığaz. Elə adsız da dünyanı tərk elədi. Qara qızdırma gəlib apardı qızı. Bir daha dünyasına zülmət qaranlıq çökdü Gülbacının.

Və bir səhər ümidinə su səpib, belini möhkəm bağladı. Tənha nar ağacının altında göyərib yollara baxdı, baxdı...

İgidinin itkin düşməsinə, ya da hansısa düşmən gülləsinin güdazına qurban getdiyinə inanmırdı, inanmağı gəlmirdi. Axı o, necə bu dünyadan köçüb gedə bilərdi? Bu yaşında Gülbacını kimin ümidinə buraxıb, əlvida deyə bilərdi bu dünyaya? Aylı gecələrdə Bəybura ilə baş-başa qalanda, elə möhkəm-möhkəm onu sinəsinə sıxırdı ki.

-Sən mənim qaranlıq dünyamın günəşisən. Sən mənim həyatımın özüsən, dilimin sözüsən.

-Ay Allah, bu sözləri hardan bilirsən? Mən səni sevəndə, elə bilirdim heç ağzında dilin yoxdur.

-Elə düz düşünürdün. Məni danışdıran sənə olan sonsuz məhəbbətimdir. Məni bu həyatda heç zaman tənha buraxıb getmə, Bəybura.

-Heç yana getmərəm. Ölüncə yanındayam sənin.

Bu sevgi və ehtiras dolu sözlərdən göydəki ay da təbəssümlənib, buludu üzünə yaşmaq kimi çəkirdi.

İndi o sirli gecələrin sevgi dolu sözünü, söhbətini yadına salanda, bir yandan yanıb qovrulur, bir yandan da igidinin sözlərinə inanıb, bir gün geri dönəcəyinə, həmişəlik yanında olacağına inanırdı.

Bu inam yaşadırdı onu. Bu inam səhərlər onu lap tez, alaqaranlıqda yuxudan durmağa vadar edirdi. Bir də gördüyü yuxular onun yatağına qor kimi dolur, onu yatmağa qoymurdu. Ağ yuxularda igidi tez-tez qayıdıb onun yanına gəlirdi. Yenə aylı gecələrdə bir olur, sirli-sehrli məhəbbət nağılı danışa-danışa yuxuya gedirdilər. Bu yuxular ona nə qədər xoş görünsə də, başqa bir tərəfdən o yuxuların tərsinə yozumu onun narahat ömrünə bir az da nahamarlıq gətirirdi...

Yenə tənha nar ağacının altında oturmuşdu. Yenə yollara baxırdı. Birdən... Uzaqdan əsgər paltarında bir nəfərin ona tərəf gəldiyini gördü. Bir anda canının hər yanından bir üşütmə gəlib keçdi. Sonra istilik, hərarət basdı canını. Özü də hiss eləmədən asta, rəvan addımlarla o əsgər paltarlı adamın gəldiyi yola tərəf yeridi. İgidi qayıdıb gəlirdimi? Hə, odur, Bəyburadır, başqası ola bilməz. Axı söz vermişdi ona, demişdi, ömrümün axırına qədər yanında olacağam. Hə... odur... yerişindən, duruşundan Bəyburalıq tökülürdü o gələnin. Az qala qışqırıb, bir anda aləmə səs salmaq istədi. İstədi hamı eşitsin onun səsini, hamı bilsin Bəyburanın geri döndüyünü. “Eşidirsinizmi məni, deyirdim axı qayıdıb gələcək mənim igidim, tək qoymayacaq məni, talenin ümidinə buraxıb getməyəcək. İnanmırdınız mənə. Gözlərinizdən, baxışınızdan duyurdum bunu. Gördünüzmü, qayıtdı mənim Bəyburam.”

Əsgər paltarı geyinmiş adam onun yanından laqeyd-laqeyd ötüb keçəndə, elə bil, ürəyində bir tel qırılıb, içinə düşdü. Ayaqları sözünə baxmadı. Güclə divardan yapışıb, sürünə-sürünə yenə həyətlərinə qayıdıb gəldi. Yenə tənha nar ağacının altında oturdu. Ancaq bu dəfə uzanıb gedən yollara tərəf baxmadı. Baxammadı. Elə bil, küsdü o yollardan. O yolların onunla qəribə bir oyun oynamasından incidi. Küskün-küskün nəzərlərini şehli torpağın üzərinə dikib, qəlbində ruhu yerindən oynadan bir nalə çəkdi.

Əzizim, ayrılıqdan,
Həsrətdən, ayrılıqdan.
Ölümdən qorxmuram ey...
Qorxuram ayrılıqdan.

Onun bir gözlü köhnə evinin qənşərində qaynı ikigözlü ev tikmişdi özünə. Bir evli kimi yaşayırdılar qaynı, qaynı arvadı, onların uşaqları ilə. Gündüzlər bir həyətdə gəzib dolanır, bir süfrə arxasında yeməklərini yeyir, yalnız yatandan-yatana çəkilib öz komalarına gedirdilər. Bir az yekələndən sonra qaynının qızı Nazlıcan onu gecələr də tək buraxmadı. Gəlib onun yanında qaldı.

Sanki qismət insan dözümünün həddini, sərhəddini yoxlayırdı bu ailənin timsalında. Bir gecənin qara əzrayılı qəfildən özünü yetirib, Gülbacının qaynını da apardı.

-Gəlin, bu nə müsibətdi, bizim başımıza gəlir?

Qaynı arvadı Gülbacının boynunu qucub, hönkür-hönkür ağlayır, naləsi ilə göydə uçan quşların da qanad çalmasını ləngidirdi.

-Bəsdi daha, ağlama, bundan sonra ruhumuza dözüm bağlayıb, yaşamalıyıq...

İstədi ardını gətirsin, desin, uzanan yollardan ümid göyərib, arzu bitənə qədər səbirli olmalıyıq. Amma demədi. Saxladı özünü. Özü isə oğrun-oğrun qaynı arvadının çiyni üstündən boynu bükülü qalmış yollara tərəf baxdı...

Kənddə indi hamı ona Gəlin bacı deyirdi. Sonradan gələnlər onun əsil adının nə olduğunu da bilmirdilər. Qəribəsi o idi ki, yaşlı adamların çoxu da onun köklü adını unutmuşdular. Hamı Gəlin bacı deyə-deyə onu ocağının başına çəkir, xeyir işdə, şər işdə ön sırada yer verirdilər. Bu etimadı özü qazanmışdı Gəlin bacının. Lap cavan çağlarından bir telini qara, bir telini ağ hörən bu qadın öz isti qəlbi ilə bütün kəndin məhəbbətini qazanmışdı. O qədər məhrəm, o qədər doğma münasibət saxlayırdı ki, adamlar onu bir

gün görməyəndə, darıxıb, onu gətirən yollara boylanırdılar. Və o, gəlib çıxırdı...

O, isə gəlmirdi... Yollara baxmaqdan gözlərində həsrət göyərsə də, gəlib çıxmırdı Bəybura...

Neçə dəfə qapılarına elçi saldılar. Onun hələ cavan olduğunu, bir ocağın çırağını yandırmağa, oğul-uşaq sahibi olmağa layiq olduğuna inandırmaq istədilər onu. O, isə, elə bil, deyilənləri eşitmir, bir nəfər də olsun kişini gözü görmür, ancaq, ancaq öz yarını gözləyirdi. Və yuxularında tez-tez Bəybura ilə dərdləşir, onu hərdən qınayır, ondan inciyir, küsür, sonra yenə nazlana-nazlana onunla barışırdı.

-Niyə gəlmirsən axı?

-Hələ işlərim var bir az.

-Bəlkə sevdiyin var oralarda?

-Nə danışırsan?

-Bəlkə bir sarı rus qızı...

-Danışma, sən Allah.

-Bəs onda niyə gözlərimi yollarda qoyursan?

-Bilirsən, gözəlim, gəlmək istəyirəm, ancaq gələ bilmirəm. Elə bil, ayaqlarıma qara daş bağlayıblar.

-Məni çox sevsən, o ağır daşları bir yana atıb, yanıma gələ bilərsən. Axı sevginin qüdrəti qara daşları da əridə bilir.

-Yəni küsmüsən məndən?

-Çox küsmüşəm. Bəzən elə qınayıram ki, səni. Əlim, ayağım bir yerə çatmayanda, özümü söyürəm, bir də Hitleri.

-Hitleri nə qədər söyürsən, söy, ancaq özünü söymə... Mənə bax.

-Baxmıram.

-Sən Allah gözlərimin içinə bax. Gör gözlərimin içində nə boyda sevgi var sənə.

Yuxularının sonunda Bəyburanın onu qucaqlamasını istəmirdi. Bunun ayrılığa işarə olduğuna inanırdı. Amma hər dəfə də yuxularının sonunda Bəybura onu qucaqlayıb öpür, sonra ayrılıb gedirdi...

İnsan şirin arzularla yaşasa da, tale onu istədiyi səmtə aparır. Çox zaman da arzular ancaq arzu olaraq qalır, həyata keçmir. Gəlinin də arzuları göyərmirdi. Bəyburası qayıdıb gəlmirdi. O biri yandan qaynının arvadı da dünyasını dəyişmişdi. Ona doğma bacı qədər yaxın olan bu xanımın vaxtsız dünyadan gedişi Gəlinin ömrünə bir başqa kədər də qatmışdı. Qaynının qızlarını bundan sonra yalnız özü böyüdürdü. Əlindən gələni edir, gecəsini gündüzünə qatır, yorulmadan çalışırdı ki, bu qızlar ac-susuz qalmasınlar, başqa uşaqların yanında boynubükük görünməsinlər. Qızlar da öz doğma anaları kimi bağlanmışdılar ona. Qızların bir buğda boyu boy atdıqlarını görəndə çox sevinirdi Gəlin. Onları öpdükcə öpür, tumar çəkir, tellərini darayıb, hörüklərini çiyinlərinə atırdı. Sonra da bir tənha küncə çəkilib, həzin-həzin ağlayırdı. Arzusu bu qızları halal süd yemiş ərənlərə ərə verərək, onları ailəli, uşaqlı görəndən sonra qalan ömrünü, bir az da olsa, rahat yaşamaq idi.

Gününün bir hissəsini tənha nar ağacının altında yollara baxa-baxa keçirirdi. İki qərinəyə yaxın vaxt ötürdü o zamandan. Bəyburanın onu qoyub getdiyi vaxtdan. Yollar elə həmən yollar idi. Bir dəyişən o idi ki, yolların kənarında həsrət adlı qollu-budaqlı ağaclar bitmişdi. Və o ağacları Gəlindən başqa bir kimsə görmürdü.

Qaynı qızlarını da çoxdan ər ocağına yola salmışdı. İndi onların qəşəng-qəşəng uşaqları, evləri, isti ocaqları var idi. Qızlar tez-tez Gəlin anaya baş çəkməyə gəlirdilər. Onların uşaqları da Gəlin ananı intizarda qoymurdular. Ara-sıra onun yanına gəlir, kədərli gözlərindən öpüb oxşayır, iş-gücünə əl yetirib, sonra çıxıb gedirdilər.

Kəndin bütün uşaqları Gəlinə bağlanmışdılar. Onu o qədər sevirdilər ki, iki gün görməyəndə, bir bəhanə tapıb, onun yanına gəlirdilər. Bütün kəndin anasıydı, elə bil, bu qadın. Sevgi boyda

ürəyi Göydaşlıya sığışmır, ağaclar onun məhəbbətindən çiçək açırdılar.

Təkcə yollar ona doğmalıq eləmirdi. Onun igidini gətirib ona yetirmirdilər. O, isə hələ də, ümidlə yollara baxırdı. Gözlərinin işığı taqətdən düşsə də, həsrəti yollarda qovrulsa da, Gəlin bezib usanmır, igidinin gələcəyini gözləyirdi.

Bir axşam yenə yuxusunda gördü onu. Bu dəfə bambaşqa bir görkəmdə, duruşdaydı Bəybura. Və bu qəribə görkəmində, duruşunda elə hey gülümsəyir, “Gümə axşamı gələcəyəm” deyirdi. Yuxudan çəkilib getdikcə, səsi əks-səda verir, dağları, daşları titrədir, kəndi lərzəyə gətirirdi.

Gümə axşamı yatağından daha erkən qalxdı Gəlin. Üz-gözünü sərin su ilə yudu, güzgünün qarşısına keçib, işığı azalmış gözləri ilə özünə baxdı. Sığal çəkdi tellərinə. Hörüklərini ortadan ayırıb, çiyinlərinə atdı. Utancaq nəzərlərlə bir də özünə baxdı. Tənha nar ağacının altına gəldi. Gözlədi. Yollara baxdıqca baxdı. Bir də özünə gəlib, qaranlığın düşdüyünü görəndə, ümidi içindən söndü, elə bil. Yerində zülmət bir qaranlıq qaldı. Ayaqlarını sürüyə-sürüyə içəriyə gəldi. Başını yumşaq balıncın üstünə qoyub, gözlərini yumdu...

Bütün kənd Gəlin bacının, Gəlin ananın ölümünə ağlayırdı. Kənd yetim qalmışdı elə bil. Ən çox ağlayan isə yollar idi. Kənarlarında həsrət ağacları bitən yollar... Bir də tənha nar ağacı.



Rasim Gənzəli 1962-ci il fevral ayının 9-da Ordubad rayonunun Gənzə kəndində anadan olub. Uşaqlıqdan əlildir, yeriyə bilmir.

Pələng ilindən, Dolça bürcündəndir.

Evdə fərdi surətdə orta və ali təhsil alıb.

2000-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

BMT-nin Avropa ordeninə, Türk Ədəbiyyatına Xidmət ödülünə, "Vətən", "Yaddaş", "Qızıl Qələm" mükafatlarına və Prezident mükafatına layiq görülüb.

Ailəlidir. Həyat yoldaşı Kamilə Dönməz şairədir, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.